Azərbaycan şərqşünaslığı / №1 (13), 2015

BU SAYIMIZDA

AMEA-70

Elm tariximizdə Azərbaycan Milli Elmlər Akademiyası... 2

Çanaqqala-100

Çanaqqala zəfərinin 100-illiyinə həsr olunmuş konfrans keçirilib.. 13

Dünyamalı Vəliyev. Çanaqqala zəfərinin geosiyasi əhəmiyyəti.....15

İradə Bağırova. Birinci dünya müharibəsində böyük dövlətlərin Şərq siyasəti.....20

Səriyyə Gündoğdu. Çanaqqala savaşının M.Akif Ərsoy yaradıcılığında bədii təcəssümü.. 27

Ədəbiyyat

Barat Osmanova. Seyid Yəhya Şirvani. 30

Lətifə Mirzəyeva. Azərbaycan xalqının ikili taleyi Kərim Məşrutəçi Sönməz şeirində.....32

Dilbər Mirzəyeva. Haşım Tərlanın poeziyasında vətənpərvərlik motivləri.....35

Dilçilik

Pərvin Əsədullayeva. "Borhan-e Qate"də fars dilinin leksik məsələləri... 38

Din və ictimai fikir

Ramiz Mürsəlov. Radikal islamçıların hakimiyyət konsepsiyası.. 41

Əmmar Abbasov. Avropada islamofobiya.. 46

Soyqırım

Şərqşünaslıq İnstitutunda ermənilərin Cənubi Azərbaycanda xalqımıza qarşı soyqırım aktları ətraflı araşdırılır. 50

Rəy

Gövhər Baxşəliyeva. Nizami dühasına daha bir töhfə.. 52

«Dədəm Qorqut» - bənzəyişlər, yeniliklər… Rəşid Təhməzoğlu. «Dədəm Qorqut».. 55

Müsahibə

Говхар Бахшалиева: В библиотеках Италии хранятся неизвестные нам произведения азербайджанских авторов. 59

Hesabat

AMEA ak. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun 2014-cü ildəki elmi və elmi-təşkilati fəaliyyətinin yekunları haqqında hesabat.. 62

Şərqin tribunası

İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqının tədbirlərində.....85

Şərqi tanı

Günay Tağıyeva. Cənubi Koreya Respublikasının iqtisadi inkişafında insan faktoru.. 89

İtki

Şövkət Tağıyeva. 93

Cəmilə Sadıqova.. 94

Yeni kitablar.. 95

Tədbirlər, konfranslar, görüşlər

Şərqşünaslıq İnstitutunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş ümumi yığıncaq keçirilib.. 97

20 Yanvar faciəsinin 25-ci ildönümü qeyd edilib.....98

Xocalı şəhidləri Şərqşünaslıq İnstitutunda anıldılar. 98

Görkəmli şərqşünas Aida İmanquliyevanın xatirəsi anıldı.. 99

Ziya Bünyadovun ingilis dilində çap olunmuş "Xarəzmşahlar-Anuştəqinilər dövləti. 1097-1231" kitabının təqdimat mərasimi keçirilib.. 100

Kuba səfiri Şərqşünaslıq İnstitutunda oldu. 101

Azad İslam Universiteti ilə əməkdaşlıq perspektivləri müzakirə edilib... 101

AMEA Şərqşünaslıq İnstitutunun və Ərciyəz Universitetinin alimləri Cənubi Azərbaycanda soyqırım aktını birgə araşdıracaqlar.. 102

Şərqşünaslıq İnstitutunun direktor müavini Moskvada görüşlər keçirib.. 102

Şərqşünaslıq İnstitutunun Gənc alim və mütəxəssislər şurasının yeni sədri seçildi.. 103

Mixail Nuaymənin şeirləri Azərbaycan oxucusuna təqdim olundu.. 104

AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu

Baş redaktor:
Gövhər Baxşəliyeva

Məsul katib:
Vüqar Məmmədov

Operator:
Elmira Məmmədova

Dizayner:
Zaur Qafarzadə

Ünvan:
H.Cavid 115,
7-ci mərtəbə.
Telefon: (012) 538-87-55
Faks: (012) 510-97-21
E-mail: az_sharq@mail.ru
www.orientalstudies.az

Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə uyğun gəlməyə bilər.

Çapa imzalanıb: 20.10.2015
Sifariş: 130
Tiraj: 300

"Araz" nəşriyyatının mətbəəsində çap olunmuşdur.

Ünvan: Bakı ş. Mətbuat pr. 24
Tel: (012) 511-75-86

Elm tariximizdə Azərbaycan Milli Elmlər Akademiyası

70 il öncə Azərbaycanda bir ocaq yarandı – elm ocağı. O zaman Azərbaycan Elmlər Akademiyası adlanan bu ocağın yaranması əsrlərdən bəri Azərbaycanda elmi təfəkkürün formalaşmasının təbii nəticəsi olmuşdur. Bu gün 70 illiyini qeyd etdiyimiz Azərbaycan Milli Akademiyasının bünövrəsində yüzillər boyu formalaşmış Azərbaycan elminin ənənələri durur. Ona görə də 70 yaşlı elm məbədindən söz açmazdan öncə çoxəsrlik elm tariximizə bir nəzər salmaq yerinə düşərdi.

Dünyanın ən qədim elm və mədəniyyət mərkəzlərindən biri olan Azərbaycanın tarixi ərazisində minilliklər ərzində zəngin mədəni və maddi irs yaradılıb. Qədim mədəniyyət abidələri arasında elmi əsərlərin də sayı az deyil.

Hələ 300-400 min bundan əvvəl Azərbaycanın Azıx mağarasında yaşamış insanların hazırladığı və istifadə etdiyi əşyalar arasında üzərində xüsusi işarələr həkk olunmuş mağara ayılarının kəllələri də vardır. Alimlərin qənaətinə görə, bunlar say işarələri ola bilərdi. Çox güman ki, Azıxda yaşamış insanlar göy cisimlərinin hərəkətini izləyir və günləri, ayları saymağa çalışırdılar. Təqribən 300 min il əvvəl Azıx insanları daşlardan ilk primitiv "evlər" tikməyə başlamışlar. Sözsüz ki, bu da qədim insanlardan xüsusi səriştə və bilik tələb edirdi.

E.ə. 2-ci minilliyin sonu, 1-ci minilliyin əvvəllərində Azərbaycan ərazisində ilk dövlət qurumları meydana gəlmişdi. Bunların ən güclüsü və böyüyü Manna dövləti idi. Mannada elmi inkişafın ən vacib şərti olan yazı mədəniyyəti mövcud idi. Tibb, astronomiya və həndəsəyə aid biliklər xüsusi gil lövhəciklərdə mixi yazı ilə (xüsusi heroqliflərlə) həkk olunurdu. Qədim Assur mənbələrində belə yazıların mövcudluğundan xəbər verilir və "mannalı katib yazacaq..." ifadəsi də işlədilirdi.

Manna hökmdarları İranzu (e.ə.737-718/17) və Ahşeri (vəfatı e.ə. 659) ölkədə elm və mədəniyyətin inkişafına böyük diqqət verirdilər. Mannalıların mineralogiya, kimya, riyaziyyat, astronomiya, tibb, kənd təsərrüfatı və s. sahələrdə təsəvvürləri var idi. O dövrdə Urmiya gölü ətrafındakı bütün ərazilərə suvarma kanalları çəkilmişdi. Ölkədə çoxlu əkin sahələri, taxıl, arpa və çaxır anbarları vardı. Aqrar sahənin belə yüksək səviyyədə təşkil olunması kənd təsərrüfatı sahəsində dərin elmi biliklər tələb edirdi. Ev heyvanlarının xüsusiyyətlərini və davranışını öyrənən mannalılar yerli ev heyvanları növlərinin (at, inək,camış, zebu, qoyun və keçi) təkmilləşdirilməsinə (seleksiyasına) çalışırdılar. Mannanın cins atları qonşu ölkələrdə yüksək qiymətləndirilirdi. Buğda, arpa və bir çox mədəni bitkilərin yeni sortları da məhz qədim Azərbaycan ərazisində yerli əhalinin apardığı uzunmüddətli seleksiya nəticəsində yaranmış və sonra da buradan başqa ölkələrə yayılmışdır.

Mannada elmi savad tələb edən sahələrdən biri də kargüzarlıq olmuşdur. Əhalidən vergilərin yığılması, dövlət büdcəsinin layihələşdirilməsi, gəlirlərin və xərclərin hesablanması riyaziyyata və hüquq elmlərinə aid biliklərin inkişafına təkan vermişdi.

Mineralların öyrənilməsi mannalılara irimiqyaslı mədən işləri aparmağa və metallurgiyanı inkişaf etdirməyə imkan verdi. Cənubi Azərbaycanın Ziviyyə və Göytəpə məntəqələrində aparılmış arxeoloji qazıntılar nəticəsində e.ə. IX-VII əsrlərə aid qızıl, gümüş və tuncdan yüksəkkeyfiyyətli məişət və bəzək əşyalarının tapılması bunu sübut edir.

Metalların fiziki və kimyəvi xassələrinə bələd olan Azərbaycan sənətkarları onlardan müxtəlif ərinti hazırlayırdılar. Onlar e.ə. 1-ci minillikdə bürüncün müxtəlif növlərini (mis-qurğuşun, mis-manqan və mis-zərnix) almağı bacarırdılar. Yerli sənətkarlar dəmir, qalay və qurğuşunun xüsusiyyətlərini öyrənir, onlardan müxtəlif əşyalar hazırlayırdılar.

E.ə. IX-VI əsrlərdə Azərbaycanda həndəsə və riyaziyyat elmləri də inkişaf edirdi. Dəqiq həndəsi hesablamalar Manna memarlarına şəhərlər salmağa, saraylar və möhtəşəm qalalar inşa etməyə imkan verirdi. Binalar tikilməzdən öncə onların layihələri hazırlanırdı. İnşaat işləri də (bünövrənin qazılması, daşların və sütunların eyni ölçüdə

yonulması, onların naxışlarla bəzədilməsi və s.) riyaziyyat və həndəsə elmləri sahəsində səriştə tələb edən dəqiq hesablamalar əsasında aparılırdı.

E.ə. VII əsrdə Azərbaycan və İran torpaqlarında Midiya dövləti yarandı. Midiya dövlətində elmə və savada böyük əhəmiyyət verilirdi. Dövlət idarələrində çalışan katiblər "dipiri" (Akkad dilindən alınmışdır) adlandırılırdı. Sonralar bu söz Midiya dilindən fars dilinə "dəbir" formasında keçmişdir. Midiyalılar dünyanın ən qədim əlifbalarından olan "arami" (qədim Suriya) əlifbasından istifadə edirdilər. Roma və yunan mənbələri Midiyada yazılı ədəbiyyatın və kitab mədəniyyətinin olmasından xəbər verir. Məsələn, Roma tarixçisi Plini, e.ə. III əsrdə yaşamış yunan alimi Hermippə istinad edərək yazır ki, maqların (zərdüştilərin) iki milyon sətirdən ibarət kitabları vardı. Təəssüf ki, Avestadan başqa bu kitablardan heç birisi bu günə gəlib çatmamışdır.

Midiya neft yataqları ilə zəngin bir ölkə idi. Yataqların bir hissəsi Xəzər dənizinin sahillərində yerləşirdi. Midiyalılar neftin xassələrini öyrənir, neft təsərrüfatında texniki ixtiralar və yeniliklər tətbiq edirdilər. Məsələn, nefti quyulardan çıxartmaq üçün dünyada ilk dəfə olaraq xüsusi mexaniki qurğular ixtira edilmişdi. Mütəxəssislər neftdən müxtəlif dərman formaları (damcılar, yağlar və s.) hazırlayırdılar. Hərb və kimya elmləri üzrə mütəxəssislər xam neftdən və müəyyən minerallardan yandırıcı silahlar düzəldirdilər.

Midiya kahinləri cəmiyyətin ən savadlı zümrəsi idi. Onlar qədim dini mətnləri əzbər bilir və ilahiyyat elmini inkişaf etdirirdilər. Midiya onun varisi olmuş Atropatena dövləti dövründə Azərbaycan zərdüştilik dininin mərkəzinə çevrildi. Zərdüştiliyin əsas prinsipləri (xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl) intellektual və mənəvi dəyərlərin vacibliyini vurğulayırdı. Midiya dövləti Əhəmənilər fars sülaləsi tərəfindən işğal olunduqdan sonra da Ön Asiyanın elmi və dini mərkəzi olaraq qalırdı. Ölkədə fəlsəfə və ilahiyyat elmləri sürətlə inkişaf edirdi. E.ə. VI-V əsrlərdə yunan alimləri Midiya maqlarının təlimindən bəhrələnmişdi. Qədim yunan filosofu Empedok (təqr. e.ə. 490-430) bütün əşyaların dörd ünsürdən - sudan, havadan, oddan, torpaqdan ibarət olduğunu söyləyərkən atəşpərəstlərin müqəddəs varlıqlar (od, su, torpaq, hava) haqqında təsəvvürlərinə əsaslanırdı.

Makedoniyalı İsgəndər (e.ə. 356-323) Əhəmənilər imperiyasını süquta yetirdikdən və Yunanıstandan Hindistana qədər geniş bir ərazini zəbt etdikdən sonra Şərq mədəniyyətində və elmində "ellinizm" (hellinizm) dövrü başlanır. Qədim yunan və Şərq elmlərinin bir-birinə qarşılıqlı təsiri ilə səciyyələnən bu mərhələ Azərbaycanda da özünü büruzə vermişdi. O dövrdə Azərbaycanda müstəqil Atropatena dövləti yarandı. Yerli dövlətin mövcudluğu elmlərin inkişafına müsbət təsir göstərdi. Atropatenanın ilk carı Atərpat (yun. - Atropat, e.ə. IV əsr) zərdüştilik fəlsəfəsinin pərəstişkarı idi və o, ölkəni yunan mədəniyyətinin təsirindən qorumağa çalışırdı. Lakin Makedoniya hökmdarlarının qüdrətli olduğu bir dövrdə yunan mədəniyyətinin təsirindən tamamilə təcrid olunmaq real deyildi.

Ellinizm dövründə yaşamış bəzi Azərbaycan alimləri, zadəganları və tacirləri artıq yunan dilini yaxşı bilirdilər. Hətta kiçik şəhərlərdə və kəndlərdə yaşayan savadlı insanların da yunan elminin müddəaları haqqında təsəvvürləri vardı. Atropatena dövlətinin Avroman bölgəsində aparılmış arxeoloji qazıntıların gedişində ellinizm dövrünə aid yazılı perqament sənədləri tapılmışdır. Yunan təsiri daşıyan bu sənədlərdə o dövrün hüquq və kənd təsərrüfatı elmlərinə aid məlumatlar toplanmışdı. Həmin dövrdə yunan alimləri Xəzərin və Xəzəryanı bölgələrin dəqiq xəritəsini hazırlamaq üçün iki dəniz ekspedisiyası təşkil etmişdilər. Birinci ekspedisiya Makedoniyalı İsgəndər dövründə (başçısı Heraklit idi), ikinci ekspedisiya e.ə. 285-280 illərdə (başçısı Patroki idi) fəaliyyət göstərmişdi. Ekspedisiyalar tam uğurla nəticələnməsə də, Azərbaycanın coğrafiyası haqqında biliklərin xeyli genişlənməsinə səbəb oldu.

III əsrdə Atropatena dövlətçiliyinə son qoyuldu. Atropatena dövləti Sasanilər imperiyası tərəfindən zəbt olundu. Buna baxmayaraq Atropatena bu imperiyanın elmi, dini və mədəni mərkəzlərindən birinə çevrildi. Bu dövrdə həm zərdüştilik fəlsəfəsinin, həm də yunan elminin nüfuzu artırdı. Azərbaycanda Qalenin, Hippokratın, Evklidin, Ptolomeyin yunan dilindən tərcümə edilmiş əsərləri yayılırdı. Daha sonra nücum elminə aid bir sıra əsərlər yaradıldı.

IV-VII əsrlərdə Azərbaycanda dünyəvi elmlər də inkişaf edirdi. Bu dövrdə mövcud olmuş əsas elmi peşələrin adları "Tənsarın məktubu" adlı qaynaqda sadalanır: "katiblər, məktub və sənədləri tərtib edənlər, hesab üzrə mütəxəssislər, həkimlər, coğrafiyaşünaslar və astroloqlar". Zadəganların uşaqları ilk təhsilini evdə alır, yeddi yaşından sonra isə onları məktəbə göndərirdilər. Məktəblərdə tibb, hesab, coğrafiya, musiqi və astronomiya elmləri tədris olunurdu.

I-VII əsrlərdə indiki Azərbaycan Respublikasının əsas ərazisini əhatə etmiş Qafqaz Albaniyası dövlətində müxtəlif elmlər inkişaf edirdi.

Albanİyada məskunlaşmış xəzər, savir, hun və başqa türk tayfalarının da özünəməxsus əlifbası olmuşdu. Bu əlifba ilə bütün türk xalqlarının mədəni irsi olan Orxon-Yenisey qayaüstü yazıları yaradılmışdı.

Tarix elmi ilə yanaşı, Albaniyada başqa elmlər də inkişaf edirdi. Ölkədə riyaziyyat, kənd təsərrüfatı, tibb üzrə mütəxəssislər çalışırdı. Başqa xristian ölkələrində olduğu kimi, Qafqaz Albaniyasında da yunan dili geniş yayılmışdı, burada qədim yunan və orta əsr Bizans alimlərinin və filosoflarının əsərlərini tanıyırdılar. Albaniyada yaşamış türk tayfalarının kahinləri (şamanlar) müxtəlif biliklərə malik olmuşdular. Onların bəziləri xristianların

dini-fəlsəfi ideyalarını mənimsəmiş, bəziləri isə qədim türk tanrıçılığına sadiq qalmışdılar. Oğuz tayfalarının tibb sahəsində olan səriştəsi "Kitabi-Dədə Qorqud" əsərində əks olunmuşdur.

Qədim dövrün bütün bu nailiyyətlərinə baxmayaraq, İslamın gəlişindən öncə Azərbaycanda dəqiq elmlər nisbətən ləng inkişaf edirdi. Qafqaz Albaniyasında bunun səbəbi əlifbanın yalnız IV əsrdə yaradılması və vahid dövlət dilinin olmaması idi.

Xilafət dövründə (VII-IX əsrlər) Azərbaycan ərəb qoşunları tərəfindən işğal olundu və ölkə İspaniyadan Hindistana qədər uzanmış Ərəb xilafətinin tərkibinə qatıldı. Müxtəlif xalqların vahid bir dövlətin tərkibinə qoşulması və bir-biri ilə ünsiyyətdə olması elmlərin və mədəniyyətlərin sürətlə inkişafına gətirib çıxartdı. IX əsrdə bünövrəsi qoyulmuş bu yüksəliş XIV əsrin sonlarına qədər davam edirdi. Mübaliğəsiz demək olar ki, IX-XIV əsrlərdə İslam dünyası bəşəriyyət sivilizasiyasının zirvəsini təşkil edirdi. Ən böyük mədrəsələr (universitetlər), rəsədxanalar, xəstəxanalar, əczaxanalar və kitabxanalar məhz müsəlman Şərqində yerləşir, ən güclü alimlər burada çalışırdılar. Xəlifə Harun ər-Rəşid və xəlifə əl-Məmun Şərq elminin çiçəklənməsində müstəsna rol oynamışlar. Təqr. 827 ildə xəlifə əl-Məmun Bağdadda məşhur "Beytül-hikmət" ("Hikmət evi") akademiyasının əsasını qoydu. "Beytül-hikmət"də qədim yunan, hind, arami və Şərqin başqa qədim dillərində olan elmi kitablar ərəb dilinə tərcümə olunur və Xilafətin müxtəlif bölgələrində, o cümlədən Azərbaycanda yayılırdı. Beləliklə, IX-XIV əsrlərdə Azərbaycandakı İntibah dövrünü iki mərhələyə bölmək olar: birinci mərhələ Abbasi xəlifələrinin fəaliyyəti ilə başlamışdı və IX-XII əsrləri əhatə edirdi. Bu dövrdə humanitar elmlər daha çox inkişaf edirdi. İkinci mərhələ isə Azərbaycanda Elxanilər hakimiyyəti dövrünü (XIII-XIV əsrlər) əhatə edir və dəqiq elmlərin (tibb, riyaziyyat. astronomiya, həndəsə və s.) daha güclü inkişafı ilə səciyyələnir.

IX əsrdən sonra Ərəb xilafətinin zəifləməsi Azərbaycanda milli dövlətçiliyin bərpası ilə nəticələndi. O dövrdə Azərbaycanda Sacilər, Səlarilər, Rəvvadilər, Şəddadilər, Atabəylər və Şirvanşahlar dövlətləri kimi güclü müstəqil məmləkətlərin yaranması elm və mədəniyyətin inkişafına təkan verdi. Şirvanşahlar və Atabəylər elm və mədəniyyətə himayədarlıq edirdilər. Onlar öz saraylarında görkəmli alimləri toplayır və onlara elmi əsərlər yazmağı sifariş edirdilər. Bu dövrün ən inkişaf etmiş elm sahələri fəlsəfə, hüquq, ədəbiyyat, dilçilik, riyaziyyat, astronomiya, tibb və kimya idi.

XIII-XIV əsrlərdə bütün elm sahələri, xüsusilə dəqiq elmlər daha sürətlə inkişaf edirdi. XIV əsrdən sonra elmdə tənəzzül başlasa da, bunu təkcə monqolların törətdiyi qətl və dağıntılarla bağlamaq düzgün olmazdı. Ümumiyyətlə, qanlı müharibələr və dağıntılar tarixin bütün mərhələlərində baş vermişdir. Lakin onlar çox nadir hallarda elmin inkişafını kəskin ləngidə bilmişlər.



Elxanilər dövlətində elm çox yüksək zirvələrə çatmışdı. Təbriz, Marağa, Urmiya, Xoy, Ərdəbil Şamaxı, Beyləqan, Gəncə və s. şəhərlərdə görkəmli alimlər yaşayıb yaradırdılar. 1259 ildə Marağa şəhəri yaxınlığında məşhur Marağa Rəsədxanası təsis edildi. Rəsədxananın inşası haqqında sərəncamı monqol hökmdarı Qazan xan Nəsirəddin Tusinin məsləhəti ilə vermişdi.

Monqol hakimiyyəti dövründə Azərbaycan elmində yeni əlaqələr və təsirlər meydana gəldi. Monqollar Azərbaycanda Çin elmi, mədəniyyəti va incəsənətini təbliğ edirdilər. Çinlə həmsərhəd olan Monqolustanda Çin mədəniyyətinin təsiri həmişə güclü olmuşdu.

Azərbaycan elmi həmçinin, Çin elminin inkişafına təsir göstərmişdi. Məsələn, Fao Mun Çi və bir sıra başqa Çin alimləri Marağa rəsədxanasında astronomiya elmini öyrənir və burada ixtisaslarını artırırdılar, Fao Mun Çi və Cəmaləddin Buxari Marağa rəsədxanasında bir müddət işləyəndən sonra rəsədxananın layihəsinin özləri ilə götürüb Pekinə qayıtmışdılar. Yalnız bundan sonra Pekində rəsədxananın tikilməsi mümkün olmuşdur.

Bu dövrdə müxtəlif elm sahələrində bir sıra görkəmli şəxsiyyətlər yetişmişdir. Riyaziyyatçı Übeyd Təbrizi "Risalət ül-hesab" ("Hesab üzrə kitab") əsərini, Nəcməddin Əhməd Naxçıvani İbn Sinanın tibb və fəlsəfə üzrə əsərlərinə şərh və haşiyələr yazmışdı. Azərbaycanda tibbin sürətli inkişafı da XIII-XIV əsrlərə təsadüf edir. Əbu Abdulla Məhəmməd ibn Nəmvar Təbrizi "Ədvar ül-həmmiyyat" ("Ən mühüm dərmanlar") əsərini yazmışdır. Azərbaycanın və ümumiyyətlə, müsəlman Şərqinin ən görkəmli əczaçılarından biri İbn Kəbir təxəllüsü ilə məşhurlaşmış Yusif İbn İsmayıl Xoylunun 1311 ildə yazdığı "Cameyi-Bağdadi" ("Bağdad toplusu") bütün Şərqdə dərmanşünaslıq üzrə ən mükəmməl əsər sayılırdı.

XIII-XIV əsrlərdə təkcə Azərbaycanın cənubunda 67 xəstəxana vardı və orada tibb və əczaçılıq elmləri üzrə peşəkar mütəxəssislər çalışırdılar. XIV əsrin əvvəllərində Təbrizdə "Dar üş-Şofa" ("Şəfa evi") adlı elmi mərkəz təşkil edilmişdi. Mərkəz tədris ilə yanaşı. tibb müəssisəsi və xəstəxananı birləşdirirdi. Burada Azərbaycan alimləri və müəllimləri ilə birlikdə Çindən, Hindistandan. Suriyadan

və Misirdən dəvət edilmiş mütəxəssislər işləyirdilər.

Azərbaycanda mövcud olmuş elmlər orta əsr mütəfəkkirləri tərəfindən iki kateqoriyaya bölünürdü. Birinci kateqoriyaya dini elmləri əhatə edirdi və onların tərkibinə aşağıdakı fənlər aid olmuşdur: fiqh, kəlam (dinləri araşdıran ilahiyyat elmi), dilçilik (ərəb qrammatikası), ədəbiyyat (nəzm və nəsr yazmaq qaydaları), tarix (əsasən. islamın tarixi).

Bununla yanaşı, dünyəvi elmlər "fəlsəfə" termini ilə adlandırılırdı və iki böyük hissəyə (nəzəri fəlsəfə və təcrübi fəlsəfə) bölünürdü. Nəzəri fəlsəfəyə - təbiətşünaslıq elmləri (tibb, meteorologiya, mineralogiya, kimya, riyaziyyat, yunan fəlsəfəsi və teologiyası, təcrübi fəlsəfəyə isə əsasən, əxlaq (etika). tədbir ül-mənzil (evdarlıq elmi) və siyasət aid edilirdi. Bu təsnifat sistemi bir çox Şərq mütəfəkkirlərinin əsərlərində yer almışdı.

Paytaxtları Təbriz səhəri olan Qaraqoyunlu, sonra da Ağqoyunlu dövlətlərində elm və mədəniyyət bir qədər də sürətlə inkişaf etmişdir. Bu dövrdə Təbrizdə bir sıra məşhur alimlər yaşayıb yaradırdılar. Bədrəddin Əmir Seyid Əhməd Laləvi məntiq, qrammatika, ədəbiyyat və riyaziyyat elmlərinin bilicisi və bir sıra elmi əsərlərin müəllifi idi.

Şirvanşahlar dövləti də xeyli möhkəmlənmişdi. Mərkəzi hakimiyyətin güclənməsi və iqtisadi həyatın canlanması elm sahəsində də yüksəliş yaratdı. Ölkənin Şamaxı, Bakı və Dərbənd şəhərləri mədəniyyət və elm mərkəzləri kimi tanınırdı.

Bu dövrlərdə Azərbaycanda coğrafiya elmi da inkişaf edirdi. Orta əsr Azərbaycan alimləri dünyanın bir çox ölkələri haqqında dəqiq coğrafi məlumatlara malik idilər. Əbdürrəşid ibn Salih Bakuvi "Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri" adlı əsərində bütün dünyanın, o cümlədən Azərbaycanın şəhərlərindən, coğrafi məntəqələrindən və tarixi abidələrindən məlumat verirdi.

Azərbaycan elmi XVI əsrdə. Azərbaycanda güclü Səfəvilər dövlətinin yaranması elm və mədəniyyətin inkişafına müsbət təsir göstərdi. Səfəvilər milli dilin inkişafına böyük əhəmiyyət verirdi. I Şah İsmayıl, onun övladları Azərbaycan dilində danışır və yazır, kargüzarlıq işinin milli dildə aparılmasına himayədarlıq edirdilər. XVI əsrdə Azərbaycanın bütün şəhərlərində məktəblər və mədrəsələr mövcud idi. Orada, əsasən, ilahiyyat elmini, riyaziyyatı və məntiqi öyrənirdilər. Səfəvilərin birinci paytaxtı Təbriz şəhəri elmi və mədəni mərkəz kimi məşhurlaşmışdı. Orada nadir əlyazmalar və miniatürlü kitablarla zəngin kitabxana təşkil edilmişdi. Səfəvilərin vətəni Ərdəbil şəhərində də böyük kitabxana vardı. Bu dövrdə astronomiya, tarixşünaslıq və fəlsəfə üzrə bir sıra qiymətli əsərlər yaranmışdı. Səfəvi şahları astronomiya və s. elmlərə böyük əhəmiyyət verirdilər.

XVI əsrdə Azərbaycanın və İranın vahid Səfəvilər imperiyasının tərkibində olması hər iki ölkənin bir-birinə yaxınlaşmasında böyük rol oynamışdı. Bir çox Azərbaycan yazıçıları, şairləri, tarixçiləri, alimləri İranın müxtəlif bölgələrində yaşayır və İran mədəniyyətinə qiymətli töhfələr verirdilər. İran elminin nümayəndələri də Azərbaycan alimləri ilə sıx əlaqədə olur və öz yaradıcılıqlarında Azərbaycana geniş yer ayırırdılar. Ona görə də Azərbaycanın bir sıra elm xadimləri, eyni zamanda İran alimləri sayılır və bəzi fars va başqa millətlərin nümayəndələri isə Azərbaycanda yaşayıb yaradır və Azərbaycan alimləri sayılırdılar.

Azərbaycanda tibb elmi inkişaf edir, çoxsaylı xəstəxanalar və əczaxanalar fəaliyyət göstərirdi. XVII əsrin 60-cı illərində burada olmuş fransız səyyahı Jan Şarden yazırdı ki, Təbrizdə üç şəhər xəstəxanası var və onlar kifayət qədər təmiz və səliqəlidir. Xəstələr burada intensiv müalicə kursları alırdılar.

1801-28-ci illərdə Rusiya Şimali Azərbaycan xanlıqlarını işğal edəndən sonra burada Qərb elminin təsiri və nüfuzu artmağa başladı. Ölkədə Qərb təhsil sistemi əsasında fəaliyyət göstərən məktəblər açılır, azərbaycanlılar isə Rusiya və Avropa ölkələrində təhsil alırdılar. Qabaqcıl Azərbaycan alimləri çoxəsrlik Şərq elminin ənənələrini inkişaf etdirməklə yanaşı, müasir Avropa elminin nailiyyət və metodlarından da bəhrələnməyə başladılar.

XIX əsrdə Azərbaycanda tarix elmi üzrə yeni əsərlər yaranırdı. Əvvəlkilərdən fərqli olaraq, tarixi tədqiqatların çoxu artıq Azərbaycan dilində yazılırdı. Bu araşdırmalarda Azərbaycanın qədim torpağı Qarabağın tarixinə xüsusi yer ayrılırdı. 1845 ildə Mirzə Adıgözəl bəyin yazdığı "Qarabağnamə" əsərində 1736-1828 illərdə Qarabağda baş vermiş hadisələr şərh edilirdi. Bu əsərin bir hissəsi 1885-ci ildə rus dilinə tərcümə edilərək "'Kaspi" qəzetində dərc olunmuşdu. Mir Mehdi Xəzani "Kitabi-tarixi Qarabağ", Rzaqulu bəy Mirzə Cavanşir oğlu "Tarixi-Qarabağ", Həsənəli xan Qarabağı isə "Qarabağnamə" əsərini yazmışdır. Bu əsərlərdə göstərilmiş faktlar Qarabağın tarixən həmişə Azərbaycana məxsus olduğunu bir daha təsdiq edir və Qarabağın tarixini öyrənmək baxımından əhəmiyyətlidir.

Azərbaycanla Rusiya arasında getdikcə artan elmi və mədəni əlaqələr nəticəsində bəzi Azərbaycan alimləri Rusiyanın ali məktəblərində dərs deməyə başlayır və bir müddətdən sonra orada öz biliklərinə və elmi nailiyyətlərinə görə məşhurlaşırdılar. Azərbaycan alimləri XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Rusiyanın şərqşünaslıq elmində ciddi rol oynamağa başladılar. Bu dövrdə Rusiyada müəllim və tərcüməçi işləyən azərbaycanlılar arasında Nəsirov, Əbu Turab Vəzirov, Mirzə Məhəmməd Şəfi, Osmanov, Sadıx bəy Cəfərov, Mirzə Abdulla Vəzirov, Mirzə Həsən Tahirov, Məhəmməd Əliyev, Mirzə Abdulla Qaffarov, Mirzə Cəfər Rizayev və b.-nın adlarını çəkmək olar.

Azərbaycanlıların bəziləri Peterburq və Qazan universitetlərində Azərbaycan, fars və ərəb dilinin tədrisini təşkil edir, Şərq fəlsəfəsi, qanunvericiliyi və ədəbiyyatın-

dan dərs deyirdilər. XIX əsrin ortalarında onların rolunun artması rus şərqşünaslığının azərbaycanlı alimlər tərəfindən inkişaf etdirildiyi haqda fikir söyləməyə imkan vermişdir.

XIX əsrin birinci yarısından Azərbaycan alimlərinin rus şərqşünaslığında oynadıqları rol durmadan artmağa başlayır. Rus və Avropa təhsili görmüş Azərbaycan ziyalıları da öz növbəsində rus alimlərini qədim Şərq mədəniyyəti, ədəbiyyatı, tarixi, fəlsəfəsi, eləcə də Azərbaycan, fars və ərəb dilləri ilə tanış edirdilər. O dövrün tanınmış şərqşünas alimlərdən biri Mirzə Kazım bəy olmuşdur. Hələ 17 yaşında o, özünün ilk elmi əsərini - "Ərəb dilinin müxtəsər qrammatikası"nı yazmışdır. 1826 ildən etibarən Kazım bəy Qazan Universitetində fars və türk-tatar (Azərbaycan) dillərindən dərs deyir, az sonra professor adını alır və fakültənin dekanı vəzifəsinə təyin edilir. Kazım bəy Azərbaycan dilinin elmi qrammatikasını araşdırmışdı. Onun tərtib etdiyi "Azərbaycan dilinin qrammatikası" kitabı Rusiyada iki dəfə (1839 və 1846 illərdə) nəşr edilmişdi.

Azərbaycanın fəlsəfə elmində də müəyyən dəyişikliklər baş verirdi. Qərb təhsili görmüş Azərbaycan filosofları Aristotelin və əl-Qəzalinin əsərlərini təhlil etməklə yanaşı, o dövrün Avropa filosofları Yunqun, Kantın və b.-nın ideyaları ilə də tanış olmağa başladılar. Qərbin fəlsəfi ideyalarını mənimsəyən və təbliğ edən M.F.Axundzadə öz fəlsəfi görüşlərini "Kəmalüddövlə məktubları" əsərində əks etdirmişdir. O dövrdə orta əsrlərə məxsus elmi üslubda yazıb-yaratmaqda davam edən alimlər də vardı ki, çoxəsrlik Şərq elminin qaydalarına sadiq qalır, elmdə heç bir yeniliyi qəbul etmirdilər. Buna baxmayaraq, onlar da bir sıra mütərəqqi və gözəl əsərlər yarada bilmişlər. Məşhur coğrafiyaşünas Hacı Zeynalabdin Şirvani İran, Türkiyə, Ərəbistan, Hindistan, Misir, Sudan, Əlcəzair və s. ölkələrə səyahət etdiyi 36 il ərzində 60000 km məsafə qət etmişdi. Bu səfərlərin yekunu olaraq yazdığı əsərlərdə bir çox ölkələrin iqtisadiyyatı, mədəni həyatı, adət və ənənələri işıqlandırılır.

Azərbaycan elminin XIX əsrdə əldə etdiyi ən böyük uğuru təbiət və texnika elmlərinin inkişafıdır. XIX əsrin ikinci yarısında Azərbaycanda neft sənayesinin tərəqqisi ilə bağlı kimya və neft kimyası inkişafa başladı. Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsi təsis olundu. Neft kimyası üzrə əsas tədqiqatlar bölmənin nəzdindəki laboratoriyada aparılırdı. Rus alimi D.İ.Mendeleyev 1878 və 1880-ci illərdə Bakıda olmuş, burada neft emalı problemlərini araşdırmışdır. 1885-ci ildə dünyada ilk dəfə olaraq Bakıda kerosinin krekinq üsulu ilə alınması üçün qurğu yaradılmışdır. Bu layihə 1891-ci ildə Şuxov və Qavrilov tərəfindən təkmilləşdirilmişdi.

Bu dövrdə Azərbaycanda təcrübəli kimyaçılar da yetişirdi. Onlar rus və Qərb universitetlərində təhsil aldıqdan sonra elmi tədqiqatlarla məşğul olurdular. 1880-90-cı illərdə Almaniyanın Strasburq Universitetində (ASU) təhsil almış azərbaycanlı kimyaçı, kimya doktoru Mövsüm bəy Xanlarov (1857-1921) Bakıda üzvi kimya üzrə tədqiqatlara başlamışdır. Onun "Tiosirkə turşusunun etilrodanidə təsiri" adlı ilk məqaləsi 1882-cü ildə Almaniyada dərc edilmişdi.

Azərbaycanda peşəkar bioloq alimlər həddindən artıq az idi, lakin bir sıra həkimlər və müəllimlər maarifləndirici işlər aparır və əhalini əsas bioloji biliklərlə tanış etməyə çalışırdılar. Onların əsas məqsədi Azərbaycan ictimaiyyətini Avropa elminin biologiya sahəsindəki nailiyyətləri ilə tanış etmək idi. Azərbaycanda biologiya və kənd təsərrüfatı elmlərinin inkişafı Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirovun adları ilə bağlıdır.

Azərbaycanın bitki örtüyünün həddindən artıq zəngin olması bioloqların nəzərini cəlb etmiş və onları ölkənin bitki örtüyünü öyrənməyə istiqamətləndirmişdir. Burada 4 minə yaxın ali bitki növü mövcuddur. O dövrdə Azərbaycanın bitki örtüyünü təsvir edən əsərlərin sayı həddindən artıq az idi. Qafqazın bitki aləminin öyrənilməsi istiqamətində ilk araşdırmaları Nəcəf bəy Vəzirov aparmışdır.

Rus imperiyası dövründə Azərbaycanda səhiyyənin vəziyyəti aşağı səviyyədə idi. Xəstəxanalar çatışmırdı. Tibbi müəssisələr isə ümumiyyətlə yox idi. Çar hökuməti Bakıda və Azərbaycanın başqa şəhərlərində heç tibb təhsili verən məktəblərin açılmasını da dəstəkləmirdi. İmkanlı ailələrin uşaqları Moskva, Sankt-Peterburqda və Avropa ölkələrində ali tibbi təhsil aldıqdan sonra geriyə qayıdır və burada öz xalqına xidmət edirdilər. Bakıda yerləşən tibbi təmayüllü yeganə ictimai təşkilat Bakı Həkimlər Cəmiyyəti (BHC) idi. Bu cəmiyyətin M.M.Vəkilov, Ə. Axundov, Ə.M.Mehmandarov və b. tibb elmi sahəsində elmi araşdırmalar aparırdılar.

XIX əsrin əvvəllərində Azərbaycanda tarix elini inkişaf eləməkdə davam edirdi. Yazılan əsərlərin bir qismi orta əsrlər tarix elminin izlərini daşısa da, bir çoxu müasirlik əlamətlərinə malik idi. 1905-ci ildə Rəşid bəy İsmayılovun Azərbaycanın və qonşu ölkələrin tarixindən bəhs edən "Müxtəsər Qafqaz tarixi" kitabı nəşr olunmuşdur. Azərbaycanda ədəbiyyatşünaslıq elmi da inkişaf edirdi. Bu sahədə Firudin Köçərli, Seyid Hüseynov və b. görkəmli alimlər fəaliyyət göstərirdilər. Çar hökumətinin Azərbaycanda ali təhsil məktəblərini (universitetləri), elmi

cəmiyyətləri və elmi-tədqiqat qurumlarını təsis etməyə izn verməməsi Azərbaycanda elmin inkişafını ləngidirdi.

Azərbaycan elminin, onun intellektual dəyərlərinin milli sərvət kimi qəbul edilməsində Azərbaycan Xalq Cümhuriyyətinin (1918–20) mühüm rolu olmuşdur. Bakı Universitetinin yaranması, azərbaycanlı tələbələrin Avropa ali məktəblərinə göndərilməsi milli dilin, mədəniyyətin intişarı bütövlükdə Azərbaycan elminin inkişafına mühüm təsir göstərən amillərdən olmuşdur. 1920-ci ilin əvvəllərində respublikada elmi tədqiqatlar, əsasən, Bakı Universitetində mərkəzləşmişdi. 1920-22-ci illərdə burada humanitar, tibb və təbiət bölmələrindən ibarət elmi assosiasiya təşkil edilmiş və fəaliyyət göstərmişdir. Assosiasiya müxtəlif elm sahələri üzrə problemlərin tədqiqi, elmi kadrların hazırlanması və inkişafı işinə hərtərəfli yardım göstərməyi qarşısına məqsəd qoymuşdu. 1921-ci ilin axırlarında universitet nəzdində Təbiətşünaslar və Həkimlər Cəmiyyəti, bir qədər sonra isə Şərqşünaslar və Həkimlər Cəmiyyəti yaradıldı. 1920-ci ildə texniki təhsil verən ali məktəb – Bakı Politexnik İnstitutu fəaliyyətə başladı. Burada texnika, iqtisadiyyat elmləri və aqrokimya sahəsində elmi tədqiqatlar aparılırdı.

1923-cü ildə elmi-tədqiqat işləri aparmaq üçün Nəriman Nərimanovun təşəbbüsü ilə Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti yaradıldı. Bu cəmiyyət respublikanın baş elmi müəssisəsi oldu. İlk dövrdə cəmiyyətin tərkibinə Tarix, Etnoqrafiya, İqtisadiyyat və Təbiətşünaslıq bölmələri daxil edilmişdi. 1925-ci ildə Tarix-Etnoqrafiya bölməsindən Türkologiya bölməsi yarandı. Ayrı-ayrı elm sahələri istiqamətində tədqiqatlar aparılması məqsədilə tarix, tarix-ədəbiyyat, etnoqrafiya, dilçilik, lüğətçilik, hüquq, sənaye, Xəzər dənizinin tədqiqi, təsviri incəsənət, teatr, musiqi və s. üzrə komissiya və yarımkomissiyalar təşkil edildi. Respublikanın Şamaxı, Gəncə, Lənkəran, Zaqatala və digər qəzalarında, o cümlədən Naxçıvan MSSR və DQMV-də cəmiyyətin bölmələri yaradıldı. 1925-ci ildə Cəmiyyət Azərbaycan hökumətinin sərəncamına verildi. 1929-su ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yenidən təşkil edilərək Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu (DETİ) adlandırıldı. İnstitutun təbiət, biologiya, tarix və etnoqrafiya, dilçilik, ədəbiyyat və incəsənət, fəlsəfə, sovet Şərqi və xarici Şərq, dövlət və hüquq bölmələri var idi. Azərbaycan DETİ-nin fəaliyyətində respublikada elmi-tədqiqat işlərinin əlaqələndirilməsi, ali və orta ixtisas məktəbləri üçün elmi kadrlar hazırlanması məsələləri mühüm yer tuturdu. Azərbaycan DETİ-nin aspiranturası təkcə 1929-30-cu illərdə 33 elmi işçi hazırlamış, 1930-31-ci illərdə isə buraya 43 nəfər qəbul edilmişdi. 1932-ci ilin axırlarında 30 elmi müəssisə və 10-dan çox ali məktəb fəaliyyət göstərirdi. Bu dövrdə respublikada 800 elmi işçi, o cümlədən 87 professor və 138 dosent var idi. Lakin nə Azərbaycan DETİ, nə də sahə institutları elmin qarşısında duran vəzifələri kifayət qədər yerinə yetirə bilmirdi.

Azərbaycanda elmi tədqiqatların yüksək səviyyədə aparılmasını və inkişaf etdirilməsini, elmi və elmi-xidmət müəssisələrinin işinin səmərəliliyinin yaxşılaşdırılmasını təmin etmək məqsədilə 1932-ci ildə Azərbaycan DETİ əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi təşkil edildi. Şöbəyə Ruhulla Axundov rəhbərlik edirdi. Şöbədə 11 bölmə və bir neçə komissiya fəaliyyət göstərirdi. Bir sıra məşhur alimlər – Bəkir Çobanzadə, Musa Əfəndiyev, Vəli Xuluflu, Aleksandr Qrossheym, İvan Qubkin, N.Marr, İ.Meşşaninov, A.Məmmədov, Salman Mümtaz, A.Tağızadə, İosif Yesman və başqaları burada elmi tədqiqat işləri aparırdılar.

1935-ci ilin oktyabrında şöbə SSRİ EA Azərbaycan filialına çevrildi. Filialın nəzdində mövcud bölmələr əsasında Kimya, Botanika, Zoologiya və Tarix, Etnoqrafiya və Arxeologiya, Dil və Ədəbiyyat elmi tədqiqat institutları, habelə Energetika, Fizika, Geologiya, Torpaqşünaslıq sektorları yaradıldı. Filialın institut və



sektorlarından əlavə respublikada Elmi Tədqiqat Neft İnstitutu, Elmi Tədqiqat Pambıqçılıq İnstitutu, Neft Maşınqayırma İnstitutu, Kurortologiya və Fiziki Üsullarla Müalicə İnstitutu, Hidrotexnika və Meliorasiya İnstitutu yaradıldı, bir sıra elmi stansiyalar və dayaq məntəqələri təşkil edildi. Tibb üzrə elmi tədqiqat institutlarında (tropik-xəstəliklər, ana və uşaqları mühafizə, mikrobiologiya), Azərbaycan Elmi Tədqiqat Baytarlıq İnstitutunda, Zaqafqaziya Tikinti Materialları İnstitutunun Azərbaycan şöbəsində, Subtropik Bitkilərin zona üzrə Lənkəran stansiyasında, həmçinin Azərbaycan Dövlət Universitetinin elmi laboratoriya və kabinələrində, sənaye, kənd təsərrüfatı, pedaqoji və tibb institutlarında, Azərbaycanın orta ixtisas təhsili müəssisələrində geniş elmi tədqiqat işləri aparıldı. Artıq 1940-cı ildə respublikada 60 elmi müəssisə fəaliyyət göstərirdi. 1938-ci ildə SSRİ EA Azərbaycan filialında 16 elmlər doktoru, professor və 20 elmlər namizədi var idisə, 1941-ci ildə onların sayı müvafiq surətdə 21 və 161-ə çatmışdı.

SSRİ Xalq Komissarları Sovetinin 1945-ci il 23 yanvar tarixli qərarı ilə filial Azərbaycan EA-na çevrildi. Bu vaxt akademiyanın 4 bölməsi, 16 elmi tədqiqat institutu,

elmi tədqiqat şöbəsi, 3 muzeyi, mərkəzi elmi kitabxanası, Naxçıvan, Gəncə, Xankəndi və Qubada elmi bazaları var idi. Həmin il Azərbaycan EA-sına 15 həqiqi üzv seçildi. 1945-ci il martın 31-də akademiyanın həqiqi üzvlərinin ilk ümumi iclasında Mirəsədulla Mirqasımov EA-nın prezidenti seçildi. Sonrakı illərdə Yusif Məmmədəliyev (1947-1950, 1958-1961), Musa Əliyev (1950–1958), Zahid Xəlilov (1961-1967), Rüstəm İsmayılov (1967-1970), Həsən Abdullayev (1970-1983), Eldar Salayev (1983–1997), Fəraməz Maqsudov (1997-2000), Mahmud Kərimov (2001-2013) akademiyanın prezidenti olmuşlar. 2013-cü ildən AMEA-nın prezidenti Akif Əlizadədir.

Hazırda AMEA-nın 7 bölməsi var: fizika-riyaziyyat və texnika elmləri (Fizika İnstitutu, Riyaziyyat və Mexanika İnstitutu, İdarəetmə Sistemləri İnstitutu,

Radiasiya Problemləri İnstitutu, İnformasiya Texnologiyaları İnstitutu, Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası); kimya elmləri (Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, Akademik M.F.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu, Akademik Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutu, Polimer Materialları İnstitutu, Mineral Xammalın Kompleks Emalı üzrə Təcrübə İstehsalatlı Xüsusi Konstruktor Texnoloji Bürosu, Reagentlərin işlənməsi və Xalq Təsərrüfatında Tətbiqi üzrə İstehsal Təcrübəli Xüsusi Konstruktor Texnoloji Bürosu, Təcrübi İstehsalı ilə "Aşqar" Xüsusi Texnoloji Bürosu); Yer elmləri (Geologiya və Geofizika İnstitutu, Akademik H.Əliyev adına Coğrafiya İnstitutu); biologiya və tibb elmləri (Moleykulyar Biologiya və Biotexnologiyalar İnstitutu, Botanika İnstitutu, Zoologiya İnstitutu, A.İ.Qarayev adına Fiziologiya İnstitutu, Mikrobiologiya İnstitutu, Mərkəzi Nəbatat Bağı, Dendrologiya İnstitutu); aqrar elmlər (Genetik Ehtiyatlar İnstitutu, Torpaqşünaslıq və Aqrokimya İnstitutu, Eroziya və Suvarma İnstitutu), humanitar elmlər (Nizami adına Ədəbiyyat İnstitutu, Nəsimi adına Dilçilik İnstitutu, Memarlıq və İncəsənət İnstitutu, M.Füzuli adına Əlyazmalar İnstitutu, Folklor İnstitutu, Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Hüseyn Cavidin Ev Muzeyi), ictimai elmlər (A.Bakıxanov adına Tarix İnstitutu, Arxeologiya və Etnoqrafiya İnstitutu, Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Fəlsəfə və Hüquq İnstitutu, İqtisadiyyat İnstitutu, İnsan Hüquqları İnstitutu, Dünya Siyasəti İnstitutu, Elm Tarixi İnstitutu, Qafqazşünaslıq İnstitutu, Milli Azərbaycan Tarixi Muzeyi); AMEA-da 2 regional bölmə fəaliyyət göstərir: Naxçıvan Bölməsi (Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Təbii Ehtiyatlar İnstitutu, Bioresurslar İnstitutu, Əlyazmalar Fondu, Batabat Astrofizika Rəsədxanası), Gəncə Bölməsi (Nizami Gəncəvi Mərkəzi, Humanitar Tədqiqatlar İnstitutu, Diyarşünaslıq İnstitutu, Bioresurslar İnstitutu, Aqrar Porblemlər İnstitutu, Nəbatat Bağı, Ekologiya və Təbii Ehtiyatlar İnstitutu); Şəki Regional Elmi Mərkəzi, Lənkəran Regional Elmi Mərkəzi və Quba Regional Elmi Mərkəzi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə Azərbaycan Ensiklopediyası AMEA tabeçiliyinə verilmiş və 5 may 2004-cü il tarixli digər sərəncamına əsasən "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi yaradılmışdır.

Hazırda Azərbaycan Milli Elmlər Akademiyasında 10 mindən artıq əməkdaş, o cümlədən 4939 nəfər elmi işçi, 560 elmlər doktoru, 2046 nəfər fəlsəfə doktoru çalışır. Akademiyanın 74 həqiqi üzvü və 119 müxbir üzvü var.

AMEA xarici ölkələrin elmi müəssisələri ilə müntəzəm əlaqə saxlayır, elmin müasir problemlərinə və elmin təşkilinə dair əcnəbi alimlərlə fikir mübadiləsi aparır. Akademiyanın alimləri beynəlxalq elmi qurultay, konqres və simpoziumlarda elm və texnikanın aktual problemlərinə dair məruzələrlə çıxış edirlər. AMEA-nın təşəbbüsü və təşkilatçılığı ilə vaxtaşırı beynəlxalq elmi müşavirə və konfranslar keçirilir. Son bir ildə Akademiya alimlərinin 604 kitabı, 4208 məqaləsi çap olunmuşdur. Məqalələrin 2427-si impaktfaktorlu elmi jurnallarda dərc olunmuşdur. AMEA bir çox nüfuzlu beynəlxalq elmi təşkilatların üzvüdür, onun əməkdaşları MDB ölkələri, ABŞ, Yaponiya, İsrail, İsveçrə, İngiltərə, Almaniya, Pakistan, Türkiyə, İran və başqa ölkələrin aparıcı elm və təhsil müəssisələri ilə birgə proqram çərçivəsində tədqiqatlar aparır, kadr və informasiya mübadilələrində iştirak edirlər.

Müstəqil Azərbaycan dövlətinə Heydər Əliyevin rəhbərliyi dövründə ölkədə elmin inkişafı, elmi-texniki potensialın güclənməsi, yüksəkixtisaslı elmi kadrların

hazırlanması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində önəmli tədbirlər həyata keçirilmişdir. Prezident Heydər Əliyevin 2001-ci il 15 may tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" statusu verilmişdir. Bu tarixi fərman Azərbaycanda fundamental elmin əldə etdiyi nailiyyətləri, Azərbaycanın sosial-iqtisadi, mədəni və mənəvi təşəkkülündə elmin rolunu, ölkənin ictimai-siyasi həyatında nüfuzunu və akademik elmin suveren Azərbaycan dövlətinin tərəqqisinin təminatçısı olduğunu bir daha təsdiqləyir.

Heydər Əliyevin 4 yanvar 2003-cü il tarixli Fərmanı isə AMEA-ya müstəqil dövlətimizin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət orqanı statusu vermiş oldu, onun Nizamnaməsinə dövlət sənədi, onun prezidentinə ali icra hakimiyyəti üzvü səlahiyyəti verildi. Beləliklə, AMEA-nın hərtərəfli inkişafı üçün hüquqi zəmin yarandı, Akademiyanın fəaliyyət dairəsi genişləndi, səlahiyyətləri artdı və qarşısına məsul dövlət vəzifələri qoyuldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev elm, təhsil və mədəniyyət sahəsində Heydər Əliyev strategiyasını, proqramını və qayğıkeşliyini ardıcıl davam etdirir. Dövlət başçımızın 2009-cu il 4 may tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə milli strategiya"nin və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə milli strategiyanın həyata keçirilməsi ilə bağlı dövlət proqramı" təsdiq edilmiş və bu proqram üzrə işlər yüksək səviyyədə həyata keçirilmişdir.

AMEA-nın əldə etdiyi uğurlarda müstəsna payı olan institutlardan biri də akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutudur. Akademiyanın fəaliyyətinin ötən 70 ilinin 56-sında şərqşünas alimlər Azərbaycan elminin inkişafına böyük töhfələr vermiş, Azərbaycan şərqşünaslıq elmini dünya şərqşünaslığı səviyyəsinə qaldırmışlar..

Azərbaycan şərqşünaslığı dərin tarixi köklərə malikdir. Onun təşəkkülü və inkişafı islam sivilizasiyası, türk dünyası, Yaxın və Orta Şərq ölkələrinin mədəniyyəti ilə sıx əlaqədə olan Azərbaycan mədəniyyətinin tarixi təkamülü ilə bağlı olub. Böyük Azərbaycan mütəfəkkir və alimləri Bəhmənyar, Xətib Təbrizi, Şəhabəddin Sührəvərdi, Nizami Gəncəvi, Mahmud Şəbüstəri, Məhəmməd ibn Hinduşah Naxçıvani, Seyid Yəhya Bakuvi, Həsən bəy Rumlu, Hacı Zeynalabdin Şirvani və digərləri öz qiymətli əsərləri ilə Şərq xalqlarının tarix, ədəbiyyat, fəlsəfə, coğrafiya və etnoqrafiyasının inkişafına və ümumiyyətlə, dünya elminə əvəzsiz töhfələr vermişlər.

XIX yüzillikdə çoxəsrlik milli mədəniyyətin təməlində və Avropa elminin təsiri ilə Azərbaycanda şərqşünaslığın inkişafına təkan vermiş bir sıra parlaq alim və ədiblər meydana çıxmışdır. Həmin dövrdə yaşamış Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Mirzə Kazım bəy, Mirzə Cəfər Topçubaşov kimi mütəfəkkir və alimlərimi-

Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyəti (1995-ci il)
Soldan saga (oturublar): N. A. Quliyev, Z. M. Bunyadov, E.Y. Salayev, M. T. Abasov, U. K. Ələkbərov
(duranlar): F. O. Maqsudov, A. A. Nadirov, Ə. Ə. Zərərov, T. N. Sahtaxtinski, R. Ə. Nəbiyev, S. K. Tağıyev, A. A. Əlizadə

zin Azərbaycanın elm və mədəniyyətinin inkişafındakı xidmətləri misilsizdir. Eyni zamanda, onların Rusiyada və Avropa ölkələrində şərqşünaslıq elminin təşəkkül və inkişafında mühüm rolu olmuşdur.

Sovet dövründə, 1935-ci ildə SSRİ EA-nın Azərbaycan filialının, 1954-cü ildə isə Tarix İnstitutu nəzdində Xarici Şərq ölkələri tarixi şöbəsinin yaradılması ilə Azərbaycanda Şərqin sistemli şəkildə tədqiqi başlandı.

Azərbaycan MEA Şərqşünaslıq İnstitutu (1967-1984-cü illərdə Yaxın və Orta Şərq Xalqları institutu) 1958-ci ildə Respublika Nazirlər Sovetinin qərarı ilə EA-nın digər institutlarında fəaliyyət göstərən müvafiq şöbə və qrupların əsasında yaradılmışdır. Həmin vaxtdan etibarən Azərbaycan şərqşünaslığının inkişafında keyfiyyətcə yeni dövr başlandı, coğrafi region və əsas tədqiqat istiqamətləri müəyyənləşdi. İnstitutun qarşısında duran başlıca vəzifə Yaxın və Orta Şərq ölkələrinin tarixi, ictimai-siyasi, iqtisadi və mədəni inkişafının qanunauyğunluqlarını və xüsusiyyətlərini tədqiq və təhlil etmək idi. Eyni zamanda, Azərbaycanın Yaxın və Orta Şərq ölkələri ilə çoxəsrlik mədəni-tarixi əlaqələrini nəzərə alaraq Respublika üçün konkret tətbiqi əhəmiyyəti olan aktual tədqiqatlara da önəm verilirdi.

İnstitutun yüksək ixtisaslı kadrlarının və elmi potensialının artması nəticəsində tədricən şərqşünaslığın tematikası genişləndi və zənginləşdi. Kollektivin səyi əsasən Yaxın və Orta Şərq ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-siyasi fikri və filologiyasının aktual problemlərinin kompleks şəkildə öyrənilməsinə, Şərq xalqlarının yazılı abidələrinin tədqiqi və nəşrinə, həmçinin Azərbaycan xalqının ərəbdilli və farsdilli abidələrinin tərcümə və araşdırılmasına yönəldi.

Azərbaycan müstəqillik əldə edənə qədər respublika-

mızda şərqşünaslıq elmi bütövlükdə keçmiş sovet şərqşünaslığının tərkib hissəsi kimi inkişaf edirdi. Belə ki, institutda aparılan elmi araşdırmaların tematikası, xüsusilə Şərq ölkələrinin müasir ictimai-siyasi və ideoloji problemləri ilə bağlı bir sıra mövzular, hakim marksizm təliminin tələblərinə uyğun şəkildə tədqiq edilir və Sovet İttifaqının şərq siyasətinin həyata keçirilməsinə xidmət edirdi. Lakin eyni zamanda, keçmiş İttifaqın aparıcı şərqşünaslıq mərkəzləri ilə daimi sıx əlaqə, elmi təcrübə mübadiləsi, müxtəlif elmi və elmi-informativ məlumatların əldə edilmə imkanı Azərbaycanda bu sahənin inkişafına güclü təkan vermişdir. Təsadüfi deyil ki, keçən əsrin 70-80-ci illərində Azərbaycan şərqşünaslıq elmi keçmiş İttifaqda aparıcı mövqelərdən birini tutmuş və dünyada bu sahənin mütəxəssisləri arasında layiqli şöhrət qazanmışdır. Azərbaycan şərqşünaslığının beynəlxalq nüfuzu akademiklər Əbdülkərim Əlizadə, Əlisöhbət Sumbatzadə, Həmid Araslı, Ziya Bünyadov, müxbir üzv Böyükağa Hüseynov, professorlar Rüstəm Əliyev, Aida İmanquliyeva, Əkrəm Cəfər, Rauf Seyidov və bir çox digər aparıcı alimlərin yorulmaz əməyi ilə yaradılmışdır.

1991-ci ildə Azərbaycanın öz istiqlaliyyətini bərpa etməsi və müstəqil Azərbaycan Respublikasının yaranması institutun önündə yeni üfüqlər açdı və qarşısında yeni vəzifələr qoydu.

Yeni şəraitdə Azərbaycan şərqşünaslığının məqsəd və problematikası əsaslı şəkildə yenidən işlənmişdir. Xarici siyasət xəttini müstəqil surətdə müəyyən edən Azərbaycan Respublikası üçün Şərq ölkələri ilə iqtisadi, siyasi və mədəni əlaqələrin genişləndirilməsi hal-hazırda olduqca mühüm bir məsələdir. Azərbaycanın xarici siyasət strategiyası baxımından Yaxın və Orta Şərq ölkələrinin ictimai-siyasi və iqtisadi vəziyyətinin öyrənilməsinə ciddi ehtiyac vardır.

Məlumdur ki, Yaxın Şərq bu gün dünyanın ən gərgin və böhranlı regionlarından birinə çevrilmişdir. Burada mövcud olan zəngin neft ehtiyatları və digər təbii sərvətlər böyük dövlətlərin və beynəlxalq güc mərkəzlərinin diqqətini daim bölgəyə cəlb edir. Davam edən İsrail-Fələstin qarşıdurması, İraq müharibəsi, bir sıra ərəb ölkələrində baş verən ictimai-siyasi hadisələr, müxtəlif ölkələrdə özünü göstərən etnik münaqişələr, dini-fundamentalist cərəyanlar, beynəlxalq terrorizm təhlükəsi və s. problemlər bütün dünyada bu regiona marağı artırır. Təsadüfi deyil ki, son illərdə Amerika və Avropada yeni-yeni "Şərq araşdırmaları mərkəzləri" yaranır, region ilə bağlı nəşrlərin sayı artır. Elmi və siyasi ədəbiyyatda geniş müzakirə edilən ABŞ-ın "Böyük Yaxın Şərq" layihəsi yaxın gələcəkdə bu regionda gərginliyin artmasının gözlənildiyindən xəbər verir. Müstəqil Azərbaycanın milli və dövlət maraqları burada baş verən və gələcəkdə baş verə biləcək hadisələri ciddi təhlil edib nəzarətdə saxlamağı tələb edir.

Eyni zamanda, bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan üçün iqtisadi islahatlar və özəlləşdirmə, habelə bir sıra təbii ehtiyatların istismarı və istehsalı sahəsində qonşu Yaxın Şərq ölkələrinin təcrübəsindən öyrənilməsinə ehtiyac duyulur. Bu sahədə Avropa ilə yanaşı, mentalitet və milli-mənəvi dəyərlər baxımından bizə daha yaxın olan Şərq ölkələrinin təcrübəsinin müsbət və mənfi tərəflərinin tədqiqi aktuallıq kəsb edir. Bundan əlavə, Türkiyə, İran və ərəb ölkələri ilə iqtisadi əməkdaşlığı genişləndirən respublikamız üçün bu sahənin prioritet istiqamətlərini aydınlaşdırmaq lazımdır.

Bütün bunlarla əlaqədar, müstəqillik dönəmində institutun elmi fəaliyyət dairəsi daha da genişlənmiş, bir sıra yeni istiqamətlər müəyyənləşdirilmişdir. Hazırda institutda elmi tədqiqat işləri, əsasən, aşağıdakı istiqamətlər üzrə aparılır:

• Şərq ölkələrinin ictimai-siyasi, iqtisadi, mədəni inkişafının qanunauyğunluqlarının öyrənilməsi;

• Şərq xalqlarının tarixi, filoloji, dini-fəlsəfi irsinin tədqiqi; yazılı abidələrin araşdırılması, tərcüməsi və nəşri;

• Şərq-Qərb sivilizasiyalararası münasibətlərinin öyrənilməsi;

• Azərbaycan və Şərq xalqlarının tarixi-mədəni əlaqələrinin tədqiqi;

Akademik Əbdülkərim Əlizadə *Akademik Əlisöhbət Sumbatzadə* *Akademik Həmid Araslı*



Akademik Ziya Bünyadov *Professor Aida İmanquliyeva*

• Müstəqil Azərbaycan Respublikası ilə Şərq ölkələri arasında siyasi, iqtisadi, diplomatik və mədəni münasibətlərin araşdırılması və onlara dair proqnoz və tövsiyələrin işlənib hazırlanması.

İnstitutun ilk direktoru, görkəmli mənbəşünas və mətnşünas alim, akademik Ə.Ə.Əlizadə (1958-1963) olmuşdur. Sonralar instituta akademik Ə.S.Sumbatzadə (1963-1970), akademik H.M.Araslı (1970-1981), akademik Z.M.Bünyadov (1981-1986, 1988-1991, 1992-1997), professor A.N.İmanquliyeva (1991-1992) kimi görkəmli alimlər başçılıq etmişlər. Hal-hazırda institutun direktoru professor, müxbir üzv G.B.Baxşəliyevadır.

Azərbaycanda mətnşünaslıq elminin yaranması akad. Ə.Ə.Əlizadənin adı ilə bağlıdır. O, Nizami Gəncəvi, Fəzlullah Rəşidəddin, Məhəmməd ibn Hinduşah Naxçıvaninin irsinin toplanması, əsərlərinin elmi-tənqidi mətnlərini tərtib etməklə Azərbaycan elminə əvəzsiz xidmət göstərmişdir.

Özünün bütün yaradıcılıq qüvvəsini, çoxcəhətli istedadını Azərbaycan ədəbiyyatşünaslığının inkişafına və klassik ədəbi irsin öyrənilməsinə sərf edən akad. H.Araslının elmi-tədqiqat fəaliyyətində Azərbaycan və Şərq xalqları ədəbiyyatının orta əsrlər dövrünə aid problemləri həmişə mərkəzi yer tutmuşdur. Alimin Azərbaycan ədəbiyyatı tarixinin yaradılmasındakı xidmətləri xüsusi qeyd olunmalıdır.

Akad. Z.M.Bünyadovun elmi əsərləri Azərbaycanın və Yaxın Şərq ölkələrinin Ərəb xilafəti və orta əsrlər dövrü tarixinin tədqiqinə həsr edilmişdir. Azərbaycan elm və mədəniyyəti tarixində dərin iz qoymuş görkəmli alim orta əsr müəlliflərinin Azərbaycan, Yaxın və Orta Şərq xalqlarının tarixinə, elm və mədəniyyətinə dair əsərlərinin öyrənilməsi, şərhli tərcüməsi və nəşri işi ilə də məşğul olmuşdur.

F.ü.e.d., prof. A.N.İmanquliyeva Azərbaycanda ərəb ədəbiyyatşünaslığı məktəbinin yaranmasında müstəsna xidmətlər göstərmişdir. Keçmiş Sovet İttifaqında ərəb "məhcər" ədəbiyyatının aparıcı tədqiqatçısı olmuş A.N.İmanquliyeva fundamental araşdırmaları ilə Azərbaycan ərəbşünaslığını xeyli zənginləşdirmiş və inkişaf etdirmişdir.

Hal-hazırda instituta rəhbərlik edən AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. G.B.Baxşəliyeva ərəb ədəbiyyatının müxtəlif məsələlərinə və Azərbaycan-ərəb ədəbi əlaqələrinə dair 3 monoqrafiya, 11 kitab və 180-dən artıq elmi məqalənin müəllifidir. G.B.Baxşəliyeva elmi və təşkilatçılıq fəaliyyəti ilə yanaşı ölkənin ictimai-siyasi həyatında da yaxından iştirak edir. O, 2001-ci il parlament seçkilərində Azərbaycan Respublikası Milli Məclisinə üzv seçilir.

İnstitutun kollektivi öz elmi fəaliyyətini şərqşünaslığın ən aktual problemlərini tədqiq etməyə yönəltmişdir. Türkiyə, İran və ərəb ölkələrinin tarixi, ictimai-siyasi və iqtisadi inkişafı, Şərq xalqlarının filologiyası, islam tarixi, müasir Yaxın Şərqdə din və ictimai fikir cərəyanları və digər sahələr institut əməkdaşlarının diqqət mərkəzindədir. Son illər xüsusi aktuallıq kəsb edən Güney Azərbaycanın iqtisadi, ictimai və mədəni inkişaf problemləri, habelə islam fundamentalizmi və s. bu kimi məsələlərin tədqiqi də daha geniş vüsət almışdır.

Ötən müddət ərzində institutda 600-dən çox monoqrafiya, məqalələr məcmuəsi və kitab və yeddi mindən çox elmi məqalə nəşr edilmişdir.

1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə Şərqşünaslıq İnstitutuna akad. Z.M.Bünyadovun adı verilmişdir.

Hazırda akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda çalışan elmi əməkdaşların sayı 96 nəfərdir. Bunlardan 2 nəfəri AMEA-nın müxbir üzvü, 8 nəfəri elmlər doktoru, 52 nəfəri isə fəlsəfə doktorlarıdır.

İnstitutda 12 şöbə fəaliyyət göstərir: Türkiyə tarixi və iqtisadiyyatı, İran tarixi və iqtisadiyyatı, Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı, Türk filologiyası, İran filologiyası, Ərəb filologiyası, Mənbəşünaslıq və yazılı abidələrin təd-

qiqi və nəşri, Din və ictimai fikir tarixi, Cənubi Azərbaycan, Şərq-Qərb, Mərkəzi Asiya və Uzaq Şərq ölkələri, Nəşriyyat və elmi informasiya təminatı şöbələri.

İnstitut əməkdaşları Azərbaycan şərqşünaslığını bir çox beynəlxalq konqres, konfrans və simpoziumlarda, o cümlədən şərqşünasların XXIV, XXV, XXIX, XXXI, XXXII və XXXVII Beynəlxalq konfranslarında (AFR, SSRİ, Avstraliya, Fransa, Yaponiya, Rusiya), Türk Tarix Qurumunun konqreslərində və s. təmsil etmiş, Amerika Birləşmiş Ştatları, Almaniya, Avstriya, Böyük Britaniya, Fransa, Hollandiya, Rusiya, Çin, Cənubi Koreya, Türkiyə, İran, Misir, Malayziya, İsrail, Hindistan, Gürcüstan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və s. ölkələrdə keçirilən şərqşünaslığın müxtəlif problemlərinə həsr edilmiş konfrans və simpoziumlarda iştirak etmişlər.

İnstitutun hazırda Türkiyə, Rusiya, Almaniya, Hollandiya, İran, Birləşmiş Ərəb Əmirlikləri, Misir Ərəb Respublikası və s. ölkələrin universitet və elmi mərkəzləri, habelə Türk Tarix Qurumu ilə sıx elmi əlaqələri vardır. Həmçinin institut UNESCO-nun dəstəyi ilə fəaliyyət göstərən Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutunun Azərbaycan üzrə əlaqələndiricisidir. Müstəqillik illərində İnstitut bir sıra mühüm beynəlxalq elmi konfrans və simpoziumların təşkilatçısı olmuşdur: Mustafa Kamal Atatürkün anadan olmasının 110 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfrans (Bakı, 1991),

Hollandiyanın Utrext Universiteti ilə birlikdə "Azərbaycan və qonşu ölkələrdə XX əsrin əvvəllərində ictimai-siyasi fikir və ideoloji reallıqlar" mövzusunda Beynəlxalq elmi konfrans (Bakı, 1997), Türkiyə Respublikasının yaranmasının 75 illiyinə həsr olunmuş Beynəlxalq konfrans (Bakı, 1998), "Qafqazda islam sivilizasiyası" adlı Beynəlxalq simpozium (Bakı, 1998), Osmanlı dövlətinin yaranmasının 700 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfrans (Bakı, 1999), Böyük İran şairləri Hafiz Şirazi və Sədi Şiraziyə həsr olunmuş Beynəlxalq elmi-ədəbi konfranslar (Bakı, 2002; Bakı, 2003), Mirzə Kazım bəyin 200 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfrans (UNESCO ilə birlikdə, Bakı, 2003), "Qloballaşma və islam" mövzusunda Beynəlxalq elmi konfrans (Bakı, 2004; Bakı, 2005), "İranda Məşrutə inqilabı - 100" mövzusunda Beynəlxalq elmi konfrans (Bakı, 2005), "Şərq və Qərb arasında dialoq" mövzusunda Beynəlxalq elmi konfrans (Rumıniyanın Kluj-Naboka şəhəri, 2010), "Şərq xalqlarının Bakı qurultayı - 1920: tarix və reallıqlar" mövzusunda Beynəlxalq elmi konfrans (Bakı, 2010), "Müasir şərqşünaslığın aktual problemləri" mövzusunda Beynəlxalq elmi konfrans (Bakı, 2011), Akademik Ziya Bünyadovun 90 illiyinə həsr olunmuş "Orta əsrlər Şərqinin tarixşünaslığı və mənbəşünaslığı" mövzusunda Beynəlxalq elmi simpozium (Bakı, 2012), "Nizami Gəncəvi və Şərq ədəbiyyatları" mövzusunda Beynəlxalq elmi konfrans (Bakı, 2012), "Türk dünyasını işıqlandıranlar: M.Akif Ersoy, Hüseyn Cavid" mövzusunda Beynəlxalq elmi konfrans (Bakı, 2013), akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş "Azərbaycan Şərqşünaslıq elminin inkişaf yolları" mövzusunda beynəlxalq elmi konfrans (Bakı, 2013), "Türkiyə Cümhuriyyəti-90" mövzusunda Beynəlxalq elmi konfrans (Bakı, 2013) və s.

İnstitut alimlərindən bir nəfəri Azərbaycan Dövlət mükafatına, üç nəfəri H.Z.Tağıyev adına mükafata, bir nəfəri A.A.Bakıxanov adına mükafata layiq görülmüşlər. Üç nəfərə Azərbaycanın əməkdar elm xadimi fəxri adı verilmişdir.

Hazırladı: Vüqar Məmmədov,
filologiya üzrə fəlsəfə doktoru

Çanaqqala zəfərinin 100-illiyinə həsr olunmuş konfrans keçirilib

AMEA akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu mayın 13-də Çanaqqala zəfərinin 100-illliyinə həsr olunmuş elmi konfrans keçirib. AMEA-nın əsas binasının 2-ci mərtəbəsindəki konfrans zalında təşkil olunmuş konfransın mövzusu "Çanaqqala zəfəri: 1915-ci il I Dünya müharibəsinin tələtümləri və Osmanlı imperiyası" idi.

Konfransı giriş sözü ilə açan millət vəkili, Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü **Gövhər Baxşəliyeva** Çanaqqala savaşının qardaş türk xalqının qələbə, hünər və rəşadət tarixinin ən parlaq səhifəsi olduğunu qeyd edib: "Bu zəfər türk şəhidlərinin və qazilərinin dünya tarixinə qanları ilə yazdıqları ən qiymətli qəhrəmanlıq salnaməsidir. Çanaqqala zəfəri işğalçı qoşunların birləşmiş qüvvələrinə, Türkiyə dövlətini birdəfəlik yox etmək siyasətinə qarşı türk xalqının və qəhrəman türk əsgərinin ölüm-qalım savaşı, dirənişi və mübarizəsidir".

G.Baxşəliyeva bildirib ki, Çanaqqalada türk əsgərləri və onlara qoşulan, sıralarında azərbaycanlıların da olduğu digər könüllülər, faktiki olaraq, türk xalqının iradəsinin məğlubedilməzliyini ortaya qoydular, xalqı və dövləti məhv olmaqdan xilas etdilər.

"Antanta" ittifaqında cəmləşmiş imperialist güclərin Osmanlı dövlətinin süqutundan öz məqsədləri üçün istifadə etmək, türk torpaqlarını öz aralarında bölmək və beləliklə də onun varlığına birdəfəlik son qoymaq məqsədini xatırladan Gövhər xanım düşmənin ordularına və hərbi donanmasına qarşı igidliklə müqavimət göstərən türk əsgərinin öz vətənini və milli varlığını qoruyaraq, əsl qəhrəmanlıq salnaməsi yaratdığını qeyd edib.

G.Baxşəliyeva Çanaqqala zəfərinin həm də türk dünyasının tarixində, o cümlədən, Azərbaycan tarixində böyük bir hadisə olduğunu söyləyib və Anadolu türklərinin müharibə meydanında qəhrəmanlıqla düşmənə sinə gərməsinin Azərbaycan xalqını da öz milli hüquqları və müstəqilliyi uğrunda mübarizəyə ruhlandırdığını vurğulayıb.

Sonra konfrans iştirakçıları Çanaqqala döyüşlərində və digər döyüşlərdə vətən torpaqlarının müqəddəsliyini və toxunulmazlığını qoruyarkən həyatlarını itirmiş, şəhid olmuş yüz minlərlə qəhrəman türk və Azərbaycan əsgərinin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Daha sonra millət vəkili, AMEA-nın vitse-prezidenti, akademik **İsa Həbibbəyli** çıxış edib.

Çanaqqala hadisələrinin türk xalqlarının tarixində əhəmiyyətindən danışan İ.Həbibbəyli, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu zəfərin 100-illiyi münasibətilə Türkiyədə keçirilmiş təntənəli mərasimdə iştirakının bu önəmli tarixi qələbənin Azərbaycan xalqı üçün nə qədər böyük əhəmiyyət daşımasının göstəricisi olduğunu söyləyib. İ.Həbibbəyli istər Çanaqqala savaşlarında azərbaycanlıların türk xalqına dəstək olma-

sının, istərsə də Bakıda türklərin azərbaycanlıları dəstəkləməsinin qardaş xalqlarının bir-birinə nə qədər bağlılığının göstəricisi olduğunu söyləyib. Çıxışda AMEA-da da istər Çanaqqala zəfəri, istərsə də ermənilərin törətdikləri soyqırımları ilə bağlı keçirilən tədbirlərdən söz açılıb, tarixdə baş verən önəmli hadisələri bir daha öyrənməyin və dünya ictimaiyyətinə çatdırmağın əhəmiyyəti vurğulanıb.

Türkiyənin Azərbaycandakı səfiri **Alper Coşqun** çıxış edərək, Çanaqqala zəfərinin türk xalqının tarixindəki mühüm əhəmiyyətindən danışıb. Səfir tək Çanaqqala hadisələrini izləməklə həmin savaşın gerçəkliyini anlamağın mümkünsüz olduğunu deyərək, bunu üçün türk tarixinə daha öncəki illərdən nəzər

salmağın vacibliyini vurğulayıb və bu istiqamətdə baş verən hadisələrdən də söz açıb.

AMEA Şərqşünaslıq İnstitutunun direktor müavini, müxbir üzv **Şahin Mustafayev** Çanaqqala zəfərini Anadolu tarixinin öncəki əsrlərdə böyük zəfərləri fonunda nəzərdən keçirərək 1915-ci ildəki qələbənin əhəmiyyətini onu artıq zəifləmiş, süqut edən Osmanlı dövlətinin qazanması ilə

əlaqələndirib. 600 illik imperiyanı xilas etmək olmasa da, rəşadətli türklər yeni bir Türkiyə qurmağa müvəffəq oldular. Ş.Mustafayev çıxışında Çanaqqala zəfəri yolunda türklərin hansı çətinliklərdən, hansı sınaqlardan çıxmasından danışıb.

Sonra Çanaqqala hadisələrini əks etdirən tarixi kadrlar nümayiş etdirilib.

Konfrans işini elmi məruzələrlə davam etdirib. AMEA A.Bakıxanov adına Tarix İnstitutunun «Qafqaz tarixi» şöbəsinin müdiri, t.ü.e.d. **İradə Bağırova** I Dünya müharibəsində böyük dövlətlərin Şərq siyasətinin Osmanlı imperiyasında əksindən söz açıb. Müharibənin başlanmasının səbəbkarları olan dövlətlərin - Almaniya, İngiltərə, Fransa, Avstriya-Macarıstan və Rusiyanın məqsədlərindən danışan İ.Bağırova müharibəyə ümumiyyətlə 38 ölkənin cəlb edildiyini deyib. 1914-ci il oktyabrın 31-də Rusiyanın rəsmi surətdə Türkiyəyə müharibə elan etməsi ilə Osmanlı dövlətinin I Dünya müharibəsinin iştirakçısına çevrildiyini xatırladan məruzəçi qeyd edib ki, Türkiyə hərbi əməliyyatları beş cəbhədə - Qafqaz və Suriya-Fələstin cəbhələrində, Şərqi Frakiyada və İranla sərhəddə aparırdı: "Ən iri hərbi qüvvələr Qafqaz cəbhəsində yerləşdirilmişdi. Bu müharibədə Osmanlı dövləti həm böyük zəfərlər əldə etmiş, həm də məğlubiyyətlərə uğrayaraq, sonda parçalanma təhlükəsi ilə üzləşdi və Osmanlı imperiyasının süqutu həm müasir ərəb dünyasının, həm də Türkiyə respublikasının yaranmasına təkan verdi.

Şərqşünaslıq İnstitutunun əməkdaşı **Hüseyn Günəşli** Çanaqqala savaşları və bunun nəticələri ilə bağlı danışmazdan əvvəl o dövrün siyasi, iqtisadi vəziyyəti və I Dünya müharibəsinin baş vermə səbəbləri haqqında məlumat verib. Daha sonra o, I Dünya müharibəsinin başlanması, Çanaqqala cəbhəsinin açılması, bu cəbhədə baş vermiş dəniz, quru və

hava hərəkatları haqqında geniş məlumat verib, Çanaqqala cəbhəsində baş vermiş müharibənin bitməsi, Çanaqqala zəfərinin I Dünya müharibəsinin gedişatına və hadisələrin sonrakı hərbi-siyasi durumuna əsaslı surətdə təsiri və ən əsası bu zəfərin türk xalqının gələcək taleyinə təsiri haqqında söz açıb.

Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, t.ü.e.d. **Solmaz Rüstəmova-Tohidi** öz məruzəsində 1915-ci ildə Osmanlı imperiyasında erməni siyasi təşkilatlarının terrorist və təxribat fəaliyyətlərinin nəticələrindən danışıb. Türkiyə ordusunda müharibə ərəfəsində 80 min ermənin olduğunu bildirən məruzəçi, müharibə başlanan zaman onlardan 15 mininin rusların tərəfinə keçdiyini, qalanlarının da bir çoxlarının türk ordusuna arxadan zərbə endirdiklərini vurğulayıb. S.Rüstəmova-Tohidi, ümumiyyətlə, ermənilərin həmin dövrlərdə istər rus, istərsə də türk ordusunun tərkibinə girmələrində əsas məqsədlərindən birinin kütləvi surətdə silahlanma olduğunu nəzərə çatdırıb.

Şərqşünaslıq İnstitutunun böyük elmi işçisi, f.ü.f.d. **Səriyyə Gündoğdu** Çanaqqala savaşının

Mehmet Akif Ərsoy yaradıcılığında bədii əksi barədə məruzə edib. Məruzədə bildirilirdi ki, Çanaqqala hərbini şəxsən yaşayaraq "Çanaqqala dastanı"nı yazan və bu dastanla böyük zəfəri gələcək nəsillərin zehnində ölümsüzləşdirən Mehmet Akif Ərsoy, Çanaqqalada vuruşaraq şəhid olan türk əsgərinin qəhrəmanlığını dilə gətirib və bu əsəri ilə onlar üçün ən gözəl abidəni ucaldıb.

Konfransın sonunda tədbir iştirakçıları Şərqşünaslıq İnstitutunda türk tarixinə və ermənilərin Şimali və Cənubi Azərbaycanda azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımlarına aid nəşr edilmiş kitabların sərgisini izləyiblər.

Vüqar Məmmədov,
filologiya üzrə fəlsəfə doktoru.

Çanaqqala zəfərinin geosiyasi əhəmiyyəti

Dünyamalı Vəliyev
AMEA Şərqşünaslıq İnstitutunun Şərq-Qərb şöbəsinin müdiri, iqtisad üzrə elmlər doktoru

Heç bir zəfər məqsəd deyildir. Zəfər, ancaq özündən daha böyük olan məqsədə çatmaq üçün mühüm vasitədir. Məqsəd ideyadır. Zəfər ideyanın həyata keçirilməsinə etdiyi xidmətin əhəmiyyətinə görə öz dəyərini ifadə edir.

Mustafa Kamal Atatürk

XX əsr tarixə dünyanın yenidən bölüşdürülməsi uğrunda imperialist dövlətlər arasında mübarizənin başlanması və getdikcə kəskinləşməsi dövrü kimi daxil olmuşdur. Tarix bəşəriyyəti misli görünməmiş faciələrə düçar etmiş Birinci dünya müharibəsinə doğru sürükləyirdi. Fransız inqilabından sonra sürətlənmiş millətçilik axınları dünyada dövlət siyasəti statusu qazanmışdır. Millətlərin öz dövlətini yaratmaq düşüncəsi dünyaya hakim olmağa başlamışdır. Bu düşüncənin təsiri altında dövlətlərin nüfuz dairələrinin genişləndirilməsi uğrunda mübarizəsi kəskinləşərək dünyanın yenidən bölüşdürülməsi uğrunda mübarizəyə çevrilmişdir. Almaniya və İtaliya tarixin bu gedişatından güclü bir dövlət kimi meydana çıxmış və Avropada siyasi tarazlıqlar pozulmuşdur. Beləliklə sənaye inqilabından sonra xammal mənbələri və bazarın genişləndirilməsi uğrunda mübarizə ölkələr arasında rəqabəti daha da genişləndirmiş və dünyanı faciələrə doğru sürükləyən ən mühüm iqtisadi amil idi[1].

Məlum olduğu kimi XIX əsr və XX əsrin əvvəllərində Avropada sənayeləşmə geniş vüsət almış, qitədə minlərlə fabrik-zavod yaradılmışdır. Təkrar istehsalın davam etməsi üçün onların xammala olan ehtiyacı durmadan artırdı. Qitə xammal qaynaqları baxımından kiçik qitədir. Siyasi cəhətdən isə bir çox dövlətlərə bölünmüşdü. Satış bazarları da öz ağalığını getdikcə genişləndirən və istehsalı kütləvi xarakter almış nəhəng inhisarların tələbatına nisbətən çox məhdud idi. Ona görə də Avropa ölkələrinin çoxu xammal və satış bazarına olan ehtiyacını əsas etibarilə müstəmləkələr hesabına ödəyirdilər. Ancaq sürətlə artan istehsal yeni müs-

[1] A.Haluk Ülman, Birinci Dünya savaşına giden yol ve savaş, Ankara 2002, s. 18.

təmləkələr zəbt edilməsini tələb edirdi. Siyasi üstqurumda inhisarçı dövlət kapitalizmi yaradılmış, Avropa dövlətləri isə inhisarçı birliklərinin mənafeyinə tabe edilmişdir. Beləliklə sürətlə sənayeləşən ölkələr arasında sənaye istehsalını davam etdirmələri üçün yeni xammal qaynaqları əldə edilməsi və yeni satış bazarları ələ keçirilməsi uğrunda əsil yarış gedirdi.

Dünyanın yenidən bölüşdürülməsi uğrunda mübarizədə dövlətlər özlərinə tərəfdaş tapır, bloklaşma geosiyasətin aparıcı xəttinə çevrilmişdir. Bu mübarizədə Avropa iki bloka bölünmüşdü. Bir tərəfdə İngiltərə, Rusiya və Fransa kimi dünyanı az qala tamamilə ələ keçirmiş dövlətlər var idi[2]. Digər tərəfdə də, milli birliklərini təzəcə yaratmış və müstəmləkə axtarışına çıxmış olan dövlətlər dayanmışdı. Bunlar da Almaniya, İtaliya və Avstriya-Macarıstan dövlətləri idi.

Siyasi və iqtisadi mübarizə getdikcə hərbi qarşıdurmaya aparırdı. Siyasi qüdrətini ciddi şəkildə artırmış Almaniya güclənən sənayesinin böyük bir hissəsini silahlanmaya sərf edirdi. Bu rəqib dövlətləri də eyni addımı atmağa məcbur edirdi. Militarizm imperialist dövlətlərin dövlət siyasətinə çevrilmişdir.

Yaranmış yeni tarixi şərait çoxdandı "xəstə adam" adlandırılan Osmanlı İmperiyasını yer üzündən silmək və torpaqlarını öz aralarında bölüşdürmək imkanı yaratdı. Birinci dünya müharibəsinin başlanmasının əsil səbəbi Osmanlı İmperiyasını parçalamaq və torpaqlarını öz aralarında bölüşdürmək istəyi olmasa da, imperialist dövlətlər hələ Birinci dünya müharibəsinin başlanması ərəfəsində Sultan Türkiyəsini öz aralarında bölüşdürmək haqqında danışıqlara başlamışdılar. Onların 1915-1917-ci illərdə biri-biri ilə bağladıqları sazişlər İmperiyanın, demək olar ki, bütün torpaqlarının əlindən alınmasını və onlar arasında bölüşdürməsini nəzərdə tuturdu: Şərq vilayətləri Rusiyaya keçməli idi; Suriya və ətrafı Fransaya verilirdi; Mesopotamiya, habelə İzmir-Aydın dəmir yollarının keçdiyi əraziyə ingilislər göz tikmişdilər; Anadolu isə almanlar üçün nəzərdə tutulurdu[3].

Birinci dünya müharibəsindən bir az əvvəl, 1911-1912 illərdə Osmanlı Dövləti Afrikadaki son torpaqlarını İtaliyaya uduzmuş, 1912-1913-cü illərdə isə Rumelindəki son türk hakimiyyəti ləğv edilmişdir. Bolqar ordularının İstanbul qapılarını təhdid etməsi, 500 il Osmanlıya məxsus olan Rumelinin itirilməsi, İstanbul və boğazların təhlükəsizliyinin təhlükə altına alınması, o zamankı dövlət adamları üçün dünyada siyasi təcrid olunma əhval-ruhiyyəsi yaratmışdır və onlar vəziyyətdən çıxış yolları axtarmağa başlamışdılar.

Müharibə başlanandan bir gün sonra, 2 avqust 1914-cü ildə Osmanlı dövləti Almaniya ilə hərbi ittifaq haqqında məxfi müqavilə bağladı və Antantaya qarşı müharibəyə qoşulmağı öz öhdəsinə götürdü. Avqustun 3-də ölkədə hərbi vəziyyət elan edildi və ümumi səfərbərlik başlandı. 650 min nəfər orduya çağırıldı. Bitərəflik pərdəsi arxasında türk gəmiləri alman admiralı Suşonun komandası altında 29 avqust 1914-cü ildə Sevastopolu qəfildən bombaladı. Bununla da Osmanlı dövləti Birinci dünya müharibəsinə qoşulmuş oldu.

Boğazların əhəmiyyəti

Boğazlar, dünya coğrafiyasında tutduğu strateji mövqeyə görə Avropa ilə Asiyanı birləşdirərək siyasi, hərbi və iqtisadi baxımdan tarix boyu böyük əhəmiyyətə malik olmuşdur. Bunu yaxşı bilən böyük ölkələr, tarix boyunca onlara nəzarət etməyə çalışmışlar. Türkiyə üçün də Çanaqqala boğazı həm də onun Anadoludakı varlığını qorumanın əvəzsiz açarıdır.

Tarixin dərinliklərindən bəri dünyada böyük dəyişikliklər baş verdikdə geosiyasi əhəmiyyətli boğazlar daim təhdid altında olmuşlar. Çünki, boğazlara hakim olmaq bu coğrafiyada söz sahibi olmaq deməkdir. Ona görə də boğazlar isti okeanlara can atan Rusiya və dünya siyasətində ağalıq etmək istəyən İngiltərənin həmişə can atdığı yer olmuşdur.

İngiltərənin Uzaq Şərqə doğru gedən nəqliyyat yolları üzərində yerləşmiş Aralıq dənizi və ətrafının təhlükəsizliyini təmin etmək istəyi boğazların İngilislər üçün əhəmiyyətini hər gün daha da artırırdı. Çanaqqala savaşının başlanması haqqında qərar bir gün ərzində verilmiş qərar deyildi. Belə bir qərarın dərin tarixi kökləri vardır. Qərb dövlətləri üçün bu həm "Şərq Məsələsi", həm "Misir problemi" idi. Bunun həm də boğazlar haqqında tərəfdaş dövlətlərinin çoxdan düşündükləri böyük siyasi, iqtisadi və ictimai maraqları və məqsədləri var idi. Onlar hesab edirdilər ki, İstanbul və boğazları gec və ya tez onların nəzarətinə keçəcəkdir.

Dövlətlər arasında gedən bu sonsuz mübarizə Birinci dünya müharibəsinin mərkəzi xətlərindən birini

[2] Oral Sander, Siyasi Tarih: İlk çağlardan 1918-e, Ankara 1989, s. 172

[3] http://www.tariharastirmalari.com/birincidunyasavasi.html

təşkil edirdi. Bu müharibədə Antanta dövlətləri Almaniya ilə ittifaq bağlamış Osmanlı dövlətini oyundan kənar saxlamaq və Rusiyanın boğazlardan maneəsiz keçə bilməsini təmin etmək məqsədi ilə İstanbul və Çanaqqala boğazlarını ələ keçirmək üçün donanmalarını Çanaqqalaya yeritdilər və tarixin ən qanlı döyüşlərindən olan Çanaqqala savaşı başlandı.

Yaranmış hazırkı tarixi şəraitdə isə Gelibolu yarımadası geosiyasi baxımdan böyük əhəmiyyətə malik olduğu üçün döyüş meydanı kimi seçilmişdir. Çanaqqala savaşı Gelibolu yarımadası üzərində gedirdi. İngiltərə və Fransa, Gelibolu yarımadasını ələ keçirərək Çanaqqala boğazını açmaq və İstanbulu işğal etmək məqsədi ilə bu hərəkata başlamışdılar. Bu əməliyyatla onlar türklərin Avropa ilə əlaqələrini də tamamilə kəsməyə çalışırdılar. Lakin, bilindiyi kimi Gelibolu yarımadasının Osmanlı tarixində mühüm yeri vardır. Avropa qitəsində türklərin sahib olduğu ilk torpaqdır. Ona görə də bu torpaqların xüsusi əhəmiyyəti vardır.

Boğazlar, Cənubi Rusiya və bütün Qaradəniz sahillərinin açıq dənizlərə yeganə çıxış yoludur. Müharibə dövründə bu keçidin bağlanması, Rusiya üçün həyati əhəmiyyət kəsb edirdi. Çünki, Rusiya zəngin insani və xammal mənbələrinə malik olduğu halda, onun sənaye və maliyyə imkanları olduqca məhdud idi. Ona görə də onun uzunmüddətli döyüşlər baş verdikdə ordunun silah, sursat və maliyyə vəsaitinə olan tələbini ödəyə bilməsi qeyri-mümkün idi. Belə bir vəziyyətdə boğazlar şərq cəbhəsində ən münasib və həyati əhəmiyyət kəsb edirdi. Bu keçidin açılması Rusiyanı möhkəmləndirər, qərb cəbhəsinin yükünü yüngülləşdirər, müharibə isə qısa müddətli olardı. Osmanlı dövlətinin müharibədən kənar edilməsilə Balkan dövlətləri və İtaliya "Antanta" ittifaqına qoşula bilərdilər.

Müharibənin gedişində boğazların açılmasının Antanta üçün həm də çox böyük iqtisadi əhəmiyyəti də ola bilərdi. Rusiyanın ərzaq potensialı bu yolla Aralıq dənizinə çatdırılar və Qərb dövlətlərini ən çox narahat edən ərzaq problemi həll oluna bilərdi. Rusiyanın maliyyə vəziyyəti düzələ bilər, Qara dəniz limanlarında yığılan 350.000 ton qiymətli yükü olan 120 ticarət gəmisi azad olunar, müttəfiqlər də bunlardan faydalanma imkanı tapardılar.

Beləliklə Çanaqqala savaşının səbəblərini aşağıdakı kimi xülasə etmək olar:

- Antanta dövlətlərinin Çanaqqala boğazını keçərək, müharibədən kənarda qalması arzu olunmayan Çar Rusiyasına iqtisadi və hərbi yardım göstərməyə çalışmaları;

- Antanta dövlətlərinin boğazları və İstanbulu ələ keçirərək Osmanlı dövlətini döyüşdən kənarda saxlamaq istəyi;

- Antanta dövlətlərinin müharibəni qısa müddətdə başa çatdırmağa çalışmaları;

- Antanta dövlətlərinin Balkanlarda "Üçlər İttifaqına" qarşı yeni cəbhə açaraq, Balkan dövlətlərini öz tərəflərinə çəkməyə çalışmaları.

İngilis hərb tarixi Çanaqqala cəbhəsinin açılma səbəblərini belə izah edirdi:

"Düşmənə qarşı üstünlüyü ələ keçirmək üçün, Rusiyanın sonsuz insani gücündən faydalanmaq lazım idi. Bunun üçün onun təchizat, silah, sursat və maliyyə yardımına ehtiyacı var idi. Boğazlar açılmadıqca Rusiyaya lazımi köməklik göstərilə bilməyəcək və çox böyük hərbi potensialı olan Almaniyanı məğlub etmək üçün real əməkdaşlıq imkanı olmayacaqdı. Yalnız bu düşüncə əsasında belə strateji cəhətdən yeni hesab edilən hərəkət tərzi uyğun hesab edildi".[4]

Amma ingilis-fransız hərbi strateqləri öz hesablamalarında böyük səhvlərə yol vermişdilər. Bu savaş türk xalqının saysız-hesabsız zəfərlər və şan-şöhrətlə dolu olan tarixinin ən parlaq səhifələrindən biri oldu. Nəhəng hərbi üstünlüyə baxmayaraq Antanta dövlətləri böyük məğlubiyyətə uğradılar. Bu döyüşdə ingilislərin dünyada məşhur olan qüdrətli dəniz donanmaları, mina gəmisinin döşədiyi minalar türk topçularının sərrast atəşləri nəticəsində boğazın dərin sularında dəfn edildilər. Türk ordusunun Birinci dünya müharibəsində qazandığı Çanaqqala zəfəri müharibənin taleyini dəyişdirdi. Düşmən əsgərlərinin Gelibolu yarımadasında həyata keçirdikləri çıxarma əməliyyatları bir-birinin ardınca türk ordusu tərəfindən darmadağın edilirdi. Günlərlə davam edən qanlı savaşda türk ordusu yüz minlərlə şəhid verməsinə baxmayaraq, düşmənə Çanaqqaladan keçməyə imkan vermədi.

4 http://canakkalemuharebeleri.comu.edu.tr/index

Qələbədə Atatürk amili

Türk milləti tarix boyu müstəqillik və istiqlaliyyət şəraitində öz varlığını qoruyub saxlaya bilmişdir. Bunun üçün malik olduğu bir çox milli dəyərlərə borcludur. Tanınmış ingilis tarixçisi Arnold J.Toynbeenin dediyi kimi, dünyada 16 türk dövləti yaratmış türklərdə "köklü və dinamik dövlətçilik anlayışı dərin kök salmışdır."[5] Türk dövlətlərinin yaranması və yaşamasının qarantı və təminatçısı isə türk millətinin yüksək "əsgəri ruha" malik olmasıdır. Bir çox tarixçilərin göstərdikləri kimi türklər anadan "davakar doğulurlar", lakin bu davakarlıq haqq və ədaləti, istiqlaliyyəti özünə ideal seçən "igidlik" ruhuna, sarsılmaz nizam-intizama, silahlardan bacarıqla istifadə etmək məharətinə əsaslanır. Alman yazıçısı Volfqanq Hopkerin dediyi kimi, "Türklər sərt əsgərlərdir. Bütün tarix boyu ənənəvi olaraq dövlət halında təşkilatlanmış, silahlı bir millətdir...!"

Çanaqqala zəfərini də bu anlayış və ənənə təmin etmişdi. "Yaşaya bilmək üçün mən mütləq müstəqil dövlətin övladı olmalıyam" ifadəsi Çanaqqala zəfərinin əfsanəvi komandanı, türk xalqının xilaskarı Mustafa Kamal Paşanın həyat tərzi idi. Çanaqqala zəfərində Atatürk amili müstəsna rol oynamışdır. O, Birinci dünya müharibəsinin başlanması ilə artan siyasi və hərbi hadisələri diqqətlə izləyir, düşüncələrini hərbi nazirliyə bildirirdi. Mustafa Kamal bu hadisələrlə əlaqədar baş komandanlıqdan özünə fəal bir xidməti vəzifə istədi. Lakin bu istək uzun müddət yerinə yetirilmədi. Nəhayət, onun təkidi nəticəsində o, 20 yanvar 1915-ci ildə Tekirdağda təşkil edilən 19-cu diviziyaya komandan təyin edildi.

Gelibolu yarımadasında mühüm hadisələr baş verirdi. İngilis donanması 18 mart 1915-ci ildə Çanaqqala (Dardanel) boğazını keçməyə təşəbbüs etsə də, sahil topçularının müvəffəqiyyətli müdafiəsi nəticəsində məqsədinə nail olmadı və ağır itkilərə məruz qaldı[6]. Donanması ilə boğazı keçə bilməyən düşmən bu dəfə türkləri Gelibolu yarımadasında desant çıxarmaq ilə məğlub etməyə çalışdı. Arınburunundan Conkbayıra irəliləyən ingilis qüvvələri həmin gün Mustafa Kamalın komandirlik etdiyi 19-cu diviziyanın hücumu ilə geri çəkilməyə məcbur edildi[7].

Conkbayırın müdafiəsində türk əsgəri görülməmiş bir mətanət və cəsarətlə vuruşur, tarixin ən böyük qəhrəmanlıq səhnələrini nümayiş etdirirdi. Peşəkar hərbçi komandirlərə verdiyi əmrlərə bu cümləni əlavə edirdi: "Mən sizə hücum əmri vermirəm; ölməyi əmr edirəm! Biz ölənə qədər keçən zaman ərzində yerimizə başqa qüvvələr və komandirlər keçə bilər!". Ancaq düşmənin hər bir hücumu türk əsgərinin qəhrəmancasına müdafiəsi qarşısında müvəffəqiyyətsizliyə uğrayırdı. Mustafa Kamala, Çanaqqala cəbhəsindəki bu çox mühüm müvəffəqiyyətlərlə əlaqədar olaraq, 1 iyun 1915-ci ildə albaylıq (polkovnik) rütbəsi verildi.

Anafartalar rayonunda da vəziyyət gərginləşdi. Getdikcə genişlənən bu böhranlı vəziyyətlə əlaqədar olaraq, Liman fon Sandersinin əmri ilə komandanlıqda dəyişiklik edilərək, "Anafartalar qrupu komandanlığına" 8 avqust 1915-ci ildə albay Mustafa Kamal gətirildi. 9 avqust 1915-ci ildə komandanlığı ələ alan Mustafa Kamal gözlənilmədən həmin gün hücumla irəliləyən ingilis qüvvələrini təkrar desant çıxardıqları sahilə qay-



tardı. Həmin günün axşamı Conkbayır rayonuna keçmək istəyən həmin qüvvələri də 10 avqust 1915-ci ildə səhər tezdən hücuma keçirdi. Beləliklə, düşmənin irəliləməsinə imkan verilməmiş, əksinə, onlar tutduqları mövqelərdən tamamilə çıxarılaraq, Anafartalar rayonuna tam mənası ilə hakim olunmuşdu[8].

Mustafa Kamal 25 aprel 1915-ci il hücumunda olduğu kimi, 9 və 10 avqust həmləsində də bilavasitə atəş altında olmuş, atəş xəttindən əmrlər vermiş və belə hərəkətləri ilə tabeliyində olan zabit və əsgərlər üçün tükənməz cəsarət qaynağı olmuşdur. Conkbayırda ürəyinə tuşlanmış bir güllə cibindəki saata dəyib yerə düşdü və bununla da o açıq-aşkar ölümdən qurtardı. Bu döyüşlərin gedişində göstərdiyi qəhrəmanlıq, fövqəladə sərkərdəlik qabiliyyəti, ona ölkə daxilində və xaricində böyük şöhrət qazandırdı. Artıq o, "Anafartalar qəhrəmanı" kimi şöhrətlənirdi.

Çanaqqala döyüşləri 9 fevral 1915-ci ildə başlanmış və 17 dekabr 1915-ci ildə türk ordusunun qələbəsi ilə başa çatmışdır. İşğalçı dövlətlər dövrün ən müasir təchizatlı hərbi təyyarələri, müharibə gəmiləri və 525 min əsgərlə dənizdən və qurudan hücum edirdilər. Düşmənlər Çanaqqala cəbhəsində 506 top yerləşdirdik-

5 Atatürkçülük. İkinci kitap, Milli Egitim basımevi-İstanbul,1988, s.212

6 A.Thomazi, Çanakkale deniz savaşı, çeviren Hüseyin Işık, Ankara 1997, s12.

7 İbrahim Artuç , 1915 Çanakkale savaşı, İstanbul 1992 , s322

8 M.K. Atatürk, Anafartalar Muharebatına ait tarihçe , TTK 1962, s.8.

ləri halda, türk istehkamlarında cəmi 150 top var idi.

18 mart 1915-ci ildə axşam ingilis xəfiyyə zabitləri baş qərargaha belə bir hesabat göndərdilər: "Çanaqqaladaki türk istehkamları dağıdılmışdır. Dəniz çıxıntıları və körfəzdə partlayıcı maddələr yoxdur. Müdafiə olunan səngərlər çöküntü vəziyyətindədirlər. Hücumun qələbə ilə başa çatması üçün heç bir mane qalmamışdır". Bütün İngiltərədə qələbə mahnıları oxunmağa başlanmışdı.

Lakin hücumdan sonra işin, əslində, nə yerdə olduğunu ingilis generalı Mondun aşağıdaki sözləri açıq-aşkar göstərirdi: "Başqa millət, artıq müharibəni uduzduq deyərək, silahını tərk etmək istədiyi nöqtədə, türklər üçün, türk əsgəri üçün, müharibə yenidən başlayır. Bu insanların qəlbində yalnız və yalnız ülvi vətən sevgisi vardır. Ölümə onlar qədər gülümsəyərək gedən bir millət fərdi heç yerdə görünməmişdir". Müttəfiq orduları komandanı general Hamilton isə deyirdi: "Yalnız bu gün içində bomba olan 180 mərmi atdıq. Aylardır ki, gecə-gündüz müharibə gəmiləri mövqeləri bombalayır. Türkləri qoruyan CƏNABİ-ALLAHDIR". 287 gün

davam edən müharibənin sonunda(10 yanvar 1916-ci il) İttifaq dövlətləri məğlubiyyətlərini qəbul edərək geri çəkilməyə məcbur oldular[9]. İşğalçı dövlətlər Çanaqqalada 200 min ingilis, 48 min fransız, 10 min Yeni Zenlandiya, 6 min hindli əsgər itirdilər.

Mustafa Kamal Çanaqqala döyüşləri haqqında yazırdı:" Çanaqqala "Quran" ruhuyla qazanıldı. Dünya hərb tarixində misli olmayan bir hadisədir[10].

Aylarla davam edən əməliyyatlara və döyüşlərə baxmayaraq, irəliləyə bilməyən ingilislər, nəhayət, 1915-ci ilin dekabrında müttəfiqlərlə bərabər Çanaqqaladan geri çəkildi. Lord Kinross yazırdı: "...Atatürk, bir tərəfdən savaş adamıdır; digər tərəfdən də, sülh adamıdır. Malik olduğu böyük hərbi düha millətini çökməkdən qurtarmış; malik olduğu keyfiyyəti isə həyatına işıq salmış millətinin yenidən doğulmasını təmin etmişdir"[11].

Heç şübhə yoxdur ki, hadisələrin belə gedişi böyük dövlətlər üçün gözlənilməz bir nəticə idi. Lakin türk milləti üçün bu ağır sınaq ölüm-dirim müharibəsi idi. Çanaqqala qələbəsi milli ruhu gücləndirmiş və millətin yaddaşında dərin izlər buraxmışdır. Zaman keçdikcə onun dəyəri daha çox dərk edilməyə başlamışdır. Tarixin gedişini dəyişdirən və bir çox dünya dövlətlərinin taleyini müəyyən edən Çanaqqala savaşı, Osmanlı dövlətinin də müqəddəratını həll etmişdir. Bu dövlətin köksündə gələcəkdə yaranacaq gənç Türk Cümhuriyyətinin ilk qığılcımları da məhz möhtəşəm Çanaqqala zəfəri ilə alovlandı.

Tarixdə silinməz izlər qoyan və bütün dünya tərəfindən birmənalı olaraq qəbul edilən bu zəfərin geosiyasi əhəmiyyəti elmi dairələrdə dörd qrupa bölünür:

1. İngiltərə və Fransadan yardım ala bilməyən Rus Çarizmi çökdü, Bolşevik İnqilabı qalib gəldi. Bununla da, Rusiya 1919-cü ildə bağlanan Sevr ve Versall kimi bölüşdürücü sazişlərə qatıla bilmədi və oyundan kənarda qaldı. Bu Türkiyənin xeyrinə oldu.

2. Milli Azadlıq Hərəkatının ilk qığılcımının məhz Çanaqqalada yarandığı tarixçilər tərəfindən birmənalı olaraq qəbul edilir. Mustafa Kamal bu cəbhədə göstərdiyi şücaəti, hərbi dahiliyi və uzaqgörənliyini bütün dünyada sübut etmiş və qurtuluş savaşının lideri olmasına səbəb olmuşdur**.** Milli Azadlıq Hərəkatının əsas aparıcı komandanlarının demək olar ki, hamısı Çanaqqala cəbhələrində döyüşürdülər.

3. Bu tarixi zəfərin bütün dünyada böyük ideoloji və psixoloji əhəmiyyəti var idi. Türk əsgərləri Çanaqqala savaşında fövqəladə bir mübarizlik nümunəsi göstərərək, nəyin bahasına olursa olsun, düşmənin mənfur məqsədinə çatmasına imkan verməmişdir. Bu misilsiz qələbə, mili mübarizə ruhunu ölkədə oyatdığı kimi, "milli qurtuluş fikrini" müstəmləkə altında olan bütün dünya ölkələrinə yaymışdır. "Məğlubedilməz" hesab edilən İngiltərə Ordusunun türklər tərəfindən darmadağın edilməsi, başda Hindistan olmaqla müstəmləkə və yarımmüstəmləkə ölkələrində Milli azadlıq hərəkatlarının alovlanmasına yol açdı.

4. Çanaqqala Savaşı dünyanın iqtisadi inkişafına da öz təsirini göstərmişdir. Belə ki, tarixçilərin fikrincə Çanaqqalada özünü göstərən dirəniş nəticəsində Birinci dünya müharibəsi iki il uzanmışdır. Müharibənin uzanması prosesində Avropa sənayesi özünün hərbi ehtiyaclarının ödənilməsinə xidmət etmiş, qitənin sənaye məhsullarına olan tələbatını isə ABŞ və Yaponiya qarşılamışdır. Bununla da həmin ölkələrin iqtisadiyyatı güclənmişdir.

9 Alan Moorehead, Çanakkale geçilmez, tər: Günay Salman, İstanbul 1972, s 315.

10 Dr. İsmet Görgülü: ÇANAKKALE ZAFERİ VE ATATÜRK; Ankara Üniversitesi Türk İnkılap Tarihi Enstitüsü Atatürk Yolu Dergisi Cilt: 4 Sayı: 16 Yayın Tarihi: 1995; Sayfa 492 (Pdf sayfa 2)

11 Em.Korg. Cemal Enginsoy. Atatürk ve Askerlik.Atatürkçülük. İkinci kitap, Milli Egitim basımevi-İstanbul,1988,s.211-214

Birinci dünya müharibəsində böyük dövlətlərin Şərq siyasəti

İradə Bağırova
AMEA Tarix İnstitutunun Qafqaz tarixi şöbəsinin rəhbəri, tarix üzrə elmlər doktoru

1914-cü ilin iyununda bəşəriyyət tarixində öz miqyası və qurbanlarına görə o vaxtadək misli görünməmiş müharibə - Birinci dünya müharibəsi (28 iyul 1914 - 11 noyabr 1918) başlandı.

Müharibənin başlanmasının səbəbkarları onun iştirakçısı olan bütün aparıcı dövlətlər - Almaniya, İngiltərə, Fransa, Avstriya-Macarıstan və Rusiya idi. Lakin İngiltərə, Rusiya və digər dövlətləri sıxışdıraraq, silah gücünə dünyanı yenidən bölüşdürüb pay almağa can atan Almaniyanın müharibənin başlanmasında əsas rol oynaması şübhəsizdir. Buna baxmayaraq, vuruşan hər iki hərbi blok - Antanta və Dördlər İttifaqı bu müharibədə öz məqsədlərini güdürdülər. Almaniya baş qərargahında keçirilən müşavirələr zamanı Rusiyanı məhv etmək üçün bir neçə plan çözülmüşdü ki, onlardan biri Peterburqa hücum idi, digəri isə cənubda kömür şaxtalarının və neft mədənlərinin ələ keçirilməsi və ya dağıdılması idi. Neft istehsalı uğrundakı mübarizədə itirilmiş mövqeləri geri qaytarmaq cəhdləri ilə yanaşı, inhisarçı alman burjuaziyasının ideoloqları Skandinaviyadan Fars körfəzinədək çox böyük əraziləri əhatə etməli olan «ümumalman reyxi» yaradılması proqramını işləyib hazırlayırdılar. Almaniyanın hökumət məmuru Rudolf Martin hələ müharibədən xeyli əvvəl, 1907-ci ildə nəşr etdirdiyi «Berlin-Bağdad» adlı kitabında almanların hakimiyyəti altında Bakı və bütün Qafqazı əhatə edəcək «Tiflis canişinliyi» yaradılmasını Almaniya və Rusiya arasındakı gələcək müharibənin məqsədlərindən biri adlandırırdı. Həmin canişinlik bütün Qafqazı, o cümlədən Abşeronun neft yataqlarını da əhatə etməli idi[1].

Müharibənin gedişində Bolqarıstan Üçlər ittifaqı, ABŞ və Rumıniya isə Antanta tərəfindən əməliyyatlara qoşuldu. Döyüşən bloklardan hər biri öz məqsədlərini güdürdü. Müharibənin başlanmasının həlledici amili müstəmləkələr və təsir dairələri üstündə Almaniya və İngiltərə arasındakı barışmazlıq olsa da, digər iştirakçı dövlətlər arasında da mühüm ziddiyyətlər mövcud idi. Rusiya və Almaniya Konstantinopol və boğazlar üstündə, Rusiya Osmanlı dövləti ilə Qərbi Anadolu və Konstantinopola görə, Rusiya və Avstriya Balkanlarda hökmranlıq uğrunda mübarizədə bir-biri ilə rəqabət aparırdı.

Böyük Britaniya hökuməti müharibə yolu ilə Almaniyanı zəiflətmək, onun müstəmləkələrinin bir hissəsini ələ keçirmək, Osmanlı İmperiyasını bölüşdürmək ümidində idi. Fransız hökuməti də buna nail olmaq istəyirdi, lakin fransızlar, 1870-1871-ci illərdə Almaniya ilə olan müharibədə itirilmiş Elzas və Lotaringiya vilayətlərini də geri almaq, Almaniyanın Reyn vilayətinin bir hissəsini ələ keçirmək arzusunda idi. Rus çarizmi isə öz növbəsində Balkanlarda, Bosfor və Dardanel boğazlarında öz hökmranlığını yaratmağa, İstanbulu (Konstantinopolu) ələ keçirməyə çalışırdı. Beləliklə, qlobal xarakter almış ziddiyyətlərin mürəkkəbliyi üzündən bu müharibəyə ümumiyyətlə 38 ölkə cəlb edilmişdi və onu dünya savaşına çevirdi[2].

Ümumiyyətlə, bu dövrdə hələ XVII əsrdə başlanmış və Şərq məsələsi adlandırılan beynəlxalq münaqişələr öz pik həddinə çatmışdı. Şərq məsələsi deyiləndə, böyük dövlətlərin - Avstriya, Böyük Britaniya, Rusiya, sonralar isə Almaniya və İtaliyanın zəifləməkdə olan Osmanlı imperiyasının torpaqlarını bölüşdürmək uğrunda mübarizəsi nəzərdə tutulur. Vaxtilə üç qitəyə hökm etmiş Osmanlı imperiyası XX əsrin əvvəlində süquta doğru gedirdi. Xaricdə və ölkə daxilində baş verən proseslər Osmanlı dövlətini çökdürür, ölkələr bir-bir əlindən çıxır, gücü zəifləyirdi. Trablus və

Balkan savaşlarında məğlub olan Türkiyə Şərqi Trakiya xaricində Avropadakı bütün torpaqlarını əldən vermişdi. Məhz bu dövrdə digər imperiya qüvvələri öz planlarını həyata keçirməyə hazırlaşırdılar. Rusiya boğazları ələ keçirib "isti dənizlərə" çıxmağı hədəfləyərkən, İngiltərə Süveyş kanalı və Hind okeanına yolun təhlükəsizliyi üçün Fələstini ələ keçirmək planını hazırlayır, Fransa Livan, Suriya və Kilikiyanın idarəçiliyini arzulayır, almanlar Şərqə yiyələnmək siyasəti güdür, italyanlar isə Antalyaya sahib olmaq istəyirdilər. Yaranmış vəziyyətdən istifadə edən Osmanlı imperiyasının xristian xalqları, o cümlədən ermənilər də öz müstəqilliyini əldə etmək üçün mübarizəyə başladılar[3].

Osmanlı dövləti Fransaya, İngiltərəyə, sonra isə hətta Rusiyaya da hərbi-siyasi ittifaq təklif etsə də, Türkiyəni parçalamaq istəyən bu dövlətlərin heç biri "gənc türklərin" təklifini qəbul etmədi. Nəhayət Ənvər paşanın təsiri altında Almaniya ilə hərbi ittifaq quruldu.

Müharibə ərəfəsində Almaniyadan Rusiyaya, o cümlədən də Cənubi Qafqaza çoxlu kəşfiyyatçılar qrupu göndərilmişdi. Onlar alman firmalarının bu diyardakı şöbələrində və müxtəlif alman mədəni-maarif cəmiyyətlərində fəaliyyət göstərərək, əhali arasında təşviqedici ədəbiyyat yayır, kəşfiyyatçılıq fəaliyyəti ilə məşğul olurdular. Bütün bu fəaliyyətin təşkil və əlaqələndirilməsində qraf fon Şulenburq başda olmaqla Tiflisdəki Almaniya konsulluğu, habelə Ərzurumdakı alman konsulu Edqar Andres böyük rol oynayırdı. Onlar həmçinin Almaniyanı Qafqaz xalqlarının müdafiəçisi, müstəqilliyinin tərəfdarları kimi təqdim edirdilər.

Alman kapitalı Cənubi Azərbaycanda da öz təsirini möhkəmləndirmək və Rusiyanı zəiflətmək üçün burada ticarət-sənaye kompaniyaları yaratmağa başladı. Bağdad dəmir yolunun bir qolu olacaq Bağdad-Həmədan-Tehran xəttinin alman sənayeçiləri tərəfindən hazırlanmış layihəsi onların planlarında böyük yer tuturdu[4].

Bu planların həyata keçirilməsində Almaniyanın iqtisadi plasdarmı, sonra isə hərbi müttəfiqi olmuş Türkiyəyə mühüm yer verilirdi. Alman bankları təkcə Türkiyə hökumətinin maliyyə təşkilatlarına rəhbərlik etməklə kifayətlənmirdilər, burada alman siyasətinin icraçısı rolunda çıxış edən «Döyçe bank» - «Almaniya bankı» Türkiyə iqtisadiyyatında aparıcı rol oynayırdı[5]. Osmanlı imperiyası üçün isə regionda ən böyük və təhlükəli rəqibi bu ölkəni Balkanlardan və

Qafqazdan sıxışdıran Rusiya idi. Bu gərgin geosiyasi vəziyyətdə Türkiyənin təbii müttəfiqi qismində Osmanlı dövləti ilə sərhədi olmayan və onun torpaqlarına yiyələnmək istəməyən Almaniya çıxış edirdi. Berlinlə İstanbulu yaxınlaşdıran həmçinin hər iki ölkənin Avropanın Yaxın Şərqə ekspansiyasının zəiflədilməsi və Rusiyanın regionda möhkəmlənməsinin qarşısını almaq idi. Almaniyanın rəhbər dairələrində böyük koloniyaları olan Rusiya, Britaniya imperiyalarının və Fransanın gücünü məhv etmək üçün panislamist ideyalarından inqilabi qüvvə kimi istifadə etmək çox populyar idi. Bunun bariz nümunəsi kayzer II Vilhelmin Suriyaya səfəri dövründə etdiyi bəyanat idi ki, yer kürəsində yaşayan 300 milyon müsəlman onun simasında daimi dost qazandı[6].

1914-cü ilin əvvəlində alman generalı Liman fon Sanders Türkiyə silahlı qüvvələrinə başçılıq etməyə başladı. Onunla birlikdə Türkiyəyə gəlmiş alman zabitlərinin böyük bir qrupu orduda mühüm vəzifələr tutmuşdular. Türkiyənin hərbi naziri, bir neçə il Türkiyənin hərbi attaşesi kimi Almaniyada yaşamış Ənvər paşa II Vilhelmlə şəxsən dost idi. Daxili işlər naziri Tələt paşa və hakim «İttihad və tərəqqi» Partiyasının bir çox digər xadimi də almanpərəst mövqe tuturdular.

Almaniya Yaxın və Orta Şərqdə öz ekspansionist planlarını həyata keçirmək, bu bölgədə İngiltərənin mövqelərinə zərbə vurmaq, habelə Qafqazı tutmaq üçün Rusiyaya qarşı Türkiyədən istifadə etmək niyyətində idi. Alman komandanlığı ləng tərpənən Osmanlıları tez hərəkata gətirmək üçün müharibənin zəfərlə başa çatması təqdirdə Qafqazın Türkiyəyə veriləcəyi haqqında Osmanlı rəhbər dairələrinə vəd etdi.

Özünün mənafeyi ilə bağlı planları olan Osmanlı dövləti müharibəyə qoşularaq onu cihad elan etdi və bütün dünya müsəlmanlarını köməyə çağırdı. Qafqaz, Orta Asiya, Krım və Volqaboyunun istilası Turan imperiyasının yaradılması işinin təməl daşı idi. Gənc Türklər Partiyasının görkəmli nümayəndəsi Rifat Mövlanzadənin məlumatlarına görə, hərbi nazir Ənvər paşa gənc türklər liderlərinin müşavirəsində bildir-

mişdi ki, Almaniyanın köməyi ilə türklər təkcə Makedoniyanı deyil, həm də Qafqaz və Misiri tutacaq və «İttihad və tərəqqi» Partiyasının hakimiyyətini dünyada ən güclü imperiyaya çevirəcəklər[7].

Qafqazda isə türkçülük və turançılıq ideyalarının əsaslarına söykənən siyasətin gerçəklənməsi üçün işlər görülürdü. Cənubi Qafqazın sonrakı statusuna gəldikdə isə, Türkiyə hökuməti gürcülərə özünün qalib gələcəyi təqdirdə müstəqil Gürcüstan dövlətinin yaradılacağını vəd etmişdi[8]. Gənc türklər hələ 1908-ci ildə hətta daşnaklarla da danışıqlara başlamışdılar. 1914-cü ildə Ərzurumda keçirilən daşnak qurultayında «İttihad və tərəqqi» partiyasının nümayəndələri daşnaklara Türkiyənin ermənilər yaşayan və müharibə nəticəsində Zaqafqaziyanın Rusiyadan alınacaq hissələrini özündə birləşdirəcək muxtar erməni dövləti yaradılmasını təklif etmişdilər[9]. Lakin daşnaklar gələcəkdə Türkiyə əleyhinə qiyamı bundan üstün tutdular və beləliklə də öz xalqlarının sonrakı taleyini müəyyənləşdirdilər.

Türkiyə Rusiya ilə müharibədə Cənubi Qafqaz və Dağıstandakı müsəlman xalqlarının köməyinə ümid bəsləyirdi. Lakin müharibə dövründə Türkiyə hökuməti Azərbaycanın müstəqilliyinə dair heç bir vəd vermir, onun gələcək Turan imperiyasının tərkibinə qatılmasını planlaşdırırdı.

Türkiyənin müharibəyə girməsi Almaniyanın mənafeyinə həm də ona görə cavab verirdi ki, rus ordusunun xeyli qüvvəsini Qafqaz cəbhəsinə cəlb etməklə almanların Avropa cəbhələrindəki hərəkətini asanlaşdırırdı. 1914-cü il oktyabrın 29-da türk və alman gəmiləri Sevastopol, Odessa, Novorossiysk və Feodosiyanı atəşə tutdu. Elə həmin gün almanların «Breslau» kreyseri Kerç boğazından çıxış yolunu minaladı. Bu hərəkətlərə cavab olaraq, Rusiya oktyabrın 31-də rəsmi surətdə Türkiyəyə müharibə elan etdi. Noyabrın 5-də Böyük Britaniya, 6-da isə Fransa Osmanlıya qarşı müharibə elan etdi. Suriya, Fələstin və Qafqazda yeni cəbhələr açıldı. Rus tarixçilərinin bir qismi hesab edir ki, Konstantinopol və boğazların zəbt edilməsi Rusiyanın strateji məqsədlərinə daxil deyildi, onlar yalnız öz gəmilərinin boğazlarda keçməsi üçün əlverişli şərait yaratmaq istəyirdilər[10]. Lakin reallıqda Rusiyanın ekspansionist planları heç kimdə şübhə doğurmurdu, bu planları konkret olaraq xarici işlər naziri S.Sazonov öz memorandumunda 1914-ci ildə səsləndirmişdi: "Boğazların güclü dövlətin əlinə düşməsi o deməkdir ki, Rusiya cənubunun bütün iqtisadi inkişafı həmin dövlətin bütövlüklə tabeliyinə keçir. Boğazlara nəzarət edən dövlət nəinki Qara və Aralıq dənizlərinin açarlarını öz əlində saxlaya, həmçinin Kiçik Asiyaya da, Balkanlarda da heqemonluğu əlinə keçirə bilər"[11].

Türkiyə hərbi əməliyyatları beş cəbhədə - Qafqaz və Suriya-Fələstin cəbhələrində, Şərqi Frakiyada və İranla sərhəddə aparırdı. Lakin ən iri hərbi qüvvələr Qafqaz cəbhəsində yerləşdirilmişdi. Buradakı hərbi əməliyyatlarda ümumi sayı 190 min nəfər olan 3-cü ordu iştirak edirdi[12].

Noyabrın əvvəllərində 3-cü ordu Ərzurum-Sarıqamış istiqamətlərindən hücuma keçdi, Batum vilayətinə girdi və Acarıstanadək irəliləməyə nail oldu. Burada ruslara qarşı qalxmış müsəlman acarlar onları sevinclə qarşıladılar.

İlk uğurlardan ruhlanan və buna böyük əhəmiyyət verən Ənvər paşa orduya komandanlığı şəxsən öz üzərinə götürdü və böyük hücuma başlamaq əmrini verdi. Türklərin bilavasitə vəzifəsi Qars və Sarıqamış arasında rus qoşunlarını məğlub etmək idi. Bu əməliyyatın uğurla qurtaracağı təqdirdə Zaqafqaziyanın istilası əslində həll edilmiş olardı.

1914-cü il dekabrın 9-dan 1915-ci il yanvarın 5-dək Sarıqamış istiqamətində yolsuzluq və sərt şaxtalar kimi çox ağır şəraitdə rus və türk qoşunları arasında döyüşlər gedirdi. Şimal cəbhəsində ruslar Ərdahandan vurulub çıxarıldı. Lakin tezliklə rus ordusunun qərargah rəisi general N.Yudeniçin başladığı əks hücum, habelə ağır hava şəraiti və türk qoşunlarının yorğunluğu nəticəsində 9-cu türk korpusu Sarıqamış yaxınlığında darmadağın edildi. Türkiyə əsgərlərinin xeyli hissəsi soyuqdan və aclıqdan öldü, 3500 nəfəri isə əsir götürüldü. Ümumiyyətlə, Sarıqamış əməliyyatında Türkiyə döyüşlərdə iştirak etmiş qüvvələ-

rinin 86%-dən çoxunu itirmişdi[13]. Sarıqamışdan sonra Qafqaz cəbhəsindəki döyüşlərin gedişində həlledici dönüş başlandı.

1915-ci ilin yazında erməni silahlı dəstələrinin kömək göstərdiyi rus qoşunları Şərqi Türkiyənin ermənilər yaşadığı ərazisinə soxuldular. Eyni zamanda daşnaklar yerli ermənilərin türklərə qarşı üsyan qaldırmalarına nail oldular. Daşnak liderləri silahlı qoşunlarla türk kəndlərinə hücum edərək, dinc əhalini qırmağa başladı. Buna cavab olaraq Türkiyə hökuməti bugünlər ermənilərin qondarma soyqırımı günü kimi qeyd etdikləri 24 aprel günü 2345 erməni liderini həbs etdirdi. 1915-ci ilin 27 mayında isə Osmanlı dövləti «Köç» qərarı çıxartdı və ermənilərin kütləvi surətdə köçürülməsini əmr etdi. Bu deportasiyanın gedişində xeyli miqdarda dinc əhali zərər çəkdi. Eyni zamanda general Lyaxovun rus dəstələri Batuma girərək türklərə kömək göstərdiyinə görə acar əhalisinin 90%-ni qırdı[14].

Yuxarıda qeyd olunduğu kimi, hələ müharibə başlamamışdan öncə Böyük dövlətlər Türkiyəni nüfuz dairələrinə bölüşdürmüşdülər. Müharibənin başlanması isə İngiltərə, Fransa və Rusiyaya Osmanlı imperiyasını parçalamaq haqqında konkret danışıqlara təkan verdi. Danışıqlar ikitərəfli formatda gedirdi: Böyük Britaniya-Rusiya (1915-ci il, 2 mart), Britaniya-Fransa (1916-ci il, 3 yanvar), Fransa-Rusiya (1916-ci il, 26 aprel)[15]. Bu danışıqların nəticəsində imzalanmış saziş Sayks-Piko müqaviləsi adını aldı (Fransanın Beyrutda sabiq baş konsulu Jorj Piko və İngiltərənin Şərq üzrə mütəxəssisi Uork Sayksın adı ilə). Maraqlı fakt odur ki, bu danışıqlarda erməni məsələsi barəsində bir kəlmə söz də deyilməmişdi.

İngiltərə Rusiyaya İstanbulu və boğazları verməyə razılıq verdi o şərtlə ki, ingilis gəmiləri boğazlardan maneəsiz keçə bilsinlər və İranın neytral hesab olunan rayonu İngiltərəyə verilsin[16].

Fransızlarla ingilislərin gəldiyi razılaşmaya əsasən İngiltərə İraqın cənubunda yerləşən və Bağdadla Bəsrəni əhatə edən regionu öz əlinə alır, Fransa isə Beyrutu və Suriyanı alır, həmin ərazilərdə bu iki dövlətin protektoratı altında Məkkənin əmiri Hüseynin başçılığı ilə ərəb dövlətləri yaradılır. Suriyadan Kilikiyaya qədər uzanan ərazi Fransanın nəzarəti altına keçməli idi, Fələstini isə beynəlmiləlləşdirmək nəzərdə tutulurdu. 1916-cı ilin aprelində Fransa - Rusiya sazişi əsasında Rusiya İngiltərə-Fransa sazişini tanıdığı təqdirdə Ərzrum, Trabzon, Van və

Bitlis vilayətlərini həmçinin Dəclə çayının vadisini əldə edəcəkdi. Bunların müqabilində Rusiya Fransanın Türkiyədən alınan Aladaq və Kayseri, Yıldızdaq və Zara arasında yerləşən əraziləri tanımalı idi. Eyni tipli saziş sentyabrın 16-da İngiltərə və Rusiya arasında bağlanmışdı[17].

Antanta dövlətləri İtaliyanı Dördlər ittifaqından uzaqlaşdırmaq üçün bu ölkə ilə razılıq əldə etdi. Razılığa əsasən, Antantanın müharibədə qalib gəldiyi təqdirdə İtaliya Trentinonu, Cənubi Tirolu, İstriyanı, Triyest şəhərini alacaqdı. Əgər Türkiyə parçalansa, İtaliya Antalyanı alacaqdı və əgər İngiltərə və Fransa Almaniyanın Afrikadakı müstəmləkələrini tutsa, İtaliya Liviya və Somalidə ərazi artımı əldə edəcəkdi[18]. Beləliklə, 1915-ci ildən başlayaraq artıq müharibədən sonrakı dünya bölgüsünün konturları çözülməyə başlanmışdı[19].

1915-ci il fevralın 19-da Fransa və Britaniyanın 16 döyüş gəmisindən ibarət donanma Osmanlı sahil qüvvələrini bombalayaraq Çanaqqala boğazına doğru irəliləməyə başladı. Lakin gecə yarısı "Nüsrət" adlı Osmanlı mina gəmisinin boğazın Asiya hissəsinə düzdüyü dəniz minaları onların yolunda maneəyə çevrildi. Ard-arda düşmənin üç döyüş gəmisi minalara toxunaraq batdı, bir neçəsi isə ciddi xəsarət aldı. Gelibolu yarımadasına yerləşdirilən Osmanlı artilleriyası da düşməni göz açmağa qoymurdu. Ağır itkilər verən İttifaq dövlətləri artilleriyanı susdurmadan Çanaqqala boğazını dəniz yolu ilə keçə bilməyəcəklərini anladılar və buna görə də adaya ən böyük ordu hissələrini yeritdilər. Hücum iki cəbhədən, Seddülbahir və Arıburnu cəbhəsindən həyata keçirildi. Osmanlı ordusu say baxımından az, təchizat baxımından zəif olsa da, düşmənin bütün hücumları qəhrəmanlıqla dəf edə bildi. Döyüşlərdə xüsusi olaraq alman generalı Liman fon Sanders və polkovnik-leytenant Mustafa

Kamalın başçılıq etdiyi hərbi diviziyalar öz qəhrəmanlığı ilə seçildi. Çanaqqala əməliyyatı davam etdikcə Britaniya komandanlığı onun uğursuzluğunu dərk etməyə başladı. 1915-ci ilin oktyabrında İngiltərə hökuməti general Y.Hamiltonu komandanlıqdan çıxartdı, onu Çarlz Monro əvəz etdi, lakin vəziyyət dəyişmədi və Monro Çanaqqala əməliyyatının dayandırmaq qərarına gəldi. Dekabrdan başlayaraq Antanta qoşunları Çanaqqaladan evakuasiya edildilər, son qoşunlar, bütün hərbi texnikanı qoyaraq, oradan 1916-ci ilin 8-9 yanvarında çıxdılar[20]. Britaniya və Fransa qoşunlarının bu döyüşlərdə itkisi 230 minə yaxın olu, Osmanlı ordusu isə 253 min şəhid verdi, onların arasında azərbaycanlı könüllülər də var idi[21]. İstənilən halda İttifaq dövlətləri Çanaqqala boğazını keçə bilmədilər və "Çanaqqala keçilməzdir!"- deyimi bu dəfə də öz təsdiqini tapdı.

Qafqaz cəbhəsindəki döyüşlərlə bir vaxtda Türkiyə qoşunları rusların diqqətini Qafqaz cəbhəsindən yayındırmaq ümidi ilə Cənubi Azərbaycan ərazisinə girdilər. Türk ekspedisiya korpusu Ənvər paşanın dayısı Xəlil bəyin komandanlığı altında 1915-ci il yanvarın 1-də Təbrizi, apreldə isə Urmiyanı ələ keçirdi[22].

Eyni zamanda İranın almanpərəst əhval-ruhiyyəli hakim dairələri Cənubi Azərbaycandakı bəzi şahsevən tayfaları ilə əlaqə yaradaraq, onlardan rus qoşunlarına qarşı mübarizə üçün silahlı dəstələr formalaşdırdılar.

Gənc türklər hərəkatının görkəmli xadimi, «İttihad və tərəqqi» partiyasının Azərbaycan və Qafqaz üzrə baş müfəttişi təyin olunmuş Ömər Nəcib Azərbaycanın şimal və cənub hissələrinin Türkiyənin himayəsi altında tezliklə birləşdiriləcəyi ümidilə Təbrizdə Cənubi Azərbaycan xan nəsillərindən olanların siyahısını tutmağa başlamışdı. Lakin bu planlar baş tutmadı. 1915-ci ilin yanvarında Sarıqamışda türk ordusu rus qoşunları tərəfindən məğlub edildi və osmanlılar əyalətdən çıxmağa məcbur oldular. Yanvarın 17-də isə Təbriz şəhəri yenə də çar qoşunları tərəfindən işğal olundu. Dilman döyüşündə Xəlil bəyin korpusu Cənubi Azərbaycandan sıxışdırılıb çıxarıldı. Bunun ardınca rus ekspedisiya korpusu general Baratovun komandanlığı altında Həmədan və Rumu tutub İsfahana yaxınlaşdı[23]. Yalnız Oktyabr çevrilişindən sonra rus qoşunları Cənubi Azərbaycan ərazisindən tamamilə çıxarıldılar[24].

1916-cı ilin yazında bütün Qafqaz cəbhəsi boyunca rus qoşunlarının Ərzurum və Trabzonun tutulması ilə başa çatan hücumu başlandı. Lakin rus qoşunlarının cəbhədəki sonrakı hücumu Rusiyanın bu bölgədə mövqelərinin gücləndirilməsindən çəkinən və Türkiyənin tamamilə darmadağın edilməsinə yol verməməyə çalışan İngiltərə və Fransa hökumətlərinin təzyiqi altında dayandırıldı.

Türkiyənin ermənilər yaşayan vilayətlərindəki hərbi əməliyyatlar nəticəsində yüz minlərlə erməni rusların himayəsi altında İrəvan, Yelizavetpol və Bakı quberniyaları ərazisinə axışdı.

1916-cı ilin iyununda Mehmet Vehib paşanın komandanlığı altında 3-cü Osmanlı ordusu ruslara qarşı uğurlu döyüşlər keçirdi. Lakin artıq iyul ayında ruslar əkshücuma keçərək, Bayburt və Ərzincanı ələ keçirdilər[25]. Əhməd İzzət paşanın başçılığı ilə 2-ci ordunun Qafqaz cəbhəsində rus ordusuna yeni hücumları da nəticə vermədi və 1916-cı ilin dekabrında 3-cü Osmanlı ordusu ruslar tərəfindən məğlub edildi.

1917-ci il Qafqaz cəbhəsində vəziyyəti kökündən dəyişdi. Rusiyada 1917-ci ilin fevral ayında baş vermiş burjua-demokratik inqilabı nəticəsində monarxiya devrildi. Oktyabrda isə bolşeviklər dövlət çevrilişi edərək hakimiyyəti ələ aldılar. 1917-ci ilin dekabrın 18-də bolşevik Rusiyası Türkiyə ilə sülh müqaviləsi bağladı və demək olar ki, bütün işğal olunan ərazilərdən çıxmalı oldu. 1918-ci ilin fevral-mart aylarında türk ordusu hücuma keçərək, Qars, Ərdağan və Batumu ələ keçirdi və Rusiya ilə müharibədən əvvəlki sərhədlərini bərpa etdi[26]. 3 mart 1918-ci ildə Brest-Litovskda Almaniya və Türkiyə Rusiya ilə sülh bağladılar. Brest-Litovsk sülhünün 14 maddədən ibarət əsas müqavilənin 4-cü maddəsi Qafqaza aid idi və ona əsasən Qars, Batum, Ərdəhan Türkiyəyə verilirdi. Lakin fevral ayından Tiflisdə fəaliyyət göstərən Zaqafqaziya seymi Brest sülh müqaviləsinin həmin vilayyətlərin Türkiyəyə verilməsi şərtini qəbul etmədi və Petroqrada - Xalq Komissarları Soveti adına teleqram göndərərək, Brest sülhünü tanımadığını bildirdi[27]. Buna baxmayaraq, Türkiyə tərəfi Zaqafqaziya hökuməti ilə mehriban qonşuluq münasibəti qurmağa hazır olduğunu bildirdi və martın 14-də Trabzonda Türkiyə ilə Zakseym arasında sülh konfransı işə başladı[28]. Türkiyənin təzyiqi ilə aprelin 22-də Zaqafqaziya Federativ Respublikası yaradıldı və konfrans may ayında Batumda davam etdirildi. Burada Zaqafqaziya hökuməti Türkiyənin Qars, Batum, Ərdəhan vilayətləri üzərində qəyyumluğunu tamamilə tanımış və bununla da Brest-Litovsk müqaviləsinin qərarlarını təsdiq etmiş oldu. Lakin Türkiyə tərəfi bununla kifayətlənməyib, Axalsıx, Axalkələk, Aleksandropol, Sürməli və Naxçıvan qəzalarını da tələb etdi[29]. Həmin vaxt, məlum olduğu kimi, general fon Kressin başçılığı ilə Almaniya nümayəndə heyətinin gürcülərlə separat danışıqları nəticəsində Gürcüstan Zaqafqaziya Federativ respublikası tərkibindən çıxmağı və öz müstəqilliyini elan etməyi qərara aldı. Mayın 28-də isə Azərbaycan öz müstəqilliyini elan etdi[30]. Sonrakı hadisələr məlumdur, Gəncədə Nuru paşanın əsgərlərinin köməkliyi ilə Qafqaz İslam ordusu-

nun yaranması, 3 ay ərzində Bakı Sovetinin bolşevik-daşnak ordusu ilə, sonra isə Sentrokaspi hökuməti və ingilis qoşunları ilə mübarizənin nəticəsində sentyabrın 15-də Bakının alınması və Azərbaycan paytaxtı elan olunması. Lakin türk ordusu bir ay yarımdan sonra Azərbaycanı tərk etməli oldu. İngilis-fransız qoşunları Suriyada və Fələstində türk ordusunu məğlub edəndən sonra Osmanlı dövləti Antanta ölkələri ilə 1918-ci ilin oktyabrın 30-da Mudros sazişi bağlamağa məcbur oldu. Yaxın Şərq döyüşlərində türklər 73 min əsgər itirdilər[31]. Mudros müqaviləsinin 2-ci maddəsinə əsasən Türkiyə bütün Cənubi Qafqazdan öz qoşunlarını çıxarmalı idi, 14-ci maddəyə görə Antantanın hərbi qüvvələri Bakıya və Batuma daxil olurdu və bütün dəmir yolu şəbəkəsini öz nəzarətinə götürürdü.

1918-ci il noyabrın 11-də sübh çağı Kompyen meşəsində, general Foşun mənzil-qərargahında Almaniya ilə onun rəqibləri arasında sülh müqaviləsi imzalandı. Noyabrın 11-də saat 11-də ali baş komandanın qərargahının qarşısında duran siqnalçı «Atəşi dayandırın!» əmrini verdi. Bu siqnal bütün cəbhəyə çatdırıldı. Həmin anda döyüş əməliyyatları dayandırıldı və bununla da birinci dünya müharibəsi Antanta dövlətlərin qələbəsi ilə başa çatdı[32].

Almaniya, Rusiyada, Avstriya-Macarıstanda və Osmanlı imperiyaları dünya müharibəsi sınaqlarından çıxmadı və dağıldı. ABŞ, İngiltərə və Fransa özlərinin başlıca rəqiblərinin darmadağın edilməsinə nail oldular və dünyanın yenidən bölüşdürülməsinə başladılar. Bəşəriyyət tarixində buna bənzəri olmayan müharibə 10 milyon insanın həyatına son qoydu, yaralananlar isə 20 milyon nəfərdən çox idi. Bundan əlavə, çox sayda insan aclıq və xəstəlikdən dünyasını dəyişmişdi. 1914-1918-ci illərdə müharibədə vuruşan başlıca dövlətlərin milli sərvətinin orta hesabla üçdə bir hissəsi məhv olmuşdu. Müharibə bir çox ölkənin sənayesinin, kənd təsərrüfatının və maliyyəsinin dağılmasına səbəb oldu. Birinci dünya müharibəsi bütün iştirakçı ölkələrə 80 milyard dollar məbləğində ziyan vurmuşdu[33].

Osmanlı imperiyası üçün bu müharibə əsl fəlakətə çevrildi, ölkənin bütün iqtisadiyyatı, xüsusən də kənd təsərrüfatı xeyli dağılmışdı. 1918-ci ilin avqustunda ölkənin xarici borcları 2,2 mlrd.dollara çatmışdı. Müharibə dövründə Osmanlı imperiyası 771844 insan itirdi, onlardan 243598 nəfər öldürülmüş, 61 min nəfərdən çox itkin düşmüş, 500 minə yaxın insan epidemiya və xəstəliklərdən dünyasını dəyişmişdir. 763753 insan yaralanmış, 145104 nəfər əsir düşmüşdü[34].

Müharibənin hərbi-siyasi nəticələri Osmanlı imperiyası üçün daha ağır olmuşdur. Müharibədən sonra Antanta dövlətləri Türkiyəni parçalamaq planını həyata keçirməyə başladılar. Versal sülh konfransında "Dördlər Şurası" müharibədə Antanta tərəfində çıxış etdiyi üçün Yunanıstana "xədiyyə" qismində İzmiri və ətrafdakı rayonları tutmağa icazə verdilər.

1919-cu ilin aprel ayına qədər ingilis qoşunları Anadolunun Cənub-Şərq hissəsini (Kilikiyanı), fransızlarla birlikdə isə Şərqi Frakiya və Qara dəniz boğazları zonasını işğal etdilər. Yunanıstan Qərbi Anadoluya qoşun çıxartdı və mayın 15-də İzmiri ələ keçirdi. Milli-azadlıq hərəkatına qalxan türk xalqına rəhbərliyi gənc zabit Mustafa Kamal paşa öz üzərinə götürdü. İstanbulun işğalından (1918-ci il, noyabr) və Osmanlı parlamentinin buraxılmasından sonra (1920-ci ilin martı) Mustafa Kamal paşa Türkiyə Böyük Millət Məclisi çağırdı və özü onun sədri və hökumətin başçısı seçildi. Dünya tərəfindən qəbul olunmayan bu hökumətin əsas vəzifəsi Antantanın işğal edilmiş torpaqlarını geri qaytarmaq, şimal-şərqdə ermənilərlə, qərbdə isə - yunanlarla mübarizə idi.

1920-ci il avqustun 10-da Osmanlı hökuməti müttəfiqlərlə Sevr müqaviləsi imzalamağa məcbur oldu. Müqaviləyə əsasən Osmanlı imperiyasının ərazisi Böyük Britaniya, Fransa, İtaliya və Yunanıstan arasında bölüşdürülürdü. Bu o demək idi ki, Türkiyə faktiki olaraq müstəqil dövlət hüququndan məhrum edilir[35].

Türkiyə Böyük millət məclisi Atatürk başda olmaqla bu müqaviləni tanımaqdan imtina etdi və belə şəraitdə sultanın da onu imzalamağa cəsarəti çatmadı. Həmin zamanda daşnak Ermənistanı müttəfiqlərin təzyiqi ilə Türkiyəyə müharibə elan etdi və bir sıra vilayətləri, o cümlədən Qars, Sarıqamış və s. işğal etdi. Lakin bu qələbə uzun sürmədi, Mustafa Kamal hökuməti qısa bir zamanda, 1920-ci ilin sentyabr-oktyabr ayla-

rında Sarıqamışı və Qarsı, sonra isə Gürcüstanın əlində olan Ərdahanı və Artvini azad etdilər[36]. Növbəti parlaq qələbə 1921-ci ilin sentyabrında yunan ordusu üzrə Sakariya döyüşündə əldə olundu və bu qələbədən sonra Mustafa Kamal paşaya marşal rütbəsi və Qazi adı verildi. Fransa və İtaliya qoşunlarını Anadoludan çıxartdılar, 1922-ci ilin sentyabrında isə İzmir yunan qoşunlarından azad edildi. Sultan səltənəti ləğv olunandan və VI Mehmet Maltaya qaçandan sonra Türkiyə və Antanta ölkələri arasında 1923-ci il iyulun 24-də Lozanna müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən Mudros və Sevr müqavilələri ləğv olundu Türkiyə müstəqil dövlət kimi tanındı. Həmin ilin oktyabrın 29-da isə TBMM-i Türkiyəni respublika elan etdi, Müstafa Kamal paşa prezident seçildi, onun başçılıq etdiyi Xalq partiyasının adı isə dəyişdirilərək Xalq Cümhuriyyət Partiyası adlandırılmağa başlandı[37]. Oktyabrın 6-da Mustafa Kamalın ordusu Antantanın tərk etdiyi İstanbula daxil oldu.

Beləliklə, I dünya müharibəsinin nəticəsində dörd imperiya parçalanaraq, məhv oldu. Lakin ən böyük itkilərə məruz qalan Osmanlı imperiyası oldu. Fövqəldövlətlərin hələ XIX əsrdən qaldırdığı şərq məsələsi öz məntiqi yekununa çatdı. Versal konfransı dövründə (1919-1920-ci illərdə) yaradılmış Millətlər Cəmiyyəti (Liqası) tərəfindən müharibədə qalib gəlmiş Fransaya Suriya və Livan üzrə; İngiltərəyə - İordaniya, İraq və Fələstin üzrə mandat verildi. Həmçinin Böyük Britaniyanın köməyi ilə gələcəkdə Səudiyyə Ərəbistanının tərkibinə girən Xicaz və Əsir dövlətləri və Yəmən dövləti yaradıldı[38]. Faktiki olaraq müasir Səudiyyə Ərəbistanı və Yəmən Osmanlı imperiyasının Ərəb yarımadasındakı torpaqlarından yaradılmış dövlətlərdir. Beləliklə, Osmanlı imperiyasının süqutu müasir ərəb dünyası ilə yanaşı Türkiyə respublikasının yaranmasına da təkan verdi.

---

1 Первая мировая война 1914 –1918 гг. М. 1968. С. 115

2 Yenə orada, S. 119

3 Чихачев П. А. Великие державы и Восточный вопрос. М.: Наука, 1970, С.17-35.

4 Azərbaycan tarixi. 7 cilddə, Vcild, Bakı, Elm, 2001, s.163

5 Токаржевский Е. А. Бакинские большевики-организаторы борьбы против турецко-германских и английских интервентов в 1918 г. // Труды Азерб. филиала ИМЭЛ при ЦК ВКП(б). Т. XV, Баку, 1959, с. 13

6 Reynolds M.A. Shattering Empires: the Clash and Collapse of the Ottoman and Russian Empires, 1908-1918. Cambridge. Eng. and N.Y.: Cambridge university press. 2011 –XIV.P.18

7 Azərbaycan tarixi. 7 cilddə, V cild, s.164

8 ARPİİSSA(Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi). F.276, Siy.8, İş 523, V.3A

9 Yenə orada, F.276. Siy. 8. İş 458. V..4

10 Киняпина Н.С. Балканы и проливы во внешней политике России в конце XIX века. М. 1994

11 Адамов А.Е. Европейские державы и Турция в мировой войне. М., 1925, с.87

12 Зайончковский А. М. Первая мировая война – СПб.: ООО «Издательство «Полигон», 2002. С. 345

13 Kurter Ajun, Türk Hava Kuvvetleri Tarihi, Cilt: IV, 3rd edition, Türk Hava Kuvvetleri Komutanlığı, 2009, p. 92.

14 Малевил Ж. Армянская трагедия 1915 года. Баку, 1990, с. 46

15 Гюрюн К. Армянское досье. С.279

16 H. N. Howard. The King-Crane Commission. Beyrut, 1963, p. 1.

17 Гюрюн К. Армянское досье. С.280

18 Horne John. A companion to World War I.-Wiley-Blackwell, 2010, P.97-98

19 Шацилло В. К. Первая мировая война 1914-1918: факты, документы. Москва, 2003.С. 107

20 John Horne. A companion to World War I.-Wiley-Blackwell, 2010, P.123

21 Edward J. Erickson, Ordered to Die: A History of the Ottoman Army in the First World War, Westport, CT: Greenwood Publishing, P.94-95;. İsmet Görgülü. ÇANAKKALE ZAFERİ VE ATATÜRK; Ankara Üniversitesi Türk İnkılap Tarihi Enstitüsü Atatürk Yolu Dergisi Cilt: 4 Sayı: 16 Yayın Tarihi: 1995; S. 492

22 Cənubi Azərbaycan tarixinin oçerki, s.193

23 Первая мировая война, с. 121

24 Кавказский кадендарь на 1917 г., Тифлис, 1917, с.392

25 John Horne. Göstərilən əsəri,S.100

26 Мехман Сулейманов. Кавказская исламская армия и Азербайджан. Баку, 1999. С. 103

27 Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, Elm, 1998, S.62

28 Azərbaycan tarixi, 7 cilddə, C. 5, Bakı, 2001, S. 123

29 Azerbaycan dosyesi. Ankara. 1980. S.39

30 Azərbaycan Cümhuriyyəti (1918-1920), S.92

31 Qasımov M., Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, 3 hissədə, h.2 (1917-ci il noyabr – 1918-ci il noyabr), Bakı, 2001, S. 76

32 Шацилло В. К. Первая мировая война 1914-1918: факты, документы. С. 198

33 А. М. Зайчонковский. Первая мировая война. СПб.: Полигон, 2002.С. 781

34 Edward J. Erickson. Ordered to Die: A History of the Ottoman Army in the First World War. Greenwood Publishing Group, 2001. P. 245

35 Roderic H. Davison; Review «From Paris to Sèvres: The Partition of the Ottoman Empire at the Peace Conference of 1919-1920» by Paul C. Helmreich in Slavic Review, Vol. 34, No. 1 (Mar., 1975), pp. 186-187

36 Ушаков А. Г. Феномен Ататюрка. Турецкий правитель, творец и диктатор. М. 2002, с. 123

37 John P. Kinross. Atatürk: a biography of Mustafa Kemal, father of modern Turkey. New York, 1965, c. 369-370

38 Paul C. Helmreich, From Paris to Sèvres: The Partition of the Ottoman Empire at the Peace Conference of 1919-1920 /Ohio University Press, 1974, P. 164

Çanaqqala savaşının M.Akif Ərsoy yaradıcılığında bədii təcəssümü

Səriyyə Gündoğdu
AMEA Şərqşünaslıq İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru

Gök kubbenin altında yatar, al kan içinde,
Ey yolcu, şu topraklar için can veren erler.
Hakkın bu veli kulları taş türbeye girmez;
Gufrana bürünmüş, yalınız Fatiha bekler.
M.A.Ərsoy

Millətlərin həyatında, qan və gözyaşına səbəb olan bəzi hadisələr dərin izlər buraxır və tarix boyunca, o millətlə birlikdə yaşayır. Türk döyüş tarixinə qızıl hərflərlə yazılan Çanaqqala Zəfərinin 100-cü ildönümünü qeyd edərkən, tarix boyunca canlarını qurban verərək döyüşən, həyatını, vətənləri üçün fəda edən qəhrəman şəhidlərimizin əziz xatirələrini bir dəfə daha yad edirik. Çanaqqala bir keçid dövrünün adıdır. Türk tarixində bu şanlı zəfər türk milləti üçün bir dönüm nöqtəsi idi. Çanaqqala azadlığa sevdalı, qəhrəman türk millətinin ölüm-qalım mübarizəsinin adıdır.

Şəhid qanı ilə qazanılan bu zəfər düşmənlərə böyük ibrət dərsi olmuşdur. Bu zəfər türk millətinin gücünü və müqəddəs vətən torpaqları üçün şəhidliyi bir şərəf bildiyini bütün dünyaya isbat etmişdir. Üzərində yaşadığımız torpaqları vətən edən qəhrəman şəhidlər, əziz vətənin və bayrağın necə əvəzolunmaz bir dəyər olduğunu bizlərə göstərmişdir.

Çanaqqala - bu mübarək şanlı zəfər... Türk ədəbiyyatında istər nəsr, istərsə də nəzm əsərlərində öz əksini tapmışdır. Amma heç şübhəsiz bu əsərlər içində Türkiyənin milli şairi Mehmet Akif Ərsoyun Çanaqqala Şəhidlərinə yazdığı mənzum əsərinin yeri çox fərqlidir. Adı Çanaqqala zəfəri ilə eyniləşən şair əslində Çanaqqala döyüşlərində iştirak edə bilməmişdi. Milli şair Birinci Dünya müharibəsində cəbhədən cəbhəyə yollanaraq, vətəninin qurtuluşu üçün əlindən gələni etməyə çalışırdı. Çanaqqala savaşları başlayanda, o Ərəbistan çöllərində İngilis casusu Lavrencenin hiyləsinə aldanaraq, ona inanan ərəbləri oyandırmaq üçün Necid çöllərinə səfər etmiş, oradan da Berlində müsəlman əsir və əsgərlərə avropalıların etdiyi əziyyətləri dayandırmaq üçün çalışmışdır. Çanaqqala savaşları başladığı zaman rəsmi olaraq Almaniyaya (Berlinə) ezam edilən böyük vətən sevdalısının ürəyi heç də rahat deyildi. Ağlı fikri Çanaqqalada idi. Müharibənin gedişi haqqında elçilik nümayəndələrindən mütəmadiyən xəbər alırdı. Qəlbən və ruhən Çanaqqalada olan Akif hər an, hər dəqiqə Çanaqqala əsgərinin yanında idi. O bir tərəfdən Almanyadakı rəsmi vəzifəsini mükəmməl bir şəkildə davam etdirirkən, Çanaqqalanı bir an belə olsun ağlından çıxartmırdı. Çanaqqaladakı müharibə türkün, türk əsgərinin odla, atəşlə imtahanı idi. M.Akif , millətinin bu imtahandan alnı açıq, üzü ağ çıxacağından əmin idi. Çünkü xalqım, millətin tutduğu yolu haqq idi. O heç bir dövlətin torpaqlarına təcavüz etməmiş, sadəcə vətəninin müdafiəsinə qalxmışdı.

Cehennem olsa gelen göğsümüzde söndürürüz;
Bu yol Hak yoludur, dönme bilmeyiz, yürürüz!

Ürəyində vətən boyda ağrı daşıyan şair, bir gün düşüncəli və kədərli bir haldaykən Türkiyədən Çanaqqala zəfərini xəbər verən bir teleqraf alır. Bu xəbər M.Akifi ürəkdən sevindirir. Əllərini göyə qaldıraraq Rəbbinə minlərcə dəfə şükür edir. Gözləri yaşarır, lakin bunlar sevinc göz yaşları idi. Böyük vətən şairinin ürəyi aldığı zəfər xəbəri ilə ilhama gəlir. "Çanaqqala Şəhidlərinə" adlı şeirini, sanki cəbhədə əsgərlərlə bərabər savaşmış kimi həyəcan dolu bir ruhla o anda qələmə alır:

Hər qarışa düşən mərmilər yüzlərcə can alır, ölüm Çanaqqalada sanki adiləşirdi. Müqəddəs vətən torpaqları üçün canından keçən qəhrəman vətən oğulları qanları ilə hər qarış torpağı qorumağa çalışır, polad sədlər qarşısına vətən, millət və iman dolu sinələrini sipər edirdilər.

Bu ağır savaşı zəfərlə nəticələndirən əsgərin şanlı xatirəsinə böyük vətən şairi misralarla abidə ucaldır. Üstündən bir əsr keçməsinə baxmayaraq, səmimi duyğularla yazılan "Çanaqqala Şəhidlərinə" dastanı oxun-

duqda istər istəməz o günlərə gedir və yaşanan hadisələri həyəcan və ürək ağrısı ilə hiss edirik.

Azərbaycanın xalq şairi B.Vahabzdə M.Akifin "Çanaqqala Şəhidlərinə" dastanını hər dəfə əzbərdən söylədikdə gözləri yaşarar, boğazı qəhərlənərdi. Adı Çanaqqala müharibəsi ilə eyniləşən Türkiyənin milli şairi Mehmet Akif müharibəni və zəfəri öz sənətiylə əbədiləşdirdi. Mehmet Akif Çanaqqala şəhidləri və bütün şəhidlərin ruhu üçün, Mehmetcik üçün, ən gözəl və ən böyük, ən möhtəşəm abidəni sözlərlə ucaltdı. Safahatın 6-cı kitabı olan Asımın son bölümündə yer alan və müstəqil bir şəkildə "Çanaqqala Şəhidlərinə", "Çanaqqala dastanı", "Məchul əsgər" adlarıyla da nəşr olunan bu şeirlər dövrünün şair, yazar və natiqləri tərəflərindən yüksək qiymətləndirildi.

"Çanaqqala Şəhidlərinə"şeiri, "Asım"ın sonuna doğru Hocazadənin dilində söylədiyi lirik-epik bir mənzumədir. Çanaqqaladakı müharibənin təsviriylə başlayan şeirdə düşmənin həm sayca çox olması, həm də İmperialist dövlətlərin hegemonluğu altında olan və nə üçün, kimin üçün savaşdığını bilməyən bir çox millətlərin qarşısında türk əsgərinin qəhrəmanlığından bəhs edilir. Avropanın XX əsrdə bu torpaqlarda mədəniyyət adına etdiyi işgəncə və zülmlərin təsviri bu şeirdə qarşımıza çıxır.

Şu Boğaz Harbi nedir? Var mı ki dünyâda eşi?
En kesîf orduların yükleniyor dördü beşi,
-Tepeden yol bularak geçmek için Marmara'ya-
Kaç donanmayla sarılmış ufacık bir karaya.
Ne hayâsızca tehaşşüd ki ufuklar kapalı!
Nerde -gösterdiği vahşetle- "bu: bir Avrupalı!"
Dedirir -yırtıcı, his yoksulu, sırtlan kümesi,
Varsa gelmiş, açılıp mahbesi, yâhud kafesi!
Eski Dünyâ, Yeni Dünyâ, bütün akvâm-ı beşer,
Kaynıyor kum gibi, tûfan gibi, mahşer mahşer.

M.Akif müharibənin meydana gətirdiyi zülm, haqsızlıq və şiddəti dinin və milli prespektivdən baxmadan, zülmə uğrayan dininə, millətinə və cinsiyyətinə baxmadan qloballaşdıraraq zalım ilə məzlum arasında bir mübarizə olaraq görür və bütün məzlum insanları zülmə qarşı birləşməyə çağırır. "Berlin xatirələri" şeirində almaniyalı analara söylədiyi sözlər bu deyilənləri çox gözəl ifadə edir:

Değil mi, bir anasın sen? Değil mi Almansın?
O halde fikr ile vicdana sahip insansın.

O halde "Asyalıdır, ırkı başkadır…" diyerek,
Benat-I cinsin olan ümmehatı incitecek
Yabancı tavrı yakışmaz senin faziletine.

Tərəflər arasında hərbi tarazlığın olmadığı bu müharibənin acı tablosunu rəsm edən şair nəhayət müharibənin əsl qəhrəmanını səhnəyə çıxardır. Şair bu qəhrəmanın iradəsini və bu iradə ilə gücünün ilahə qaynağını təsvir etdikdən sonra şəhidlik mərtəbəsindən bəhs etməyə başlayır. M.Akif şeirinin məhz bu hissəsində ustalığını göstərir. Şair ədəbi ifadə vasitələrindən müqayisə və təşbihlərdən istifadə edərək möhtəşəm bir abidə ucaldır.

Akifin yazdığı İstiqlal marşı, İstiqlal savaşının əvvəllərində yazıldı. Cəbhədə vuruşan əsgərlərimizə və onu arxa cəbhədə dəstəkləyən xalqa böyük bir ümid və inam aşılayıb, milli müqavimətin mənəvi dayaqlarından biri oldu. "Çanaqqala Şəhidlərinə" şeiri də eyni məzmuna sahib olub, şəhidləri ucaltmışdır. Bu gün də hər iki müharibənin türk ədəbiyyatında təcəssümü olan "Çanaqqala Şəhidlərinə" dastanı ilə İstiqlal marşı, millət və dövlət olaraq türk millətinin varlığını, milli birliyinin iki əhəmiyyətli dayağını təşkil edir.

Asım'ın nesli...diyordum ya...nesilmiş gerçek: İşte çiğnetmedi nâmusunu, çiğnetmiyecek. Şühedâ gövdesi, bir baksana, dağlar, taşlar... O, rükû olmasa, dünyâda eğilmez başlar, Vurulup tertemiz alnından, uzanmış yatıyor, Bir hilâl uğruna, yâ Rab, ne güneşler batıyor! Ey, bu topraklar için toprağa düşmüş asker! Gökten ecdâd inerek öpse o pâk alnı değer. Ne büyüksün ki kanın kurtarıyor tevhidi... Bedr'in arslanları ancak, bu kadar şanlı idi. Sana dar gelmiyecek makberi kimler kazsın? "Gömelim gel seni tarihe" desem, sığmazsın. Herc ü merc ettiğin edvâra da yetmez o kitâb... Seni ancak ebediyyetler eder istiâb.

M. Akifə görə Çanaqqalada şəhid olanların qanı, Tövhidin, Allahın birliyi inancını, yəni İslamı qurtarmışdır. Şəhidlər bu yönüylə Bədir savaşına qatılanlarla müqayisə edilmişdir. Çanaqqala şəhidlərinin Bədir qəhrəmanları ilə bir tutulması, hətta ancaq sifətiylə daha üstün göstərilməsi, yalnız Akif kimi, özünü İslam məfkurəsinə həsr etmiş bir şairin dilindən çıxa bilər. Bədirdə şəhid və qazi olanlar da, Tövhidi, İslam əqidəsini qorumuşlar. Elə isə Çanaqqala müharibələri də böyük İslam dünyasının Bədri kimidir. Osmanlı İslamın son qalası olduğu kimi, Çanaqqala da Osmanlının son qalası idi. Osmanlının Çanaqqalada müqavimət gücü, türkün qurtuluşu ilə birlikdə İslam dünyasının da qurtuluşu idi. Buna görə də Çanaqqala şəhidləri Bədir şəhidləri qədər müqəddəsdir, mübarəkdir, şanlıdır.

"Bu, taşındır" diyerek Kâ'be'yi diksem başına; Ruhumun vahyini duysam da geçirsem taşına; Sonra gök kubbeyi alsam da, ridâ namıyle, Kanayan lâhdine çeksem bütün ecrâmıyle; Ebr-i nî sânı açık türbene çatsam da tavan, Yedi kandilli Süreyyâ'yı uzatsam oradan; Sen bu âvizenin altında, bürünmüş kanına, Uzanırken, gece mehtâbı getirsem yanına, Türbedârın gibi tâ fecre kadar bekletsem; Gündüzün fecr ile âvizeni lebriz etsem; Tüllenen mağribi, akşamları sarsam yarana...

Akif Çanaqqala şəhidləri üçün bir abidə türbə ucaldır. Səma bu şəhidin qəbir örtüşüdür, tavanı ilk bahar buludlarıdır. Şamları ülkər ulduzudur. Gecə mehtabı

keşiyində duran türbədarındır.Türbənin çılçırağı, günəşdir. Şəhidin kəfəni, axşam qaranlığıdır. Şair, sanki bütün bir kainatdan qurulmuş məzarı da şəhidə kafi görməyib: "Yenə bir şey yapabildik diyemem hatırana." - misrasını söyləyir. Şairin şeirinin başından sonuna qədər istifadə etdiyi təşbihlər, bənzətmələr, mübaliğələr onun sənət fəlsəfəsini açıqlayır. Şeirə ümumi quruluş etibarilə baxıldığı zaman, müvafiq olaraq, Çanaqqala savaşında, Qərb dünyasının türk millətinə olan hücumu, Qərbin mədəniyyət adına işlədiyi cinayətlər, türk əsgərinin cəsarəti, imanı, inancı, qəhrəmanlığı və nəhayət şəhid olması ilə, şairin şəhidlər üçün düşündüyü təbiət ünsürlərindən meydana gətirdiyi möhtəşəm türbənin lirik bir dillə təsvir edilməsi görülür. Xüsusilə şairin, "Yenə də bir şey yapabildik diyemem hatırana" sözləri ilə, qeyri-kafi gördüyü bu möhtəşəm türbə təsviri ilə şairin şəhidlərə verdiyi dəyəri görə bilərik. Şeirdə seçilən ifadələr o qədər canlıdır ki, insanı həyəcanlandırır və müharibənin bütün dəhşətini hiss etdirir. Seçilən ifadələr, qafiyələr, səs ahəngi savaşı və zəfəri mükəmməl bir şəkildə oxucusuna çatdırır. Şeiri beş bölümdə dəyərləndirsək, birinci hissəsində Çanaqqala boğazını mühasirə edən düşmən gücləri, ikinci hissədə bu düşmən güclərini meydana gətirən millətlərin müxtəlifliyi və bunların mərhəmətsizliyi, üçüncü hissədə düşmənin çox güclü silahlarına qarşı qəhrəmancasına mübarizə edən türk əsgərinin qəhrəmanlığı, dördüncü hissədə yurdunu qorumaq üçün can verən əsgərin şəhidliklə müjdələnməsi və beşinci hissədə:

Sen ki, a'sâra gömülsen taşacaksın...Heyhât, Sana gelmez bu ufuklar, seni almaz bu cihât... Ey şehid oğlu şehid, isteme benden makber, Sana âğû şunu açmış duruyor Peygamber. - misraları ilə şəhidlərin mükafat olaraq Hz.Muhammed (sas) 'le birlikdə olacaqları dilə gətirilir.

Başdan sona şeirə baxdığımızda Çanaqqala savaşında Qərb dünyasının türk millətinə olan təcavüzü, Avropanın mədəniyyət adı altında işlədiyi cinayətlər, türk əsgərinin cəsarəti, imanı, inancı, qəhrəmanlığı və nəhayət şəhidlik mərtəbəsinə ucalmasını görürük. Akif şəhidlər üçün təbiət ünsürlərindən ucaltdığı möhtəşəm türbəni lirik bir dillə ifadə edir. Xüsusilə də "Yine bir şey yapabildim diyemem hatırana"sözləriylə bu möcüzəvi türbə tablosunu yetərsiz görür. Şeirdə seçdiyi ifadələr, qafiyələr və ədəbi ifadə vasitələri istər savaşı, istərsə də şəhidləri və şəhidliyi mükəmməl bir şəkildə anlatmağa imkan verir.

Bu əsər türk ədəbiyyatının şah əsəri hesab edilir. Belə ki, Şairi-əzəm deyə adlandırılan Əbdülhak Hamid: "Akifin "Çanaqqala"sı bir şeir abidəsidir ki, indiyə qədər belə bir şey türkcədə yazılmadı, qorxuram ki, bundan sonra da yazılmayacaq."

Sonrakı dövrlərdə də bu şeirə yüksək qiymət verilmişdir. Nurəddin Topçu. Bu şeiri "Dünya ədəbiyyatında bir zəfər abidəsi", Nihat Sami Banarlı "İman və həyəcan mərmərləriylə yonulmuş bir söz abidəsi", M.Akifin ən böyük tədqiqatçısı Mehmet Doğan

"Ədəbiyyatımızın ən möhtəşəm dastan parçası"olaraq qiymətləndirmişlər.

M. Akifə, "İstiqlal marşı"nı təkrar yaza bilərsinizmi? - deyə soruşan bir gəncə xəstə yatağında çox ağır vəziyyətdə olmasına baxmayaraq, qaşlarını çatar və yarıya qədər qalxaraq "Allah bu millətə bir daha İstiqlal marşı yazdırtmasın!" deyir. Biz də şairin sözlərini təkrarlayaraq, "Allah bizlərə bir daha belə müharibə və fəlakət göstərməsin, millət olaraq bizi əbədiyyən birlik və bərabərlik içində yaşatsın!" deyirik.

İstifadə olunan ədəbiyyat:

1. Abdullah Uçman (1986), "Mehmet Akifin Milli Mücadile Yıllarındaki Mevzileri" Milli Kültür Özel Sayısı.

2. Cemal Kuntay (1964), "Birinci Dünya Harbinde Teşkilat-ı Mahsusa" İstanbul.

3. Mehmet Emin Erişirgil (2006), İslamcı Bir Şairin Romanı Mehmet Akif", Ankara.

4. Ersoy, M.Akif (1987) "Safahat"(Hazırlayan: M.Ertuğrul Düzdağ), İstanbul: Kültür ve Turizm Bakanlığı Yayınları.

5. "M.Akif Ersoyun Aile Mektupları" (2010) Ankara: Mehmet Akif Ersoy Üniversiteti Yayını.

6. Okay, Orhan (2008) "Mehmet Akifin Karakteri ve Sanatı" Hece Yayınları.

7. Səriyyə Gündoğdu, Mehmet Akif Ərsoyun yaradıcılığında ictimai problemlərin bədii təcəssümü", Bakı, 2011

8. Sebî lürreşad, C. XXIV, nr. 608, s. 145.

Seyid Yəhya Şirvani

Barat Osmanova
AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru

XX əsrin əvvəllərində Azərbaycanda türk ədəbiyyatına, türk şair və yazıçılarının əsərlərinə maraq xeyli böyük idi. İllər keçdikcə türk alimləri də Azərbaycan ədəbiyyatına maraq sarmış və Azərbaycan şair və yazıçıları haqqında tədqiqatlar apararaq həm türk, həm də Azərbaycan oxucularını məlumatlandırmışlar. Türk alimlərindən İsmail Hikmət Azərbaycan Dövlət Darülfünununda dərs dediyi müddətdə Azərbaycan klassik ədəbiyyatını tədqiq etmiş, Leninqrad və Moskva kitabxanalarında, arxivlərində Azərbaycan ədəbiyyatı nümunələrini axtarıb tapmış və onları tədqiq edərək, çap etdirmişdir. O, 1925-ci ildə Bakıda "Azərbaycan ədəbiyyatı tarixi" adlı 2 cildlik kitab nəşr etdirmişdir. Bundan başqa İsmail Hikmət müxtəlif jurnal səhifələrində də tədqiq etdiyi Azərbaycan şairləri haqqında məqalələrlə çıxış etmişdir. Bu qəbildən onun "Maarif və Mədəniyyət" jurnalında çap etdirdiyi "Böyük azəri şairi Həbibinin çox qiymətli bir şeiri və nəzirələri" və "Ədəbiyyat tarixi tədqiqlərindən Əhməd Bağdadi" adlı məqalələri diqqətə dəyər tədqiqatlardandır. Leninqrad kitabxanasında Füzulinin divanının içərisindən tapıb, Həbibinin şeiri olduğunu müəyyənləşdirən alim, Həbibinin həmin şeirinə yazılan nəzirələri də təsbit edib, məqaləsində misallarla göstərmişdir. (Bax: "Maarif və mədəniyyət" jurnalında elmi araşdırmalar, Bakı 2013)

Əhməd Bağdadinin də yaradıcılığını araşdıran alim, Bağdadinin X əsrdə Bağdadda doğulub yetişdiyini, üslub və ifadəsinə görə Azərbaycan şairi olduğunu sübut etmişdir. Bu tədqiqat keçən əsrdə türk aliminin Azərbaycan ədəbiyyatşünaslığına göstərdiyi böyük xidmətdir.

Bunlardan başqa İstanbuldan Bakıya bir çox alimlər gələrək Azərbaycan şair və mütəfəkkirləri haqqında məruzələrlə çıxış etmişlər. Bunlardan biri də İstanbul universitetinin professorlarından Mehmet Ali Aynidir.

Onun 1921-ci il 19 iyunda Bakıda oxuduğu mühazirənin "Maarif və Mədəniyyət" jurnalının 1923-cü il 4-5-ci nömrəsində çap olunmuş mətni, xüsusilə diqqəti cəlb edir.

İstanbul universitetində tarix, fəlsəfə və İslam fəlsəfəsindən dərs deyən Mehmed Ali Ayninin mühazirəsi Azərbaycan mütəfəkkirlərindən şamaxılı Seyid Yəhya və naxçıvanlı Baba Nemətullaya həsr edilmişdir. Naxçıvanlı Baba Nemətullanın çox qiymətli təfsirinin oduğunu söyləyən müəllif, onun bu təfsiri yazarkən başqa alimlərin, hətta özündən əvvəl yaşamış tədqiqatçılardan Carah, Zəməxşəri, Fəxri Razi, Qazi Beyzavi kimi alimlərin belə, əsərlərinə müraciət etmədiyini, ancaq öz elmi görüşlərinə, düşüncələrinə əsaslanaraq yazdığını söyləyir. Osmanlı yazıçılarından Kiritli Əhməd Muxtar Əfəndi bir neçə dostu ilə birlikdə pul toplayaraq, bu əsəri İstanbulda çap etdirmişdir. Bu əsər İstanbulda Nur Osmaniyyə kitabxanasında saxlanılmaqdadır. Müəllif, Baba Nemətullanın fəlsəfənin əsası olan vücudun mahiyyəti, tövr və tərzindən bəhs edən bu qiymətli kitabını, istər mülahizələrinin dəyəri, fikirlərinin sağlamlığı və istərsə də üslubunun gözəlliyi və ahəngdarlığına görə Qərbin fəlsəfə kitablarından heç də geri qalmadığını söyləyir.

Mehmed Ali Ayni məruzəsində əsas diqqəti Seyid Yəhyanın yaradıcılığına cəlb etmişdir.

Günümüzə qədər unudulmayan Azərbaycan təsəvvüf alimlərindən olan Seyid Yəhya hicri 850-ci (1434) ildə Şamaxıda anadan olmuşdur. Atası Seyid Bəhaəddindir. Uşaq yaşlarından ağlı və zəkası ilə dövrünün böyük alimlərindən Sədrəddinin diqqətini cəlb etmiş, onu öz yanına alaraq, təlim və tərbiyəsilə məşğul olmuş və o qədər qiymətləndirmişdir ki, qızını da ona ərə vermişdir. Müəlliminin vəfatından sonra Seyid Yəhya Bakıya köçmüşdür.

Bakı hökmdarı Xəlil Bəy ona layiq olduğu ehtiramı və hörməti göstərmiş və Seyidin şöhrəti az bir zamanda bütün İslam ölkələrinə yayılmışdı.

Hər tərəfdən xüsusilə də Anadoludan elm və həqiqət axtaran müridlər axın-axın onun yanına gəlirdi. Bunlardan bəziləri mənəvi cəhətdən yüksək məqamlara yetişmişlər.

Ərzincanlı Pir Mehmet Behaeddin ilə İzmirli Kantirəli Ömər Dədə Seyid Yəhyanın şagirdlərindən olub. Osmanlı türkləri arasında Ədlan Şəbani, Sünbüli-Sənani, Ramazani, Carahi, Şəmsi, Əhmədi, Misri, Uşşaqi təriqətləri Pir Mehmet Behaeddin vasitəsilə, Gülşəni təriqəti isə Ömər Dədə vasitəsilə Seyid Yəhyanın davamçılarıdır. Seyid Yəhyanın yanına gələ bilməyənlər isə onun fikirlərini, təfəkkürünü Ömər Dədə, Pir Mehmet Behaeddin və onların yaratdığı təriqətlərin müridləri vasitəsilə öyrənirdilər. Seyid Yəhya öz düşüncə, ideya və fəlsəfi müddəalarını yaymaq üçün Ömər Dədəni Qarabağ, Gəncə və Təbrizə göndərmişdir.

Seyid Yəhyanın tələbəsi olan Ömər Dədə də, özü kimi məşhur bir alim olan Gülşəni ləqəbli Diyarbakırlı İbrahimi yetişdirmişdir.

Mehmed Ali Ayni İbrahim Gülşəninin elm və biliyinin mükəmməlliyinə və kamilliyinə sübut kimi, onun Mövlana Cəlaləddin Ruminin məsnəvisinə nə-

zirə olaraq "Kitabi-mənəvi" adlı bir kitab yazdığını söyləyir.

Təbrizdə Ömər Dədə vəfat etdikdən sonra Gülşəni Misirə getmiş və orada çox hörmətlə qarşılanmışdır.

Xəlvəti təriqətini yaradan və İslam fəlsəfəsini bütün İslam Şərqinə yaymağa müvəffəq olmuş Seyid Yəhyaya şöhrət gətirən ən mühüm əsəri "Vird-əl-settar"dır. (Allahın zikr olunması)

Belə ki, Mehmet Ali Ayni bu kitabı hər səhər yüz minlərlə müsəlmanın oxuduğunu söyləyir.

Seyid bu əsərinə, insanların eyblərinin ortaya çıxmamasını arzu edərək başlayır. Çünki, onun fikrincə insanların eybləri üzlərinə vurulsa, meydana bir çox fəlakət və rəqabətlər çıxar. Məsələyə bu cür münasibət, Seyidin bəşəriyyətə mərhəmət və şəfqətlə yanaşdığının göstəricisidir.

Seyidin bu əsərində çox əhəmiyyət verdiyi məsələlərdən biri də qəlbin paklığı və təmizliyidir. Qəlbin hüzur və sakitliyi, insanın rahatlığı, ürəyin təmizliyindən keçir.

Seyid Yəhyanın bu əsərinə müxtəlif ölkələrin alimləri şərhlər yazmışlar. Bunlardan ən başlıcaları Abdullah-əş Şərəfavinin, İstyablı Şah Vəliullahın, Tirəli Kara Çelebi Mehmet, istanbullu alimlərdən Müstəqimzadə Sadəddin, Kastamonulu Ömər Fuad və Nüsuhizadə Kamələddin Əfəndinin şərhləridir. Nüsuhizadə Kamaləddin Əfəndinin bu gözəl şərhi 1287-ci (1871) ildə İstanbulda Mətbəəyi-Amirədə çap edilmişdir. Seyid Yəhyanın "Vird-əl-Settar" əsərindən başqa da qiymətli əsərləri vardır. Bunlardan biri də "Əsrar-ət-Talibin" əsəridir. Ərəbcə yazılan bu kitab professor Mehmet Ali Ayninin fikrincə təsəvvüfə aid çox mötəbər və klassik bir əsərdir. Kastamonulu Bektaşi Rəmzi Bəy bu kitabı türkcəyə tərcümə etmişdir. Mehmed Ali Ayni çap edilməyən bu kitabın məzmunu haqqında da məlumat verir. Alim, böyük mütəfəkkirin düşüncələrini də şərh edir ki, bu fikirlər təsəvvüf elmini araşdıran alim və tədqiqatçılar üçün çox qiymətlidir.

Seyid Yəhya "Vird-əl Settar" əsərinə İslam dininin adət və qanunlarını tərif etməklə və münacatla başlayır və bu dinin kainat elminin ən mükəmməli olduğunun söyləyir.

İnsanın başının üstündə duran və dolanan bu minlərcə ulduzlar, Ay və Günəş nədir? Bu nəhayətsiz ümman-kainat içində, bizim yerimiz hardadır? Biz insanların mahiyyəti nədir? Vəzifəmiz nədir? Hardan gəldik, hara gedirik?

Mehmet Ali Ayni göstərir ki, qələmin həll etməyə aciz olduğu bu suallar başqa alimlər kimi Seyid Yəhyanı da düşündürmüş və onun bu suallara verdiyi cavablar, onun mövqe və məqsədinə uyğundur və insanları elm, ürfan və xoşbəxtliyə yönəldəcək tərzdədir. Bununla bərabər, Seyid Yəhyanın mülahizələri ümumi təfəkkürə zidd deyildi.

Seyid Yəhya xilqət məsələsində, insan bədənindən bir nur peyda olduğu və digər qismlərin bu nurdan hissə-hissə əmələ gələrək təşəkkül etdiyi fikrini irəli sürür.

Seyid Yəhya öz təsəvvüf nəzəriyyəsində insanlara, nə qədər şöhrət və dövlət sahibi olursa olsun, günün birində qara torpaq altına girəcəklərini xatırladaraq, onları qəflət yuxusundan oyatmağa çalışır. "Biz bu dünyaya oturmağa, yeyib içib oynamağa gəlmədik" dedikdən sonra, bir çox alimləri məşğul edən elmlərin təsnifi məsələsinə toxunur. Bu məsələ indiyə qədər bir çox alimləri düşündürmüş və bu mövzuda bir çox böyük kitablar yazılmışdır.

Seyid Yəhyanın mülahizələrinə görə insan öz bədəninin maddi və mənəvi tələbatına lazım olan elmləri öyrənməklə yanaşı, ruhun qidası və səadəti üçün lazım olan elmləri də öyrənməlidir. Seyid Yəhya elmləri "zahiri" və "batini" (mənəvi) deyə iki yerə ayırır və elm-i batinə daha çox əhəmiyyət verir. Seyid Yəhya insanın nəfsinə həsr etdiyi bu risaləsində, insanı mənəvi korluğa sövq edən əxlaqi xüsusiyyətlərin nələr olduğunu da bir-bir sayır. Bunlar kin, riyakarlıq, paxıllıq, həsəd, yalan, qeybət, lovğalıq, xudpəsəndlik və sairədir. Bunları çirkinlik hesab edən Seyid Yəhya bunların hər birinin ayrı-ayrılıqda xüsusiyyətlərini də izah edir.

Məsələn, o deyir ki, "paxıllıq öz malından ən dəyərsizini, hətta özünə lazım olmayan və artıqlıq edən bir şeyi belə başqasına verməyə qıymamaqdır"

İslam alimlərini həmişə bir məsələ çox düşündürmüşdür: insanlar elm və tərbiyə öyrənməklə pis əməllərindən əl çəkə bilərmi?

Seyid Yəhyanın fikrincə, elm insanları kamilləşdirmək üçün əsas meyardır. O yazır:

"Her keste saadet ve şekavet (bədbəxtlik) kabiliyeti vardır. Oyle ise "bir kişi mahzen (xalis) seyyiddir və ya şekk-i mahzdır" (şübhəli) demək caiz olmaz. Belki, "hasenatı (xeyirli işler) seyyiatına qalib ise seyyiddir və ya bilaks, o kimsenin seyyiatı hasenatı üzerine qalib ise şuqldur" (dərd) denməlidir. Bunun qayrı ve aksini söylemek zelalettir" (2., s.14)

Biz onu da əlavə edək ki, üç dildə, ərəb, fars və Azərbaycan dilində əsər yazan Seyid Yəhyanın əsərlərində diqqəti cəlb edən cəhətlərdən biri də odur ki, o mövzularını və mülahizələrini çox vaxt Quran ayələri və Peyğəmbər Əfəndimizin hədisləri ilə əsaslandırmağa çalışmışdır.

Seyid Yəhyanın "Əsrar-ət-Talibin" əsərindən başqa "Kəşfəl-Qülub","Mənazir-əl-Aşiqin", "Rümüz-ül-İşarət", "Səfa-ül-Əsrar", "Həft İqlim", "Ətvar-ül-Qülub", "Bəyan-ül-Elm" və s. kimi 22 əsəri də vardır.

Bu kitablar İstanbulda Nur Osmaniyə kitabxanasında mühafizə olunur. Mehmet Ali Ayni bu kitabların çox gözəl xətlə yazıldığı-

nı da xüsusi qeyd edir.

Bunlardan başqa Seyid Yəhya Şirvani, Yəhya Gülşənizadənin "Sualat" əsərinə də bir şərh yazmışdır.

Böyük Azərbaycan mütəfəkkiri Seyid Yəhya haqqında Mehmet Ali Ayninin tədqiqatları ilə yanaşı türk alimlərindən Fuad Köprülü, Əddülbaki Gölpinarlı, Tahsin Yazıçı və b. tədqiqatçılar da Seyid Yəhyanın əsərləri, onun fəlsəfi, dini və təsəvvüfi düşüncələri barədə geniş məlumatlar vermişlər.

Türk alimlərinin ilk tədqiqat kimi bu xidmətləri, sonrakı nəsil alimlərinin də nəzər diqqətini cəlb etmiş və günümüzə qədər bir çox alimlər, Azərbaycan ədib və mütəfəkkirlərinin əsərlərini tədqiq etmişlər. Bu araşdırmaların nəticəsidir ki, bir çox klassik mütəfəkkir alimlərimiz kimi, XV əsrdə yaşamış Seyid Yəhya günümüzdə də unudulmamış və qiymətləndirilmişdir.

YUNESKO 2013-cü ili Seyid Yəhya Şirvani ili elan etmiş və Parisdə, YUNESKO mərkəzində Seyid Yəhyaya həsr olunmuş simpozium keçirildikdən sonra, dünyanın bir çox ölkələrində də bu mövzuda konfranslar təşkil olunmuşdur.

Ədəbiyyat:

1. Азербайджанская Советская Энциклопедия Баку 1974 т.1.
2. "Maarif və Mədəniyyət" jurnalında elmi araşdırmalar. Bakı 2013.
3. Mehmet Rıhtım. Seyid Yahya Bakuvi və Xəlvətilik. Bakı 2005.

Barat Osmanova

Seyid Yahya Şhirvani

Summary

This article mentions special interest of Turkish Scientists of the early Twentieth Century for researches of Azerbaijani science and literature. In 1921 Mehmet Ali Ayni- a professor from İstanbul- delivered a speech about medival Azerbaijani scientists at the conference held in Baku. His valuable thoughts are perfect example of Turkish-Azerbaijani scientific and literary relations existing since centuries.

Azərbaycan xalqının ikili taleyi Kərim Məşrutəçi Sönməz şeirində

Lətifə Mirzəyeva
AMEA Ədəbiyyat İnstitutunun elmi işçisi

Azərbaycan poeziyasının qüdrətli nümayəndələrindən biri kimi tanınan, çoxcəhətli yaradıcılığı ilə seçilən, o taylı-bu taylı Azərbaycanın görkəmli şairi Kərim Məşrutəçi Sönməzin həyata poetik baxışlarını, ədəbi ideallarını müəyyənləşdirən incə bir amil mövcuddur ki, bu da onun öz sələflərinin, müasirlərinin yaradıcılığına bəslədiyi qayğı və diqqətli münasibətidir. Şairin əsərlərində iki kövrək hiss də özünü qabarıq şəkildə göstərir. Bu bir şair kimi onun həm çox qədirbilən, insanları dəyərləndirməyi bacaran, həm də hər bir amilə obyektiv yanaşma tərzinə malik olmasındandır. Bu xüsusiyyətləri K.M.Sönməzin o taylı-bu taylı qələm dostlarına, görkəmli adamlara həsr etdiyi «Həsrət çələngi» silsiləsindən olan bütün əsərlərində öz əksini tapmışdır.

K.M.Sönməzin qocaman şair Həbib Sahirin vəfatı münasibətilə qələmə aldığı «Bu ölüm dərs oldu dirilər üçün» (1976 (1355)), «Səhənd kimdir?» (1979 (1358)), xalq şairi Nəbi Xəzriyə ünvanladığı «Şair dünyanındır» (1981 (1360)), «Şair və onun dövrü» (1982 (1361)), «Dalğalarda» («Dalğalarda görüş barı») (1984 (1363)), xalq şairi Bəxtiyar Vahabzadəyə ithaf etdiyi «Əlində» (1984 (1363)), Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 80 illiyi münasibətilə qələmə aldığı «Heydərbaba şairi» (1985 (1364)), xalq şairi Səməd Vurğunu və uşaq yazıçısı Səməd Behrəngini xatırladan «İki Səməd, iki tale» (1986 (1365)), «Zəlimxan Yaquba», «Xalidə xanımın

ad günü münasibətilə…», «Mustafa İskəndərzadəyə» (1988 (1367)) və b. adlı şeirləri, 1987-ci ildə Bakıya səfəri ilə əlaqədar təəssüratlarını özündə əks etdirən «Həsrət çələngi» (2002 (1381)) sərlövhəli kitabı bu qəbildən olan əsərlərdəndir.

«K.M.Sönməzin «Həsrət çələngi» silsiləsindən olan şeirləri Cənubda heç vədə solmayan milli düşüncənin parlaq sənədidir. Cənub xalqının ideallarının aydın və düzgün ifadəsi baxımından ona bənzər ikinci bir şair göstərmək çətindir» (2, 428-429).

Bu mövzuda yaranmış ədəbi nümunələr içərisində K.M.Sönməzin böyük tarixə, şanlı keçmişə malik olan Azərbaycan xalqının faciəsi, kədəri və sevincini əks etdirən «İki Səməd, iki tale» adlı şeirinin də xüsusi mövqeyi vardır. Şairin XX əsrin səksəninci illərində qələmə aldığı ədəbi nümunələr içərisində bu əsərin yeri böyükdür.

«İki Səməd, iki tale» adlı şeir Azərbaycan SSR xalq şairi, Elmlər Akademiyasının akademiki, əməkdar incəsənət xadimi, SSRİ Dövlət mükafatı laureatı, dünya şöhrətli Səməd Vurğun (1906-1956) ilə Güney Azərbaycanın odlu vətənpərvəri, qüdrətli nasiri, usta pedaqoqu, məharətli tərcüməçisi, görkəmli folklorşünası və təcrübəli siyasi xadimi Səməd Behrəngiyə (1939-1968) həsr edilmişdir. K.M.Sönməzin o taylı-bu taylı iki sənətkarın simasında bir xalqın ikili taleyindən yazmağın nədir, hətta danışmağın belə hər an qadağalar və hədələrlə üzləşdiyi bir dövrdə və məkanda söz açmaq cəsarəti oxucularında ona qarşı böyük rəğbət hissləri doğurur.

Şarin bu fərdiyyətlərin oxucularına təqdimində istifadə etdiyi bədii vasitələr hər iki şəxsiyyətin keyfiyyətlərini müəyyənləşdirməkdə uğurlu ədəbi tapıntılar kimi çox qiymətlidir:

İki Səməd bir torpağın övladı,
Yaratdılar bir əsrin insanıyçın.
Birisinin şah əsəri: həyatı,
Biri məşəl oldu söz karvanıyçın (10,8).

K.M.Sönməz bu əsərdə hər iki qələm sahibinin həyatını oxucusunun gözləri qarşısında canlandırır. S.Vurğunun şəxsiyyətinin, əməyinin Quzey Azərbaycanda dəyərləndirildiyindən, yüksək qiymətləndirildiyindən nə qədər sevinir, qürur duyursa, S.Behrənginin xalq naminə yüksək əməllərinə görə Güney Azərbaycanda şah cəlladları tərəfindən öldürülərək Araz çayına atılmasından bir o qədər kədərlənir və bu halı ürək ağrısı ilə qələmə alır:

İki Səməd vurğun oldu bu xalqa,
Hər ikisi xalq eşqilə yaratdı.
Alqışladı birin, el dalğa-dalğa,
Birin də, dalğalara, əğyar atdı (10,8).

Şair öz oxucularını ölçüyə gəlməyəcək mənalar aləminə qanadlandırır. Burada xalqın tarixi taleyi, mənəviyyat aləmi, qurtuluş idealı əsas tərənnüm obyektinə çevrilir:

İki çinar bu torpaqda boy atdı,
Hər ikisi kölgə saldı başlara.
Biri məndə söz pərisin oyatdı,
Biri - dirçəl dedi: vətəndaşlara (10, 8).

Bir vətənin övladları olan S.Vurğunu və S.Behrəngini daim qəlbində yaşadan K.M.Sönməz birincinin onda söz pərisini oyatdığını böyük iftixarla söylədiyi kimi, ikincinin də xalqı inkişafa, yüksəkliyə çağırdığından qürur duyur.

Xalq şairi N.Xəzri «Sərhədlərin o tayında…» (B., «Azərnəşr», 1987) sərlövhəli kitabındakı «Sönməz» başlıqlı əsərində yazır:

«Sönməzin çox səlis və obrazlı şeir dili vardır. Mən ona öz fikrimi belə izah etdim:

- Mənə elə gəlir ki, siz Səməd Vurğun və Səhənd günəşindən nur alıb Sönməz olmusunuz.

Sönməz utancaq halda dedi:

- Əslinə qalsa, S.Vurğun da, Səhənd də eyni dağın qoşa zirvəsidir.

Mən bu fikirlə razılaşdım:

- Həmişə bir-birini görən, lakin qovuşmayan zirvələr.

Bu söhbətdən bir ay keçəcək. Sönməz Bakıya yazdığı məktubunda bu fikri təsdiqləyəcək:

«Buyurduğunuz kimi, böyük Sovet Azərbaycanı şairi Səməd Vurğun və sonra rəhmətlik Səhəndin yaradıcılığı məndə çox təsir buraxmışdır (5, 62-63).

S.Vurğunun yaradıcılığı ölkəmizin sərhədlərini aşaraq dünyanın bir sıra ölkələrində, eləcə də qonşu İranda da milyonların könül həmdəminə çevrilmişdir.

O taylı-bu taylı Azərbaycan şairi Əli Tudə «Vətənpərvər sənətkarın ünsiyyət dünyası» adlı məqaləsində yazırdı ki, Səməd Vurğunun ilhamlı sənətinin mübariz səsi hələ müharibədən əvvəl tələtümlü Arazın şahə qalxan dalğalarını yara-yara o taya da çatmışdı.

Yaxşı yadımdadır, müharibə illərində şairin ərəb əlifbası ilə çap olunmuş kitabları cənublu oxucular arasında çatışmasa da, oradakı şeirlər yalnız bir dəfə, uzaqbaşı iki dəfə oxunmaqla əhali içərisində əzbərlənirdi. Həyat nəfəsli misralar öz dönük talelərindən küsən zəhmətkeş insanların dərdli ürəklərində yaşamağa həvəs, mübarizəyə təşəbbüs, gələcəyə inam doğururdu (12, 38).

S.Behrəngi özü də S.Vurğuna, onun yaradıcılığına böyük rəğbət bəsləyirdi. Onun şeirlərinin vurğunu idi.

Əsəd Behrəngi «Qardaşım Səməd Behrəngi» adlı kitabında yazır:

«Səmədin böyük qayğısı ilə artıq Mirzə Ələkbər Sabirin, Mirzəli Möcüzün, Səməd Vurğunun, Şəhriyarın qələmlərinə mənsub olan əsərlər bizim ailədə həmişə yolu gözlənilən qonaqlara çevrildilər. Səməd Vurğunun ailəyə yol tapan şeirləri həmişə xüsusi məhəbbətlə qarşılanırdı. Səməd sonralar təəssüflə qeyd edirdi ki, Vurğun başqa şairlər kimi təbliğ edil-

səydi, mənim həmvətənlərimin sevimli sənətkarlarından biri olardı» (6, 72-73).

Şəhriyarın «Heydərbaba»sı: müəllifin əlindən tutub, bəlkə də bütün dünyanı gəzdirdi: Bunun bir səbəbi də şübhəsiz ki, şairin bu əsəri öz doğma ana dilində yazması idi. Amma elə bu fonda Səməd Behrəngi başqa bir fikir də irəli sürür… «Şəhriyardan qabaqkı və Şəhriyardan sonrakı şairlərin əsərləri xalqın əlində deyil, onların nəşr və yayılmasına imkan yoxdur. Soruşuram: Əgər Vurğunun əsərlərinə «Heydərbaba»can nəşr və çap imkanı versəydilər Şəhriyarı təqlid edənlər və onun ardınca gedənlər yenə bu qədər olardımı?» (1, 438).

S.Behrənginin problemə münasibətini bildirmək üçün tapdığı məntiqə heyran qalmamaq mümkün deyil. Burada hansısa bir alimin «Məni kəhkəşanın əzəmətindən çox, onun ölçülərini müəyyənləşdirən insan zəkası heyran qoyur» sözləri yada düşür.

Bu fikir S.Behrənginin Azərbaycan poeziyasının iftixarı S.Vurğuna, onun şəxsiyyətinə, yaradıcılığına bəslədiyi münasibətdən doğmuşdur.

Güney Azərbaycanda ilk dəfə olaraq Azərbaycan dilinin tədrisi üçün kitablar yazan, kənd-kənd gəzib ana dili dərslərini keçən, öz şəxsi vəsaiti hesabına kitab alıb uşaqlara paylayan, pəhləvi rejiminin təzyiqlərinə baxmayaraq yorulmadan yazıb-yaradan S.Behrəngi S.Vurğunun «Azərbaycan» şeirinə xüsusilə məftun idi.

Ə.Behrəngi xatırladır ki, «Mən Səmədin bu şeiri dəfələrlə «Milli himn» adlandırdığının şahidi olmuşam. Şeirin bəzi parçalarını elə hərarət və ehtirasla oxuyurdu ki, ona qibtə etməmək mümkün deyildi (6, 72-73).

Quzey Azərbaycan ədəbiyyatının təbliğində də böyük əməyi olan S.Behrəngi məqalələrinin birində S.Vurğunun yaradıcılığından söz açaraq yazır ki, «S.Vurğunun istər məhəbbət, istərsə də ictimai-siyasi lirikası öz sadəliyi, aydınlığı, yüksək sənətkarlığı ilə əsrlər boyu yaşayacaqdır» (3, 124).

İki Səməd könül verdi bir elə,
Hər ikisi bir yol üçün dayaqdır.
Biri dönmüş əzəmətli heykələ,
Birisinin adın çəkmək yasaqdır (10,8).

Öz qısa ömrünü bütünlükdə xalqına həsr edən S.Behrəngi uşaqların şirin arzu və xəyallarını, gülüşlərini, dərdlərini, göz yaşlarını qələmə alaraq onlar üçün gözəl hekayələr, nağıllar yazdı. Bir müəllim və yazıçı kimi vətən övladlarına həmdərd oldu.

«Xalq şairimiz Səməd Vurğun yazırdı: «Biz uşaqla danışdığımız zaman insanla danışdığımızı, uşaq üçün yazdığımız zaman, insan üçün yazdığımızı unutmamalıyıq». «Bax, Səməd Behrəngi də belə sadə, aydın dildə yazırdı» (3, 122).

29 illik həyatında öz xalqına böyük ədəbi irs qoyub gedən S.Behrəngini müasirləri «Zülmətdə işıq, qaranlıq səmada parlaq ulduz» adlandırırdılar.

Hər iki qələm sahibi – S.Vurğun və S.Behrəngi sağlığında da, dünyasını dəyişdikdən sonra da o taylı-bu taylı Azərbaycan xalqı tərəfindən, eləcə də Azərbaycanın hüdudlarından kənarda da sevilmiş, sevilir və böyük ehtiramla yad edilirlər.

Bir vətənin övladı olan bu iki sənətkarın hər ikisinin qələminin kəsərli, özlərinin insanlara arxadayaq olduğu, bir amal üçün yaşayıb-yaratdıqları, hətta eyni adı daşıdıqları halda talelərinin bir-birindən fərqli olması K.M.Sönməzi sarsıdır:

İki ürək bir sinədə döyündü,
Hər ikisi bir gövdəyə qan verdi.
Biri çatdı arzusuna, öyündü,
Biri, azad həyat! – dedi, can verdi (10, 8).

Sənətkarın bu şeirdə öldüyünü bildirən müəllif gələcəyə ümidli baxışı ilə alqışlanır. Haqqın öz yerini tapacağına oxucusunda inam yaradır:

Qoy birini hər evdə, hər obada
Alqışlasın həm indi, həm də gələcək.
Birisinin arzu gülü solsa da,
Əminəm ki, bir gün çiçəklənəcək (10, 8)!

Bu nikbin baxış, bu yüksək əhval-ruhiyyə K.M.Sönməz poeziyası üçün ümdə keyfiyyətlərdən biridir.

Görkəmli alim, tənqidçi Abbas Zamanov 1985-ci ildə doktor Cavad Heyətə yazdığı məktubda K.M.Sönməzin «İki Səməd, iki tale» adlı şeirini belə qiymətləndirmişdir:

«Bu şeiri hamımız bəyəndik. Bu adicə bir şeir deyildir, poetik bir dastandır, bir dastan ki, böyük bir xalqın faciəsi, sevinci və kədəri onda öz əksini tapmışdır. Elə bir dastan ki, ürəyimizdən keçənlər ustad şair ilhamı ilə ümumiləşdirilib rəsm edilmişdir…» (13, 1).

O taylı-bu taylı Azərbaycanımızın görkəmli sənətkarları S.Vurğun və S.Behrənginin bir-birindən fərqli olan ikili taleyini özündə əks etdirən, hiss-həyəcansız oxunması mümkün olmayan, hər bir misrası belə qəlbləri riqqətə gətirən K.M.Sönməz qələminin məhsulu olan «İki Səməd, iki tale» ünvanlı şeir ölçüyə gəlməyəcək qədər dəyəri olan bir sənət nümunəsidir.

Qaynaqlar

1. Behrəngi S. Məhəbbət nağılı (Seçilmiş əsərləri). B, «Azərnəşr», 1987, 500 s., s. 436-438.

2. Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). İki cilddə, II cild. B., «Qanun», 2013, 680 s., s. 428-429.

3. Hacıyev M. «Ölümü ilə doğulan insan». «Azərbaycan», 1979, say 9, s. 120-124.

4. Hacıyev M. S.Behrəngi Azərbaycan ədəbiyyatı haqqında. «Azərbaycan müəllimi», 1986, 15 oktyabr.

5. Xəzri N. Sərhədlərin o tayında… B., «Azərnəşr», 1987, 255 s., s. 61-66.

6. Nəbioğlu (Əmirov) S. Bu karvanın yolu Güneyədir. B., «Nurlan», 2007, 440 s., s. 72-73; 102-103.

7. Nəbioğlu (Əmirov) S. Cənubi Azərbaycan Milli–Demokratik ədəbiyyatı (1941-1990). B., «Elm», 2000, 257 s., s. 191-192.

8. Nəbioğlu (Əmirov) S. Səməd Behrəngi (monoqrafiya). B., «Azərnəşr», 2009, 136 s., s. 102-103; 122.

9. Sönməz K.M. Həsrət çələngi. T., Dursa», 2002 (1381), 368 s.

10. Sönməz K.M. İki Səməd, iki tale (şeir). «Ədəbiyyat və incəsənət», 1986, 24 oktyabr, s. 8.

11. Sönməz K.M. Qaranquş yazı gözlər (şeirlər). B., «Yazıçı», 1989, 232 s.

12. Tudə Ə. Vətənpərvər sənətkarın ünsiyyət dünyası. «Ulduz», 1987, say 3, s. 38-41.

13. Zamanov A. Hörmətli Cavad Heyət! (məktub, 1985).

Latifa Mirzayeva

Double destiny of Azerbaijani people in the poetry of K.M. Sonmez

Summary

Double destiny of Azerbaijan people was expressed in the "Two-Samads, two destinies" poem by Sonmez. The poem, expressing tragedy, grief and the joy of nation, has a special place among the poet's works, which were written in eightieth years of the XX century. The means of artistic expression which he used to bring his ideas to the readers, are very precious to determine the personal qualities of the poets.

Haşım Tərlanın poeziyasında vətənpərvərlik motivləri

Dilbər Mirzəyeva

AMEA Ədəbiyyat İnstitutunun kiçik elmi işçisi

Güney Azərbaycanın görkəmli söz ustalarından biri də Haşım Tərlandır. 1923-cü ildə Bakıda fəhlə ailəsində anadan olan, ilk təhsilini burada - 10 saylı orta məktəbdə alan Mir Haşım kiçik yaşlarından şeirə böyük həvəs göstərmişdir... Ədəbi aləmə gəlişi Səməd Vurğunun xeyirduası ilə gerçəkləşən H. Tərlan həmin məqamı xatırlayaraq əsərlərinin birində yazır: "İlk şerimi Yazıçılar İttifaqına apardım. O zaman Yazıcılar İttifaqının sədri böyük şairimiz Səməd Vurğun idi. Şeirimi ona oxuyub cavab gözlədim. Səməd şerimi məndən alıb "Pioner" jurnalına göndərib orada çap olmağına söz verdi. "Pioner" jurnalının yeni sayında öz şerimi şəklim ilə çap olduğunu gördüm və cox sevindim. Ona görə də şeir yazmağa həvəsim gündən-günə artdı."(1. səh.1-2)

Lakin sərt tale gecə-gündüz oxuyub biliyini artıran, birbirinin ardınca şeirlər yazan məktəbli Haşıma bu sevinci qədərincə yaşamağı çox gördü. Bütün iranlı mühacirlər kimi Haşım Tərlan ailəsi ilə 1938-ci ildə İrana sürgün edildi. Bununla da Haşım Tərlanın həyatının ikinci mərhələsi başladı.

Özü istəmədən dərslərindən, oxuduğu sinifdən, yoldaşlarından ayrılan yeniyetməni qarşıda həyatın əzablı yolları, sərt sınaqları gözləyirdi. Onların ailəsi ata-baba yurdunda-Güney Azərbaycanın Sərab mahalının Zəngilabad kəndinə köçdülər. Gələcək şair, ümumiyyətlə İranda təhsil almaq imkanı tapmırdı və işləmək üçün Tehrana getməli olur. Orada bir müddət nəccarlıq (xarrat) edir, sonra köynəktikmə karxanasında işə daxil olur. Öz taleyində minlərlə sürgün soydaşının faciəsini yaşayan Haşım Tərlan sistemli təhsil ala bilməsə də, qələmini korşalmağa qoymur və ədəbi fəaliyyəti davam etdirir. Lakin İranda ana dilində yazıb-oxumaq, kitab nəşr etdirmək yasaq olunduğundan o, şeirlərini çap etdirə bilmir.

SSRİ-İran müqaviləsinin şərtinə əsasən 1941-ci ilin yayında Qızıl Ordu İrana daxil olur. Bu hadisə şairin taleyinin dəyişməsində əhəmiyyətli rol oynayır.. 1942-ci ildən etibarən Təbrizdə "Vətən yolunda" qəzetinin ana dilində çıxması Tehranda yaşayan gənc şairi çox sevindirir və o, yazdığı şeirləri "Vətən yolunda" qəzetinə yollayır və çox keçmədən özü də Təbrizə gəlir. Bir qədər sonra qəzetin nəzdində yaranan "Şairlər məclisi" Haşım Tərlanın yaradıcılığına istiqamət verir, onu yeni məcraya salır. Ümumiyyətlə, 1941-46-cı illər Haşım Tərlan şeirinin çiçəklənmə dövrüdür. Bu illərdə şairin şerləri həm ideya-məzmun, həm də forma etibarilə bitkinləşir. 1946-cı ilin dekabrında Cənubi Azərbaycanda milli hərəkat boğulduqdan sonra o, həbsə alınır və sürgünə göndərilir.

1952-1953-cu illərdə İranda gedən siyasi ictimai proseslər nəticəsində Tehranda yaşayan azərbaycanlı yazıçı və şairlər "Azərbaycan cəmiyyəti"ni yaradırlar. Cəmiyyətin yaranmasında yaxından iştirak edən Haşım Tərlan yenə də öz kəskin şeirləri ilə çıxış edir. Ancaq çox keçmədən cəmiyyət şovinist pəhləvi rejiminin quldurları tərəfindən

dağıdılır, onun üzvləri ciddi təqib olunur və böyük əzab-əziyyətlərə məruz qalır.

1978-79-cu illərdə iki min beş yüz illik şahlıq rejiminə qarşı kütləvi üsyanlar şairi ruhlandırır və onun ilham mənbəyi olur. İslam İnqilabını böyük sevinclə qarşılayan Haşım Tərlan əsl amal və məqsədini ifadə edərək bir-birinin ardınca "Şah gedər oldu", "Mənimdir", "Qalibiyyət bayramı" və s. kimi şeirlərini yazır. əsərlərinin birində o qeyd edir:

İran yenə də çalxalanır al qanların içində,
Xalqın gülür taleyi tufanlar içində.
Andımız qəhrəmanlıq, vicdanımız tər-təmiz
Qanadımız inqilab məqsədimiz azadlıq.
Can atırıq durmadan sabahın şən çağında,
Azad həyat qurmağa şahlar məzarlığında. (1. səh. 97)

Şahlıq üsul-idarəsinin süqut eləməsindən bir il sonra Haşım Tərlanın "Alovlu şeirlər" kitabı Gəncəli Səbahinin giriş sözü ilə işıq üzü görür. Bu kitabda şairin əsasən 1941-42-ci illərdə yazdığı şeirlər toplanmışdır. Haşım Tərlanın "Alovlu şeirlər" adlandırdığı bu kitab doğrusu bir insan-şair ömrünün aynasıdır. Biz bu aynaya baxarkən, şairin keçirtdiyi iztirabları, həyəcanları duyur, sevinclərini, kədərlərini hiss edirik. Arzu və ümidlərini, məhəbbət və nifrətlərini başa düşürük, vətənimizdə baş verən irili-xırdalı ictimai hadisələrin, şairin mənəviyyatında pozulmayan izlərini açıq-aydın görürük. Bununla yanaşı yaradıcılığının keçirtdiyi inkişaf yolunu izləyirik, onun bir şair kimi nailiyyətlərini, nöqsanlarını əyani surətdə görürük. Demək olar ki, bu şer məcmuəsi şairin seçilmiş əsərləri ünvanını da daşıya bilir. Çünki bu məcmuədə onun müxtəlif illərdə, müxtəlif mövzularda, formalarda yazdığı əsərlərin nümunələri toplayıb və yaradıcılığının səciyyəvi xüsusiyyətlərini özündə cəmləşdirə bilib. Şairin "Alovlu şeirlər" adlandırdığı bu şeir məcmuəsi, onun şəxsi həyatı və mənəviyyatında əks olunan ictimai hadisələrin poetik dünyasının güzgüsüdür desək, yanılmarıq.

H. Tərlan şəxsi həyatında çox əzab və əziyyətlər çəkib, şahlıq rejiminin dözülməz və qeyri insani şəraitində yaşayıb. Ədalətsizlikləri qanla, canla hiss edib, qəddar Məhəmmədrzanın qılıncının dalı-qabağı kəsən zaman məcburən doğma yurd-yuvasını buraxıb, təhsil əvəzinə çörək dalınca qaçıb, Tehranda məhrumiyyətlərin qucağında bir gündə belə asudəlik görməyib, yediyi, içdiyi zəhərlə bulanıb. Bunların hamısı istər-istəməz gənc Tərlanın zülmə ədalətsizliyə qarşı yönəldib. O şah rejiminə dərin nifrət bəsləyib və onun yıxılmasını ürəkdən arzulayıb. Bu dövrü həyatı şairin əsərlərində dərin iz buraxıb və onun şəxsiyyətində, sənətində bariz şəkildə gözə çarpan cəsurluq, mübarizlik, dönməzlik kimi qürur hisslərinin qaynağı məhz yaşayışı olubdur.

Qürbət ab-havası, uzun illər doğma vətənin ayrılığı, şairin misralarında həzinlik, kədər və həsrət hissləri, onun qızğın, alovlu misralarında romantik xəyalların baş qaldırmasına səbəb olur. Sanki şair acınacaqlı vəziyyətdən yaza qurtarmağa, xilas olmağa romantik qanadlarına ehtiyac duyur. Yuxarıda saydığımız amillərin bir birinə qovuşması, şairin sənət ideyalarına düz istiqamət verir.

H.Tərlan iyirmi ilə yaxındır ki, şeirlə məşğul olur. Yazıb yaratdığı əsərləri mətbuatda, məcmuələrdə nəşr etdirir. Onun mövzularının çoxu indiki ədəbiyyatımızda dönə-dönə işlənən, müraciət olunan və daha doğrusu ədəbiyyatımızın aparıcı mövzularındandır. Bunlar xalqımızın ruhundan doğan, cəmiyyətimizin irəli sürdüyü tələblərdən və zəmanəmizin istəklərindən törənən mövzulardır. Şairin ictimai lirikasının baş mövzuları da məhz gündəlik həyatımızda baş verən hadisələr, cəmiyyətimizdə olan insani xüsusiyyətlərin tərənnümü, xalqımızın mənəviyyatına yad olan eybəcərliklərə qarşı etiraz, bir sözlə: insan səadəti, vətən abadlığı, dostluq, əmin-amanlıq kimi mövzulardır.

Əlli ildən artıq hökm sürən qanlı-qadalı şahlıq üsul-idarəsi vətənimizi yadların oylağına, milli varlığımızı istismarçıların oyuncağına çevirmişdi. Şah və onun dövrəsi cəmiyyətimizdə pozğun əhval-ruhiyyə yaratmışdı, zindanları abad, ölkəni viran qoymuşdu, istibdad və diktatorluq istər-istəməz şeirimizi üsyan bayrağına çevirmişdir. O zaman H. Tərlanın şeirlərində bu üsyan fəryadları güclü idi.

H. Tərlanın şerlərinin ilham mənbəyi onların özəyi, mayası Vətən torpağıdır. Bu torpağın barı, bərəkəti sədaqətli insanları, ilham gözəlliyi, xalq qəhrəmanları, musiqisi, dünəni, sabahı və bu gün şairin ürəyində nəğmələrə, misralara çevrilir. Cəsurluq, dönməzlik, mətanət, vəfa kimi insan xasiyyətlərini yaşadır və bu xasiyyətlərin nəğməkarına çevirir. Onu şair edən, odu-közü, işığı sönməyən vətən torpağıdır. Bu çırağ onun ürəyində sönərsə, şairliyini, insanlığını, hər şeyini itirər.

"Vətənim mənim"adlı şeirində "Ana", - deyə müraciət etdiyi Vətəninin taleyini həmişə günəşli görmək idealı təşkil edən şair yazır:

Nə yazım adına yaraşsın, ana!
Hər sətrim günəşin şüaları tək
O ağ saçlarına daraşsın, ana!
Yazım günəş sən?
Nurlusan ondan!
Yazım ki analar anasısan sən?
Ulusan ondan.
Nə yazım Vətən? (1. səh.58)

Haşım Tərlan bütün varlığı ilə vətəninin taleyinə bağlı şairdir. Vətənə, insana, sevgiyə sədaqət, bütövlük və dönməzlik, şairin özünə və şeirlərinə xas olan başlıca keyfiyyətdir. Bu baxımdan şairin "Araz" adlı şeiri xüsusi yer tutur:

Ulduzları saya-saya,
İnsan uçub qondu aya.
Mənim bu taydan o taya,
Nəçün çatmır, əlim Araz? (5. səh.30)

Dili bağlı bir xalqın şairi olmaq şərəfli olduğu qədər də ağır və kədərlidir. Üç yaşlı nəvəsinin fars dilində sərbəst danışdığı halda ana dilində danışarkən çətinliklə söz deməsi şairi kədərləndirir və təşvişə salır. Şeirlərinin birində oxuyuruq:

Fars dilinlə Tuti deyib, güləndə,
Budağdan budağa qonursan, gülüm.
Bəs nə üçün ana dilin gələndə,
Dilin topuq vurur, donursan, gülüm. (1. Səh. 99)

Xalqa, vətənə bağlılığını təkcə xalqın qəminə-kədərinə şərik olduğunu bildirməklə kifayətlənməyən şair onun qəminə dözə bilmədiyini göstərir. «Yolçu yolda gərək» sərlövhəli şeirində deyir: " Kədərim özümün, sevincim elin". (5. səh.135)

Qarabağda törədilən cinayətlərdən sarsılan şair Qarabağın yadlar əlində qalmasını qeyrətinə sığışdıra bilmir və üzünü erməni cinayətkarlarına tutaraq deyir:

Torpağımda yer şumladız,
Etdik min bir kərəm sizə.
Süfrəmdə duz çörək yediz,
Qənim olsun süfrəm sizə. (1. səh.74)

O, şeirlərində xalqın azadlığı uğrunda həlak olan Seyid Cəfər Pişəvərini, Firudin İbrahimini, Səməd Behrəngini məhəbbətlə vəsf etmiş, onların keçdiyi şərəfli mübarizə yolunun gələcək nəsillər üçün örnək olduğunu göstərmişdir. Şair "Səməd diridir" şeirində yazır:

Küllük kənarında gözü düşəndə,
Ulduza, Yaşara utanır gedir.
Yox, Səməd diridir, ölməyib hələ
Yolumuz yolundan can alır gedir. (5. səh.112)

Və ya Firidun İbrahimini xatırlayaraq həsrət və qürur dolu bir ifadə ilə deyir:

O gün asıldığın o dar ağacı,
Sənin cəlladını güdür yaxından.
Artıq uçulubdur başından tacı,
Daha qalmayıbdır o gündən nişan.(5. səh. 112)

Şairin, Süleyman Rüstəmin ölümü münasibəti ilə yazdığı şeirlər, eləcə də Rəsul Rzaya həsr etdiyi əsərlər xüsusi ilə diqqəti cəlb edir:

Sabah kamal dünyasında yaşasa da əsrimiz,
Solan deyil Rəsul Rza şerindəki təravət. (1. səh.105)

Şair "Araz gülür" poemasında iki gəncin nakam sevgi hekayətini qələmə almışdır. Poemada eşqinə sədaqətini bildirən qız ömrünün sonunadək sevdiyinin yolunu gözləyəcəyinə söz verir. Həmin məqamı şair belə təsvir edir:

Kipriklərim yer süpürə,
Gözlərəm səni, gözlərəm.
Baş qoyunca mən qəbirə,
Gözlərəm səni, gözlərəm. (1. Səh. 116)

Lakin sərhədlər bağlanır, qız Arazın o tayında, oğlan da bu tayında qalır. Onların qovuşması düz 30 il çəkir. 30 illik ayrılıqdan sonra onlar görüşürlər. Görüşən sevgililər zahirən dəyişmişdir. Saçları ağarmış, alınları qırışmışdı. Sevincindən gözlərindən axan yaşı silən nakam aşiq dilə gələrək deyir:

Ey taleyin xəzan vuran, bu sənmisən? Maral kimi boynun buran bu sənmisən? Baxışında o mənalı qovğa nədir? Yoxsa zülmə nifrətindən nişanədir?Yox, sevgilim, şümşad kimi məğrur dayan. (1.səh.116)

Haşım Tərlar nikbin, vətənpərvər və mübariz şairdir. Şair ana, vətən, təbiət, məhəbbət, dostluq, birlik, azadlıq, insanpərvərlik kimi nəcib bəşəri duyğuları bütün əsərlərində nəzərə çarpdırmışdır.

Görkəmli ədibimiz Mirzə İbrahimov bu barədə yazırdı: «Elmi fikri, sağlam düşüncəsi, zamanın qabaqcıl ideallarını, insan ürəyinin və xalqın mənəvi aləminin uca hisslərini, ali məqsədlərini təsvir və tərənnüm Cənubi Azərbaycan ədəbiyyatında geniş yer tutur. Şairi, yazıçını belə əsərlər yazmağa ruhlandıran nədir? Hər şeydən əvvəl xalqa, həqiqətə məhəbbətdir, təmiz, saf insanlıq duyğusudur, vətənpərvərlik hisləridir! Cənub şairlərində bu hisslər, inqilabi yüksəlişlər dövrünün bu sərvətləri sinədən qopan od kimi alovlanır, şövq verir!» (4.səh.28)

Haşım Tərlan milli məhdudluqdan uzaq, beynəlmiləlçi şairdir. İrlandiyalı milli qəhrəman Babi Sandaza yazdığı şeir, eləcə də "Ey ərəb" şeiri bunun sübutudur. O, «Ərəb qanı» sərlövhəli şerində ərəblərə və xüsusilə də fələstin xalqına xitabən deyir:

Düşmənin mənim də düşmənimdir bil!
Dilimiz ayrısa, ocağımız bir -
Qoy insan cildinə girən İsrail
Bilsin dünya belə getməyəcəkdir. (1.səh.110)

Haşım Tərlanın müxtəlif illərdə qələmə aldığı şeirləri onun "Alovlu şeirlər" (1358), Durnalar gələndə" (1377), "Araz gülür" (1378), "Yolçu yolda gərək" (1383), "Gümüş pencək" (1387), "Zirvədə günəş"(1388) kitablarında toplanmış, həm Cənubi, həm də Şimali Azərbaycan oxucularının rəğbətini qazanmışdır. Vətənpərvərlik ruhunda yazdığı şeirləri ilə dərin oxucu məhəbbət qazanan Haşım Tərlan 16 noyabr 2014-cü ildə vəfat etmişdir.

Ədəbiyyat siyahısı:

1. H.Tərlan. "Durnalar gələndə", 1377, s.203
2. Xudafərin jurnalı. s.29-30.
3. S.Nəbioğlu. Bu karvanın yolu güneyədir. s. 313.
4. E.Fuad (Şükürova) "Araz gülür" poemasının bədii təhlili. s.28
5. H. Tərlan "Yolçu yolda gərək",1383.

Dilbar Mirzayeva

The motives of patriotism in the poetry of Mir Hashim Tarlan

Summary

Outstanding South Azerbaijani poet Mir Hashim Tarlan was born in Baku, in a working-class family in 1923. Native land is a source of inspiration in the poems of the poet. The richness and fertility of this land, its faithful people, national heroes, music, its yesterday, today and tomorrow turn into a melody or the hemistich in the poet's soul. The poet, praising the qualities such as courage, tenacity, perseverance and loyalty in his poems, becomes a songwriter of these advantages.

"Borhan-e Qate"də fars dilinin leksik məsələləri

Pərvin Əsədullayeva
AMEA Şərqşünaslıq İnstitutunun kiçik elmi işçi

Hər hansı bir dilin lüğət tərkibini onun müasir vəziyyəti, əmələ gəlmə tarixi və inkişaf yollarını nəzərə almadan düzgün müəyyənləşdirmək olmaz. Dildəki sözlərin hamısı dilin lüğət tərkibini, yəni leksikasını təşkil edir. Sözün leksik mənasını öyrənmədən onun qrammatik mənasına nəzər yetirmək, qrammatik məsələləri tam öyrənmək düzgün deyildir. Fars dilinin qrammatik məsələləri ilə yanaşı "Borhan-e Qate"də fars dilinin leksik xüsusiyyətlərini araşdırmağı məqsədə uyğun hesab edirik.

"Borhan-e Qate" həcminə görə, özündən əvvəlki lüğətlərlə müqayisədə ən böyüyüdür. Lüğətdə iyirmi mindən artıq söz və frazeoloji birləşmə var. Əsər iki hissədən müqəddimə və lüğətdən ibarətdir. Müəllif doqquz "faidə"yə böldüyü müqəddimə hissəsində fars dilinin mənşəyi, qrammatikası, leksikası, dialektologiyası, orfoqrafiyası və orfoepiyası haqqında məlumat vermiş, lüğətdə topladığı sözləri isə iyirmi doqquz "qoftar"a ayırmış, hər birində sözləri əvvəldən axıra doğru əlifba sırası ilə düzmüş, məna və tələffüzünü vermişdir. "Borhan-e Qate"nin müqəddiməsi haqqında oxucuda tam təsəvvür yaratmaq üçün ayrı-ayrı "faidə"lərdə qoyulan məsələləri xülasə şəklində verməyi lazım bilirik.

I "faidə" – Burada "pars" sözünün mənşəyi, "pars" dilli xalqların yerləşdiyi ərazi və "pars"a mənsub yeddi qohum dil – herat, skif, zabilistan, soğdi, dəri, pəhləvi və fars dili haqqında məlumat verilir.

II "faidə" – Bu hissədə sözərin ifadə edildiyi nəsr və nəzm dili və bunlar arasındakı fərq təhlil olunur.

III "faidə"nin bir hissəsi, IV və VI "faidə"lər fars dilinin fonetikasına həsr olunmuş, əlifba və onun xüsusiyyətləri, fonetik hadisələrdən bir səsin başqa səsə çevrilməsi, səs düşümü, səs artımı və səslərin yaratdıqları məna variantları şərh edilmişdir.

V və VII "faidə"lər, III "faidə"nin bir hissəsi fars dilinin morfologiyasına həsr edilmiş, burada şəxs əvəzliklərinin ekvivalenti olan – enklitik əvəzliklər, şəxs sonluqları, xəbər şəkilçiləri haqda məlumat verilmiş به , بر , فرا ,فرو , همی , در və s. bu kimi feillərin əvvəlinə artırılan ön şəkilçilər, feilin zamanları və feil formaları təsvir edilmişdir.

VIII "faidə" fars dilinin leksikasına həsr edilmişdir. Burada گین, فام, گونه, مند, کار, گار, ور, وند, بار, زار, سار, ستان, لاخ, آسا سان, فش, چه, ی, دار, بان, ناک kimi sözdüzəldici şəkilçilərin yaratdıqları mənalardan söhbət açılmışdır.

IX "faidə"də fars dilinin imla qaydalarından danışılır. "Borhan-e Qate"də qrammatika məsələləri təkcə müqəddimədə deyil, əsərin lüğət hissəsində ayrı-ayrı sözlərin leksik, fonetik və qrammatik izahında da öz əksini tapmışdır. Əsərin lüğət hissəsində milli sözlərdən başqa alınma sözlərə də geniş yer verilmişdir.

"Borhan-e Qate"nin lüğət hissəsində sinonim, antonim, omonim, çoxmənalı sözlər, arxaizmlər və alınma sözlər öz əksini tapmışdır. Əsərin lüğət hissəsində milli sözlərdən başqa alınma sözlər, o cümlədən Yəmən, Dəməşq, Əndəlis, Şam, Mədinə, Bağdad, Mosul, Misir, Oman, Həbəş və s. müxtəlif ərəb, hind, türk, yunan, rum, və s. xarici, Avesta, qədim fars dili kimi qədim İran, soğdi və pəhləvi kimi orta İran, dəri, lak, giləк, xuzistan, Buxara, Xarəzm, Xorasan, Şiraz, İsfahan, Qəzvin, Mazandaran və s. bu kimi müasir İran dili və dialektlərindən olan sözlərə də geniş yer verilmişdir.

Əsərdə çoxlu sayda ərəb mənşəli sözlərə rast gəlinmişdir. Bu sözlər aşağıdakı ləhcələr üzrə qruplaşdırılmışdır :

1. Yəmən – عرصم , خرفع , اقطن və s.

اقطن – بلغت اهال یمن غله ایست که آن را ماش میگویند.

(Əğtən – yəmən dilində "maş" mərciyə oxşar, mərci fəsiləsindən bitki) (4,152)

خرفع – بار درخت عشر است بلغت اهل یمن.

(Xerfe – yəmən dilində ayıpəncəsi (bitki)) (5,735)

عرصم – بکسر اول وصاد بی نقطه و سکون ثانی و میم, بلغت اهل یمن بادنجان صحرایی باشد.

(Ersem – səhra badımcanı) (6,1371)

2. Dəməşq – خرفق

خرفق – بفتح بلغت اهل دمشق خردل فارسی راگویند که تخم تره تیزک است اول بر وزن ابلق,

(Xərfəğ – dəməşq dilində vəzəri) (6,735)

3. Əndəlis – اسفراج, جناح, ذریس, زفیرف, سورنجان, صاره, طفله, علقم, فلیفه, فیظل, قلب قمرون, ینق.

اسفراج – بلغت اندلیس مارچوبه را گویند و برگ آن مانند برگ رازیانه است.

(Esferac - əndəlis dilində quşqonmaz, mərəçüyüd, qulancar (bitki)) (4,130)

4. Şam – اربیان, حبق نبطی, حمحم, درافس, درافق, سندیان

حبق – بر وزن شفق, پودنه راگویند.

(Həbəğ – yarpızın bir növü) (5,681)

5. Mədinə - سدی, قمر

قمر – عربان ماه را گویند.

(Qəmər - ərəbcə ay.) (6,1543)

6. Bağdad və Mosul - عصفیره

عصفیره – بلغت اهل بغداد و مصول خیری زرد باشد و آنرا خیری شیرازی گویند.

(Əsfire – bot. şəbbu (gül)) (6,1376)

7. Misir – فریدیس

فرید یس – بلغت اهل مصر ملخ دریایی باشد.

(Fəridis – misircə dəniz xərçəngi.) (6,1483)

8. Oman – عشر, غاغه

غاغه – بلغت عمان پودنه را گوید. معرب آن فودنج باشد.

(Qaqe – omanca yarpızın bir növü.) (6,1398)

Lüğətdə çoxlu sayda suriya mənşəli sözlər öz əksini tapmışdır ki, bunlar da aşağıdakılardan ibarətdir : ایلیا, ثافیسا, جنبد, حردون, حربا, خالوما, دیناریویه, رغیدا, زریرا, ساسارکشت,سریقون, شپیر, طیطان, فاشرا, قوسیا, لوقابین, مثک, نینیا, هلفیفا,

حربا – بلغت سریایی نوی از سوسمار باشد.

(Herba – kərtənkələ növlərindən biri.) (5,684)

سریقون – لغتی ا ست سریایی و بمعنی شنجرف سوخته است.

(Səriğun – qırmızı rəng.) (5,1137)

ثافیسا – بلغت سریایی صمغ درخت سداب کوهی است.

(Safisa – bot. sədəfotu qətranı.) (5,549)

Hind mənşəli sözlərə aiddir : آچار, ارگ,یکبر, تمر, جکر, چار, چال, روه(نام رود), سیس, شم, بان(تیر چرخ), بکاول(چاشنی گیر), توره, جا, جنتر, جوجن, جوله, چال, چکری, چل, ساس, کتار, کتاره, کتمل, ککری, دانک, ماس ,روشنک, ماس,مکن.

بکبر – دوایی است که آنرا خیار چنبر گویندودرمسهلات بکاربرند و بعضی گویند این لغت هندی است.

(Bəkbər –girdə xiyar adlanır və işlətmə dərmanı kimi istifadə olunur) (4,692)

ماس – بر وزن طاس و بزبان هندی ماه را گویند.

(Mas – hindcə ay.) (7,1941)

Yunan mənşəli sözlərə daxildir : اصطرلاب , اسطرلونا, اسقلینوس, اسطقس, اسطوخودوس, اغلیقی, تفسیا, سالامندرا, بطرالاون, سخینوس, طوفریوس, طولیدون, فرسیموس, فیلافوف, اغریا,اوقطاریون, باباری, ,بطارس ,بطراخوس, اندروماخس, امامون, الاطینی, اقطی,اقلی, اقلدیس, اقشون,اقسوس,افریسموس, اغریوس ,سقاقلوس, سلطریون ,سقران ,لوحیا , کیمیا, کیموس ,نماما ,فریقه ,فطر, سفادیکوس, ابی یهمیا, اخبون,ارسطولوجیا اغریا, اغریوس, لاب.

بطرالاون – با لام با الف کشیده و فتح واو و سکون نون,بیونانی نفط را گویند.

(Betralavən – yunanca neft.) (4,77)

سفادیکوس – بیونانی پیاز صحرای راگویند.

(Sfadikus – yunanca çöl siçanı.) (5,1142)

اغریا – بر وزن اصفیا بلغت یونانی کوه را گویند.

(Əğriya – yunanca dağ.) (4,144)

اغریوس – بفتح اول و ضم واو و سکون سین بی نقطه,بیونانی صحرا و بیابان راگویند.

(riyus – yunanca s hra, biyaban.) (4,144)
.3 “ ” 6ç”ç – –
(Lab – yunanca gün .) (7,1873)
Rum, y ni latın m n li sözl r a a ıdakılar aiddir : ,
;”“ , , , , ,” , ,” , ,”
”×“” , , – , ,“ ,”“
.3 “ 6 – “ – “
(Houran – latınca t rxun.) (5,693)
.3“ 3 ü”“ 6 ” – ( )
(La us – dov an.) (6,1878)
.3 “ç “ “ç ” “ 6 ” – ”
(ö ol tar – sarı kuparos.) (6,1539)
.”4ç“ 6 – ““ – ”“
(Estafil – latınca üzüm.) (4,123)
.3“ ” 6 – –
(F r stun – latınca qapan (bazar t r zisi).) (6,1461)
s rin ist r müq ddim , ist rs d lü t hiss sind çoxlu sayda türk alınmalarına rast g linir, m s l n:ü“ ,”“ ,”“ ,“ ,“ ,“) “ ,(”“)”“ ,-“ ,-”“ ,.“ ,“ ,.”“ ,”“ ,.. ,) ,.“ ,.“ ,“ ,”“ ,.“ ,3“ ,“ ,2“ ,(“ ,”) , ,5 , ,. ,6) , , ,” ,” ,”0 ,. ,) ,-) ,(0)”) ,.) ,(”))”) ,.) ,”) ,(”))”) , ,” , ,. , , ,0 ,6” ,” ,” ,” ,” ,”) ,ç ,”” ,3 ,” , , ,6” ,” , ,” , .” ,0) ,(””,”
.” 1 6 6 – 6ç” “ – “
(Ulu – türkc böyük, ulu.) (4,158)
.“ 6 6 “ – ü“
(yla – türkc körf z.) (4,198)
.3 - 6 “ - ”“
(O aq – türkc u aq.) (4,136)
.” – 5 6 – ”
(Batu – türk güclü, möhk m.) (4,203)
.”“ ç 6 6 - ”
(Bace – türkc n f slik.) (4,214)
.” 6 ,3 ” ,” 0 6ç” “ –
(ö te – türkc qatıq.) (6,1519)
.” “ç“ ,” 6 – (”)) ”)
(Ça - türkc zaman, vaxt, ça .) (5,613)
.” ”3 6 , 6ç” “ –
(Y e – yaxalıq.) (7,2439)
.” 6 ” ” – ”
(ö ar- türkc qar.) (6,1514)

“Borhan-e Qate”nin lü t hiss sind müasir fars dilind i l nm y n çoxlu sayda arxaik sözl r rast g linir, m s l n:
– quymaq (4,17), – düyü, arpa, v darıdan hazırlanan içki (4,30), “ (“) - qoçaq, zir k (4,112), – qarı dırmaq (4,46) ,2ç, – açar (4,66), “ – t cili, tez, t l sik (4,184), ”3 – 1) qı qırıq, f ryad 2) uzaq (6,1764), 3 – böyük (6,1774), “3 lo ma, tik (6,1781), ç - 1) s pm k 2) t rp tm k (6,1882), – sa maq (6,1914), – siçan (7,1987), – sürtm k (7,2010), – g lin (5,868), . – yer, torpaq (5,881), – ç km (7,2051), – 1)sürünm k 2) l ngim k, gecikm k (7,2055), ç – dartıb çıxartmaq (7,2134), ç – qoymaq (7,2141), ”ç – at p r st (7,2152), ”ç – dinini d yi m k (7,2153), ç – q m, qüss (7,2220), “ – tavan (7,242), 3“ – b nna (7,243), – kürk (7,247), – lüt, ayaqyalın (7,254), – r qs etm k (7,274),“ – itkin, naqis (7,2297), ” – qaravul, növb t(7,245), 6” –göz tçi (7,245), – qırılma, t l f olma (7,2456), 2) – keç (5,637), .) – durna (5,647),) – çala an (5,670), ” – n m (5,805), –saray (5,850).

s rin lü t hiss sind bir sıra sinonim sözl r rast g linir ki, bunlar da a a ıdakılardan ibar tdir :
“ - – – “ – t rk etm k[1]
– – – qarı dırmaq, qatı dırmaq
ç” – ç” yuva, ya ayı yeri
” - “ - – – “” ulduz
5 ” – Yupiter
”ç – 4 me
0 – – qız
“ – – qorxu
6 – ” da keçisi
” – – ““ ” ayaqqabı
– ” – da
– p rd
5 – 1) intizar 2) arı balı
ç - – – -– – ”“ – “ c nn t
” – “ – “ sulamaq
“““” – ““ Mav r nn hr
– –) – “ gön, d ri
”“ – “ ç – – “ mün ccim
“ – 6 – – 1 axmaq, a ılsız
” (– – (– 3 heç vaxt (3)
– qoca
“ – – “ h mi
” – ”3 – – – ”4 vaxt, zaman
” – 5””çqeyri-mümkün, mümkün olmayan
6 – “ – “ ”ç – “ ”ç qayçı
ç – – – z if, süst, gücsüz

“Borhan-e Qate”nin lü t hiss sind bir sıra omonim sözl r qeyd olunmu dur. Lü td vur ulanan omoniml r sas n a a ıdakılardan ibar tdir :
” – 1) qır ı 2) ” feilinin kökü (uduzmaq) 3) yenid n (4,217)
” – 1) böyük saxsı l y n 2) azuq 3) piyal (4,500)
– – 1) istilik, h rar t 2) t l sik, tez, hövs l sizlik 3) d rman kimi istifad olunun bitki 4) (isitm k, qızdırmaq) felinin sası (4,500)
– 1) b d n, cisim 2) susmaq, dözm k 3) imtina, etiraz etm k - (4,514)
– 1) oynaq 2) k ndir, ip, ba , ciy , qaytan 3) buxov, qandal 4) z ncir 5) b nd, s dd 6) d st , topa (ka ız), 7) bölm , f sil, hiss 8) ayırıcı (çayda) 9) zindan (4,305)
– 1) yax ı 2) heyva (4,322)
” – 1) yaz, bahar f sli 2) çin bütxanası 3) Narınc a acının gülü (4,322)
” - 1) ayaq 2) taq t, dözüm 3) qüdr t, qüvv t (4,344)
” – 1) bildir, keç n il 2) uçu (4,349)
” – 1) qarovul, göz tçi 2) hiss , pay 3) ür k sıxıntısı, q m, k d r (4,353)
– 1) o ul 2) cüllüt (qu) (4,44)
– 1) keç l, daz 2) alac hr (qu) 3) a acın yeni cüc rmi yarpa ı (4,494)
”) – 1) dörd 2) çar , lac (5,608)
2) – 1) yri, böük 2) p nc 3) caynaq 4) arfa, ç ng (5,664)
-” -1) torpaq 2) m zar, q bir (5,701)
“ – 1) ömür, ya , il 2) qı qırıq, f ryad 3) dal t, düzgünlük 4) “ (verm k) felinin sası (5,806)
“ –1) a ac 2) malik olmaq 3) Allahın adlarından biri 4) r bc ev, m h ll (5,809)
“ – 1) d n 2) ç“ (bilm k) felinin kökü 3) m kan bildir n son kilçi (“ ,“3) (5,819)
ç – 1) qr b ox ar bitki 6 ç adlanır 2) iç, daxil 3) göy qur a ı (5,845)
– 1) qala 2) çirkin, b dxasiyy t, q z b, hidd t (5,851)

“Borhan-e Qate”nin lü t hiss sind sas n a a ıdakı antoniml r öz ksini tapmı dır:
– g tirm k – aparmaq (2)
“ –) yri – düz
”) –) b dn z r, n z r g lm - b dn z rin qar ısını almaq üçün dua
“ – ü halal – haram (3)
– . quru – ya
” – “ ç tin – asan
– ç ayaq – ba
– “ ram, tabe edilmi – v h i
4 – . yüngül – a ır
– g lm k – getm k
” – xeyr, m nf t – ziyan
” – a – qara
3 – ac – tox

[1] orda v sonra Hat mi N., Farsca – Az rbaycanca lü t (2,3)

Ramiz Mürsəlov
AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru

Radikal islamçıların hakimiyyət konsepsiyası

İslam radikallarının ideoloji platformasının başlıca istiqamətlərinin komponentlərini aşkar etməyə çalışarkən onların arasında öz fəaliyyətini xarici müsəlman aləminə doğru genişləndirmək və burada mövcud hakimiyyət quruluşunun güclə dəyişdirmək cəhdlərinin xüsusi yer tutduğunu müşahidə edirik. İran İslam İnqilabının ideoloqlarından biri olan Cəlal əd-din əl-Farsi demişdir: "Biz İranda islam inqilabını həyata keçirdik və bu inqilabı ümumdünya islam inqilabına çevirməyi özümüzə borc bilirik." (1,70) Radikal islam nəzəriyyəçilərinin qeyd etdiyinə görə, kütləvi dünyagörüşündə əsas rolu iqtisadiyyat və ya ideologiya yox, məhz siyasət oynayır. İran İslam İnqilabının lideri Ayətullah Xomeyni, məsələn demişdir: "İslam elə bir dindir ki, burada siyasət Allaha ibadəti tamamlayır. İslamda dini əmr və tövsiyələrdən siyasi əmr və tövsiyələr daha çoxdur. Allaha and olsun ki, islam siyasətin özüdür. İslam dini siyasi xarakter daşıyır; burada hər şey siyasətlə bağlıdır, hətta Allaha ibadət də! (2, 17). Özünün Oriana Fallaçiyə verdiyi müsahibəsində isə A.Xomeyni bunun səbəbini açıqlayaraq demişdir: "İslam vasitəsilə cəmiyyəti təmizləyəcək elə bir siyasət yürütmək istəyirik ki, əgər vəziyyət bunu tələb edərsə, biz cəmiyyətdə bəd əməllər törədənləri cəzalandıra bilək. Bəli, onlar alaq otları kimi kökündən qopardılıb atılmalıdırlar." (3,25)

İslam ekstremistləri özlərinin siyasi hakimiyyət konsepsiyasını belə bir müddəa ilə əsaslandırmağa çalışırlar ki, əgər müsəlman qeyri-müsəlmana itaət edirsə, onun haqqa yetişmək üçün etdiyi bütün xeyirxah əməllər əbəs xarakter alar... Onun gündə beş dəfə qıldığı namaz da, ildə bir ay tutduğu oruc da, etdiyi duaları və Allahın rizasına nail olmaq üçün etdiyi bütün əməllər də öz mənasını itirmiş olar. Belə ki, o, Allaha yox, adi insana, özü də imansız insana itaət edir. Onlar bu fikri əsaslandırmaq üçün Quran ayələrinə və Peyğəmbərin hədislərinə müraciət edirlər. Quranın Furqan surəsinin 52-ci ayəsində deyilir: "Kafirlərə itaət etmə və onlara qarşı böyük cihad et!" Onların fikrincə, müsəlman təkcə imansızlara itaət etməməklə kifayətlənməməlidir. O, imansızlara qarşı silahlı mübarizə aparmalıdır. Burada qeyd etmək lazımdır ki, radikal islamçılar "imansızlar kateqoriyasına təkcə ateistləri və qeyri-müsəlmanları yox, həm də sələfi dünyagörüşünü qəbul etməyən müsəlmanları daxil edirlər. Quranda buyurulur: "Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edir. Bu daha xeyirli, nəticə etibarilə daha yaxşıdır" (Nisa, 50)

"Müsəlman qardaşları" ekstremist təşkilatının aparıcı ideoloqlarından olan Seyid Qütb ictimai-siyasi fəaliyyətini keçən əsrin 30-cu illərindən modernist kimi başlamışdı. Onun yaradıcılıq irsini iyirmi beş ədəbi-fəlsəfi əsər təşkil edir. Onların arasında ən məşhurları "Fi zıll əl-Quran" (Quranın kölgəsində) və "İşarət əla-t-təriq" (Yol üzərində işarələr) əsərləridir. Bu əsərlər bir vaxt radikal islam hərəkatının proqram sənədlərinə çevrilmişdi. S.Qütb "İslamda sosial ədalət" əsərində islam dünyagörüşünün sosial-siyasi aspektlərini nəzərdən keçirir. Onun islamla kapitalizm arasında ziddiyyətlərin müxtəlif məsələlərinin islam mövqeyindən tədqiqinə həsr etdiyi "Əl-İslam və-l-qəzaya əs-səqafiyyə" "Qiyəm ər-Ruyyə əl-islamiyyə" və başqa, əsərləri "müsəlman qardaşları" hərəkatının nəzəri əsası rolunu oynamışdır. Müsəlman qardaşlarının nəzəriyyəçisi Seyid Qütbün təliminin əsas məzmununu belə bir fikir təşkil edir ki, hal-hazırda bütün bəşəriyyət "islamaqədərki cahiliyyət" dövrünü yaşamaqdadır. Bunun bariz əlamətləri kapitalist və sosialist inkişaf modelləri və həmçinin islamı dövlət dini elan etmiş bir sıra ölkələrdə mövcud quruluşlardır.

C.Qütbün tərəfdarları belə hesab edirlər ki islamın hakim vəziyyətdə olduğu halda bu ölkələrin rəhbərləri Quranın əmrlərini həyata keçirmək üçün heç bir iş görmürlər. Özünün "Qiyəm ər-ruyyə ən-islamiyyə" (İslam dünyagörüşü dəyərləri) kitabında C.Qütb müasir müsəlman cəmiyyətini imansızlıqda günahlandırır. Misir "müsəlman qardaşlarının" baş ideoloqu olan C.Qütbün bu mövqeyi onun fikrincə Misirdə cərəyan edən hadisələrdən irəli gəlmişdir. C.Ə.Nasirin hakimiyyəti dövründə cəmiyyətdə təbəqələşmə prosesi dərinləşmiş, milli burjuaziyanın bir hissəsi isə ölkənin kapitalist inkişaf yoluna çıxması üçün ideoloji zəmin yaratmağa çalışırdı. C.Qütb cəmiyyətin kapitalizmə qədərki islam prinsipləri üzrə idarə edilməsi konsepsiyasını irəli sürür. Onun fikrincə,

başlıca iqtisadi prinsip maddi nemətlərin bölüşdürülməsində sosial ədalət amilinin gözlənilməsi olmalı idi. O burada şəxsi zəhmət hesabına qazanılmış xüsusi mülkiyyətin qorunub saxlanması tərəfdarı kimi və mal-sərvətin ayrı-ayrı fərdlərin əlində təmərküzləşməsi və inhisarlaşma əleyhinə çıxış edirdi.

60-cı illərin sonlarında C.Qütb belə bir ideya irəli sürdü ki, islama qarşı çıxmaq cəhdlərini güclə susdurmaq lazımdır. Mübarizənin güc metodlarının qanunauyğunluğunu bu tərzdə nəzəri cəhətdən əsaslandıran "Müsəlman qardaşları" 1965-1966-cı illərdə hökumət nümayəndələrinə qarşı bir sıra terrorçuluq əməliyyatları planlaşdırdılar. Lakin Misir təhlükəsizlik orqanları ekstremistləri zərərsizləşdirə bildilər. Təşkilatın bir çox üzvləri edam olundu. Lakin bununla belə "Müsəlman qardaşları" təşkilatını tamamilə məhv etmək mümkün olmadı. 70-ci illərdə isə bu təşkilat o dərəcədə bərpa olundu ki, yenidən Misirin siyasi həyatında fəal rol oynamağa başladı.

Radikal qruplaşmaların sələfi ideologiyasının mühüm bir məsələsi də onların irəli sürdükləri cihad ideyasının kimə qarşı həyata keçirilməsi məsələsi idi. Ehtimal olunur ki, o, ilk növbədə hakimiyyəti ələ keçirmiş olan və dövlət aparatı (polis, ordu, xüsusi xidmət orqanları və s) tərəfindən təmsil olunan "istibdadçı hökmdara qarşı ünvanlandırılır. Onu təşkil edən bütün fərqlər "kafir" və "mürtəd" elan edilirlər. Sələfi məntiqindən belə çıxır ki, təkcə birbaşa "istibdadçı hökmdarı" (taqutu) dəstəkləyənlər yox, ona qarşı mübarizə aparmaqdan yayınanlar da "mürtəd" elan edilirlər. Radikal islamçılar siyasi hakimiyyətə təkcə Misir, Əlcəzair, Sudan və başqa müsəlman ölkələrinin ərazisində belə münasibət bəsləməklə kifayətlənməyərək, fəaliyyət göstərdikləri hər bir ölkədə dünyəvi dövlət formasını dini dövlətlə əvəz etməyə çağırırlar. Qeyd olunan ideyalar və irəli sürülən tövsiyələr Quran və Sünnənın ayrı-ayrı buyruqları ilə əsaslandırılırdılar. Onlar həm də Əl-Əzhər universitetinin Asyut filialının müəllimi olan və hazırda Nyu-York Ümumdünya ticarət mərkəzinin partladılmasında təqsirli bilinərək ömürlük həbs cəzasına məhkum olunmuş şeyx Ömər Əbd ər-Rəhmanın fətvalarında Şəriət baxımından təsdiqlənirdi.

Radikal islamçıların dediyinə görə, onların hakimiyyətdə olduğu ölkələrin hüdudları daima genişləndirilməli və yaxın gələcəkdə bu Albaniya və Bosniyadan Mərkəzi Asiyaya və Qafqaza qədər olan ərazidə baş verməlidir. 2100-cü ilə qədər olan müddətdə yer üzündə vahid islam dövləti - xilafət mövcud olmalı və bu məqsədə nail olmaq üçün bütün radikal islam qüvvələrini birləşdirməlidirlər. (4,41)

İslam ekstrmistlərinin siyasi hakimiyyət konsepsiyası İran İslam İnqilabının lideri A.Xomeyninin irəli sürdüyü "vilayəti-fəqih təlimi ilə bənzərlik təşkil edir. Hər iki konsepsiyaya görə, dünyəvi hakimiyyət dini hakimiyyətlə əvəz olunmalıdır: "Yeganə qanuni rəhbərlik "vilayəti-fəqihdir" Fəqihin bir rəhbər və aparıcı şəxs kimi cəmiyyəti islam ideallarına doğru yönəltmək səlahiyyəti vardır. Son peyğəmbərdən sonuncu hüccətə qədər olan dövrü əhatə edən məsumların vilayəti Allahın əmrinə əsaslanır. Yəni islam hökuməti əslində Allahın əmrini yerinə yetirməkdir. Bu hökumət qanuni hökumətdir və müqəddəs və məsum imamların qeybəti dövründə vilayəti-fəqih islamın siyasi sisteminin qoruyucusu, onun universal komponentidir.

90-cı illərdən etibarən radikal islam tərəfdarları arasında ixtilaflar və parçalanma halları çoxalmağa başlayır. Yeni yaranan islam qruplaşmaları ölkə üçün kifayət qədər ənənəvi olan "müsəlman qardaşlarına qarşı çıxır, onları ya daha da radikallaşmağa, ya da öz tərəfdarlarını itirməyə vadar edirlər. Sələfilər rəsmi islam tərəfdarlarını islam qayda-qanunlarını yalnız sözdə qəbul etməkdə, lakin işdə "istibdadçı hökmdarla" razılığa gəlməkdə və siyasi rəhbərliyin, həyata keçirdiyi demokratik islahatlarda iştirak etməkdə günahlandırırdılar. Vaxt keçdikcə, sələfi qrupları onların siyasətini qəbul etməyənlərə qarşı daha müntəzəm çıxış edir, sələfi olmayanların hamısını imansız və mürtəd elan edir və onlara qarşı vuruşmağı təbii bir hal hesab edirdilər. Bu hadisələr eynilə digər ərəb-müsəlman ölkələrində də təkrar olunurdu. Məsələn, Əlcəzair ərazisində analoji proseslər təxminən 7-10 il sonra - 1979-cu ildə prezident Xuari Bumedyenin vəfatından sonra başlandı. Məhz bu dövrdə ölkə həyatında bu vaxta kimi ancaq Quran dili hesab edilən ədəbi ərəb dilinin populyarlaşdırılması və tətbiq edilməsi prosesi başlanır. Xronoloji baxımdan bu, ölkədə sələfiliyin yayılması ilə eyni vaxta təsadüf edir və bir tərəfdən, pulsuz paylanan müvafiq ədəbiyyatın artmasında, digər tərəfdən isə artıq sələfiliyin yayılmış olduğu Misirdən ədəbi ərəb dili müəllimlərinin axınının güclənməsində özünü göstərirdi. (6.47) Əlcəzair prezidenti Şadli bin Cədid tərəfindən sələfi ideoloqu Yusif-əl-Qərzavinin və Məhəmməd Qəzalinin Əlcəzair dini tədqiqatlar mərkəzinə işə dəvət olunması bu təmayülün ən bariz ifadəsi sayıla bilər. Y. əl-Qərzavinin "İslam, əsil həll budur" deyimi Əlcazair radikal islamçılarının 80-cı illərin sonları, 90-cı illərin əvvəllərində

əsas şüarlarına çevrilmişdi. Tədqiqatçıların haqlı olaraq qeyd etdiyinə görə, Əlcəzairdə islamiləşdirmə prosesləri sol qüvvələrin siyasi fəaliyyətdən uzaqlaşdırılması ilə müşayiət olunurdu. İslamçıların yaratdığı "təlatümə" uzun müddət Əlcəzair rəsmi dairələri dözür, hətta onu dəstəkləyir və onu solçuluq hərəkatlarına qarşı yönəltməyə çalışırdılar. "Silahlı islam qrupunu" təsis edərkən onun banilərindən biri olan şeyx Əbd əl-Həqq Ləyyadə ölkənin ictimai-siyasi həyatını Şəriət hüququ mövqeyindən təhlil edərək Əlcəzairin bütün səviyyələrdə rəhbər işçilərini- nazirləri və zabitləri, məmurları və digərlərini "kafir" elan etmişdi və ən başlıcası o idi ki, "bu kafirlərə qarşı çıxmayanların hamısı bu zümrəyə mənsub edilirdi. Bununla da Şəriət istilahları ilə bu adamların malı və qanı halal elan edilərək Quranın cana qəsd etməyi haram elan edən hökmü aradan qaldırılır və bu adamlar "silahlı islam qrupunun məntiqinə uyğun olaraq heyvan məqamına endirilirdi. Belə qətl hadisələri "Silahlı islam qrupunun" nəzəriyyəçiləri tərəfindən cihadın tərkib hissəsi elan edilirdi.

"90-cı illərdə Əlcəzair islamçıları arasında ixtilaflar başlandı. "Silahli islam qrupuna " daxil olan ayrı-ayrı təşkilatlar nəinki bir-birini ittiham etməyə, hətta bu qrupdan ayrılmağa başladılar. Lakin güc işlətməyə və kütləvi qətl hadisələri törətməyə bəraət qazandırmağa yönəldilmiş fəaliyyət tam ardıcıllıqla davam etdirilirdi. Belə ki, məsələn, 1997-ci ilin oktyabr ayında 51 nömrəli bəyannamədə sələfi qruplaşmalarının Londonda çıxan mətbu orqanında "Silahlı islam qrupunun" o vaxtkı rəhbəri Əntər Zübəri bu qrupun elan etdiyi sülh razılığını pisləyərək dinc əhalinin qətlə yetirilməsinə görə məsuliyyəti öz üzərinə götürdü və elan etdi ki, belə əməliyyatlar gələcəkdə də davam etdiriləcəkdir. Bəyannamədə açıq şəkildə bildirilirdi ki, "Silahlı islam qrupu təkcə "istibdadçı hökmdarlara qarşı yox, həm də onun tərəfdarlarına qarşı mübarizə aparmış və aparacaqdır. Bundan bir az qabaq, 1996-cı ilin oktyabrın 15-nə qədərki 49 nömrəli bəyannaməsində Əntər Zübəri Əlcəzair əhalisinin Şəriət normalarına əməl etməyə çağırırdı. Silahlı islam qrupunun rəhbəri bəyan etmişdi ki, namaz qılmaqdan və zəkat verməkdən yayınmağa çalışan hər bir kəsi qətlə yetirəcəklər. Öz hüquqi problemləri ilə dünyəvi məhkəmə orqanlarına müraciət edənləri də ölüm təhlükəsi gözləyirdi. Əlcəzairlilər ancaq Silahlı islam qrupunun Şəriət hüququ mütəxəssislərinə müraciət edə bilərdilər. Həmin hədə-qorxu açıq-saçıq geyimdə küçəyə çıxan qadınlara da ünvanlanmışdı. (7.121)

90-cı illərin birinci yarısında sələfi İslam silahlı qrupunun Şəriət üzrə mütəxəssisləri dəfələrlə imansızları qətlə yetirməyin qanunauyğunluğunu Şəriət mövqeyindən əsaslandırmağa cəhd göstərmişdirlər. Bu, xüsusi vərəqələrdə çap edilən fətvalar vasitəsilə edilirdi. Bu fitvaların Şəriət baxımından qanunauyğunluğunu Silahlı islam qrupunun hüquq məsləhətçisi Əl-Münzir Əbd ər-Rəhman Zümeyr təsdiqləyirdi. 1997-ci ilin iyun ayında Əfqanıstanda döyüşən ərəb mücahidlərinin Londonda çıxan bülletenində o yazırdı: "Əgər siz cəmiyyətdə qətl hadisələrinin törədildiyini və hər hansı bir şəhərdə də ya kənddə bir kimsənin başının kəsildiyini eşitsəniz bilin ki, bu kimsə "istibdadçı hökmdarın" (tağutun) adamlarından imiş." (8.121)

Ümumiyyətlə götürdükdə, Silahlı islam qrupu öz fəaliyyətini özü planlaşdırır və Şəriət məsələlərinin sələfi şərhinə uyğun olaraq əsaslandırırdı. Belə ki, yuxarıda qeyd olunmuş bəyannamədə Əntər Zübəri təkcə "istibdadçı hökmdarı" və onun tərəfdarlarını qətlə yetirmək hədə-qorxusu ilə kifayətlənməyərək onların şəxsi əmlakını hərbi qənimət edir, onların qadınlarını və qızlarını isə hərbi əsir (cəbaya) hesab etməyi lazım bilirdi. (9.122)

Misirin və Əlcəzairin misalı heç də müstəsna xarakter daşımır. Sələfiliyin bərpa olunduğu və tətbiq edildiyi hər bir yerdə islamın radikallaşması mexanizmi hərəkətə gətirilir, ekstremizm meydana gəlir, müxtəlif məsələlərin həllində güc metodlarından istifadə etmək hallarına üstünlük verilir ki, bu da ya hərbi əməliyyatlarla, ya terrorçuluq əməliyyatları ilə, ya da bunların hər ikisi ilə nəticələnir.

Misir cəmiyyətinin ideoloji həyatının səciyyələndirilməsində "cahiliyyət" anlamının işlədilməsi "Müsəlman qardaşlarının" aparıcı nəzəriyyəçilərdən Seyyid Qütbün əsərlərindən götürülmüşdür. Bunu Misir "Küfrdə ittiham və hicrət" camaatının nüfuzlu nümayəndələrindən olan Əhməd Şükri Mustafa da etiraf edirdi: "Biz iman böhranından, Allahsızlıq dövründən və XX əsr cahiliyyətindən xəbər verən böyük mütəfəkkir Seyyid Qütbün yaradıcılıq irsinə müraciət etdik. Biz bu fikirdəyik ki, ümmət tamamilə imanını itirmişdir. Hökmdarlar ləyaqətsizdirlər. Allah isə buyurmuşdur: "Kim Onun əmrləri əsasında hökm çıxarmırsa kafirdir." (10.01.08.1977)

O, buradan belə nəticə hasil edir: "Ya haqq dinində sabitqədəm olaraq, digərlərinin imansızlıqda günahlandırmaq, ya da özü də imansız olmaq. Şükri Mustafa Seyid Qütbün "İşarat əlat-təriqi" kitabına istinad edərək "imanın bərpa edilməsi naminə cəmiyyəti

dağıtmaq" şüarını irəli sürür." Ət-Təkfir və -l-hicrə"nin destruktiv ideyalarını bir ölkə hüdudlarından kənara çıxaraq digər müsəlman ölkələrində yaymağa çalışırdılar Bu təşkilatın ideoloji platforması daima inkişafda olmaqla yanaşı daima sərtləşən, radikallaşan, güc işlətmək metodlarına üstünlük verən. bir ideologiya kimi özünü göstərir, onun inkişafının müxtəlif mərhələləri arasında möhkəm varislik əlaqəsi olduğu hiss olunur. Onun ideologiyasında daima öz fəaliyyət dairəsini genişləndirmək, bütün müsəlman ölkələrində kök salaraq beynəlxalq hərəkata çevrilmək meyli xüsusilə güclüdür. Onlar Misir ərazisində legitim hakimiyyəti devirməyi öz fəaliyyətinə beynəlxalq xarakter vermək üçün mühüm addım hesab edirlər. Təşkilatın ucqar yerlərdə bir neçə düşərgəsi vardı. Burada onun üzvləri nəzəri hazırlıq və silahlı mübarizə üzrə təmrinlər keçirlər.

İslam radikallarının digər bariz ideoloqu Yusif əl-Qərzavidir. Əl-Qəzavi islamın yenidən dirçəldilməsi və onun fundamental dəyərlərinə qayıdaraq yeni inkişaf yoluna çıxmağa müsəlman ölkələrinin real gerçəkliyinə daha çox və daha dolğun şəkildə cavab verməyə çağıran görkəmli ərəb-müsəlman nəzəriyyəçilərindən biridir. Onun dini fəlsəfi məsələlərə həsr etdiyi əsərlərdən başqa sosial –siyasi məsələlərə həsr edilmiş bir neçə əsəri də mövcuddur. Belə əsərlərdən biri də 1964-cü ildə yazdığı "Əl-həll əl-islami", fərizə və zərurə" əsəridir. Əsərdə müasir islam fundamentalizmin sosial-siyasi səpgiləri tədqiq olunur. Burada Misir təcrübəsinin təhlili əsasında fundamentalist qrupların dini-siyasi təlimləri tədqiq olunur. Əl-Qərzavi müsəlman aləminə kənardan idxal edilmiş ideologiyaların əsassızlığı, onların yerli şəraitdə yararsızlığı və onların əsasında inkişaf etməkdə olan ölkələrin aktual problemlərinin həllinin mümkün olmaması prinsipindən çıxış edir. Əsərdə Şərq dünyasının bütünlükdə "demokratik-liberalizm" və "inqilabi sosializm" təcrübəsinin ardıcıl olaraq bir-birini əvəz etməkdə olduğu qeyd edilir. Birinci mərhələ xronoloji cəhətdən Misirdə burjua parlamentarizmi təcrübəsinin tətbiq edildiyi dövrə təsadüf edir. İkinci mərhələ isə C.Ə.Nasirin hakimiyyəti dövründə milli demokratik islahatların həyata keçirildiyi dövrü əhatə edir. Əl-Qərzavinin fikrincə, ərəblərin və bütün müsəlmanların müasir dövrdə bir nömrəli vəzifəsi Fələstin problemini həll etməkdir. Hər iki cəbhəni təmsil edən siyasi təlimlər onu həll edə bilməmişlər, nə demokratlar, nə də sosialistlər ərəb vəhdətinə və "müsəlman qardaşlığının" qələbəsinə nail ola bilməmişlər. Çünki bu rejimlərin ideologiyasında vətənpərvərlik və millətsevərlik elementlərinin olduğu halda, hakim dairələr ya Qərbin, ya Şərqin ardınca getmişlər. (12,13) Qərzavinin fikrincə, bu iki dövrdə Misir mütəmadi olaraq gah kapitalist Qərbinin, gah da kommunist Şərqinin təsiri altına düşmüş və inqilabi-sosialist yönlü hakimiyyət həm də müsəlman cəmiyyətində mənəvi əxlaqi fəsadın hökm sürməsinə gətirib çıxarmışdı. Bu dövrdə "qadınlar və ya onların əksəriyyəti həyasını, kişilər və ya onların çoxu isə öz namus və qeyrətini itirmişdir İman ailə və namusunu şərəflə qoruyanlar orta əsrlərin kateqoriyaları əsasında düşünən irtica, öz ailəsinin qeydinə qalmayan aradüzəldənlər isə XX əsrdə yaşamağa layiq olan azad fikirli və mütərəqqi insan sayılmağa başladı (13,15). Əl-Qərzavinin fikrincə, müsəlman Şərqi özünü beynəlxalq səhnədə təsdiq etdirmək üçün lazım olan hər şeyə islama etiqad göstərən əhalinin çoxluq təşkil etməsinə, müsəlman ölkələrinin strateji mövqeyinə və güclü iqtisadi potensiala, həmçinin müsəlman xalqlarının zəngin azadlıq mübarizəsi ənənələrinə malikdir. (14,28-31)

Bir halda ki, "liberallar" və "sosialistlər" islam aləminin potensial imkanlarından səmərəli istifadə edə bilməmişlər, islam aləminin problemlərinin həlli üçün alternativ yollar tapmaq lazımdır. Müəllifin fikrincə, burada müsəlman xalqları bir növ seçim qarşısında qalmış olurlar . Onlar ya kommunist perspektivini qəbul etməli; ya da islama qayıtmalıdırlar. Burada "islam həlli" yeganə alternativ yol elan olunur.

Əl-Qərzavi islamı cəmiyyət həyatının bütün sahələrində istiqamətləndirici qüvvəyə çevirməyə çağırır. Müəllif, əxlaq və mədəniyyət sahəsini "islam həllinin" tətbiq edilməli olduğu birinci sahə hesab edir. O, islam ayinlərini və adət-ənənələrini özlərinin ilkin şəklində saxlamağı, məscidlərin əsil vəzifələrini bərpa etməyi və onları güclü təbliğat mərkəzlərinə çevirməyi təklif edir. Onun fikrincə. qadınlara ümumi namazda iştirak etmək hüququ vermək lazımdır. İslam təbliğatı yalnız üləmaların ən savadlı nümayəndələri tərəfindən aparılmalıdır. Məhz onlara tam mənada söz azadlığı verilməlidir. Əl-Qərzavinin dediyinə görə, məsciddən ayrıca bir şəxsiyyətin, ailənin, partiyanın və ya ictimai quruluşun xeyrinə, təbliğat aparmaq yeri kimi istifadə edilməsi halları yolverilməzdir. Əl-Qərzavinin iqtisadi sahədə etdiyi təklifləri ictimai gəlirlərin yenidən bölüşdürülməsini, qocaları təqaüdlə təmin etməyi və digər mühüm məsələləri əhatə edirdi. O, haram yollarla əldə edilmiş mal-sərvətin müsadirə edilməsi (oğurluq, rüşvətxorluq və ictimai məqamından sui-istifadə etməklə) tərəfdarıdır. Əl-Qərzavi müsəlman ölkələrinin

müdafiə qüdrətinin yüksəldilməsi və istiqlaliyyətinin qorunması üzərində də geniş dayanır. Müstəqil islam hərbi qüvvələrinin təsis edilməsi məsələsini ortaya qoyur. Bu qüvvə vasitəsilə müsəlmanlar xarici təcavüzü dəf edərək "Allahın düşmənləri olan təcavüzkarlara" ibrət dərsi verə bilmiş xalqlara öz torpaqlarını azad etməklə kömək etməyə imkan verməlidir. (15, 73) Onun fikrincə, müsəlman dövlətləri özlərini silah sursatla təmin etməyi bacarmalıdırlar. İslam ümmətində cihad ruhunun bərpa edilməsi, gənc nəslin "müqəddəs müharibəyə sədaqət" ənənəsinin əsasında tərbiyə edilməsi olduqca vacib sayılır. Onun fikrincə, müsəlman xalqlarının siyasət sahəsində problemlərinin həlli aşağıdakı prinsiplərə əsaslanmalıdır: harada yaşamasından asılı olmayaraq müsəlmanlar vahid millət təşkil edirlər. Üzərində islam ayinlərinin icra edildiyi və Şəriət qanunlarının həyata keçirildiyi hər bir coğrafi ərazi "islam vətənidir" və onu təcavüzdən qorumaq lazımdır. Əl-Qərzavinin fikrincə, təcavüzə məruz qalan hər bir müsəlman xalqı böyük "islam ümmətindən" yardım istəyə bilər. Müsəlman qardaşlığı prinsipinə görə, dünyanın müxtəlif yerlərində yaşayan müsəlman xalqları bu ümmətin tərkib hissələrini təşkil edir.

Yusif əl-Qərzavi öz əsərində "islam dövləti" qurmağın bir neçə yolunu təklif edir. O, "yuxarıdan islamiləşdirmə" yolunu rədd edərək qeyd edir ki, "bu və ya digər dövlətin sözün əsil mənasında islam dövləti olması üçün onun konstitusiyasında islamın dövlət dini elan edilməsi kifayət deyildir." Bəzi müsəlman hökmdarları namaz qılır, oruc tutur, həcc ziyarətini yerinə yetirir, amma özlərinin dindarlığında, bundan uzağa getmirlər. (16,211)

Əl-Qərzavi nəhayət, fikirlərini ümumiləşdirərək göstərir ki, əsil müsəlman cəmiyyəti qurmaq üçün təkcə bir yol mövcuddur: kütləvi və mütəşəkkil islam hərəkatını fəallaşdırmaq. Bu hərəkatın uğurları islamı kifayət qədər dərindən başa düşməyən xalq kütlələrinin passivliyini və öz sıralarından ziddiyyətləri aradan qaldırmaq bacarığından asılıdır. Əl-Qərzavinin "İslam-həlli" əsərinə irəli sürdüyü fikir və mülahizələr göstərir ki, cəmiyyətin sosial-siyasi və iqtisadi mədəni problemlərinin həlli yollarına müəllifin münasibəti müasir islam radikallarının mövqeyi ilə üst-üstə düşür. Əl-Qərzavinin "islam həlli" konsepsiyasının səciyyəvi əlaməti məntiqi təfəkkürə yox, mömin kütlələrin emosional hislərinə əsaslanmaqdır. Bu mütəfəkkirlərin ərəb ölkələrində siyasi durumun təhlilindən çıxardığı nəticələr olduqca ziddiyyətlidir. Bu hər şeydən əvvəl dini ekstremist nəzəriyyələrinin ən çox müraciət etdiyi hakimiyyət konsepsiyasında özünü büruzə verir.

İstifadə olunmuş ədəbiyyat:

1. Центральная Азия и Кавказ № 5 (11), 2000. с. 70;
2. Центральная Азия и Кавказ № 5 (11), 2000, с. 17;
3. Центральная Азия и Кавказ. № 5 (11), 2000, с. 25;
4. Центральная Азия и Кавказ № 5 (11), 2000, с. 41.
5. Azərbaycan Respublikası Dini Qurumlarda İş Üzrə Dövlət Komitəsinin bülleteni, № 11, 2004. с. 1;
6. Игнатенко А.А. Халифы без халифата. М., 1988. с. 47
7. Центральная Азия и Кавказ. № 1 (13), 2001. с. 12.
8. Центральная Азия и Кавказ № 1 (13), 2001, с. 121
9. Центральная Азия и Кавказ. № 1 (13), 2001. с. 121.
10. Əl-Üsbu əl-ərəbi. 01.08.1977;
11. Əl-Üsbu əl-ərəbi. 01.08.1977;
12. Yusif əl-Qərzavi. Əl-həll əl-islami, fərizə və zərurə. Qahirə, 1974. с. 13.
13. 12,15.
14. 12, 28-31
15. 12,73
16. 12.211

Ramiz Mursalov
Globalization and radicalization of Islamic religions-political movements

Summary

The most significant feature of the late twentieth century is the inevitable acceleration of globalization on the one hand, on the other hand, the activation of radical political Islam, and the prevalence of extremist elements in the practice of religious and political Islamic movements. Exploring the causes of this will inevitably have to admit the establishment of principles of a unipolar world in the international arena and associated with this to a certain extent, more frequent intervention of the great powers in the affairs of the Islamic world. According to the theorists of globalization, the modern world is so complex and diverse that to understand its problems starting from the values of any civilization, society or ideology is impossible. To solve these problems is possible only on the basis of a global doctrine or theory. One gets the impression, in case of success of the globalization, the cultural and national values of original local minority peoples, the problems which they trying to resolve disappear and fight for them becomes meaningless.

Avropada islamofobiya

Əmmar Abbasov
AMEA Şərqşünaslıq İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru

İslamın Avropa mədəniyyətinə göstərdiyi güclü təsirə baxmayaraq, Avropa ictimai rəyində uzun müddət İslama qarşı qərəzli, onun bir az uzaq olması ilə əlaqədar olaraq avropalılar üçün əlçatmazlığı, ərəb dilindəki mənbələrlə tanışlığın zəifliyin, tarix elmində hamılıqla məqbul sayılan tədqiqat üslublarının naqisliyi, tarixçilərin əsas diqqəti müstəsna olaraq xristian Avropasına vermələri və qədim dünya tarixində xristianlığın yerini müəyyən qədər şişirtmələri bu cür təsəvvürlərin yaranmasına öz təsirini göstərmişdir.

Orta əsrlər xristianları VII-VIII yüzilliklərdən başlayaraq müsəlmanların qeyri-adi uğurlarını açıqaydın görsələr də, bunun necə və nəyin sayəsində baş verdiyini anlamağa cəhd göstərmirdilər: haqqında mübhəm (aydın olmayan) bir surətdə eşitdikləri yeni dinin ardıcılları tərəfindən təhlükəli, əsaslı olmasa da, Məhəmməd peyğəmbəri(ə), onun təlimini və müsəlmanları onlar üçün qorxu qarışıq nifrət və ikrah hədəfinə çevirmişdi. Kilsə xadimi də "dəhşətli düşməni" hər vəch ilə ləkələməyə səy göstərirdi. Nəticədə İslam haqqında belə bir təsəvvür yaranmışdı ki, guya bu din "Şeytan alətidir". Səlib yürüşləri ədəbiyyatı İslama nifrət ruhu ilə doludur. Akvinli Tomas Hz. Məhəmmədi "zorakılıq həvarisi" adlandırmışdır (Görəsən Peyğəmbər (s) Tomasa hansı zorakılığı və necə göstərib?). Dante Peyğəmbəri (s) "çox xalqları xristianlıqdan ayırdığı üçün Cəhənnəmin doqquzuncu qatında" yerləşdirməkdə (kafirə bir bax!) orta əsrlər xristian əhvali-ruhiyyəsini əks etdirmişdir. Türklər Konstantinopolu fəth etdikdən sonra əsrlər boyu təşəkkül tapan "düşmən surəti" daha da gücləndi. XIV-XV əsrlər xristian ədəbiyyatı dini ehtirasların təsiri altında İslam haqqında müxtəlif uydurma fikirlər və böhtan yayırdı (Şeyx Allahşükür Paşazadə. Qafqazda İslam, B., 1998).

Hələ peyğəmbər (s) vaxtında Şərqdə (İslam dövlətində) müsəlmanlar, xristianlar və yəhudilər dincyanaşı yaşayırdılar. Onların bəziləri İslamı qəbul etmişdilər. Etməyənlər isə onların həyatlarını, ailələrini, namuslarını qorumaq üçün cizyə adlanan himayə pulu olan vergi verirdilər. Və qeyd olunan cizyə əlsiz-ayaqsız, qocalar və qullardan alınmırdı. O, ancaq həddi-buluğa çatmış kişilərdən alınırdı. VIII əsrin əvvəllərinə qədər kahinlər də cizyədən azad idilər. Vergi verənin vəsait vəziyyətindən asılı olaraq, cizyənin qanuni məbləği 12, 24, 48 dirhəm qızılla, mübadilə ölkələrində isə 1, 2, 4 dinar idi. Xristianlar bunu özlərinə təhqir sayırdılar. Müsəlmanlardan isə xums və zəkat alınır, könüllü sədəqələr verilirdi.

Bütün bu xoş hallara baxmayaraq, 1095-ci ildə Fransanın Klermon şəhərində Papa II Urbanın "Müqəddəs torpağın (Qüdsün) kafirlərdən azad edilməsi" çağırışı ilə bütün xristian dövlətlərinin qoşulduğu hərbi kampaniya yarandı və bu, Səlib yürüşü (xaç yürüşü) kimi fasilələrlə 200 il çəkdi. Yürüşlərin əsas məqsədi xristianlığı yaymaq və yeni ərazilər işğal etmək idi. Əslində bu kampaniya bu gün də davam edir.

Səlib yürüşünün şahidi olmuş abbat Hojanlı Qvibert vəziyyəti belə təsvir edir: "Klermon şurası bitdikdən sonra Fransanın bütün əyalətlərində onun haqqında böyük xəbərlər yayıldı. Papanın sözləri haqqında eşidən hamı öz qonşularını və qohumlarını xəbərdar etməyə yollanırdı və onları Allahın "yoluna daxil olmağa" çağırırdı. Qrafların istəkləri aşıb-daşırdı. Cəngavərlər yalnız yürüş haqqında düşünürdülər. O zaman kasıblar da bütün əmlaklarını dəyər-dəyməzə, demək olar ki, havayı satmağa başladılar, dünən heç hara getmək istəməyənlər bir gündən sonra digərləri ilə yola düşürdülər. Müharibə və səfər fikri ilə alışıb-yanan qocalar, uşaqlar haqda nə demək olar. Hamı müharibəni alqışlayır (Bəs necə, müsəlmanları qırmağa gedirdilər axı), hamı müqəddəsliyin arzusundadır (Oxucu, xristianların müsəlmanlara qarşı, heç nə üstə, nifrətlərinin dərəcəsinə bax!).

Xaç yürüşünü görən başqa bir şahid-Bizans imperatorunun qızı, tarixçi Anna Komnik özünün "Aleksiada" kitabında yazır: Adriaktikin o tayında, Herakl sütunlarına (Cəbbəllüttariq boğazı) qədər yaşayan bütün barbarlar, bütün Qərb bir yerdə Asiyaya köməyə (hücuma) başladılar. Onlar ailələri ilə gəlirlər və bütün Avropanı keçiblər" (İnternet saytı az.wikipediya.org).

Birinci dəfə 20 minlik qoşunla hücumda məğlub olan xaçpərəstlər ikinci dəfə cəngavərlər və əsilzadələrdən ibarət 110 minə yaxın ordu topladılar. Orduya bulonlu Qodfrid, tuluzalı Raymond və tarentli Boemund başçılıq edirdi. Anadoluda səlcuqları məğlub edən səlibçilər 1098-ci ilin mart ayında ilk dövləti - Edessa (Urfa) qraflığını qurdular. Xristianlar yürüş zamanı ermənilərdən də böyük dəstək aldılar. Antakiyanı mühasirə edən səlibçilərə şəhərdə yaşayan Firuz adlı bir erməni kömək edib, darvazaları Boemondun üzünə açdı. Urfa qraflığının yaradılmasında da ermənilər səlibçilərə kömək etdilər.

15 iyul 1099-cu ildə onlar əsas məqsədləri olan Qüdsü aldılar. Qüdsü alarkən çoxlu dinc sakini qətl edən səlibçilər hətta Məscidüləqsa və Qütbbətüssəxra məscidlərinə sığınanlara, həmçinin şəhərdə yaşa-

yan yəhudilərə də divan tutdular (Halbuki guya onları müdafiə şüarı ilə gəlmişdilər. Deməli burada məsələ başqa idi, müsəlman torpaqlarını işğal etmək!). Hadisələrin şahidi Raymond Aqliyer işğaldan sonrakı gün Qüdsün mərkəzindən keçərkən, hər tərəfi örtən cəsədlərin arasından və küçə boyu axan qanın içindən keçməyə məcbur olduğunu yazmışdı. Bütün Fələstin ərazisini ələ keçirən səlibçilər burada bir neçə dövlət qurdular (İnternet saytı az.wikipediya.org).

İslam dininin yayılması, müxtəlif xalqlar arasında əsas inam mənbəyinə çevrilməsi işində Osmanlı və Səfəvi imperiyalarının din siyasətlərinin rolu danılmazdır. XI əsrdən başlayaraq türklərin Kiçik, Ön, Mərkəzi Asiyada, Qafqazda siyasi hakim qüvvəyə çevrilmələri, onların ideoloji silah olaraq islam dinindən istifadə etmələri, beləliklə, Avropa və Asiya ölkələrinin birləşdirən beynəlxalq tranzit ticarət yollarını nəzarət altına almaları xristian dünyasını, xüsusilə də Roma papalarını daim həyəcan içində saxlayırdı.

Xristianlar kiçik bir müddət ərzində müsəlmanların bu qədər inkişafını və İslamın bu qədər yayılmasını həzm edə bilmirdilər. 1453-cü ildə Konstantinopulun (İstanbul) fəthi xristian dünyasını lərzəyə gətirdi. Roma Papası II Piy Osmanlı Sultanı I Mehmetə öz təbəələri ilə birlikdə xristianlığı qəbul edəcəyi təqdirdə, onun bütün Avropanın böyük və əbədi himayədarı elan olunacağını vəd etmişdi (Hələ XV əsrdə xristianların hiyləgərliyinə baxın! XXI əsrdə bunun nə qədər qüvvətləndiyinin isə şahidisiniz!).

Belə bir müraciətin edilməsinin digər əsas səbəbi isə İslamın sürətlə yayılacağı, beləliklə, bütün Avropanın siyasi-iqtisadi, dini nəzarətdən çıxması ehtimalı idi.

Avropanın siyasi və dini dairələri istər Səfəvilər, istərsə də Osmanlı imperiyalarında qeyri-müsəlmanlara olan yüksək səviyyədə dözümlülükdən, yəni tolerantlıqdan xəbərdar idilər. Əsl həqiqət isə bundan ibarətdir ki, bəzi Avropa siyasətçiləri söhbət islam dinindən düşən zaman istər orta əsrlərdə, istərsə də bugün öz nifrətlərini gizlədə bilmirlər və öz nifrətlərini müqəddəratlarımızı, Peyğəmbərimizi (s) təhqir etməklə büruzə verirlər. XVI əsrdə Avropada başlayan reformasiya hərəkatının bu qitənin xristian və yəhudi əhalisi üçün hansı fəlakətlərlə nəticələnməsi məlumdur. 1572-ci ildə təkcə Parisdə məşhur Varfolomey gecəsi dini təriqət ayrı-seçkiliyi zəminində 30 mindən çox insanın qətlə yetirilməsi, İspaniya və İtaliyada yəhudilərə qarşı inkvizisiya məhkəmələrinin qurulması təkcə orta əsrlərdə deyil, elə bugün də bəzi Qərb ölkələrində tolerantlıqdan, dini dözümlülükdən danışmağa heç bir əsas vermir. Hidayət Orucovun qeyd etdiyi kimi (Azərbaycanda din. Bakı, 2012) min ildən artıq dövr ərzində bütün türk dünyası tarixində və ilk növbədə Azərbaycan tarixində qeyri-müsəlmanlara qarşı heç bir qeyri-tolerantlıq qeydə alınmamışdır. Bəs Qərbdə bu islam qorxusu hardandır? Bu ancaq qara məni basmamış, mən qaranı basımdır. Bu "qorxunu" görün necə büruzə verirlər. 25 sentyabr 2014-cü il tarixdə Avstraliyanın Melburn şəhərinə gedən qatarlardan birinə əyləşən müsəlman qadın hücuma və irqçi təhqirlərə məruz qalıb. O, vaqonun qapısı yanında sakitcə dayandığı halda ucaboylu bir qadın əvvəlcə ona qarşı təhqiramiz ifadələr işlədib, sonra isə başını vaqonun divarına döyməyə başlayıb. Və növbəti stansiyada müsəlman qadın qatardan (vaqondakılar tərəfindən) bayıra atılıb. Maraqlıdır ki, polis cinayət edən qadını "Qafqaz milliyyətindən olan, şabalıdı saçlı, möhkəm bədənli qadın" (Avstraliyaya bax, qafqazlı qadına bax! O tərəflərə kimlərin gedib çıxdığı hamıya məlumdur!) kimi təsvir edib.

Avstraliya polisi ölkə ictimaiyyətinə müraciət edərək baş verən bütün islamofob hücumlar haqqında məlumat verməyə çağırıb.

Qeyd etmək lazımdır ki, son vaxtlar bu ölkədə islam dininin təhqiri və müsəlmanlara hücum halları çoxalıb. Avstraliyada 200 il bundan əvvəl məskunlaşmağa başlayan müsəlmanlar hazırda əhalinin 1,7 faizini təşkil edirlər (Azadlıq qəz. 2 oktyabr 2014-cü il).

XIX əsrin I yarısında Azərbaycanın iki yerə bölüşdürülməsi və Rusiya imperiyası tərəfindən işğal olunmuş Şimali Azərbaycanda 1824-cü ildən (1918-1920-ci illəri çıxmaq şərti ilə) 1991-ci ilədək yürüdülən fəlakətli dini siyasət aparılması öz əksini tapmışdır. XIX əsrin 30-cu illərindən başlayaraq Çar Rusiyası azərbaycanlıların yüksək tolerantlıq xüsusiyyətlərini nəzərə alaraq Rusiya imperiyasının mərkəzi regionlarından - Voronej, Saratov, Tambov, Orenburq, Tavriya və Yenisey quberniyalarından, həmçinin Bessarabiya vilayətindən əsasən molokanlar, subbotniklər, raskolniklər, skopçular, baptistlər, buxoborlar və başqa xoşlamadıqları təriqət sahiblərini Cənubi Qafqaz və Azərbaycan ərazilərində dayaq sayılacaq forpostların yaradılması məqsədi ilə yerləşdirdilər. Bunun özü də müsəlman ərazilərində xristianlığın yaylmasının bariz bir misalıdır.

Çar Rusiyası Şimali Azərbaycanı işğal etdikdən sonra burada apardığı din siyasəti müstəmləkəçilik siyasətinin tərkib hissəsinə çevrilmişdi. Müstəmləkəçi idarə aparatı Azərbaycanı mümkün olduqca çox talan etmək, burada milli dövlətin yaranmasına imkan verməmək, forpostlarını daha da gücləndirmək prinsiplərini etnik-dini qısqanclıqla icra edirdi. Bu məqsədlə Çar Rusiyası XIX əsrin 30-cu illərinədək Qacarlar və Osmanlı imperiyasının tərkibində yaşayan ermənilərin Azərbaycana köçürülməsi planını həyata keçirmiş, məqsədli şəkildə xristianlaşdırma siyasəti aparmışdır. Şimali Azərbaycan ərazilərində erməni dövləti yaratmaq Rusiya imperiyasının, həmçinin bəzi digər Avro-

pa dövlətlərinin çoxdankı planı idi.

Azərbaycan torpaqlarının bölüşdürülməsi məqsədi ilə Rusiya imperiyası ilə İran Qacarlar dövləti arasındakı 1928-ci il Türkmənçay müqaviləsinə əsasən ermənilərin İrandan Azərbaycan torpaqlarına köçürülməsi üçün lazımi şərait yaradılmışdı. Bu dövrdə nəinki ermənilərin Azərbaycan torpaqlarına köçməsinə şərait yaradılır, hətta burada daimi məskunlaşmaları üçün onlara böyük güzəştlər edilirdi. Rus tədqiqatçısı K.H.Şavrov yazırdı: 1828-1830-cu illər ərzində biz Cənubi Qafqaza (Azərbaycana) 40 mindən çox İran və 84 min Türkiyə ermənisi köçürdük və onlara 200 min desyatindən çox xəzinə torpağı ayrıldı. Çar Rusiyası elə bu illərdə pravoslav və protestant, pravoslavlara zidd təriqət mənsublarını, almanları da Azərbaycan torpaqlarında məskunlaşdırdı. Onlar Azərbaycanda bir sıra xristian mənşəli kəndlərin əsasını qoymuşdular.

Çarizm xristianlığa mənsub əhalini Azərbaycana köçürməklə burada xristianlığın yayılacağını, müsəlman din xadimlərinin cəmiyyətdəki mövqelərini itirəcəklərini düşünürdü. Çünki imperiya hakim dairələri Azərbaycanı işğal etməyə başladığı dövrdən etibarən müsəlman dindarlara müstəmləkə siyasətini həyata keçirməyə mane olan qüvvə kimi baxırdı. Buna görə də, çar hökuməti ilk növbədə ruhaniləri "zərərsizləşdirməyi" qarşısına məqsəd qoymuşdu. Çarizmin dinlə bağlı siyasəti də elə bu prinsipə söykənirdi. Nəticədə, Azərbaycanın işğalı müsəlman ruhaniliyinin sosial-siyasi və hüquqi durumu pisləşməyə başlamış, əsrlər boyu malik olduqları bir sıra hüquq və imtiyazlardan məhrum edilmişdilər.

Qeyd olunan dövrdə çar zülmünə qarşı bir neçə üsyan oldu. Bunların ən önəmlisi kəndlilər, Quba şəhər əhalisi, bəy və ruhani nümayəndələrinin iştirak etdiyi 1837-ci il Quba üsyanı idi.

Çar məmurları ruhanilərimizi xalqın gözündən salmaq üçün xalqın dini inanclarına təhqirlər söyləyirdilər. Bu hörmətsizlik barədə Gəncədən seçilmiş millət vəkili İsmayılxan Ziyadxanovun 1906-cı ildə Rusiya Dumasında söylədiyi nitqi Duma nümayəndələrinin üzlərinə sillə kimi oldu: "Cənubi Qafqaz yüz il bundan qabaq ruslar tərəfindən işğal edilmişdir. Bu yüz ildə bizim müsəlmanlar həmişə əsir müamiləsi görmüş və bu sifətdə hər təqibata məruz qalaraq, hər cür haqq və hüquqdan faydalanmaz kölə vəziyyətinə endirilmişik. Sözün həqiqi mənasında yüz il içində biz gözləri hər şeyi görən hökumətin şiddəti və əleyhimizə mənfi düzəlmələri altında yaşadılmışıq. Siyasi, sosial və iqtisadi sahənin hansı sahəsi ələ alınırsa-alınsın, hər birində bizim haqqımızda haqsızlığın hökm sürdüyünü görmüş olacaqsınız. Ölkəmiz istila edilər-edilməz, dərhal milli varlığımıza təcavüzə qalxınıldı. Dinimizdə və müqəddəslərimizdə müdaxilə edildi". Buna görə də XIX əsr müstəmləkə rejimlərinə qarşı milli-azadlıq hərəkatları ilə zəngindir. İttihadi-İslam ideyası həmin silsilənin ideoloji əsası olmaqla böyük dövlətlərin, xüsusilə Rusiya imperiyasının milli-din ayrı-seçkilik siyasətinə qarşı müsəlman xalqlarının həmrəyliyində mühüm rol oynamışdır. Rusiya ərazisində bütün müxtəlif tayfalı və müxtəlif etiqadlı "yadların" tatarlaşmasına və müsəlmanlaşmasına cəhd edilməsi yolunda müəyyən istiqamət şəklini alan bu təbliğat dövləti narahat etməyə bilməzdi.

Çarizm bir tərəfdən təbəəliyindəki müsəlman xalqlarına qarşı təcrübədə sınadığı pravoslav-şovinist təbliğatını gücləndirir, digər tərəfdən, xarici müsəlman ölkələrindəki missionerlərin, rəsmi nümayəndəliklərin köməyi ilə islam aləmini öyrənir, İngiltərə və Fransa kimi müstəmləkəçi ölkələrin müsəlman vilayətlərindəki hökmran metodlarına yiyələnir, islam ideologiyasına qarşı mübarizə pərdəsi altında xalqların milli-mədəni dirçəlişinə qarşı mübarizə aparmaq üçün daha ətraflı, "düşünülmüş" planlar hazırlayırdı.

18 milyondan artıq müsəlmanın İttihadi-İslam ideologiyası ətrafında birləşməsi Çar Rusiyası üçün təhlükə yarada bilərdi. Ona görə də Rusiya imperiyasında İslam birliyi ideyasına, onun hər cür təzahürünə qarşı panislamizm damğası vurulur, əleyhinə amansız mübarizə aparılırdı. Müsəlmanlar arasında xristianlığın zorla yayılması, müsəlmanların hüquqlarının tapdalanması kimi vasitələrdən istifadə edilirdi. Daxili İşlər Naziri P.Stolıpin 1911-ci ilin yanvarın 15-də Çar Rusiyası Nazirlər Şurasına "Müsəlman əhalisi arasında panislamizmin təsirinə əks təsir tədbirləri haqqında" mövzusunda hazırlanmış məruzə təqdim etmişdi.

XX əsrin əvvəllərində də Azərbaycanda vəziyyət çox qarışıq olmuşdur. Erməni Milli Şurası, "Daşnaksutyun" rəhbərliyi və Bakı Soveti Azərbaycan xalqının birliyinin təmin olunmasında Təzəpir məscidinin oynadığı rolu yaxşı bilirdilər. Ona görə də 1918-ci il mart ayının 31-də müsəlman əhaliyə qarşı qırğına başlayan daşnak-bolşevik birləşmələri Təzəpir məscidi ilə əlaqədar olan "İsmailliyyə" binasını, "Kaspi" qəzetinin redaksiyasını və mətbəəsini, orada yenicə çap olunmuş Qurani-Kərimin 5 min nüsxəsini yandırıb külə döndərmişdilər (Vəhşiliyə baxın!). Türk-müsəlman əhalisinə qarşı qırğına əvvəldən hazırlıq görən erməni-daşnak qüvvələri şəhərdə şayiə yaymışdılar ki, guya din xadimlərinin fitvası ilə müsəlmanlar rus millətindən olanları qırır, evlərini yandırırlar (Belə bir mühüm faktı qeyd etmək lazımdır ki, Bakı Sovetinin başçısı, "Daşnaksutyun" partıyasının Bakı komitəsinin üzvü Sovet Rusiyasının rəhbəri V.İ.Leninin 16 dekabr tarixli qərarı ilə Qafqaza fövqəladə komissar təyin edilən S.Şaumyan 1918-ci ilin martına qədər Moskva Hərbi Dairəsindən 5 min tüfəng, 2 aero-

plan, 2 zirehli maşın və 31,3 milyon rubl vəsait almış və Bakıda azərbaycanlı əhaliyə qarşı soyqırım törətmişdir). Ermənilər rus matroslarını bu şayiəyə inandıra bilmiş və matroslar gəmidən uzaqvuran topla Bakı məhəllələrini atəşə tutmuşdular. Çənbərəkənddə bir neçə tikili, o cümlədən məktəb, hərbi xəstəxana və yetim uşaqların evi dağıdılmışdı. Ermənilər matrosları Təzəpir məscidini atəşə tutmağa çağırırdılar (Faşızmə bax!). Məscid atəşə tutulur. Din xadimlərindən biri ağ bayraq götürüb məscidin damına qalxır ki, bəlkə ağ bayrağı görüb atəşi kəsdilər. Məscidə üç mərmi atılır və onu zədələyir. Matroslar yalnız şəhərdə ruslara qarşı heç bir qırğının olmadığını yəqin etdikdən sonra atəşi kəsirlər. Bakı şəhərinin keçmiş rəisi Ter-Mikaelyants Təzəpir məscidinə sığınmış əliyalın azərbaycanlı əhaliyə hər cür zorakılıq etməyi, hətta lazım gələrsə, məscidi yandırmağı belə əmr etmişdi (Eynən faşist əməli). Xoşbəxtlikdən daşnak-bolşevik birləşmələri bu rəzil niyyətlərini həyata keçirə bilməmişdilər.

Xristianlar nəyə görə İslamdan qorxurlar? İslam təhlükəsi deyə bağırıb ermənilər kimi üz-gözlərini cırırlar? Əslində, onlar heç şeydən qorxmurlar, özlərini qorxan göstərirlər. İslam ölkələrində bu qədər qan tökən xristianlar, Amerika deyilmi? Ancaq onların sözləri keçsin deyə müsəlmanları gözüqıpıq etmək istəyirlər. Var gücləri ilə İslamı pisləyib, inamlarımızı məsxərə edirdilər. Terrorizmə qarşı "mübarizə aparan" Amerika özü Ben Ladenə terrorçuluğu öyrətməyibmi? İŞİD kimin işidir? İndi gözdən pərdə asaraq İraq və Suriyanın dinc əhalisini də bombalayırlar ki, mən İŞİD-ə qarşıyam (öz istəyinə nail olandan sonra).

Din insan və cəmiyyət üçün göndərilmiş olması ilə dindir. Din insanların haqq və ədalət prinsiplərinə uyğun olaraq ən gözəl şəkildə yaşamaları üçün göndərilmişdir. Əks halda onun nə kimi faydası ola bilərdi. Bu baxımdan İslam xristianlıq və digər dinlər kimi cəmiyyətdən ayrılmış, insanlığa və yaradılmışa xidmətdən uzaqlaşmış, şəxsi və rahiblik dini deyildir. İslam dünyada sözün əsl mənasında həm maddi, həm də mənəvi cəhətdən insanlar arasında bərabərliyi, ədaləti, birliyi, qardaşlığı və bir-birinə mərhəmət prinsiplərini gerçəkləşdirmək üçündür. İslamda zülmə, istismara, Amerikadakı kimi bir qrupun digərləri üzərində diktatorluq etmələrinə imkan yaradan demokratiya anlayışı yoxdur. İslamda insanların beyinlərini qarışdıran, könüllərini bulandıran, həyatı qorxunc bir kabus halına gətirən "dünyəvilik" anlayışı yox, "Tövhid", "Ədalət" vardır. Buna görə də o, canlı, yeganə sistemdir. Müsəlmanların və dünyanın bütün zülm çəkən məzlum insanlarının tək ümidi də budur. Son bir çarə olaraq avropalılar, xristianlar haqsız və əsassız bir şəkildə İslamı qaralamaq, ona böhtan atmaq üçün əllərindən gələnləri edirlər.

1918-ci ilin martında erməni-daşnak quldurlarının törətdiyi soyqırım nəticəsində millətlə yanaşı, planlı və məqsədyönlü şəkildə xalqın mədəniyyət abidələri də məhv edilirdi. Erməni-daşnak quldurları bolşevik bandaları ilə birlikdə "İsmailiyyə"ni talan edib yandırmışdılar. Ümumiyyətlə, bütün dinlərə, islam dininə düşmən olan bolşevik kommunist ideologiyası əhalinin milli dini dəyərlərinə düşmən kəsilmişdi.

Dünyada xristianların sayı çox, haramdan qazandıqları sərvət bol olduğuna görə bəzi satqın, alçaq, rəzil Salman Rüşti kimilər xristianlardan haram "sədəqələr" almaq məqsədilə İslama qara yaxır, vicdan, inanc, namuslarını pula sataraq, bütün dünyada ehtiramla qarşılanan, yüzdən çox dildə, milyardlarla nəşri olan Qurani-Kərimi "Şeytan ayələri" adlandırırlar və ya Avropa ölkələrində İslam Peyğəmbərinin (s) karikaturalarının çəkilməsi xristianların əməlləri deyilmi? Peyğəmbəri məsxərəyə qoymaq, Allah Kitabını təhqir etmək hansı insanın ağlına gələ bilər, vəhşidən başqa. Allah Təala axırıncı peyğəmbər kimi Məhəmmədi rəsul təyin etdi. Axırıncı olaraq da ona göndərdiyi İslamı tam din olaraq göndərdi və ona nazil etdiyi Qurani-Kərimi də tamamladı. İncilə baxaq. Müasir 4 İncil var. Niyə dörd, bəlkə də altıdır. Bunlar hamısı sonradan Matfey, Luka, Mark və İohann tərəfindən yazılmış nüsxələrdir (Allahın nazil etdiyi İncilin təhrifi ilə). Amerikada nəşr olunan "Avake" (Oyan) jurnalının 8 iyul 1975-ci il tarixli nömrəsində Karl Ceymsin yazdığı məqalədə göstərilir ki, "Kitabi Müqəddəsdə" (İncildə) 20 min xəta var. Hətta Qərbdə etiraf olunan bu həqiqət İncillərin necə bir təhriflərə uğradıqlarını göstərir. Əlbəttə, Allah Təala bəndənin onun işinə qarışmağını - şirki sevməz. Və ona görə də Qurani-Kərimi tam nazil etmiş, Məhəmmədi isə axırıncı Peyğəmbər kimi təyin etmişdir. Məhəmməddən (s) sonra peyda olan yalançı peyğəmbərlər isə ümumi (savadı olmayan) Peyğəmbərə nazil olan Qurana bənzər bir şey əmələ gətirə bilmədilər.

AmmarAbbasov
Islamophobiain Europe
Summary

Despite the strong influence of Islam on European culturein Europe for a long time maintained the unfriendly attitude towards Islam. Christians and Jews of Europe considered that the Prophet Muhammad, Islamic religion, and Muslims which infused fear in them are their enemies. As a result, starting from the time of the Crusades to the present day the West provoking wars, attacks and kills, but culprits and perpetrators of all these permanently are declared Muslims.

Şərqşünaslıq İnstitutunda ermənilərin Cənubi Azərbaycanda xalqımıza qarşı soyqırım aktları ətraflı araşdırılır

AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda Azərbaycan xalqına qarşı ötən əsrin əvvəllərində həyata keçirilən soyqırım ilə bağlı yeni faktların üzə çıxarılması istiqamətində əhəmiyyətli işlər görülür. İnstitutun əməkdaşlarının bu sahədə apardıqları tədqiqatların Arazın hər iki tayında azərbaycanlılara qarşı törədilən kütləvi qırğınların, qarətlərin, deportasiya aktlarının əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rolu var. Bu mənada AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda görkəmli İran tarixçiləri Səməd Sərdariniya və Tohid Məlikzadə Dilməqaninin əsərlərinin fars dilindən tərcümə edilərək nəşr edilməsi təqdirəlayiqdir.

Səməd Sərdariniyanın "Arazın hər iki tayında müsəlmanların soyqırımı" kitabında erməni quldur dəstələrinin rus və ingilis hərbi qüvvələrinin köməyinə arxalanaraq Türkiyə, İran və Azərbaycan ərazilərində çoxsaylı cinayət törətmələri, müsəlman kənd və şəhərlərini xarabazara çevirmələri, yüz minlərlə günahsız insanların qətliamını təşkil etmələri tutarlı sənədlər və mənbələr əsasında açılıb göstərilir. Həmin müəllifin digər "İrəvan müsəlman sakinli vilayət olmuşdur" kitabı tarixi faktları ortaya qoymaq, erməni və onlara havadarlıq edən ölkələrin "siyasətçilərinin", "tarixçi alimlərinin" yalan və uydurmalarını ifşa etmək məqsədi ilə qələmə alınmışdır. Kitab İnstitut tərəfindən tərcümə olunaraq nəşr edilmişdir. Müəllif kitaba yazdığı müqəddimədə qeyd edir ki, İran – Rusiya müharibələrindən, xüsusilə də Türkmənçay müqaviləsindən sonra ermənilərin Çuxursəd vilayətinə (indiki Ermənistan Respublikası ərazisinə) və onun mərkəzi İrəvana köçürülməsinə rusların birbaşa himayədarlıq etmələrinə və "məşəqqətlər görmüş millətə" hər cür dəstək vermələrinə baxmayaraq, 1918-ci ilə qədər ermənilər Qafqazın heç bir məntəqəsində əhalinin əksəriyyətini təşkil etməmişlər. Yeri gəlmişkən, görkəmli alim tarixi faktları səsləndirərkən erməni müəlliflərinə də istinad etmişdir.

"İrəvan müsəlman sakinli vilayət olmuşdur" kitabı İrəvanın ilkin yaşayış məskəni kimi formalaşması mərhələsindən başlayaraq burada yaşayan müsəlmanların (azərbaycanlıların) daşnakların əli ilə kütləvi şəkildə qətlə yetirilməsinə qədərki böyük tarixi mərhələni əhatə edir. Kitabın ilk hissələrində müəllif tarixi sənədlər və fotolar əsasında rus işğalı ərəfəsində İrəvanın tarixi-coğrafi mənzərəsini, şəhərin türk-müsəlman memarlığı əsasında yaradılmış arxitektura quruluşunu, mədəniyyət abidələrinin, dini mərkəzlərin (yeddi məscidin), karvansaraların və digər ictimai müəssisə və təşkilatların şəklini oxucuya təqdim etməklə onun tarixi bir müsəlman-türk şəhəri olduğunu sübut etməyə nail olmuşdur.

S.Sərdariniya kitabın "İrəvan Türkmənçay müqaviləsindən sonra" adlı bölməsində İrəvanda müharibədən sonrakı vəziyyəti, bu müsəlman şəhərində rusların ermənilərə himayədarlıq etmələrini son dərəcə dəqiq və ciddi şəkildə araşdırmışdır. Müəllif 1985-ci ildə Ermənistan Respublikasında çap olunmuş "Ermənistan tarixi" adlı kitaba əsaslanaraq Türkmənçay müqaviləsindən sonrakı ilk dövrlərin müqayisəli statistikasını təqdim etmişdir: "...bu zaman İrəvanda 1805 azərbaycanlı ailəsinə qarşı cəmi 567 erməni ailəsi olmuşdur".

Bundan sonra isə rusların özlərinin hazırladıqları hesabatdan istifadə edən alim Türkmənçay müqaviləsindən əvvəlki və ondan sonrakı dövrlərdə İrəvan və Naxçıvan xanlıqlarında əhalinin milli tərkibinə aid rəqəmlərin müqayisəli təhlilini təqdim etmişdir: "Kameralnoe opisanie" adlanan sənəddə göstərildiyi kimi, 1828-ci il müqaviləsinin ardınca 20 mindən artıq azərbaycanlı türk-müsəlman bu iki xanlığı (İrəvan və Naxçıvan) tərk etmək zorunda qaldı və İrana köçdülər. Nəticədə 1828-ci ildə müsəlman əhalinin sayı 93 min nəfərə qədər azaldı. Dörd il sonra, yəni 1832-ci ildə müsəlmanların sayı 82.373 nəfərə qədər azaldı. Lakin həmin 4 il müddətində, yəni 1828-1832-ci ilə qədərki dövrdə ermənilərin sayı 25.151 nəfərdən 82.377 nəfərə qədər qalxdı. Bir sözlə, erməni əhalinin sayı 3 dəfə artdı".

Bu, bir millətin didərgin salınması, digər millətin zorakı yolla hakim mövqeyə gətirilməsi demək idi. Daha sonra müəllif ermənilərin İrandan və Osmanlı Türkiyəsindən bu bölgəyə köçürülməsini təsvir edir. Kitab tarixi təhrif edənlərə, bu gün dünyada məzlum erməni obrazı yaratmaq istəyənlərə, "Böyük Ermənistan" xülyası ilə yaşayanlara və bu məqsədlə azərbaycanlıların vəhşi obrazını yaratmaq istəyənlərə tutarlı cavabdır.

Digər İran müəllifi Tohid

Məlikzadənin "Güney Azərbaycan I Dünya müharibəsi illərində" adlı əsərində 1914-1919-cu illərdə ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımdan bəhs olunur. Müəllif əsəri yazarkən əsasən Osmanlı arxivlərindən istifadə etmişdir. Bundan başqa xatirələrdən, rəsmi məktublardan və həmin dövrə aid olan qəzet materiallarından da istifadə olunmuşdur. Kitab İnstitut əməkdaşları tərəfindən farscadan tərcümə edilərək çap olunmuşdur.

İnstitutda icra olunan elmi-tədqiqat işlərindən "Cənubi Azərbaycanın qərb bölgəsində azərbaycanlılara qarşı soyqırım (1917-1919-cu illər)" adlı dissertasiya işini xüsusi qeyd etmək lazımdır. Əsərdə 1918-ci il Cənubi Azərbaycanın qərb bölgəsində azərbaycanlılara qarşı birləşmiş erməni-aysor silahlı dəstələrinin törətdiyi soyqırım aktları müfəssəl araşdırılır. Soyqırımın törədilməsində məqsəd isə aborigen əhalini məhv etmək və demoqrafik mənzərəni ermənilərin xeyrinə dəyişməklə "Böyük Ermənistan" üçün real şərait yaratmaq idi.

Farsdilli mənbə və qaynaqlar əsasında hazırlanan tədqiqat işinin əsas hissəsini Cənubi Azərbaycanın qərb bölgəsində (Urmiya, Salmas, eləcə də ətraf qəsəbə və kəndlər) birləşmiş erməni-aysor silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırım törətməsinin araşdırılıb təhlil edilməsi təşkil edir. 1918-ci ilin əvvəllərində başlanan və 6 ay davam edən soyqırımda Urmiya gölünün cənubunda yerləşən Sulduz mahalından tutmuş şimalda Xoy şəhərinə qədər geniş bir ərazidə yerləşən Urmiya və Salmas başda olmaqla bütün şəhər, qəsəbə və kəndlərdə azərbaycanlılar amansızcasına soyqırıma məruz qaldılar.

Cənubi Azərbaycanın qərb bölgəsində azərbaycanlılara qarşı törədilən soyqırımda insan tələfatının statistikası ilə bağlı 150-200

min arasında müxtəlif rəqəmlər qeyd edilsə də, ən dəqiq məlumat İran mərkəzi hakimiyyətinin göstərişi ilə soyqırımdan sonra yaradılan tələfat və baş verən maddi ziyanı siyahıya alan komissiyanın hesabatında öz əksini tapıb. Həmin hesabata əsasən "I Dünya müharibəsi başlayandan komissiya yaranana qədər sadəcə qeydə alınan və hesablama vərəqələrində göstərilən can itkisi 160 min nəfər, maddi ziyan isə təxminən 160 kror tümən idi... Xəsarət və insan tələfatı siyahıya alınmayan məntəqələr də hesablanarsa, dəyən maddi xəsarət 200 kror tümən, insan itkisi isə 200 min nəfər olur" (Rəhmətulla xan Mötəmidəlvüzəra. Urmiye dər moharebe-ye aləmsuz. Bekuşeş-e Kave Bəyat. Nəşr-e "Pəjuh-e Şiraze", Tehran, 1379 (2000), s. 230, 585 s.).

Artıq müzakirədən keçmiş və müdafiəyə təqdim edilmiş əsər xalqımıza qarşı törədilən cinayətlərin dünya ictimaiyyətinə çatdırılması üçün göstərilən səylərdən biri kimi qiymətləndirilə bilər.

Bunu da əlavə edək ki, yaxınlarda İnstituta Cənubi Azərbaycanın tarixi, etnoqrafiyası, mədəniyyəti, demoqrafiyası və s. ilə bağlı 79 adda son dərəcə əhəmiyyətli ədəbiyyat və xəritə daxil olmuşdur. Onların içində: İbrahim Faeqi. Azərbaycan dər məsir-e tarix (celd 1 və 2). Təbriz, enteşarat-e "Yaran", 1377/1998; Azərbaycan dər mouc-e tarix. Bamoqəddemeye KavəBəyat. Tehran, Şiraze, 1379; Esfəndiyar Hacılı. Ruzşomar-e təqvim-e tarix-e Azərbaycan. Qum, enteşarat-e Bəxşayeş, 1393; Ebrahim Eskəndəriniya. Saxtar-e sazman-e ilat və şive-ye məişət-e əşayer-e Azərbaycan-e qərbi. Urumiye, enteşarat-e Ənzəli, 1366; Pərisa Qorbannejad. Ketabşenasi-ye tousifi-ye tarix-e Azərbaycan-e qərbi. Urumiye, daneşqah-e azad-e eslami, 1392; Qozareş-e eqtesadi, ectemai və fərhəngi-ye ostan-e Azərbaycan-e qərbi sal-e 1391. Urumiye, ostandari-ye Azərbaycan-e qərbi, 1392; Məhəmmədrza Məhəmmədquluzad. Azərbaycan-e qərbi dər ayine-ye təqsimat-e keşvəri-ye comhuri-ye eslami-ye İran. Urumiye, Hisaməddin Çələbi, 1391; Ətləs-e şəhri-ye ostan-e İran. Tehran, moəssese-ye coğrafiya-yi və kartoqrafi-ye gitişenasi, 1393; Çohre-ye İran: rahnoma-ye gərdeşgəri-ye ostanha-ye İran. Tehran, moəssese-ye coğrafiya-o kartoqrafi-ye gitişenasi, 1392 və sairə bu kimi kitablar var. Göstərilən ədəbiyyatın ətraflı tədqiqi xalqımızın çoxəsrlik tarixi və mədəniyyətinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Vüqar Məmmədov,
filologiya üzrə fəlsəfə doktoru

Nizami dühasına daha bir töhfə

Gövhər Baxşəliyeva
millət vəkili, AMEA Şərqşünaslıq İnstitutunun direktoru, müxbir üzv

Aprel ayının 20-də Misirin İsgəndəriyyə Kitabxanasında böyük Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunmuş beynəlxalq konfrans və şairin büstünün açılış mərasimi keçirildi. Mərasimdə iştirak etmək mənə nəsib oldu.

Plenar iclasda İsgəndəriyyə şəhərinin qubernatoru Hani Əlməsiri, Misir baş nazirinin xüsusi müşaviri, İsgəndəriyyə Kitabxanasının direktoru, dünyaca tanınmış alim İsmayıl Serageldin, Latviyanın eks-prezidenti Vayra Vike-Frayberqa, eks-prezidentlər - Peter Stoyanov (Bolqarıstan), Emil Konstantinesku (Rumıniya), Boris Tadiç (Serbiya), Rexhep Meydani (Albaniya), Andres Pastrana (Kolumbiya), eləcə də Ərəb Liqasının sabiq rəhbəri Əmr Musa, İslam Əməkdaşlıq Təşkilatının sabiq Baş katibi Ekmələddin İhsanoğlu, Azərbaycan Respublikasının Misirdəki səfiri Şahin Abdullayev, Nizami irsini tədqiq edən misirli alimlər, ictimai-siyasi xadimlər, ictimaiyyətin nümayəndələri və tələbələr iştirak edirdilər.

İclasda çıxış edən doktor İ.Serageldin qonaqları salamladıqdan və tədbirin əhəmiyyətindən danışdıqdan sonra Nizami yaradıcılığı haqqında ətraflı məruzə etdi, dahi şairin poetik irsinin əsas istiqamətlərini və ideya-bədii xüsusiyyətlərini xarakterizə etdi, onu islam sivilizasiyasının, ümumşərq və dünya mədəniyyətinin inkişafında müstəsna hal kimi qiymətləndirdi və Nizami Gəncəvini böyük müsəlman şairi və mütəfəkkiri kimi təqdim etdi. Nizaminin vətəni Azərbaycandan danışan natiq buranı Şərq və Qərb mədəniyyətlərinin sintez olunduğu unikal bir məkan kimi xarakterizə etdi, azərbaycanlıları yüksək mədəniyyətə malik qədim xalq kimi səciyyələndirdi. "Azərbaycan o ölkədir ki, burada keçən əsrin əvvəllərində Şərqdə ilk demokratik respublika yaradıldı, qadınlara Avropa və Amerika ölkələrindən daha əvvəl səsvermə hüquqi verildi", - deyərək, natiq bugünkü Azərbaycanı yüksək inkişafa nail olmuş sivil, modern, tolerant bir ölkə kimi xarakterizə etdi. Mərasimdə iştirak edən mötəbər qonaqlardan üç nəfəri çıxış edərək, iştirakçıları salamladı və tədbirin əhəmiyyətindən danışdı.

Plenar iclasda mənim də məruzəm dinlənildi. Keçirilən tədbirə görə Misir tərəfinə təşəkkürümü bildirərək konfrans iştirakçılarına Azərbaycan Prezidentinin və xalqının salamlarını və xoş arzularını çatdırdım. "Bu gün həqiqətən möhtəşəm bir gündür. Burada, qədim Misir torpağında, məşhur İsgəndəriyyə kitabxanasında böyük Azərbaycan şairi Nizami Gəncəvinin büstü açılır", - deyərək, Azərbaycan xalqı ilə Misir xalqının çoxəsirlik tarixi və mədəni əlaqələrindən, xalqımızın islam sivilizasiyasının inkişafına verdiyi böyük töhfələrdən söz açdım. Dəfələrlə Nizaminin məhz Azərbaycan şairi olduğunu vurğuladım. İstər etnik mənsubiyyətinə görə, istər yaradıcılığının ruhuna, Azərbaycan poetik ənənəsinin davamına və yaradıcılığında orta əsrlər Azərbaycanın ictimai-siyasi və mədəni mühitinin inikasına və s. görə şairin bir çox problemlərin təqdimində öz doğma mühitinin hadisə, şəxsiyyət və problemlərindən çıxış etməsi aşkar duyulur. Nizaminin poetik irsini dəyərləndirərək, onu klassik dövrün yeni mərhələsi kimi qiymətləndirdim. Və məhz Nizaminin yüksək humanist fikirlərində orta əsrlərin mistikasından ayrılaraq humanist təfəkkürlə insana, cəmiyyət həyatının məna və mahiyyətinə rasional, məntiqi yanaşma tərzini vurğuladım. Nizaminin bütün yaradıcılığına xas əsas ideya insana sevgi və onun xoşbəxt həyat üçün yarandığına inam olduğunu vurğuladım. Nizami elə ilk poeması ilə Yaxın və Orta Şərq ədəbiyyatında yeni epik ənənənin, bütöv bir əbədi məktəbin bünövrəsini qoydu. İnsanı ucaldan, onun adını əbədiləşdirən ülvi məhəbbətin təsvir və tərənnümü Nizami yaradıcılığında böyük yer tutur. Nizami sənətinin böyüklüyü və onun estetik idealı sonrakı əsrlərdə bütün Şərq ədəbiyyatlarının inkişafına güclü təkan vermiş, dahi şair tərəfindən müəy-

yən edilmiş prinsiplər təkcə Azərbaycan deyil, bütövlükdə Yaxın və Orta Şərq, eləcə də bir sıra Qərb ədəbiyyatında humanist meyillərin artmasına səbəb olmuşdur.

Onu da əlavə edim ki, ərəb dilində səsləndirdiyim məruzə doktor İ.Serageldin və konfransın digər ərəb iştirakçıları tərəfindən böyük məmnunluqla qarşılandı. Doktor İ.Serageldin və digər ərəb alimləri çıxışlarında dəfələrlə bunu vurğuladılar.

Plenar iclasın sonunda İ.Serageldin Azərbaycan dövləti tərəfindən İsgəndəriyyə Kitabxanasına təqdim olunmuş Nizami Gəncəvinin büstünün açılışını etdi. Açılış mərasiminin ardınca tədbirdə iştirak edən media nümayəndələri üçün mətbuat konfransı keçirildi.

Tədbirin ikinci hissəsi Nizami Gəncəvi yaradıcılığını tədqiq edən alimlərin çıxışları və geniş müzakirələrlə davam etdi. Konfrans çərçivəsində İ.Serageldinin təqdimatı ilə Nizami Gəncəvi haqqında Ayn Şəms universitetinin professoru, fars dili və ədəbiyyatı mütəxəssisi doktor Abd ən-Nəim Muhəmməd Həsəninin "Nizami əl-Gəncəvi: Şəir əlfadılə. Asruhu, biətuhu və şıruhu" ("Nizami Gəncəvi: fəzilət şairi. Əsri, mühiti, şeri") İsgəndəriyyə kitabxanası tərəfindən ərəbcə nəşr edilmiş kitabın təqdimatı da keçirildi.

Onu da deyim ki, konfransın ikinci hissəsində dinlədiyimiz bütün məruzələr Nizami Gəncəvi yaradıcılığının müxtəlif aspektləri haqqında idi və misirli müəllim və tələbələr tərəfindən təqdim edilirdi. Məruzələrdə Nizami yaradıcılığına böyük sevgi və maraq öz əksini tapmışdı. Dahi şairin yaradıcılığı ən yüksək səviyyədə qiymətləndirildi. Təəssüf doğuran isə Nizaminin fars şairi və ürfan şairi kimi təqdim edilməsi idi ki, bu məsələyə səfir Şahin Abdullayev və mən yerindəcə aydınlıq gətirdik.

Doktor Abd ən-Nəim Muhəmməd Həsəninin kitabı haqqında fikirlərimlə də bölüşmək istərdim. Aprel ayının 20-si mənim səfərim başa çatdı və 21-nə keçən gecə mən İstanbula, daha sonra Bakıya döndüm. Bunları deməkdə məqsədim kitabı yalnız təqdimatı zamanı əldə etdiyimi və onunla hələ ətraflı tanış olmadığımı, bu imkan yalnız Bakıya qayıdandan sonra olduğunu bildirməkdir. Öncə onu deyim ki, bütövlükdə İsgəndəriyyə kitabxanasında Nizamiyə həsr olunmuş və İ. Serageldinin geniş müqəddiməsi ilə çap olunmuş kitabın təqdimatı çox qürurverici hadisə idi. Lakin kitabla ətraflı tanışlıq mənim ilkin təəssüratıma bir qədər təəssüf hissi qatdı. Kitab 2 hissədən, 10 fəsildən və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. Müəllif kitabı atasının əziz xatirəsinə həsr edib. Kitaba epiqraf kimi "Sirlər xəzinəsi"nin birinci beyti verilmişdir:

Bismillahi-r-rəhmani-r-rəhim
Hikmət xəzinəsinə budur açar, ey həkim!

Kitabın birinci hissəsində Nizaminin yaşadığı əsrin təsviri, Səlcuqlar dövləti, böyük səlcuqilər, İraq səlcuqiləri, Kiçik Asiya səlcuqiləri, Azərbaycan hökmdarları, Azərbaycan Atabəyləri, Marağa və Şirvan hökmdarları, Abbasilər və İsmaililər haqqında ətraflı məlumat verəndən sonra müəllif Nizaminin yaşadığı əsrin ictimai, bədii və dini mənzərəsini yaradır.

Kitabın "Nizaminin şəxsi mühiti" adlanan II fəslində şairin doğulduğu coğrafi mühit, Gəncənin ictimai-siyasi və mədəni həyatı canlandırılır, şairin ailəsi haqqında məlumatlar təhlil edilir. Növbəti fəsildə şairin adı, ləqəbi, künyəsi, təxəllüsü, doğum tarixi, həyatı, əxlaqi keyfiyyətləri, vəfatı və məzarının ehtimal olunan yerləri haqqında məlumatlar təhlil edilir.

Kitabın ikinci hissəsi bilavasitə Nizami poeziyasının ideya-məzmun və bədii-estetik cəhətdən səciyyəndirilməsinə həsr olunub. Burada müəllif ümumillikdə məsnəvi sənəti, "Xəmsə" nin əlyazma nüsxələri və tərtibatı haqda mövcud mülahizələri nəzərdən keçirir. Daha sonra "Xəmsə"yə daxil olan məsnəvilər müfəssəl təhlil edilir. Bu zaman xüsusi diqqət şairin "Leyli və Məcnun" yazarkən ərəb mənbələrinə müraciət etməsinə yetirilir, məsnəvi ərəb variantı ilə ətraflı müqayisə edilir. Son olaraq Nizaminin divanı və sənətkarlıq xüsusiyyətləri tədqiq edilir.

Tədqiqatın biblioqrafiyası ilə tanışlıq göstərir ki, müəllif tərəfindən istifadə edilmiş 166 adda elmi

ədəbiyyatın 86-sı fars dilində, 45-i ərəb, 19-u ingilis, 2-si alman, 3-ü fransız, 1-i italyan dillərindədir. Azərbaycan dilində heç bir elmi ədəbiyyat istifadə edilməmiş, türk dilində isə cəmi 2 adda ədəbiyyat verilmişdir ki, onlar da Nizami yaradıcılığı haqda deyil, Səlcuqilər dövlətinin tarixinə aiddir. Rus dilində isə istifadə edilən 8 ədəbiyyatın, o cümlədən E.E.Bertelsin "Великий азербайджанский поэт Низами" əsərinin əsas ideya məzmunu - Nizaminin məhz Azərbaycan şairi olması kitab müəllifi tərəfindən ya qəbul edilməmiş, ya da etinasızlıqla qarşılanmışdır. Müəllifi fars dili və ədəbiyyatı mütəxəssisi olduğundan, kitab üzərində işləyərkən onun üçün daha anlaşıqlı olan fars dilində yazılmış elmi ədəbiyyatdan qat-qat çox istifadə etmiş və öz kitabını fars ədəbiyyatşünaslığında Nizami və digər orta əsrlər farsdilli ədib və şairlər haqqında mövcud konsepsiya əsasında qələmə almışdır. Bu konsepsiyanın isə əsas ideyası etnik mənsubiyyətinə fərq qoymadan fars dilində yazmış bütün şair və ədiblərin yaradıcılığının "fars irsinə" ("ətturas əl-fərisi") aid edilməsidir.



Bütün bunlara rəğmən doktor İ.Serageldin kitabı təqdim edərkən yazır (mətnin hərfi tərcüməsini verirəm ki, yazının mənasını tam dəqiqliklə oxucuya çatdıram): "Fars irsi yalnız müasir İrana daxil olan ərazilərin insanlarının yaratdıqları deyil, farsca yazanların bütün əsərləri, müasir İrana daxil olmayan ərazilərdən olmayanların da əsərləri bu irsə şamil edilir və onların ən görkəmlilərindən biri böyük həkim (aqil, mütəfəkkir mənasında) Nizami Gəncəvidir. O müasir Azərbaycanın oğludur, dövrünün ən böyük üləmalarından və bütün islam aləminin ən görkəmli şairlərindən olub, onun nəhəng poeziyası ümumbəşər səviyyəsini saxlayır." (səh.19). Və daha sonra: "Onun adı Camal əd-Din Əbu Muhəmməd İlyas bin Yusuf əl-Gəncəvidir (həkim Nizami Gəncəvi kimi tanınır), böyük fars epik şairlərindəndir. 535 hicri/1140 miladi ilində Gəncədə doğulub. Bu şəhər Azərbaycanın ikinci şəhəridir, onun ömrünün əksər hissəsi burada keçib. Anası kürd, atası Qumdan gəlmişdir." Daha sonra Nizami yaradıcılığını yüksək elmi səviyyədə dəyərləndirən, "Xəmsə"yə daxil olan bütün məsnəviləri bir-bir yığcam təqdim edən doktor İ.Serageldin şairin yaradıcılığının yüksək əxlaqi, insani, sufi və irfani əhəmiyyətini vurğulayır və son olaraq gəldiyi nəticəni səsləndirir: "Biz İsgəndəriyyə kitabxanasında Nizami Gəncəvini dünya miqyasında yerini təsdiq etmiş müsəlman şairlərindən hesab edirik" (səh. 28). Bunları yazmaqda məqsədim heç də misirli həmkarlarımızın gördükləri işin əhəmiyyətini azaltmaq deyil, Misir nizamişünaslığının fars və farsdilli mədəni irs arasında tamamilə fərq qoymadığını göstərməkdir. Təəssüf ki, hörmətli həmkarlarım tamamilə İran nizamişünaslığının və ədəbiyyatşünaslığının təsiri altındadır və bu sahədə dünya elmində mövcud fərqli konsepsiyanı nəzərə almırlar, heç olmasa ona münasibət bildirmirlər. Onların məntiqi ilə davransaq, orta əsrlərdə Kiçik Asiyadan tutmuş Hindistan da daxil olmaqla böyük bir ərazidə yaranmış çoxsaylı ədəbiyyatı "fars irsi"nə aid etməliyik. Onda belə çıxır ki, Mövlanə Cəlaləddin Rumi (Türkiyə), Nəvai (Özbəkistan), Şövkət Buxarai (Özbəkistan), Talib Amuli (Türkmənistan), Əmir Xosrov Dehləvi (Hindistan), Həsən Dehləvi (Hindistan), Fani Kəşmiri (Hindistan) və neçə-neçə digər görkəmli sənətkarların farsdilli yaradıcılığı "fars irsi"nə aid edilməlidir? Halbuki, hələ 17-ci əsrə qədər Şərqin bir çox xalqları bu dildə poeziya yaradıb, çünki fars dili böyük ərazidə uzun zaman "şeir" dili hesab olunub. Hindistanda 16-17-ci əsrlərdə Böyük Moğollar dövlətində farsdilli poeziyanın çiçəklənməsi məlum faktdır. Hətta Şah İsmayıl Xətai ana dilində gözəl şer nümunələri yaradanda, Osmanlı sultanı Səlim Yavuzun hələ də farsca şeir qoşduğu məlumdur. Belədə, nə etməli, tarixi ədaləti neçə bərpa etməli, milli sərvətimiz olan Nizami Gəncəvi və dövrün poetik dəbinə uyğun farsca yazmış digər şairlərimizin poetik irsini "farslaşdırılmadan" necə qorumalı?

Yaranmış vəziyyətdə çıxış yolunu Azərbaycan və rus nizamişünaslığının nailiyyətlərinin daha geniş təbliğ olunmasında görürəm. Bu tədqiqatlar dünyanın aparıcı dillərinə, ilk növbədə ingilis dilinə tərcümə olunaraq geniş yayılmalıdır. Bu mənada Oksford Universiteti nəzdində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin və onun rəhbəri M.Lomonosov adına MDU Bakı filialının rektoru, AMEA-nın müxbir üzvü Nərgiz xanım Paşayevanın təşəbbüsü - görkəmli sovet şərqşünası E.E.Bertelsin "Böyük Azərbaycan şairi Nizami" əsərinin ingilis dilinə tərcüməsi çox vacib və gərəkli işdir. Düşünürəm ki, bu istiqamətdə işlər alimlərimiz tərəfindən mütləq davam etdirilməlidir. Bu gün bu, nizamişünaslığımızın bir nömrəli vəzifəsidir.

«Dədəm Qorqut» - bənzəyişlər, yeniliklər…

Rəşid Təhməzoğlu (Rəşid Təhməz oğlu Quliyev) filologiya üzrə fəlsəfə doktoru, Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsinin aparıcı elmi işçisi, Türkiyə ədəbiyyatının araşdırıcılarındandır. Onun görkəmli türk yazarları Nazim Hikmət, Rəşad Nuri Güntəkin, Hüseyn Nihal Atsız, Xalidə Ədib Adıvar, Kamal Tahir, Samiha Ayverdi, Yaqub Kadri, Ahmet Hamdi Tanpınar və başqalarının yaradıcılığından elmi araşdırmaları vardır. Tədqiqatçı-alimin «Nazim Hikmətin yaradıcılığında Şərq» monoqrafiyası iki dəfə (2007, 2008) nəşr olunmuşdur. Hazırda Ahmet Hamdi Tanpınarın bədii və elmi yaradıcılığı üzərində araşdırma aparmaqdadır. O, eyni zamanda, istedadlı şair və tərcüməçidir. İndiyə kimi, onun 30-dan çox poetik, publisistik və tərtib topluları işıq üzü görmüşdür. Şairin poetik əsərləri içərisində "Qaraqapı", "Qorxu", "Yağmur", "Acılıq" və b. poemaları ayrıca yer alır. Bu baxımdan, ərəb və fars tərkibləri işlənmədən qələmə alınan «Dədəm Qorqut» epos-poeması xüsusi olaraq qeyd edilməyə layiqdir. Əsər bu çağacan, üç dəfə (1999, 2004, 2007) nəşr olunmuşdur. Onun son nəşri daha maraqlıdır. Belə ki, "Buğac", "Bayrək", "Qasğan xan", "Uröz", "Qanturallu", "Yeynək", "Basat", "Bəkil bəy" "Səkrək" və "Toğan" kimi boylardan ibarət olan epos-poema abidənin bütün məzmununu əhatə edir. O, poetik özəllikləri baxımından müəllifin bu günümüzdən keçmişə münasibətlərini orijinal bir dillə oxuculara çatdırır.

Akademik Tofiq Hacıyevin tərtib etdiyi və 2004-cü ildə çapdan çıxan «Qorqud ədəbiyyatı» (bədii əsərlər) toplusuna Rəşid Təhməzoğlunun epos-poemasından da «Bayrək» boyu və «Son söz yerinə» sonluğu salınmışdı.

Ərzurumdakı Atatürk Universitetinin öyrədəni Sedat Adıgözəl Ankaranın «Bizim Büro Basımevi»ndə nəşr olunan «Modern Azerbaycan edebiyatında Dede Korkut (Metinlerarası cüzümlemeler)» adlı nəzəri əsasda hazırladığı kitabında həmin topludakı bədii əsərlər barəsində araşdırmalar aparmışdır. Göstərmək lazımdır ki, bu kitab artıq üçüncü dəfə (2009, 2012, 2013) nəşr olunur. Müəllif kitabın ön sözündə yazır: «Türk dünyasının en böyük ortak edebi miraslarından biri olan Dede Korkut Kitabı, son dönemlerde modern mətin yazarlarının sıksık başvurduğu bir kaynak kitap haline gelmiştir. Dede Korkut Hikayeleri romanlara, hikayelere, şiirlere ve tiyatro eserlerine ilham kaynağı olmuştur.

Bu çalışmamızda Azerbaycan edebiyatı modern metinleri ile Dede Korkut Hikayeleri arasındakı bağı metinlerarasılık ilişkileri açısından inceledik. Çalışmamızda metot olarak metinlerarası ilişkiler kuramını kullandık…».

Araşdırıcının bu kitabının «Mətnin incələmələri» bölməsində Mövlud Süleymanlının «Köç» romanı, Mikayıl Rzaquluzadənin «El gücü» silsilə hekayələri, Anarın «Dədə Qorqud» povesti, Nəbi Xəzrinin «Burla Xatun» dramı, Arif Abdullazadənin «Ulu Qorqud» poeması, Kamal Abdullanın «Casus» və «Yarımçıq əlyazması» əsərləri barədə yazılar yer almışdır. Bunlarla yanaşı, Rəşid Təhməzoğlunun «Dədəm Qorqut» epos-poemasının sözügedən topluda verilən boyundan söhbət açılmış, əsərin «Son söz yerinə» bölümü bütünlüklə dərc edilmişdir. Sözsüz ki, «Dədəm Qorqut» epos-poemasının on bir boydan ibarət nəşri əldə olmadığından Sedat Adıgözəl «Bayrək» boyunu ayrıca əsər kimi təhlil etmiş və araşdırmanı bu yönümdə aparmışdır. Buna baxmayaraq, müəllifin Rəşid Təhməzoğlunun epos-poeması barəsində fikirləri öz elmi dəyərini saxlayır. Qorqudşünaslar üçün maraqlı olacağını nəzərə alaraq Sedat Adıgözəlin həmin araşdırmasını Azərbaycan dilində oxuculara təqdim edirik.

Səriyyə Gündoğdu,
filologiya üzrə fəlsəfə doktoru

Rəşid Təhməzoğlu. «Dədəm Qorqut»

Rəşid Təhməzoğlunun «Dədəm Qorqut» adlı əsəri «Dədə Qorqut» dastanlarından «Qamburə bəy oğlu Bamsı Beyrək» boyunun nəzm şəklində işlənməsidir. Müəllif əsərin girişində mətni «epos-poema» (dastan-şeir) adlandırmışdır. Buradan da əsas mətnin biçimli bir formaya salındığı görülməkdədir. Ancaq bu forma «Dədə Qorqut» mətnlərinin söyləyiş və anlam biçimlərindən bir o qədər də fərqli deyildir. «Dədəm Qorqut» bir səhnə əsəri şəklində qələmə alınmış kimi görünsə də, mətn bütünlüklə bitkin nəzm formasındadır.

Həmin forma həm nəzm, həm də nəsrlə yazılmış əsas mətndən deyim özəllikləri baxımından bir o qədər də ayrılmaz. «Dədə Qorqut» mətnlərinin bütün özəlliyi olaraq qəbul edilən yığcam, sadə və təmtəraqsız ifadə üslubu, yəni məqsədi ən qısa yolla, daha gözəl şəkildə əks etdirilməsinə yeni variantda da nail olunduğu aydın görülməkdədir. Bunun səbəbi həm şairin bacarığı, həm də bənzədilən mətnə aid ifadə özəlliklərinin eyni ilə yeni mətnin içərisinə alınması və müəllifin özünəməxsus deyimlərinin bunlara bənzədilməsi iki mətn arasındakı bu oxşarlıq xüsusiyyətini artırmaqdadır:

Özan söyləməsi

Əsim-əsim dan yelləri ötən çağdı,
Saqqallıca çil torağay ötən çağdı…
Uzunsaqqal titrarilər banlayırdı,
Qaçan atlar bir-birini yanlayırdı…
Ağ qaranı, qara ağı seçən çağdı,
Ogöz qızlar bər-bəzəyi seçən çağdı…
Aladağın köksü üstə gün düşürdü,
Neçə-neçə atlı igid ötüşürdü…
(«Qorqud ədəbiyyatı» (bədii əsərlər), B., 2004, s. 290-291).

«Dirsə xan oğlu Buğac» boyundakı Bayındır xanın yığnağının təsviri bölümündə yuxarıda «Dədə Qorqut» mətnindən aldığımız parçanın əsl mətndəki ifadəsi qalmaqdadır. Eyni zamanda, əsl mətnə uyğunluğu açıq bir şəkildə dəyərləndirə bildiyimiz parçada «Dədə Qorqut» boyları ilə yeni mətnin arasındakı ifadə bənzərliyi, söz seçimində qabarıq tərzdə gözə çarpan ortalıqlar olduqca çoxdur. Bamsı Beyrəyin boyunun təsviri verildiyi yeni mətndə Buğac xan boyundan alınan gizli nümunə, eyni zamanda, əsl mətni andıran bir örnəkdir. Çox məşhur olan bu parça alınaraq yeni ifadə tərzində bütünlüklə oxucuya təqdim edilmişdir:

Salkum-salkum tan yelləri esdügünde,
Sakallu bozac turgay sayradukda
Bidevi atlar ıssın görüp okraduqda
Sakalı uzun Tat-eri banladukda
Aklu karalu seçilen çağda
Kalın Oğuzun gelini kızı bezenen çağda
(Orhan Şaik Gökyay, age, s. 8)

«Dədəm Qorqut» əsərinin mətnindən əslinə uyğun yaradılan ilk açıq ifadə onun bölümlərinə «boy» adı verilərək yazılmasıdır. «Dədə Qorqut» dastanlarının mətnlərində də hər bir hekayə «boy» olaraq anladılmışdır. Göstərmək lazımdır ki, dastanların əslində bu üslub gözlənilmişdir. Məlumdur ki, boylar «Qambürə bəy oğlu Bamsı Beyrək boyunu bəyan edər, xanım hey» şəklində ifadə edilmişdir. Bu baxımdan, yeni mətndə fəsillərin «boy» adlandırılması əsli ilə tam uyğunlaşmadır.

Hadisələrin təsviri sarıdan yeni mətn əsl mətnin təzədən ifadə formasıdır. Çünki hadisələrin şeirlə təsvirində məzmun uyğun şəkildə saxlanılmışdır. Başqa sözlə, məzmunu əhatə edən hadisələrin sıralanması əsl mətndə olduğu kimidir; Baybürə və Baybecanın övladları yoxdur. Onların diləyi yerinə yetərək Bayburanın oğlu, Baybecanın isə qızı olur. Bayburanın oğlu Bayrək böyüyəndən sonra, babasının göndərdiyi karvanı kafirlərin əlindən qurtarınca «Bozayğızlı Bayrək» adını qazanır. Bir gün ova çıxanda Banıçiçəklə qarşılaşır, onunla yarışır və axırda, Bayrək onun barmağına üzük taxır. Dədə Qorqut Banıçiçəyi qardaşı Dəli Qoçardan istəməyə gedir. Dəli Qoçarın təmənna etdiyi başlıq verilir və Banıçiçəklə Bayrək toya hazırlaşırlar.

Bəy gərdəyi qurulan gecə yağılar basqın edirlər və Bayrək bu basqında əsir düşür. Yalıncıq Bayrəyin ona bağışladığı köynəyi qana boyayıb gətirir və bununla da o, Banıçiçəklə evlənmək fürsətini əldə edir. Bundan əsirlikdə soraq alan Bayrək Bayburt bəyinin qızının köməyi ilə oradan qurtulur. O, dərviş qiyafəsində toy yığnağına gəlir və özünü Banıçiçəyə tanıdır. Bayrək Yalıncığın etdiyi bütün yamanlıqlara baxmayaraq, onu bağışlayır. Sonra isə Bayburt qalasında əsir qalan arxadaşlarını oradan qurtarır.

Bu hadisələrin gedişi əsl mətnlə Rəşid Təhməzoğlunun yazdıqları ilə məzmun baxımından birbirinə bağlıdır. Bu, çox açıq bir təqlid və yenidən işlənmə örnəyidir. Başqa sözlə, ikinci mətn əsl mətnin təkrarıdır. Buna görə də, ikinci mətnin özünəxas mətn olduğunu söyləmək düzgün olmazdı. Məzmun baxımından əsl mətndə ayrılan yeganə məqam Bayrəyi əsarətdən qurtaran Bayburt bəyin qızını Bayrəyin halallığa almasıdır. Yeni mətndə isə Bayrəyin öz arxadaşlarını qurtarmaqdan ötrü qalaya hücumu zamanı qızın öldürüldüyü aydın olur.

Lakin bu fərqlilik əsas məzmundan bir o qədər də ayrılmır. Bununla belə, dəyərləndirməyə layiq olan ən önəmli hissələrdən biri Rəşid Təhməzoğlunun orijinal şəkildə yazdığı sonluqdur ki, bu əsl mətndə yer almamışdır. Yazar Dədə Qorqutla mükaliməyə girərək ondan sonra, millətin, başına gələn müsibətləri bir-bir sadalayır. Bu bölümlər əsərin əsas ideya yükünün yer aldığı və poetik ifadəsini tapdığı mənalı bir sonluqdur. Məzmunca əsl mətndən ayrılan həmin bölümlər hadisələrin axarı ilə də eynilik təşkil etmir. Burada əsl mətnlə bağlılıq hadisələrin süjet xəttinin bitdiyi bölümlərlə sıx əlaqədə verilməsidir.

Şairin əsas ideyasının əks olunduğu bölümlər əsərin sonuna saxlanmışdır ki, bu da əsl mətnlə bənzərliklərin qorunmasına imkan yaradır.

Müəllif yaşadığı çağlarda millətinin və dilinin başına gələn fəlakətlərdən ürək yanğısı ilə şikayətlənir. «Son söz yerinə» adını daşıyan bu bölüm üçün «özünəxas mətn» ifadəsini işlətmək doğru olardı. Bu bölümdə də ifadə xüsusiyyətləri və bənzərlikləri baxımından əsl mətnə uyğunlaşma, təsirlənmə və nəql etmə kimi mətnlərarası bağlılıq ünsürlərindən söz açmış olsaq belə, məzmun sarıdan orijinallığı özündə canlandıran yeni bir yazının varlığı göz önündədir.

«Dədə Qorqut» dastanları mətnlərinin təqlid və ya yenidən təkrarlandığı bütün məntlərdə olduğu kimi, «Dədəm Qorqut» epos-poemasında da əsas qəhrəmanların adları və mövqeyi yeni mətnə uyğunlaşdırıldığı aydın şəkildə sezilməkdədir. «Dədəm Qorqut» əsərində işlənən adlar: Bayındur xan, Baybura bəy, Baybecan, Qarabudaq, Dəli Qoçar, Uröz, Yeynək, Banıçiçək, Burla xatun, Qısırca Yengə və Yalıncıqdır. Qəhrəmanların şəxsiyyətləri belə, eyni ilə saxlanmışdır. Yalıncıq hər iki mətndə də yalançının və hiyləgərin biri kimi verilir. O, Banıçiçəyi hiylə ilə almaq istəyindədir. Beyrək hər iki mətndə də cəsur və mərhəmətlidir. Yalıncığın bütün yamanlıqlarına

baxmayaraq, onu bağışlayır. Bu sarıdan «Dədə Qorqut» boylarının qəhrəmanları öz varlıqlarını əsl mətndə olduğu kimi, yeni qələmə alınan yazılarda da qoruyub saxlamağı bacarırlar. Əsl mətndə quruluş tamlığının ayrı-ayrı ünsürləri zaman və məkan qəhrəmanları qədər ön planda deyildir. Bu durum «Dədə Qorqut» dastanları mövzusunda yaranan yeni əsərlərdə də öz əksini tapmışdır.

«Dədəm Qorqut» epos-poemasında əsl mətnlə uyğunluq həm yaradıcı təsirlənmə, həm də açıq istifadə yolu ilə ortaya çıxmışdır. Açıq istifadə yolu «Dədə Qorqut» mətnlərində bir qəlib şəklinə düşmüş və boylar içərisində sıx-sıx təkrarlanan ifadələr mətnə salınarkən dırnaqda yazılmışdır:

«Boy boylayan», ulu özan, Dədəm Qorqut…, «özan dili yüyrək olar» - çağ ötüşdü…, «Av avlayıb», obasına o dönürdü…, «Soy soylayır» - çox baxmırdı öz özünə…

(«Qorqud ədəbiyyatı» (bədii əsərlər), 2004, s. 323-346)

Dədə Qorqut söyləmələrinin də əsl mətndən ayırd edilməyəcək biçimdə heç bir yeni formaya salınmadan yeni mətn içərisinə alındığı da diqqəti çəkməkdədir. Bunların hamısı isə bütünlükdə gizli istifadə örnəkləridir. Alıntıların kimə aid olduğu açıq bir şəkildə görünməsə də, mətnin hansı ədəbi əsərin yenidən yazıldığı mətnin girişində və adında aydın verildiyi üçün bu alıntıların da istifadəsi başadüşüləndir.

Dədə Qorqutun Beyrəyə ad qoyarkən söylədikləri əsl mətnlə bir-birinə bənzər deyimlərlə ifadə edilməsinə baxmayaraq, sanki yeni mətnin bir parçası təsiri bağışlayır:

Hey, ünümü ünlə, görüm, Baybura bəy,
Hey, sözümü dinlə, görüm, Baybura bəy!
Qoy oğlunun uzun-uzun yaşı olsun,
Öz elinin, obasının başı olsun!
Qaradağdan aşar olsa, aşım tapsın,
Gur daşqından keçər olsa, daşım tapsın!
Boz ayğırı sıldırımdan çapıb keçsin,
Yağıların sıx qatını çapıb keçsin!
Boz ayğırı şimşəklərdən yüyrək olsun,
Bamca dedin, adı Bamsı Bayrək olsun!
(«Qorqud ədəbiyyatı» (bədii əsərlər), 2004, s. 330).

Əsl mətndə Dədə Qorqutun Bamsı Beyrəyə ad qoyarkən Baybura bəyə söylədiklərini incələdikdə iki mətnin arasındakı ifadə bənzərliyi gizli alıntıların varlığı daha yaxşı anlaşılacaqdır:

«Ünüm anla, sözüm dinlə Bay Büre Bey/Allah-u Taala sana bir oğul vermiş, tutaversün /Ağır sancak götürende Müslümanlar arbası olsun/. Karşu yatan kara karlı dağlardan aşar olsa / Kadir Allah-u Taala senün oğluna aşut versin./ Kalabalık kafire girende/

Allah-u Taala senün oğluna fursat versün. /Sen oğlunu Bamcam deyü ohşarsan. /Bunun adı boz aygırlu Bamsı Beyrek olsun. /Adını ben dedim, yaşını Allah versin.

(Orhan Şaik Gökyay, agl, s. 34).

Banıçiçəklə Beyrəyin ilk qarşılaşmaları və yarışmaları zamanı bir-birləri ilə söhbətləşmələri, Banıçiçəyin Bamsı Beyrək üçün oxuduğu ağı, Beyrəyin bacılarının özan qiyafəsində onu gördükləri çağda söylədikləri sözlər və Dəli Qaçarla Dədə Qorqutun qarşılaşmaları canlı bir ifadədə gizli alıntıların yaradıldığı bölümlərdir:

Dəli Qoçar

Ayaqlılar torpağımdan keçdiyi yox,
Ağızlılar sularımdan içdiyi yox!
Başın itib, yol azmısan, yoxsa, qoça,
Öz-özünə yer qazmısan, yoxsa, qoça?
(«Qorqud ədəbiyyatı» (bədii əsərlər), 2004, s. 338).

«Dədəm Qorqut» epos-poemasında «İkinci boy» başlığı altında Bamsı Bayrəyin hekayəsi anlantıya əsas mövzu olaraq seçilmişdir. Mətndə bütün ayrıntıları Bamsı Bayrəyin başına gələn hadisələrin yeni formaya salınaraq təsirli bir üslubda işlənməsidir. Fəqət burada «Dədə Qorqut» dastanlarının sonuncu «İç ogözə Daş ogöz asi olub, Beyrək öldüyü boy»a da müraciətlər vardır. Bu sonuncu boyun Bayrəklə, doğrudan da, bağlı olmasına görə, iki mətn arasında məzmun sarıdan müəyyən bağlılıq yaradılmışdır.

«Dədəm Qorqut» epos-poemasının əsl mətnə uyğun gəlməsi baxımından köklü bir şəkildə fərqlənən «Son söz yerinə» adlı bölümündə şair Dədə Qorqutla mükalimə formasında yaşadığı çağları onun dövrü ilə müqayisə edir və şikayətlənir. Bu bölüm mətnin əsas məzmunu ilə, doğrudan da, ilgili olduğu üçün onu bütöv şəkildə aşağıda veririk.

SON SÖZ YERİNƏ

«Boy boylayan», Ogöz elli, Dədəm Qorqut,
«Soy soylayan», qopuz dilli, Dədəm Qorqut!

Sən söylədin: « - Ulus-ulus özan gəzər,
Çal-çağırla dalğınlığı pozan gəzər!»
Sən özün də oba-oba gəzər oldun,
Çal-çağırla yığnaqları bəzər oldun,
Dədəm Qorqut!
Sən söylədin: « - Söz duyumdur, düz toxunsa,
Söyləmədin: «Yasin» gözəl, düz oxunsa!»
Deyimində bircə qırıq yalan yoxdu,
Yalan deyib, indiyəcən qalan yoxdu,
Dədəm Qorqut!
Sənsə qaldın işıq dolu soylarınla,
Bir yaşadın doğma Ogöz boylarınla.
Suçlu sayma ucalığa boylanmağı,
Suçlu sayma «boy»larını «boy»lamağı,
Dədəm Qorqut!
Varlıq döndü, çox qaranın ağı çıxdı,
Dış Ogöz də İç Ogözə yağı çıxdı…

Bu yağılıq doğmalıqdan yüyrək oldu,
Yağılığın ilk ağrısı Bayrək oldu,
Dədəm Qorqut!
Ogöz bəylər birliyini güvə kəsdi,
Yollarını yamanlığın daşı kəsdi.
Qasğan xanın yaraqdaşı Aröz niyə,
Ürəklərdə yara açdı göz-göz niyə,
Dədəm Qorqut!
Necə oldu, Qasğan xana qarşı getdi,
Bayrəyə əl qaldıranın başı getdi…
Qaraldımı uluslarda işıq belə,
Başladımı bölüm belə, ayrıq belə,
Dədəm Qorqut!
Yol açıldı soylarının bölümünə,
Yol açıldı yağıların gəliminə…
Yağı gəldi, yağı getdi, talandı yurd,
Qız-gəlinin göz yaşıyla sulandı yurd,
Dədəm Qorqut!
Ad verdiyin neçə-neçə ad yaşadı,
Xan Bayındır torpağında yad yaşadı;
Rum yürüdü, fars yeridi, yunan gəldi,
Varlığımı damğalayan, danan gəldi,
Dədəm Qorqut!
Sasanilər dişlərini qıcadılar,
Çox sandılar, xanlarından ucadılar…
Fars sözləri dilimizə elə yatdı,
Nizamimiz «gəlmə» dildə Gün yaratdı,
Dədəm Qorqut!
Xəlifələr qılıncını suvardı din,
Qollarını kəsmədimi «din» Babəkin?!
Bizi oddan döndərənmi ərəb oldu,
«Tanrı» sözü «Allah» oldu, «Yarəbb» oldu,
Dədəm Qorqut!
Özgə dillər söyləməni alız saldı,
Özgə köklər doğmaları cılız saldı…
«Güz» yerini «payız» tutdu, «yaz»ın – «bahar»,
«Arslan» dönüb, «şir» doğuldu, «qurd» - «canavar»,
Dədəm Qorqut!
«Özarboyğan» özgə dillər geyimində,
Üzə çıxdı «Azərbaycan» deyimində…
Çox sözümüz bax, beləcə «özgələşdi»,
Çox sözümüz bax, beləcə «kölgələşdi»,
Dədəm Qorqut!
Ağrıları saymağınan saya gəlməz,
Ağrıları ha bəzəsən, toya gəlməz!
Ogöz eli ağrı tapdı «hay» soyundan,
Ayrı tapdı çıxarılan min «oyun»dan,
Dədəm Qorqut!
Ağrıdağdan ta Qapıcıq dağınadək,
Torpaq, yağı tapdağında oldu dibək!
Bu dibəkdə qan yoğruldu ağrılara,
Çağdan-çağa irinləşdi ağrı-yara,
Dədəm Qorqut!
Çağdan-çağa qopardılar qaysaqları,
Ürəklərdə qaraltdılar ocaqları…
Ad verdiyin neçə doğma ad yaşadı,
Qasğan xanın torpağında yad yaşadı,
Dədəm Qorqut!
Bu torpağı qazım-qazım qazdı yağı,
Torpağını öz adına yazdı yağı!
Çox adı da bilə-bilə gömdü yerə,
Çox adı da bölə-bölə gömdü yerə,
Dədəm Qorqut!
Üzü soyuq, sözü soyuq rus çarları
Göz dikdilər Qapıqasdan-yurda sarı,
Gözgörəsi neçə xalqı aldatdılar,
Torpaq alıb, quru-quru söz satdılar,
Dədəm Qorqut!
Əllərində Böyük çarın umacağı,
Yaddaşlarda tatarların min acığı
Qapıqasdan yurdumuza şığıdılar,
«Hay» soyunu yançılayan yağıdılar,
Dədəm Qorqut!
Soylarımız dolaşığa düşdü yenə,
Adlarımız calaşığa düşdü yenə.
Silməmişdik özgə dillər qarasını,
Sözlərimiz aldı quzey yarasını,
Dədəm Qorqut!
Qanlı görcək «hay» soyları top oldular,
Rus əlində güllə, göndər, top oldular…
Necə desə, oynadılar tülküsayaq,
İtiləşib, korşaldılar süngüsayaq,
Dədəm Qorqut!
Acgöz rusdu, torpağımı qarmaladı,
«Hay» soyunun çarığını sırmaladı.
Qansalanlar uluslarda dolaşdılar,
Qalxıb, farsla tikə üstdə dalaşdılar,
Dədəm Qorqut!
Bu dalaşma bütövlüyü yarı böldü,
Torpağımız tikə-tikə əldə öldü.
Özgə yeri qamarlamaq yenə gedir,
Torpaq udub, yer yamamaq yenə gedir,
Dədəm Qorqut!

x x x

… Ağılarım saymağınan saya gəlməz,
Bir kimsənə sənin kimi haya gəlməz!
Yaşamının, qalımının izindəyəm,
Söz kəsəri bulağının gözündəyəm,
Dədəm Qorqut!
Gözlərinin ulduzunu gözdən saçdım,
Sözlərinin işığını sözdən saçdım…
Saçmışamsa, söz sənindir, od sənindir,
Ölməzliyə yolu seçən ad sənindir,
Dədəm Qorqut!
Suçlu sayma ucalığa boylanmağı,
Suçlu sayma ucalıqdan boylanmağı!
Soykökümün od işığı, Dədəm Qorqut,
Varlığımın ad işığı, Dədəm Qorqut!!

Говхар Бахшалиева: В библиотеках Италии хранятся неизвестные нам произведения азербайджанских авторов

Деятельность Института востоковедения имени Зии Буниятова НАН Азербайджана с самого начала его создания (1958 г.) была направлена на исследование средневековых памятников письменности Востока, имеющих отношение к Азербайджану, общественно-политическому, экономическому и культурному развитию стран этого региона и других актуальных тем.

За прошедшие десятилетия его сотрудники провели большую исследовательскую работу, которая продолжается и в наши дни публикацией монографий, книг и научных статей. Вернувшаяся из командировки в Италию директор института, депутат Милли Меджлиса Говхар Бахшалиева. рассказала корреспонденту «Каспій» о целях поездки и деятельности института.

- Говхар ханым, с чем была связана ваша поездка?

- С некоторых пор при посредничестве Чрезвычайного и Полномочного посла Азербайджана в Италии Вагифа Садыгова у нас завязались научные связи с Восточным университетом Неаполя. В рамках сотрудничества в прошлом году наш институт посетили проректор этого вуза и декан факультета тюркологии Микеле Бернардини. Тогда же был подписан меморандум о сотрудничестве, согласно которому обеими сторонами будут проводиться совместные научные исследования и организационные мероприятия - конференции, семинары, сессии, «круглые столы».

В планах - двусторонние стажировки наших сотрудников, выступления с лекциями, предоставление возможности пользоваться библиотеками и архивами обоих институтов. В рамках этого соглашения я посетила Восточный университет и ознакомилась с его работой. Главным направлением его деятельности является синология, но действуют и другие кафедры восточных языков, в том числе - тюркского, арабского, персидского языков, культуры и литературы. Университет имеет богатую историю, о которой нам рассказала его ректор Эльда Морликкио. Я ознакомилась с архивом и библиотекой университета, встретилась со студентами факультета тюркологии, которым рассказала о нашем институте, об Азербайджане, ответила на их вопросы.

Значительное время я отвела работе в апостольской библиотеке Ватикана и национальной библиотеке Италии, где хранится очень много материалов, касающихся непосредственно востоковедов, в частности рукописных и печатных изданий на тюркском, арабском языках и фарси. Меня, естественно, интересовали материалы об Азербайджане, труды авторов-азербайджанцев и карты, отражающие историческую географию нашей страны. По установленному в Ватикане порядку я оформила заказ на копии необходимых мне карт и вскоре должна получить их. На просмотр большого количества каталогов в Ватиканской библиотеке времени у меня было в обрез, и я купила изданные каталоги тюркских, арабских и персидских рукописей, которые хранятся в Ватикане.

Работа в национальной библиотеке затруднялась тем, что там подобных напечатанных каталогов не было и информация о восточных рукописях хранится не на отдельных карточках, как в апостольской библиотеке, а в виде записей основных сведений о них в отдельных подшивках. Их много и все они вшиты в книжные переплеты. Из 35 подобных подшивок я успела просмотреть всего девять. Сложность заключалась в том, что многие средневековые рукописи не имеют заголовков, по которым можно судить о содержании работы, поэтому основная тема выявляется по мере прочтения рукописи. Конечно, на это уходит много времени, так что мне приходилось работать с утра до вечера, чтобы за два дня что-то успеть.

В просмотренных материалах я нашла произведения Бакуви, Бардаи, Ширвани и других авторов-азербайджанцев. Теперь предстоит сверить эти тексты с теми, что хранятся в нашем Институте рукописей, чтобы сделать вывод - найден один из их вариантов или это неизвестные нам произведения этих авторов. Думаю, что в обеих библиотеках Италии хранится еще немало неизвестных нам произведений азербайджанских авторов и нам предстоит большая работа по их обнаружению.

- Повлияло ли обретение Азербайджаном независимости на круг исследуемых вашим институтом тем, расширение их диапазона?

- С обретением, а точнее с восстановлением независимости Азербайджана в нашей общественной, культурной и политической жизни произошли большие изменения, коснувшиеся и нашего института. В свое время в СССР действовало несколько институтов востоковедения, между которыми

существовало своего рода разделение обязанностей. Головной Институт востоковедения АН СССР занимался изучением всего Востока, включая Ближний и Средний Восток, Северную Африку, Центральную Азию, Юго-Восточную Азию, Дальний Восток и т.д. Существовали вузы, готовившие специалистов по синологии, японистике и другим узким специальностям. Когда определялся круг исследований для азербайджанского Института востоковедения, учитывались исторические, культурные и иные связи, а также территориальная близость Азербайджана к Ирану, Турции и арабским странам.

В течение нескольких веков Азербайджан входил в состав величественного Арабского халифата и внес свой вклад в создание арабомусульманской культуры. С раннего средневековья вплоть до распада халифата образование давалось на арабском языке, и сохранилось немало трудов азербайджанских ученых того времени, написанных по-арабски. Они составляют большой пласт средневековой азербайджанской культуры. Свой след в нашем культурном наследии оставил и фарси, на котором создавались поэзия и проза последующих веков. Оба этих больших пласта нашей культуры еще со времен Советского Союза - предмет исследования так называемого классического востоковедения. Выявляются все новые образцы литературы и научных трудов средневековья, благо традиционно у нас были высококвалифицированные кадры специалистов с прекрасным знанием обоих языков.

После восстановления независимости Азербайджана, расширения его связей со многими странами мира, в том числе и восточными, открытия в них наших посольств появилась необходимость в специалистах, владеющих глубоким знанием их культуры, общественно-политической жизни, экономики... Все эти вопросы входят в сферу современного востоковедения. В СССР эта область востоковедения стала развиваться с 60-х годов прошлого века. Если раньше мы довольствовались тем, что Китай, Япония, Монголия и другие страны изучаются в головном институте, то теперь возникла необходимость самим изучать эти страны.

- Значит, вопрос подготовки кадров для вашего института сейчас - наипервейший?

- Для нас это острая проблема, ведь приходится начинать буквально с нуля, и на сегодня, за небольшим исключением, необходимым числом квалифицированных кадров по Японии, Китаю, Индонезии, Индии и другим странам Дальнего Востока и Юго-Восточный Азии мы не обладаем. Те единичные специалисты, которых готовит факультет востоковедения БГУ, нарасхват у посольств и они до нас не доходят, хотя из новоиспеченных специалистов к нам все же пришли двое со знанием языка урду. Эти молодые люди только-только начали входить в науку, и нужно время, чтобы они набрались опыта и знаний. Четыре года тому назад мы открыли отдел стран Центральной Азии и Дальнего Востока, который возглавляет опытный специалист по китаистике Рафиг Аббасов.

Мы поддерживаем связь с факультетом востоковедения, руководство которого информирует нас о завершающих обучение студентах, но нам нужны магистры, потому что, не имея магистерской степени, они не имеют права на научную работу - только лишь на техническую.

- А какие отделы сегодня действуют в вашем институте?

- Традиционно у нас были отделы по истории и экономике Ирана, Турции, арабских стран, по арабской, иранской и турецкой филологии. Изначально в институте действует отдел исследований и публикаций письменных памятников Востока, отдел религии и общественной мысли народов Востока. Впоследствии к ним прибавились еще три отдела - «Восток-Запад», «Центральная Азия и Дальний Восток» и «Южный Азербайджан».

В период независимости мы поняли, насколько важно изучать не только Восток, но и взаимоотношения Востока и Запада, их взаимовлияние, несмотря на то, что еще Киплинг в свое время сказал: «Запад есть Запад, Восток есть Восток, и никогда им не сойтись», на самом деле мы своими исследованиями доказываем, что это вовсе не так. Начиная с осознанного культурного периода развития человечества на Востоке и Западе шел процесс оформления своих цивилизаций, культур.

Например, когда римская и греческая цивилизации пали после нашествия германских племен, многое из их наследия, в том числе рукописные книги, труды древних ученых, были сожжены, однако часть этих бесценных духовных, интеллектуальных богатств удалось сохранить благодаря переводам, сделанным на арабском Востоке, в халифате.

Впоследствии произошел обратный процесс: они вновь были переведены на язык оригинала и дошли до наших дней, так что человечество многим обязано многовековой арабской культуре. Дело в том, что начиная с VIII века арабские халифы целенаправленно финансировали переводы на арабский язык всего созданного до них культурного достояния человечества - разнообразных письменных источников. Не случайно X век называют золотым веком арабо-мусульманской культуры. В свое время сотни ученых - филологов, историков, географов изучали культуру народов завоеванных стран. Среди них были и этнические азербайджанцы - Бакуви, Табризи, Ардебили, Араши и другие. Многие из них получали образование в Багдаде, Дамаске, Каире и других центрах арабского мира, а вернувшись на родину, продолжали творить на арабском языке, поэтому их труды, а также тех, кто оставался в культурных центрах халифата и творил там, становились достоянием также и арабо-мусульманской культуры. Их богатое научное наследие ныне хранится во многих рукописных фондах, архивах, книгохранилищах, легло в основу исследований и научных трудов ученых последующих веков.

Например, историю VII века российские историки изучают так-

же и по арабским источникам, потому что арабские мореплаватели и ученые добирались до Каспия, а оттуда по Волге - до приволжских городов. Ученые, путешественники VIII века оставили описания тюркских племен Средней Азии. В 1993 году один из наших сотрудников издал книгу «Арабские источники о тюрках в раннее средневековье» на основе перевода трех арабских источников VIII века.

- А какие еще новые труды готовятся к изданию или недавно изданы вашим институтом?

- Сейчас в Академии создана комиссия по исследованию актов геноцида азербайджанского народа, осуществленного армянскими националистами. Большую работу в этом направлении проделал отдел Южного Азербайджана. Здесь переведена и издана книга иранского автора Тохида Меликзаде «Южный Азербайджан в годы Первой мировой войны. Геноцид». Также переведена и издана книга видного иранского историка Самеда Сардарния «Уничтожение мусульман на обоих берегах Араза». Этим же отделом подготовлена к печати другая книга этого же автора - «Иреван был мусульманским городом». Подготовлена и диссертация на тему актов геноцида азербайджанского народа на территории современного Ирана.

В целом в текущем году из 98 научно-исследовательских работ, выполняемых в институте, завершено 44. Остальные 54 работы - переходные, они будут продолжены и в следующем году. Завершенные в этом году работы охватывают самый широкий спектр проблем классического и современного востоковедения. Это работы по истории, экономике, общественно-политической и культурной жизни стран Востока. В центре внимания - связи стран Востока с Азербайджаном, перевод и публикация источников, содержащих сведения об истории, литературе и культуре азербайджанского народа, ислам в Азербайджане, религиозные течения на Востоке и т.д. Все эти труды актуальны и вносят немалый вклад в отечественную ориенталистику.

В текущем году нами издано 19 монографий и книг, в печати на сегодня находятся еще шесть книг. Вышло более 200 статей и докладов, из которых 21 - за рубежом (Норвегия, Англия, Казахстан, Голландия, Германия, Россия, Турция, Узбекистан, Иран, Туркменистан и др.) В завершающемся году наши сотрудники 38 раз представляли востоковедческую науку за границей - в Турции, Румынии, Иране, Англии, Швейцарии, России, Казахстане, Грузии, Туркменистане, Египте, выступили с научными докладами.

- Говхар ханым, вы являетесь также и депутатом Милли Меджлиса. Как наука и политика стыкуются или пересекаются в вашей деятельности?

- Ко мне нередко обращаются журналисты с просьбой прокомментировать то или иное событие арабского Востока, в частности по тому же ИГИЛ, «арабской весне». Кстати, эта тема также у нас исследуется, и я по необходимости даю комментарии. А вообще, считаю, что какие-то комментарии о происходящих в мире событиях, прогнозы о дальнейших тенденциях их развития должны давать специалисты, хорошо знающие историю и общественно-политическую жизнь той или иной страны, пути ее развития, понимающие в силу этого причины, приведшие к определенной ситуации.

Например, когда начались выступления сирийской оппозиции против Башара Асада, я дала однозначный комментарий: эти события не служат интересам сирийского народа, отбрасывают его назад. Последующие события доказали мою правоту. Делая прогнозы, я основывалась на знании истории этих стран, того, что вообще в арабских странах установить светский режим и управлять народом очень сложно ввиду того, что большинство населения получает в основном религиозное образование, и когда светская власть ослабевает, верх берут реакционные исламистские течения.

Когда в Египте на площади Тахрир стали собираться люди, наши журналисты спросили меня, чем это может закончиться и нужно ли это египетскому народу. Я ответила: «Если в результате к власти придет более прогрессивный, чем Хосни Мубарак, человек, хотя прогрессивным его трудно назвать, это может быть благом для Египта. Но надо учитывать, что для Египта, для того уровня общественного, экономического и культурного развития, в котором страна ныне пребывает, необходим именно авторитарный лидер, чтобы хоть и с трудом, все же модернизировать страну, а Хосни Мубарак все же сплотил народ и пусть и медленно, но вел народ вперед, по пути прогресса, сохранялся светский режим, а это много значит для арабских стран.

Жизнь подтвердила справедливость этого мнения: когда к власти пришли «Братья-мусульмане», мы стали свидетелями того, как негативно для страны стали развиваться последующие события - светский режим оказался под угрозой, экономика пришла в упадок. Исследуя процессы, происходящие в этих странах на протяжении многих лет, несложно предсказать, чем могут завершиться события в этом многострадальном регионе. Я очень близко к сердцу принимаю происходящие в арабском мире события, ведь когда-то часть своей диссертации я посвятила именно отражению палестинской проблемы в арабской литературе. Это очень большая тема.

- А над чем вы сейчас работаете?

- Сейчас я работаю над завершением атласа, отражающего историческую географию Азербайджана и региона в целом, который составлен из оригинальных карт, найденных мною во многих библиотеках мира. Цель - наглядным образом защитить территориальную целостность своей страны и доказать пришлость армян на Южный Кавказ. Также я сейчас редактирую книгу «Карабах в османских документах» - перевод на азербайджанский язык сборника документов, извлеченных из османских архивов Турции.

Интервью вела
Франгиз ХАНДЖАНБЕКОВА

AMEA ak. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun 2014-cü ildəki elmi və elmi-təşkilati fəaliyyətinin yekunları haqqında

H E S A B A T

2014-cü ildə AMEA ak. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşları səmərəli elmi fəaliyyət göstərərək, **"Şərq ölkələrinin ictimai, iqtisadi, mədəni-tarixi inkişafı və Azərbaycanla əlaqələri" istiqaməti üzrə** araşdırmalar aparmış və elmi-tədqiqat planında nəzərdə tutulmuş bütün işləri yerinə yetirmişlər.

Hesabat ilində Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, habelə dövlət proqramlarının icrası ilə əlaqədar aşağıdakılar yerinə yetirilmişdir.

1. "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyi" haqqında Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2011-ci il tarixli sərəncamı ilə əlaqədar:

a) aparıcı.e.i., f.ü.f.d. R.T.Quliyevin "Azərbaycan Nizami poeziyasında" (8 ç.v.) kitabı hazırlanaraq çapa təqdim olunmuşdur.

b) "İran filologiyası" şöbəsinin müdiri, f.ü.f.d. M.Ə.Məhəmmədinin "İran elmi-ictimai fikrində Nizami Gəncəvinin milli mənsubiyyəti məsələsi" (2 ç.v.) adlı tədqiqat işi tamamlanmışdır.

2. Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı ilə əlaqədar 11 iyun 2014-cü ildə Naxçıvan MR-nın 90 illiyinə həsr edilmiş elmi sessiya keçirilmişdir.

3. Azərbaycan Respublikası Prezidentinin "Məmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı ilə əlaqədar 21 may 2014-cü ildə "Azərbaycan Xalq Cümhuriyyəti və M.Ə.Rəsulzadə" mövzusunda elmi konfrans keçirilmişdir.

4. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il mayın 15-də "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında" 167 nömrəli Fərmanının icrası ilə əlaqədar:

"Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi"nin əsas məqsəd və vəzifələrindən çıxış edərək aşağıdakı istiqamətlər üzrə sıx əməkdaşlıq əlaqələrinin həyata keçirilməsi təklif olunmuşdur:

a) Dünya şərqşünaslıq mərkəzləri ilə Azərbaycan Respublikasının multikultural nailiyyətlərinin öyrənilməsinə dair ortaq layihələr və elmi tədbirlər həyata keçirmək; Multikulturalizm mərkəzi ilə birlikdə dünyanın tanınmış şərqşünas alimlərini Azərbaycana dəvət etmək, onları Azərbaycanın gerçəklikləri və multikultural nailiyyətləri ilə yaxından tanış etmək, onların iştirakı ilə Azərbaycanda və xarici ölkələrdə tədbirlər keçirərək nailiyyətlərimizi təbliğ etmək;

b) Şərq ölkələrində mövcud multikulturalizm təcrübəsini öyrənmək, Azərbaycanın təcrübəsi ilə müqayisə etmək, müsbət örnəkləri təbliğ etmək.

5. "Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə əlaqədar İnstitut Bilik Fondu ilə yaxından əməkdaşlıq edir. İnstitutunun direktoru, müxbir üzv G.B.Baxşəliyeva Bilik Fondu tərəfindən Bərdədə təşkil edilən "Dini abidələrdə tarixin izləri - Bərdə İmamzadəsi" mövzusunda elmi konfransda çıxış etmişdir. B.e.i., f.ü.f.d. İlkin Əlimuradov Bilik Fondunun xətti ilə Bərdədə təşkil olunan "Orta əsrlər Bərdəsinin tanınmış alimləri" mövzusunda konfransda "Ərəb Şərqində böyük şöhrət qazanmış Əhməd bin Harun Bərdəli (əl-Bərdici)" adlı məruzə ilə çıxış etmişdir.

6. İnstitutun b.e.i., f.ü.f.d. Elvüsal Məmmədov və b.e.i., i.ü.f.d. A.Həbibov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dinşünaslıq şurasının üzvü olaraq, Bərdə, Quba, Lənkəran və Cəlilabad şəhərlərində tolerantlıq, mötədillik, dini dözümlülük haqqında məruzələrlə çıxış etmişlər.

7. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında intellektual inkişaf modelinə əsaslanan biliklər cəmiyyətinin qurulması dövlətin rəsmi strateji inkişaf xətti olaraq müəyyənləşdirilməsi ilə əlaqədar Şərqşünaslıq İnstitutunun əməkdaşları Bakı Elm Festivalında, IV Beynəlxalq Humanitar forumunda və digər ictimai-siyasi, elmi və mədəni tədbirlərdə fəal iştirak etmiş və məruzələrlə çıxış etmişlər.

8. Azərbaycan Respublikasında 2009-2015-ci illərdə "Elmin inkişafı üzrə "Milli Strategiyanın" və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı" ilə əlaqədar Proqramın icrasına dair Tədbirlər Planının bəndlərinə uyğun olaraq aşağıdakı işlər görülmüş və görülməkdədir:

a) 5.5.6. bəndinə uyğun olaraq İnstitut əməkdaşlarının beynəlxalq elektron resurslara çıxışı genişləndirilmişdir;

b) 5.7.1. bəndinə uyğun olaraq Azərbaycan şərqşünaslığı web-portalı yaradılmışdır;

c) 5.7.3. bəndinə uyğun olaraq Azərbaycan həqiqətlərinin virtual məkanda təbliği və yayılması məqsədi ilə İnstitutun saytının təkmilləşdirilməsi, rus və ingilis dillərində versiyalarının yaradılması istiqamətində iş gedir.

2014-cü ilin elmi-tədqiqat işlərinin yerinə yetirilməsi haqqında məlumat

Hesabat ilində İnstitut əməkdaşları fərdi müqavilə üzrə çalışmışlar. Elmi-tədqiqat işləri 1 elmi istiqamət, 5 problem çərçivəsində aparılmışdır. Plan üzrə icra olunan 98 elmi-tədqiqat işindən 44 iş bu il başa çatmışdır. Qalan işlərin 2014-cü il üçün nəzərdə tutulan hissəsi yerinə yetirilmişdir.

İnstitutun elmi tədqiqat işləri **"Şərq ölkələrinin ictimai, iqtisadi, mədəni-tarixi inkişafı və Azərbaycanla əlaqələri"** istiqaməti üzrə aparılır.

TAMAMLANMIŞ İŞLƏR

Problem. Şərq ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-siyasi vəziyyəti, Şərq ölkələri ilə Azərbaycanın əlaqələri

Mövzu: İran tarixinin aktual məsələləri, İran-Azərbaycan əlaqələri

İş: Seyid Həsən Tağızadənin İran elminin inkişafındakı rolu (4 ç.v), icraçı - e.i., f.ü.f.d. Ə.H.Şəfiyeva, icra müddəti - 2013-2014-cü illər

Plan işində XX əsr İranın ictimai-siyasi və elmi həyatında böyük xidmətləri olan Azərbaycan əsilli S.H.Tağızadənin İran elminin inkişafındakı rolu, elmə gətirdiyi yeniliklər araşdırılmışdır. Tədqiqat işində S.H.Tağızadənin İranda tarixşünaslıq və ədəbiyyat elmlərinin inkişafı sahəsində göstərdiyi xidmətlər ilkin qaynaqlar əsasında araşdırılmış və onun bu sahədə alim kimi ardıcıl fəaliyyəti təhlil edilmişdir.

Əldə olunan nəticə S.H.Tağızadənin elmi irsinin öyrənilməsi, onun elmi əsərlərinin əsas metodoloji tələblərə - tarixilik, obyektivlik, məntiqilik, hadisələri digər hadisələrlə qarşılıqlı əlaqə və təsirdə tədqiq etmək və inkişafda nəzərdən keçirmək tələbinə cavab verdiyini göstərir.

Mövzu: Cənubi Azərbaycanın tarixi, iqtisadiyyatı və ictimai-siyasi vəziyyəti

İş: İran İslam İnqilabı ərəfəsində Cənubi Azərbaycanda siyasi-iqtisadi və mədəni durum (3 ç.v), icraçı - şöbə müdiri, i.ü.f.d. Ə.R.Bije, icra müddəti - 2014-cü il

Plan işində keçən əsrin 60-cı illərində Cənubi Azərbaycanda siyasi durum, xalq kütlələrinin şahlıq rejiminə qarşı mübarizəsi mənbələr və sənədlər əsasında elmi aspektdə tədqiq olunur. İranda Azərbaycan ostanlarının iqtisadi inkişaf problemləri, o cümlədən, kənd təsərrüfatı, sənaye və daxili bazar, xalqın böyük əksəriyyətinin həyatında mövcud olan iqtisadi çətinliklər və eyni zamanda ölkədə siyasi mühit şərh edilir.

İş: İran İslam İnqilabından sonra Urmiya bölgəsində demoqrafik proseslər (1,5 ç.v), icraçı - k.e.i. C.A.Mirzəyeva, icra müddəti - 2014-cü il

Tədqiqatda Urmiya şəhəri və ona bağlı olan 5 inzibati vahidin (bəxşin) əhalisi (2006) haqqında məlumat verilir. Urmiya şəhristanı Qərbi Azərbaycan ostanı ərazisinə daxil olan 14 bölgədən (şəhristandan) biridir. Buraya 4 şəhər daxildir. Əhalisinin sayı 871 204 (2006-cı il) nəfərdir.

İİR yarandıqdan sonra əhalinin siyahıya alınması ilə bağlı nəşr olunan statistik hesablamalar ilk dəfə 1986-cı ildə yayınlanmışdır. Daha sonra hər on ildən bir əsaslı statistik hesablamalar aparılmış və nəticələri nəşr olunmuşdur. Təqdim olunan tədqiqat əsasən bu statistik hesablamalar əsasında işlənilmiş, bölgənin demoqrafik durumu haqqında ümumi nəticə əldə olunmuşdur.

İş: Cənubi Azərbaycanın Qərb bölgəsində tarixi-etnoqrafik abidələr (1,5 ç.v), icraçı - k.e.i. R.N.Rüstəmov, icra müddəti - 2014-cü il

Tədqiqatda Qərbi Azərbaycan ostanının tarixi abidələri tarixi-arxeoloji baxımdan təhlil edilir. Araşdırmada əsas məqsəd bu bölgələrdəki tarixi abidələri müasir baxımdan tədqiq etmək nəzərdə tutulmuşdur. Eyni zamanda Qərbi Azərbaycan ərazisində mövcud olan tarixi abidələrin qorunmasına İran İslam Respublikasının biganə münasibəti üzə çıxarılır və bu abidələrin bərpa olunmasına marağın olmaması göstərilir. Həmçinin tədqiqatda bəzi yeni abidələrin tədqiqat obyektinə çevrilməsi də göstərilir və bu abidələrin qonşu regionlardakı abidələrlə oxşarlığı tədqiq edilir.

Mövzu: Türkiyənin tarixi, iqtisadiyyatı, ictimai-siyasi vəziyyəti və Azərbaycanla əlaqələri

İş: "Mustafa Kamal Atatürk" kitabının çapa hazırlanması (14 ç.v), icraçı -b.e.i., i.e.d. İ.V.Əlibəyov, icra müddəti - 2014-cü il

Plan işində Türkiyə Respublikasının banisi və ilk prezidenti Mustafa Kamal Atatürkün həyatı, türk xalqının zəfərlə nəticələnən milli-qurtuluş savaşına başçılıq etmiş müzəffər sərkərdə, görkəmli dövlət xadimi, müdrik siyasətçi, qətiyyətli islahatçı kimi fəaliyyətindən bəhs edilir. Yeni Türkiyənin sülhsevər xarici siyasət konsepsiyasının formalaşması, xalqlarımızı bağlayan çoxəsrlik əlaqələrin xüsusi vüsət alaraq möhkəmlənməsi və yeni məzmun kəsb etməsi sahəsində M.K.Atatürkün misilsiz xidmətlərinin işıqlandırılmasına xüsusi diqqət yetirilmişdir.

İş: Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin müasir vəziyyəti və inkişaf perspektivləri (4 ç.v), icraçı - b.e.i., t.ü.f.d. N.E.Məmmədov, icra müddəti 2013-2014-cü illər

Plan işində Türkiyə ilə Azərbaycan Respublikası arasındakı iqtisadi əlaqələrin müasir vəziyyəti və gələcək üçün inkişaf perspektivləri araşdırılmışdır. Tədqiqat işində iqtisadi əlaqələrin müxtəlif sahələri üzrə mövcud vəziyyət, onun inkişaf tarixi və gələcək perspektivləri müxtəlif mənbələr üzrə araşdırılaraq təhlil edilmiş, müqayisələr aparılmışdır. Ümumi nəticə kimi qeyd etmək olar ki, Türkiyə-Azərbaycan iqtisadi əlaqələri hər iki dövlətin gələcək inkişafında mühüm əhəmiyyət daşıyır və nəinki bu dövlətlərin iqtisadi, eyni zamanda siyasi əlaqələrinin genişlənməsi üçün zəruri şərt kimi çıxış edir.

İş: XVIII-XIX əsrlərdə Osmanlı dövlətində sosial-siyasi islahatlar layihələri (2,5 ç.v), b.e.i., t.ü.f.d C.Ə.Qasımov, icra müddəti - 2014-cü il

Plan işində XVIII əsrin əvvəllərindən başlayaraq XIX əsrin 40-cı illərinə qədər (Tənzimat islahatlarının həyata keçirilməsinə qədər) Osmanlı imperiyasının daxilində gedən sosial-iqtisadi və siyasi proseslər nəzərdən keçirilmişdir. XVIII əsrin əvvəllərində Osmanlı dövlətində islahat xarakterli risalələrin (islahat layihələrinin) müəllifləri və onların Osmanlı cəmiyyətindəki nüfuzu və ictimai mövqeyi haqqında araşdırma aparılmışdır. Bununla yanaşı, XVIII əsrin əvvəllərində Osmanlı imperiyasında qələmə alınan islahat layihələrinin yazılış üslubu və onun müəllifləri tərəfindən irəli sürülən yeni idarə sistemi də araşdırılmışdır. Plan işində əsaslı olaraq XVIII-XIX əsrlər Osmanlı dövlətində qələmə alınan islahat layihələrinin təsnifatı aparılmış və onların müəlliflərinin yenilikçilər və mühafizəkarlar olaraq iki qrupu təmsil etdikləri müəyyən edilmişdir.

İş: Övliya Çələbinin "Səyahətnamə" əsərinin I və II cildlərinin çapa hazırlanması (24 ç.v), icraçı - b.e.i., t.ü.f.d. B.İ.Bəşirova, icra müddəti - 2014-cü il

Plan işində XVIII əsr coğrafiyaşünası və səyyahı Övliya Çələbinin çoxcildli "Səyahətnamə" əsərinin I cildinin tərcüməsi və çapa hazırlanması nəzərdə tutulmuşdur. Əsər Yaxın Şərq və Şimali Afrika xalqlarının tarixi coğrafiyası, memarlığı, məişəti və mədəni münasibətləri ilə bağlı geniş və unikal məlumatları əhatə edir. Ö. Çələbinin İstanbul şəhəri haqqında tarixi-coğrafi və etnoqrafik məlumatları əhatə edən I cildi ilk dəfə olaraq Azərbaycan dilinə tam şəkildə tərcümə edilmişdir.

İş: 1727-ci il Osmanlı müfəssəl dəftərinə görə Urmiya və Xalxal livaları (1,5 ç.v), icraçı - e.i. Y.B.Nəsirova, icra müddəti - 2014-cü il

Plan işi Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq tədqiqata cəlb olunmuş "Dəftər-i müfəssəl liva-i Xalxal və liva-i Urumi" osmanlı arxiv sənədi əsasında yazılmışdır. Tədqiqatda XVIII əsrin əvvəllərində Osmanlı dövlətinin tərkibində olmuş Urmiya və Xalxal bölgələrinin sosial-iqtisadi vəziyyəti araşdırılmış, ilk dəfə olaraq XVIII əsrin əvvəllərində Urmiya və Xalxal livalarının əhalisi, inzibati quruluşu, demoqrafik vəziyyəti müfəssəl dəftərin məlumatları əsasında təhlil edilmişdir. Bununla orta əsr Azərbaycan sosial-iqtisadi tarixinin araşdırılmasında Osmanlı sənədlərinin mühüm əhəmiyyət kəsb etməsi bir daha təsdiq olunmuşdur.

İş: "Osmanlı bəlgələrində Qarabağ" adlı sənədlər toplusunun çapa hazırlanması (5 ç.v), icraçı - e.i., t.ü.f.d. Z.Q.Vəliyeva, icra müddəti - 2014-cü il

Plan işində "Osmanlı sənədlərində Qarabağ" adlı sənədlər toplusunun tərcüməsi və çapa hazırlanması nəzərdə tutulmuşdur. Qarabağ haqqında tarixi həqiqətlərin üzə çıxarılması baxımından Osmanlı arxiv sənədləri böyük əhəmiyyət daşıyır. İlk dəfə olaraq bu sənədlər Azərbaycan dilinə tərcümə edilərək ictimaiyyətə təqdim ediləcəkdir. Sənədlərdə xüsusi ilə XVIII-XIX əsrdə Azərbaycanda aparılan imperiya siyasəti, ictimai-mədəni həyatla bağlı unikal məlumatlar yer alır.

İş: Rusiya türkologiyasının görkəmli simaları (2 ç.v), icraçı - e.i M.M.Ənsərli, icra müddəti - 2014-cü il

İşin əsasını XIX əsrin sonu - XX əsrdə Rusiyada yaşamış bir qrup məşhur türkoloqların (N.Aşmarin, N.A.Baskakov, A.N.Baskakov, V.M.Jirmunski, N.Katanov, A.E.Krımski, S.Y.Malov, A.F.Miller, A.D.Noviçev, E.K.Pekarski, A.N.Samoyloviç, E.R.Tenişev, K.K.Yudaxin) həyatı və elmi-pedaqoji fəliyyətləri haqqında geniş məlumat təşkil edir.

İş əvvəlki illərdə yazılıb çapa hazırlanmış plan işinin davamıdır. Rusiya türkoloqlarından V.V.Radlov (Fridrix Vilhelm), V.V.Barthold, V.A.Qordlevski və A.N.Kononov haqqında elmi oçerklər artıq yazılmışdır. Bu şəxslərin yaradıcılığı haqqında Azərbaycanda geniş araşdırmalar aparılmayıb.

Mövzu: Ərəb ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-siyasi inkişafı və Azərbaycanla əlaqələri

İş: İbn əl-Fəqih əl-Həmədaninin "Əxbar əl-Buldən" əsərinin Məşhəd əlyazmasının türklər haqqında fəsillərinin Azərbaycan dilinə tərcüməsi, şərhi və giriş (2,5 ç.v), icraçı - şöbə müdiri, t.ü.f.d. F.M.Əsədov, icra müddəti - 2014-cü il

Orta əsrlər ərəb tarixçisi İbn əl-Fəqihin sözü gedən əsərinin məlum olmayan əlyazmasının Məşhəddə keçən əsrin 20-ci illərində Zəki Vəlidi Toğan tərəfindən tapılması əsərin bir neçə məlum olmayan fəsillərini üzə çıxarmışdır. Onların arasında türklər haqqında iki fəsil qədim, İslama qədərki türk xalqları və tayfaları haqqında ərəblərin erkən məlumatlarını ehtiva edir. Bu fəsillərdə başqa mənbələrdə təsadüf edilməyən bəzi xəbərlər Mərkəzi Asiya və Qafqaz türklərinin erkən tarixinin öyrənilməsi üçün vacib elmi əhəmiyyət daşıyır. İşdə həmin fəsillərin Azərbaycan dilinə tərcüməsi, elmi və tekstoloji şərhlər və giriş verilir.

İş: İslamın yaranması dövründə ridda - islamdan qopma hərəkatı (5 ç.v), icraçı - b.e.i. C.A.İskəndərov, icra müddəti - 2014-cü il

"Erkən islam dövründə riddə hərəkatı" tədqiqat işində islamın ilkin dövründə hələ Məhəmməd Peyğəmbərin zamanında Ərəbistanın Yəmən və Yəməmə bölgələrində Mədinə hakimiyyətinə qarşı itaətsizlik hallarından, peyğəmbərin ölümündən sonra isə, demək olar, bütün bölgələri bürüyən üsyanlardan bəhs edir. Bu üsyanlarla mübarizə xəlifə Əbu Bəkrin hakimiyyəti üçün ən mühüm, qaçılmaz məsələyə çevrilir. Qəbilələrin əksəriyyəti Məhəmməd Peyğəmbərin vaxtında verdikləri sədəqənin ləğvi tələbi ilə çıxış edərək xəlifə Əbu Bəkri bu məsələdə güzəştə getməyə vadar etməyə çalışırlar. Lakin xəlifə bunu itaətsizlik kimi qiymətləndirərək, onlara qarşı cihad elan edir. Aparılan mübarizə nəticəsində bütün qəbilələr ram edilərək, Mədinə hakimiyyətinə tabe olur. Ölkə qəbilələrinin vahid hakimiyyətdə birləşməsi sonrakı ərəb istilaları üçün əlverişli zəmin yaradır.

İş: Akad.Z.M.Bünyadovun "Xarəzmşahlar dövləti" adlı monoqrafiyasının Azərbaycan dilinə tərcüməsi (6

ç.v), icraçı - k.e.i - G.Ə.Qafqazlı, icra müddəti - 2014-cü il

Plan işi akademik Ziya Bünyadovun 1986-cı ildə Moskvada rus dilində nəşr edilmiş "Xarəzmşahlar - Anuşteginilər dövləti" əsərinin Azərbaycan dilinə tərcüməsindən və çapa hazırlanmasından ibarətdir.

Orta əsrlərdə Yaxın Şərq və Azərbaycan tarixinə dair mühüm məlumatları ehtiva edən monoqrafiya ilk dəfə Azərbaycan oxucusuna öz ana dilində təqdim ediləcək.

İş: Rifai Təhtəvi və onun Misirin ictimai-siyasi həyatında rolu (1,5), icraçı -k.e.i. P.A.Əfəndiyeva, icra müddəti - 2014-cü il

Plan işi ictimai təhsil, vətənpərvərlik ideyalarının təbliği və Ərəb aləmində qadın haqlarının qorunmasında böyük rol oynamış böyük maarifçi və ictimai xadim Rifai Rafi ət-Təhtəvi haqqındadır.

İş: Əhməd əl-Bəlazurinin "Fütuhul-buldan" əsərindən tərcümə və qeydlər, (24 ç.v), e.i., t.ü.f.d X.A.Hacıyev, k.e.i S.Ə.Bağırov, k.e.i E.İ.Salahov, k.e.i. Ş.X.Ələsgərov, icra müddəti - 2014-cü il

Əbu-l-Abbas Əhməd ibn Yəhya ibn Cabir Əl-Balazurinin "Futuh əl-buldan" əsəri ərəbdilli tarixi ədəbiyyatın ən erkən və əhəmiyyətli əsərlərindəndir. Kitab ərəb işğalları haqqında müxtəlif erkən mənbələri və şahidlərin məlumatlarını ehtiva edir. Əsərdə xüsusilə xilafətə daxil edilmiş Şərq əyalətləri, o cümlədən İran, Azərbaycan və Cənubi Qafqazın coğrafiyası, əhalisi, siyasi quruluşu haqqında əhəmiyyətli faktlar toplanmışdır.

İş: Ərəb baharının ərəb monarxiya rejimlərinə təsiri (4 ç.v), icraçı - k.e.i. B.N.Hidayət oğlu, icra müddəti - 2013- 2014-cü illər

Tədqiqat işində analitiklərin "ərəb baharı" adlandırdığı üsyanlar dalğası Tunisdən sonra Misir, Liviya, Əlcəzair, Mərakeş, Yəmən, Bəhreyn, Suriya, İordaniya, Küveyt və Səudiyyə Ərəbistanı kimi ölkələrdə özünü göstərdi. Və mütəxəssislərin "domino effekti" adlandırdığı sürətli proseslər nəticəsində çox tezliklə Misir, daha sonra Yəmən liderləri istefa verməyə məcbur oldular.

Hazırda vətəndaş müharibəsinin davam etdiyi Suriyada isə durum çox fərqlidir. Tədqiqatda bu proseslərin İordaniya, Səudiyyə Ərəbistanı Krallığı və Fars Körfəsi monarxiyalarına təsirsiz ötüşmədiyi araşdırılır.

Mövzu: Mərkəzi Asiya və Uzaq Şərq ölkələrinin xarici siyasətində Azərbaycan

İş: ABŞ-Çin münasibətləri respublikaçıların xarici siyasət platformasında (XXI əsrin I rübü) (3 ç.v), icraçı - k.e.i. Ü.C.Əliyeva, icra müddəti - 2013-2014-cü illər

Plan işində XXI əsrin birinci rübündə ABŞ-da respublikaçılar hökumətinin Çin Xalq Respublikasına münasibətdə siyasəti və bu ölkə ilə iqtisadi, siyasi əlaqələrin vəziyyəti və inkişaf perspektivləri araşdırılmışdır. Tədqiqatda Uzaq Şərq regionunun və bura daxil olan ölkələrin ayrı-ayrılıqda ABŞ-ın xarici iqtisadi, siyasi və təhlükəsizlik maraqlarında tutduğu yer tədqiq olunmuş, XXI əsrin başlanğıcında, hakimiyyətə gəlmək ərəfəsində Respublikaçılar partiyası təmsilçilərinin seçki platformasında Çinlə münasibətlərə dair bəyanatları və C.Buş administrasiyasının Çin siyasəti təhlil olunmuşdur.

İş: Yaponiyada İslam (3 ç.v), icraçı - k.e.i. G.R.Soltanova, icra müddəti - 2013-2014-cü illər

Plan işində müasir Yaponiyada İslam dininin vəziyyəti tədqiq edilir. Hal-hazırda Yaponiyada müsəlmanların sayı durmadan artmaqdadır. Ölkə ən geniş məcsidlər şəbəkəsinə malikdir. Sadə yaponların İslama, islam mədəniyyətinə, müsəlman həyat tərzinə olan maraqları isə günü-gündən artmaqdadır. Bu mənada Yaponiyada İslamın mövcudluğu müasirliyin aktual mövzularından biridir.

Problem: Şərq filologiyasının, Şərq ölkələri ilə Azərbaycanın filoloji əlaqələrinin tədqiqi

Mövzu: Farsdilli ədəbiyyatın, İran-Azərbaycan ədəbi əlaqələrinin tədqiqi

İş: İran elmi-ictimai fikrində Nizami Gəncəvinin milli mənsubiyyəti məsələsi (2 ç.v), icraçı - şöbə müdiri, f.ü.f.d. M.Ə.Məhəmmədi, icra müddəti - 2014-cü il

Araşdırmada son onillikdə İran elmi-ictimai fikrində Nizami Gəncəvinin milli mənsubiyyəti məsələsi ilə bağlı irəli sürülən müddəaların tənqidi təhlili verilmiş, o cümlədən, S.Lornejad və Ə.Dustzadənin müəllifi olduğu «Fars şairi Nizami Gəncəvinin müasir siyasiləşdirilməsi barədə» kitabı hərtərəfli şəkildə nəzərdən keçirilmişdir. Tədqiqatda həmçinin İran alimlərinin keçmiş sovet və Azərbaycan nizamişünaslığına baxışı, ölkə mətbuatında Nizaminin etnik kimliyi ilə bağlı mövzunun işıqlandırılması araşdırılmış, bu yöndə irəli sürülən başlıca tezislər ümumiləşdirilərək, təhlil edilmişdir.

İş: Farsdilli poetik mətnlərdə tematik və assosiativ əlaqə (2 ç.v), icraçı - f.ü.e.d., aparıcı.e.i. Ş.Ə.Əlibəyli, icra müddəti - 2012-2014-cü illər

Söz tənasübü əsasında yaranan, assosiativ və tematik cəhətdən bağlı olan leytmotivlər farsdilli poetik mətnin təşkilində bütöv bir sistem şəklində özünü göstərir. Təkrarlanan söz tənasübünün araşdırılması, şairin fərdi üslubunun daha bir aspektinin dərindən öyrənilməsinə xidmət edir. Bu baxımdan klassiklərimizin farsdilli əsərləri zəngin stilistik materialdır. Tədqiqata Azərbaycan klassiklərinin farsdilli əsərləri cəlb olunmuşdur.

İş: Klassik şeir ənənəvi kontekstində Mahşərəf xanım Məsturənin "maddeyi-tarixləri" (2,5 ç.v), icraçı - aparıcı e.i. Z.T.Rəhimova, icra müddəti - 2014-cü il

Plan işi Məsturənin (XIX əsrin I yarısı) yaradıcılığına həsr olunmuş tədqiqat işinin bir hissəsidir. Burada üç mövzunu əhatə edən doqquz maddeyi tarixin tədqiqi yer almışdır. Bu maddeyi tarixlər olum, ölüm və bir məscidin inşasına həsr olunmuşdur. Əsərlər Məsturənin tanınmış həmvətənləri haqqındadır. Maddeyi-tarixlər məzmununa, struktur və sənətkarlıq xüsusiyyət-

lərinə görə araşdırılmışdır.

İş: Foruğ Fərruxzadın lirikasının xüsusiyyətləri (4 ç.v), icraçı - b.e.i. S.Ə.Tahiri, icra müddəti - 2013-2014-cü illər

Foruğ Fərrruxzad müasir İran poeziyasında ən görkəmli şairlərdən biridir. Onun yaradıcılığında İran cəmiyyətinin bir sıra problemlərinin lirik inikası yüksək səviyyədə öz bədii təcəssümünü tapıb. Foruğ Fərruxzadın şəxsi həyatı ağır keçsə də, o, bir müxbir kimi həyatın bütün sahələri ilə yaxından tanış olaraq İran poeziyasının ölməz nümunələrini yaratmışdır.

İş: Müasir İranın türk mənşəli toponimləri (9 ç.v), icraçı - b.e.i. A.B.Həsənova, icra müddəti - 2012-2014-cü illər

Plan işində müasir İran ərazisində minilliklər öncə məskunlaşmış türklərin tarixi, etnogenezi, etnoqrafiyası, təfəkkürü, dil tarixi, tarixi coğrafiyası və s. regionda mövcud toponimlərlə əlaqəli şəkildə araşdırılmışdır. Bu zaman Azərbaycan dilinin bir sıra yaddan çıxmış vahidləri üzə çıxarılmışdır.

Tədqiqat işində Azərbaycan dilçiliyinin ən aktual problemlərindən biri olan müasir İran ərazisindəki türk mənşəli toponimlər öyrənilmişdir.

İş: Müasir İranda termin yaradıcılığı prosesi (4 ç.v), icraçı - b.e.i., f.ü.f.d. G.V.Verdiyeva, icra müddəti - 2013-2014-cü illər

Tədqiqat işində müasir İranda termin yaradıcılığı prosesi izlənilir. Fars dili terminologiyasının vəziyyəti araşdırılır, müasir fars dilinin terminlərinin seçilmə prinsipləri nəzərdən keçirilir. İran Fars dili və ədəbiyyatı Akademiyasının fəaliyyəti haqqında məlumat verilir, burada təsdiq olunmuş yeni sözlər - neologizm və terminlər tədqiqat obyektinə çevrilir.

Mövzu: Azərbaycan ədəbiyyatına dair türk alimlərinin araşdırmaları, klassik türk ədəbiyyatının tədqiqi

İş: Cəlaləddin Rumi və türk məsnəvi ədəbiyyatı (4 ç.v), icraçı - f.ü.e.d., aparıcı e.i. - E.H.Quliyev, icra müddəti 2012-2014-cü illər

Tədqiqat işində XIII əsr türk sufi ədəbiyyatının bir sıra vacib problemləri araşdırılmış və ayrı-ayrı sənətkarların yaradıcılığına aydınlıq gətirilmişdir. Bu mənada XIII əsr türk sufi ədəbiyyatının əsas nümayəndələri hesab olunan C.Rumi, S.Vələd və Y.İmrə yaradıcılıqları geniş təhlil obyekti kimi tədqiqata cəlb olunmuş, onların sufi görüşləri öyrənilmişdir. Tədqiqat işində adları çəkilən hər bir sənətkar həm ayrılıqda, həm də qarşılıqlı əlaqə və müqayisə müstəvisində öyrənilmişdir. Bundan başqa XIII əsr türk sufi ədəbiyyatının problemlərinə ümumşərq ədəbiyyatı kontekstində də münasibət bildirilmişdir.

İş: Türkiyə vücudnamələri (1,5 ç.v), icraçı - f.ü.f.d., b.e.i. E.F.Məmmədova, icra müddəti 2014-cü il.

Plan işində ayrı-ayrı türk xalqlarının yazılı ədəbiyyatında və folklorunda, aşıq yaradıcılığında rast gəlinən vücudnamə örnəkləri təhlilə cəlb edilir. Türk xalqlarının (Azərbaycan, Kıbrıs və Türkiyə türkləri, türkmən, özbək, uyğur, başqırd, qazax, qırğız, tatar, qumıq) şifahi və yazılı ədəbiyyatından toplanmış vücudnamə nümunələri üzərində araşdırma aparılaraq, variantlar və müəlliflər dəqiqləşdirilir. Mənşəyi, tədqiq tarixi haqqında məlumat verilməklə yanaşı, klassik və müasir vücudnamələr təhlil edilir.

İş: XX əsr Türk dünyasında latın əlifbasına keçid (3 ç.v), icraçı - f.ü.f.d., b.e.i. K.Ə.Ələkbərova, icra müddəti 2014-cü il

Tədqiqatda türk dünyasının, əsasən də Sovet İttifaqının tərkibində olan türkdilli xalqların 1930-cu illərdə latın əlifbasına keçməsinin dövrü mətbuatdakı əks-sədası, elmi və siyasi sahələrə təsiri tədqiq edilir. Ərəb əlifbası o dövrdə pantürkizm və panislamizmin simvolu sayılırdı.

İş: Azərbaycan-özbək ədəbi əlaqələrinin yeni dövrü (4 ç.v), icraçı - b.e.i., f.ü.f.d., T.Ə.Həşimova, icra müddəti - 2013- 2014-cü illər

İşdə Azərbaycan-Özbək ədəbi əlaqələri özbək realist satirik şeiri və klassik Azərbaycan ədəbiyyatı, Cədidcilik ədəbi hərəkatı, ortaq inkişaf prosesləri, XX əsrin əvvəllərində Azərbaycan və özbək dramaturgiyasında paralellər, Sovetlər dönəmində Azərbaycan-özbək ədəbi əlaqələri, 20-ci əsrin 60-cı illəri Azərbaycan-özbək şeirində yeniləşmə, ortaq inkişaf xüsusiyyətləri, Xəlil Rza Ulutürk və Erkin Vahidov yaradıcılığında paralellər, müstəqillik dönəmində Azərbaycan-özbək ədəbi əlaqələri və yeni nəsil şairlərinin yaradıcılığında tarixi-ədəbi ənənələr müstəvisində öyrənilir.

Mövzu: Ərəb ədəbiyyatının, ərəb-Azərbaycan ədəbi əlaqələrinin tədqiqi

İş: İ.Kraçkovskinin ədəbiyyatşünaslığa dair seçilmiş məqalələrinin rus dilindən Azərbaycan dilinə tərcüməsi (5 ç.v), icraçı - b.e.i., f.ü.f.d Ə.T.Qasımlı, icra müddəti - 2012-2014-cü illər

Rus-sovet ərəbşünaslıq elminin banisi, dünya şöhrətli alim akademik İ.Y.Kraçkovski ərəb ədəbiyyatının və mədəniyyətinin müxtəlif dövrlərini əhatə edən çoxsaylı, dərin məzmunlu araşdırmaların müəllifidir. Onun vəfatından sonra əsərləri toplanaraq VI cildlik şəklində nəşr edilmişdir. Həmin əsərlər dünya şərqşünaslığında bu sahədə işıq üzü görmüş tədqiqat işləri arasında özünün elmi siqləti, dərin məzmunu, orijinallığı ilə seçilir. Əsərlərdə ərəb ədəbiyyatının inkişaf mərhələləri ilk şifahi dövrdən XX yüzilliyin I yarısına qədər ardıcıl şəkildə tədqiqata cəlb olunmuşdur.

Alimin əsərlərinin II-III cildləri sırf ədəbiyyatşünaslıq məsələlərinə həsr edildiyindən onların Azərbaycan dilinə tərcümə edilərək nəşr olunması böyük əhəmiyyət kəsb edir.

İş: "Əyyamu-l-arab" əsərinin tərcüməsi (8 ç.v), icraçı - b.e.i., f.ü.f.d. L.M.Bayramova, icra müddəti - 2012-2014-cü illər

"Əyyəmu-l-arab" toplusu ərəb şifahi xalq ədəbiyyatının çox dəyərli mənbəsidir. Ərəb xalq ədəbiyyatı nümunələrinin mənşəyi "Əyyamu-l-arab" toplusuna dayanır. Topludakı məlumatlar islamdan təxminən 150

il əvvələ aid edilərək Şərqin qədim adət və ənənələri, tarixi, insanlarının yaşayış tərzini, qəbilələrarası münasibətləri və s. haqqında maraqlı rəvayətləri özündə ehtiva edir.

İş: Hədislərdə bədii təsvir (6 ç.v), icraçı - f.ü.f.d., b.e.i C.A.Zəkiyev, icra müddəti 2012-2014-cü illər

İş iki fəsildən ibarətdir. Birinci fəsildə Hədis elminin yaranması və onun əsas inkişaf istiqamətləri, ikinci fəsildə isə hədislərin Ərəb ədəbiyyatında tutdugu yer və bədii xüsusiyyətləri tədqiqata cəlb edilmişdir.

İş: M.Füzulinin müləmmələri (7,5 ç.v), icraçı - b.e.i., f.ü.f.d. R.A.Cümşüdlü, icra müddəti - 2014-cü il

Müləmmə diqlossiyanın həm janr, həm də fiqur kimi geniş yayılmış tərkib hissəsidir. Füzuli öz yaradıcılığında müləmmədən geniş istifadə etmişdir. Şair Azərbaycan dilində olan əsərlərində ərəb dilinə müraciət etmiş, bəzi misraları, beytləri və parçaları ərəb dilində qələmə alaraq müləmmələr yaratmışdır. Buraya Füzulinin türk və fars dilindəki divanlarında mövcud olan ərəbcə şeirlər, "Leyli və Məcnun" poemasında rast gəlinən beytlər və şairin digər müləmmələri daxildir. Ümummüsəlman mədəniyyətində geniş yayılmış müləmmə Füzulinin qələmində gözəl poetik nümunələrə çevrilmişdir.

İş: Orta əsrlər Azərbaycan ədib və şairləri haqqında ərəbdilli mənbələrdə məlumatlar (5 ç.v), icraçı, b.e.i., f.ü.f.d. Ə.İ.Məmmədova, icra müddəti - 2013-2014-cü illər

Plan işi 18-19-cu əsrlərdə yaşayıb-yaratmış və indiyədək araşdırılmamış ərəbdilli Azərbaycan əsilli müəlliflərin həyatı və bədii irsinin tədqiqini əhatə edir. İşin aktuallığı bir tərəfdən ümummüsəlman mədəniyyətinin formalaşmasında iştirak etmiş ərəbdilli Azərbaycan müəlliflərinin adları ədəbiyyatşünaşlıq tarixinə məlum olmayan nümayəndələrinin üzə çıxarılması ilə səciyyələnirsə, digər tərəfdən, milli irsimizə sahib çıxmaq, kökləri qədim dövrlərə və geniş ərazilərədək uzanan mədəniyyətimizin zəngin nümunələrini miras şəklində toplamaqla xalqımızın mədəni inkişaf tarixini formalaşdırmaq məqsədi daşıyır. Əhməd əş-Şirvani və onun yaşadığı dövrün Azərbaycan şərqşünaslığı tarixində ilk dəfə olaraq araşdırmaya cəlb edilməsi tədqiqat işinin elmi yeniliyini müəyyən edir. Azərbaycan mədəniyyətinin sərhədlərinin tək Azərbaycanla məhdudlanmaması, araşdırma işinə tək milli şərqşünaslıq müstəvisindən deyil, beynəlxalq müstəvidən yanaşmağa, yeni dövrün azərbaycançılıq mövqeyindən ərəbdilli mədəniyyəti və ədəbiyyatının geniş mənzərəsini işıqlandırmağa imkan verəcəkdir.

İş: Orta əsrlərdə ərəb ədəbiyyatının inkişaf xüsusiyyətləri (1,5 ç.v.), icraçı- k.e.i., f.ü.f.d. X.Ə.Kərimova, icra müddəti - 2014-cü il

Plan işində orta əsrlərdə ərəb ədəbiyyatının inkişafından, onun dövrlərindən və bu zaman baş verən dəyişikliklərdən bəhs olunur. Ərəb ədəbiyyatının inkişafı sayəsində yaranan janrlardan və bu janrların təsiri nəticəsində yaranan əsərlərdən bəhs olunur.

İş: Mahmud Kaşğarinin "Divanü-lügətit-türk" əsərindəki atalar sözlərinin fonetik və leksik-semantik xüsusiyyətləri (3 ç.v), icraçı - b.e.i., f.ü.f.d. Ç.H.Mirzəzadə, icra müddəti - 2012-2014-cü illər

Böyük türkoloq alim Mahmud İbn əl-Hüseyn ibn Məhəmməd Kaşğarlının "Divani lüğatit-türk" əsəri ərəblərin türk dilini öyrənməsi üçün yazılan ikidilli izahlı lüğətdir. M.Kaşqarlı türk sözünün mənasının açılmasında türk atalar sözünə müraciət edib. O, eyni informasiyanı müxtəlif üsullarla təqdim edib: ya iki deyim, ya bir deyim, bir şer misalı, ya da sözün mənasının açılmasında türkcə mətnlərdə ərəb folklorundan və ya Qurani- Kərimdən gətirdiyi ayələrlə müqayisə edib.

Problem. Şərqin yazılı abidələrinin tədqiqi, tərcüməsi və nəşri

Mövzu: Ərəb, türk və fars dillərində olan yazılı abidələrin tərcüməsi və tədqiqi

İş: İmad əd-din əl-İsfahaninin əsərlərinin bədii-estetik xüsusiyyətləri (7,5 ç.v), icraçı - b.e.i., f.ü.f.d. L.Q.Əliyeva, icra müddəti - 2012-2014-cü illər

Plan işində orta əsr ərəb alimi İmad əd-din əl-İsfahaninin "Xəridətül-asr va cəridətü-l-qasr" əsərinin ideya-mövzu və bədii-stilistik xüsusiyyətləri təhlil olunur. Ümumi nəticə kimi qeyd etmək olar ki, görkəmli alim öz əsərində zamanının ən məşhur ədiblərinin həyat və yaradıcılıqlarını tədqiq etmiş, onların əsərlərindən şərhli nümunələr vermişdir. Əks olunan məlumatlar əsasında dövrün ədəbi-bədii mühiti haqqında geniş məlumat əldə etmək mümkündür.

İş: Əbu Mənsur əs-Səalibinin "Yətimətud-dəhr" antologiyasının poetik xüsusiyyətləri, (4,5 ç.v), icraçı - k.e.i., L.M.Hüseynova, icra müddəti - 2012-2014-cü illər

Antologiyaya daxil edilmiş müəlliflərin şeirlərinin ideya-mövzu, bədii estetik, leksik xüsusiyyətləri, vəzn və qafiyə sistemi araşdırılır. Şairlərin yaradıcılığı təhlil edilərkən, müəyyənləşdirilmişdir ki, ərəb dilində gözəl şeir nümunələri yaradan şairlər əruz vəzninə ciddi riayət ediblər. Məhz bu onların yaradıcılığının uğurlu olmasını təmin edib və müasirləri olan filoloqlar tərəfindən layiqincə qiymətləndirilmişdir.

Problem. Yaxın və Orta Şərq ölkələrində din və ictimai fikir. İslam amillərinin Azərbaycanın ictimai-siyasi inkişafına təsiri

Mövzu: Yaxın və Orta Şərq ölkələrində dini-fəlsəfi fikrin inkişafı, etnik və dini münasibətlər

İş: "Ərəb baharı" və siyasi islam hərəkatları (2,5 ç.v), icraçı - b.e.i., fəl.e.n. E.N.Məmmədov, icra müddəti - 2014-cü il

Plan işində "Ərəb baharı"nın mahiyyəti, tarixi səbəbləri haqqında danışılmış, bu hadisələrdə Ərəb dünyasının islam hərəkatlarının oynadığı rol öyrənilmişdir. Tunisdə "Nəhdə" hərəkatının, Misir, Liviya, Suriyada "Müsəlman Qardaşları" hərəkatının bu hadisələr zamanı tutduğu mövqe ilə yanaşı Suriya hadisələrində şiə "Hizbullah" hərəkatının mövqeyi tədqiq edilmişdir.

İş: Müasir Türkiyədə mühafizəkar və etnik millətçilik (3 ç.v), icraçı - şöbə müdiri, fəl.e.n, E.Y.Həsənova, icra müddəti - 2014-cü il

Milliyyətçilik ideologiyasının tipologiya və modifikasiya məsələlərinin öyrənilməsi şərqşünaslıq elminin, xüsusən türkologiyanın, vacib vəzifələrindən biridir. Türkiyə Cümhuriyyətinin rəsmi dövlət siyasəti sayılan və konstitusiya tərəfindən elan edilən ideologiyası olan Atatürkçülük türk milliyyətçiliyinin sinonimidir. Lakin rəsmi türk milliyyətçiliyindən başqa bu ölkədə digər türk milliyyətçilik cərəyanları da mövcuddur. Məsələn, "konservativ milliyyətçilik" 1993-cü ildə Muhsin Yazıcıoğlu (hava qəzasında həlak olub) tərəfindən təsis edilən Böyük Birlik Partiyasının seçdiyi ideologiya idi. Bu partiyanın ideologiyasının proqramında islamçılıq, idealizm, türkçülük, pantürkizm, turançılıq və neoosmanlıçılıq kimi ideoloji-siyasi cərəyanlar öz əksini tapıb. Tədqiqat işində bu məsələlər araşdırılır.

İş: Azərbaycanda dini etiqad azadlığının hüquqi və sosioloji aspektləri (1,5 ç.v), icraçı - baş .e.i. S.Y.Hüseynov, icra müddəti - 2014-cü il

Plan işində dini etiqad azadlığının əsas hüquqi mahiyyəti araşdırılmış, onun ictimai şüurla bağlılığı öz əksini tapmışdır. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa görə respublikamızda hər bir kəs dinə münasibətini müəyyənləşdirməkdə, istədiyi dinə etiqad etməkdə sərbəstdir. Müasir dövrdə cəmiyyətdə baş verən dəyişikliyin, inkişafın dini etiqad azadlığına olan təsirinin qanunvericilikdə yeni əlavə və dəyişikliklərin baş verməsinin zəruriliyi burada xüsusilə vurğulanır. Dini etiqad azadlığı cəmiyyətdə sosial ədaləti, bərabərliyi, vətəndaşların dinə münasibətindən asılı olmayaraq onların hüquqlarının və qanuni mənafelərinin müdafiəsini təmin edir. Bütün bu məsələlər plan işində geniş şəkildə əhatə olunmuşdur.

İş: Mədəniyyətlərarası dialoq və onun siyasi aspektləri (2,5 ç.v), icraçı - fəl.ü.f.d., aparıcı e.i. R.Ə.Mürsəlov, icra müddəti - 2014-cü il

Qloballaşma dövründə dünyanın hər bir xalqının mədəniyyətlərarası dialoqda öz çağdaş mədəniyyəti ilə çıxış etməsi onun sosial-mədəni tərəqqi yolu ilə müvəffəqiyyətlə irəliləməsi üçün vacib şərtə çevrilir. Dünyanın müxtəlif xalqları beynəlxalq münasibətlərdə mədəniyyətin oynadığı rolun mühümlüyünü anlayaraq geniş mənada mənalandırılan çağdaş milli mədəniyyəti inkişaf etdirməyə səy edirlər. Bu təmayül müsəlman Şərqi ölkələri üçün xüsusilə səciyyəvidir. Burada öz milli mədəniyyətini digər xalqların mədəniyyətləri ilə müdafiə etmək, milli mədəni ənənələrə xas olan üstün cəhətləri qabartmaq və milli mədəniyyəti digər mədəniyyətlərdən təcrid etmək meylləri xüsusilə güclüdür.

Təqdim olunan tədqiqat işində də əsas məqsəd mədəniyyətlərarası dialoqun daxili və xarici siyasətlə, elmi-texniki tərəqqi və qloballaşma prosesi ilə qarşılıqlı əlaqələrinin aşkar edilməsidir.

İş: Əhli-həqq firqəsinin etiqad və ayinləri (3 ç.v), icraçı - e.i., Z.C.Abdullayev**,** icra müddəti - 2014-cü il

Plan işində dini etiqad azadlığının və Əhli-həqq firqəsinin etiqad və ayinlərinin əsas mahiyyəti araşdırılmışdır. Əhli həqq dərviş məsləkli sufi firqələrindən olmuşdur. Əli ibni Əbu Talibə qarşı məhəbbətdə ifrata vardıqları üçün «Əliyullah» kimi də məşhur olmuşlar.

Problem. Şərq-Qərb sivilizasiyalararası münasibətləri və Azərbaycan

Mövzu: Şərq-Qərb dialoqunun müasir durumu və inkişaf perspektivləri

İş: Qloballaşma prosesləri və Şərq (6 ç.v), icraçı - şöbə müdiri, i.e.d. D.Ə.Vəliyev, icra müddəti - 2013-2014-cü illər

Plan işi iki hissədən ibarətdir. Birinci hissə "Qloballaşma: yaranması, mahiyyəti və nəticələri" adlanır. Hissə iki bölmədən ibarətdir. "Dünya iqtisadi sistemi və qloballaşma" adlanan birinci bölmədə qlobal iqtisadi inteqrasiya proseslərinin nəzəri əsasları, qloballaşma və vahid iqtisadi məkanın formalaşması, qloballaşma şəraitində davamlı inkişafın müasir paradiqmaları, qloballaşma proseslərinə fərqli baxış və digər problemlər araşdırılmışdır. II bölmə "Qloballaşma və Şərq" mövzusuna həsr edilmişdir. Burada inkişaf etməkdə olan ölkələrin qloballaşma prosesində milli mənafeləri, qloballaşma və Türk Dünyası, dəyişən dünyanın Çin mənzərəsi və digər problemlər tədqiq edilmişdir.

Plan işinin ikinci hissəsi "Qlobal maliyyə böhranı (2008-2010-cu illər) və Şərq" adlanır. Burada iqtisadi böhranların nəzəri problemləri, qlobal böhran və Yaxın Şərq ölkələrinin iqtisadiyyatı və Yaxın Şərq ölkələrində anti-böhran tədbirləri araşdırılmışdır.

KEÇİCİ İŞLƏR:

Qalan 54 elmi-tədqiqat işinin 2014-cü il üçün nəzərdə tutulan hissəsi yerinə yetirilmişdir:

Mövzu: İran tarixinin aktual məsələləri, İran-Azərbaycan əlaqələri

İş: Müstəqillik illərində Azərbaycan-İran münasibətləri (6 ç.v), icraçı - şöbə müdiri, t.ü.f.d. V.K.Mustafayev, icra müddəti - 2013-2015-ci illər.

Mərhələ: İran-Azərbaycan münasibətlərinin formalaşması.

İş: Sovet dövründə İran mənşəli siyasi xadimlərin Stalin repressiyalarına məruz qalması (12 ç.v), icraçı - baş.e.i., t.ü.e.d. S.Ə.Rüstəmova-Tohidi, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: Abdulla Hatefinin "Şahnamə" əsəri Səfəvi dövrü Azərbaycan tarixinə dair mənbə kimi (3 ç.v), icraçı - k.e.i. E.Q.Novruzov, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: İslam inqilabının qələbəsindən sonra İranda təhsil, mədəniyyət və incəsənət sahəsində həyata keçiri-

lən islahatlar (6 ç.v), icraçı - e.i. S.T.Dostəliyev, icra müddəti 2013-2015-ci illər

Mərhələ: Material toplanması

Mövzu: Cənubi Azərbaycanın tarixi, iqtisadiyyatı və ictimai-siyasi vəziyyəti

İş: Səməd Sərdarniyanın əsərlərində Cənubi Azərbaycanın tarixi və mədəni məsələlərinin tədqiqi (4 ç.v), icraçı - b.e.i., t.ü.f.d. S.Ə.Talıblı, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: Cənubi azərbaycanlıların milli və vətəndaşlıq şüurunun yaranması və təkamülü (4 ç.v), icraçı - e.i. Y.Ə.Hacıyeva, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: Müasir İran tarixşünaslığında Azərbaycan məsələsi (3 ç.v), icraçı - k.e.i. H.Ə.Səfəri, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: İslam inqilabından sonra Cənubi Azərbaycanda siyasi və mədəni təşkilatların fəaliyyəti (3 ç.v), icraçı - k.e.i. Ş.T.Rüstəmova, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: İranda Pəhləvi sülaləsinin hakimiyyəti dövründə milli hüquqların tanınması və reallıqlar (6 ç.v), icraçı - şöbə müdiri, i.ü.f.d. Ə.R.Bije, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

Mövzu: Ərəb ölkələrinin tarixi, iqtisadiyyatı, ictimai-siyasi inkişafı və Azərbaycanla əlaqələri

İş: Qədim Yəməndə Himyarilər dövlətində aşşur koloniyası (4 ç.v), icraçı - b.e.i., t.ü.f.d. S.Ə.Süleymanova, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: Suriya böhranı Türkiyənin regional siyasət güzgüsündə (4 ç.v), icraçı - e.i. J.H.Vəli, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: Ərəb ölkələri beynəlxalq əlaqələr sistemində (7,5 ç.v), icraçı - b.e.i., t.ü.f.d. İ.Ə.Əsədov, icra müddəti 2013-2015-ci illər

Mərhələ: Ərəb ölkələrində siyasi durum: "Bahar" ümidləri, yoxsa böhran? (2,5 ç.v.)

İş: Əl- Kütubinin "Kitab uyun ət-tarix" adlı əsəri üzrə Abbasilər dövrünə aid seçmələr" mövzusunda material toplanması və tərcümə edilməsi (3,5 ç.v), icraçı - b.e.i., t.ü.f.d. E.E.Əlizadə, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: İbn Xəlliqanın "Vafiyyət əl-ə'yan" əsərində XII-XIII əsrlərin görkəmli şəxsiyyətləri: tərcümə və şərhlər (4 ç.v), icraçı - b.e.i., t.ü.f.d. N.K.Bayramova, icra müddəti 2014-2015-ci illər

İş: Hələb əmirliyi əmir Əli Seyf əd-Daulənin hakimiyyəti dövründə (X əsr), icraçı - b.e.i. H.Ə.Əkbərov, icra müddəti 2014-2016-ci illər

Mərhələ: Material toplanması

Mövzu: Mərkəzi Asiya və Uzaq Şərq ölkələrinin xarici siyasətində Azərbaycan

İş: Müasir dövrdə Azərbaycan-Çin enerji əməkdaşlığı (10 ç.v), icraçı - şöbə müdiri, c.ü.f.d. R.Y.Abbasov, icra müddəti 2013-2016-ci illər

Mərhələ: Çin Xalq Respublikasının neft siyasətində Azərbaycanın yeri (2,5 ç.v)

Mövzu: Farsdilli ədəbiyyatın, İran-Azərbaycan ədəbi əlaqələrinin tədqiqi.

İş: XV əsr farsca hürufi məsnəviləri (ədəbi və tarixi dəyər baxımından təhlili) (8 ç.v), icraçı - b.e.i., f.ü.f.d. S.M.Şıxıyeva, icra müddəti 2014-2016-ci illər

Mərhələ: Farsca hürufi məsnəvilərinin struktur-ideya özəllikləri (2 ç.v)

İş: Mahmud Dəstpişin "Gəl eşit neydən" adlı şeir məcmuəsindən azərbaycanca şeirlərinin transliterasiyası (6 ç.v), icraçı - e.i. A.S.Rüstəmova, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: "Cemelli Karerinin səfərnaməsi" əsərinin tərcüməsi (6 ç.v), icraçı - e.i. Ş.P.Əhmədov, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Kitabın I hissəsinin Azərbaycan dilinə tərcüməsi

Mövzu: Azərbaycan ədəbiyyatına dair türk alimlərinin araşdırmaları, klassik türk ədəbiyyatının tədqiqi

İş: İsmayıl Hikmətin "Türk ədəbiyyatı" (dörd cilddə, Bakı, 1325-1326) kitabının latın əlifbasına transliterasiyası, icraçılıar - şöbə müdiri, f.ü.f.d. X.C.Quliyeva, e.i. E.S.Xəlilova, aparıcı e.i., f.ü.f.d. B.R.Osmanova, b.e.i., f.ü.f.d. S.G.Gündoğdu, icra müddəti 2012-2016-ci illər

Mərhələ: Kitabın III cildinin I hissəsinin tərcüməsi (2,5 ç.v.)

İş: Əhməd Cəfəroğlunun Türkiyədə 1942-1944-cü illərdə dərc etdirdiyi "Türk amacı" dərgisinin tərcüməsi (7,5 ç.v), icraçı - aparıcı.e.i., f.ü.f.d. S.A.Qasımlı, icra müddəti 2014-2016-ci illər

Mərhələ: Ahmet Hamdi Tanpınarın bədii yaradıcılığı (3 ç.v.)

İş: XIX əsrin II yarısı -XX əsrin əvvəllərində ictimai-siyasi prosseslər və türk ədəbiyyatı (6 ç.v), icraçı - aparıcı.e.i., f.ü.e.d. A.M.Abıyev, icra müddəti 2012-2015-ci illər

Mərhələ: "Sərvəti-funun"un poeziyası, 1,5 ç.v.

İş: Türk dastanlarında mif motivləri (7,5 ç.v), icraçı-b.e.i., f.ü.f.d. C.İ.Cəlilov, icra müddəti 2014-2016-ci illər

Mərhələ: Mifoloji motivlərin səciyyəsi

Mövzu: Ərəb ədəbiyyatının, Ərəb-Azərbaycan ədəbi əlaqələrinin tədqiqi

İş: XIX-XX əsrin əvvəllərində Misir maarifçilərinin əsərlərində Qərbi Avropa elmi nəzəriyyələri (7 ç.v), icraçı - b.e.i., f.ü.f.d. Z.Ə.Şixalibəyli, icra müddəti 2014-2016-ci illər

Mərhələ: Material toplanması

İş: Prof. A.İmanquliyevanın dinlə bağlı tərcümələri (toplanma, tərtib, müqəddimə və şərh yazmaq), icraçı

- şöbə müdiri, f.ü.e.d. V.A.Cəfərov, icra müddəti 2013-2015-ci illər

Mərhələ: Prof. A.İmanquliyevanın dinlə bağlı tərcümələrinin toplanması, yazılması və nəşrə hazırlanması

İş: "Əyyəmul-arab" toplusunun təhlili və tərcüməsi (7,5 ç.v), icraçı - b.e.i., f.ü.f.d., L.M.Bayramova, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Kitabın I hissəsinin tərcüməsi

İş: Cürci Zeydan əsərlərində islamdan öncəki ərəb mədəniyyəti (3 ç.v), icraçı - k.e.i. Ə.H.İsmayılova, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: Əmin ər-Reyhaninin "Reyhaniyyəti" (3 ç.v), icraçı - k.e.i. F.A.Məcidova, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: Ərəb dilində cümlələrin strukturunda köməkçi sözlərin yeri (6 ç.v), icraçı - aparıcı.e.i., f.ü.f.d. L.M.Orucova, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: Ərəb leksikoqrafiyasının Azərbaycanda inkişafı (4 ç.v), icraçı - b.e.i, f.ü.f.d. Z.Q.Rüstəmova, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

Mövzu: Ərəb, türk və fars dilli yazılı abidələrin tərcüməsi və tədqiqi

İş: Klassik mətnlərin oxunması üçün farsca-azərbaycanca lüğətin hazırlanması (25 ç.v), icraçı - b.e.i., f.ü.f.d., A.Ə.Əlizadə, icra müddəti 2013-2015-ci illər

İş: Nəcməddin Razinin "Mirsad əl-İbad" əsərinin tərcüməsi və şərhi (7,5 ç.v), icraçı - şöbə müdiri, f.ü.e.d. M.D.Kazımov, icra müddəti 2012-2016-ci illər

Mərhələ: Nəcməddin Razinin "Mirsad əl-İbad" əsərinin 3-cü fəslinin izahlı tərcüməsi

İş: XIV əsr təsəvvüf ədəbiyyatı (Aşıq Paşanın "Qəribnamə" əsəri əsasında) (7,5 ç.v), icraçı - k.e.i. İ.T.Qasımlı, icra müddəti 2012-2016-ci illər

İş: "Xəridətül-əl-Qəsr və Cəridətül-əl-əsr" əsərinin IV cildinin tərcüməsi və şərhi (12 ç.v), icraçı - k.e.i. P.E.Ağayev, icra müddəti 2014-2016-ci illər

Mərhələ: Material toplanması

Mövzu: Yaxın və Orta Şərq ölkələrində dini-fəlsəfi fikrin inkişafı, etnik və dini münasibətlər

İş: Müasir İran fəlsəfəsində ənənəvi dini və dini-fəlsəfi cərəyanların yeri (7,5 ç.v), icraçı - b.e.i., fəls.ü.f.d. B.S.Bağırov, icra müddəti 2014-2016-ci illər

Mərhələ: Material toplanması

İş: Şiə fikrində rasionallaşma (yaranması və təşəkkülü) (7,5 ç.v), icraçı - b.e.i., fəls.ü.f.d. A.N.Həbibov, icra müddəti 2013-2015-ci illər

Mərhələ: Toplanmış materialların təhlili

İş: "İslam dirçəlişi" ideoloji konsepsiyasının təkamülü (6 ç.v), icraçı - b.e.i., fəls.ü.f.d. L.F. Məlikova, icra müddəti 2014-2016-ci illər

İş: İslam fikrində təsəvvüf (7,5 ç.v), icraçı - b.e.i., f.ü.f.d. Q.B.Səfərov, icra müddəti 2014-2016-ci illər

Mərhələ: Material toplanması

İş: İslamda iqtidar və müxalifət məsələsi (7,5 ç.v), icraçı - b.e.i., f.ü.f.d. İ.Ə.Əlimuradov, icra müddəti 2014-2016-ci illər

Mərhələ: Material toplanması

İş: Müasir islamşünaslıqda "həqiqi islam" anlayışı (4,5 ç.v), icraçı - D.Ş.Cəfərli, icra müddəti 2014-2016-ci illər

Mərhələ: Material toplanması

İş: Müasir dünyada islama qarşı çıxışlar və onların təzahür formaları (4 ç.v), icraçı - Ə.S.Abbasov, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: İslam və orta əsr Şərq fəlsəfəsi (4,5 ç.v), icraçı - baş.e.i., fəl.ü.e.d. Ə.H.Əliyev, icra müddəti 2014-2016-ci illər

Mərhələ: Material toplanması

İş: Müstəqillik illərində Azərbaycanda dövlət-din münasibətləri (1991-2012) (5 ç.v), icraçı b.e.i., ilah.ü.f.d. C.V.Məmmədov, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

Mövzu: Şərq-Qərb dialoqunun müasir durumu və inkişaf perspektivləri

İş: Beynəlxalq terrorizm və onunla mübarizədə Şərq-Qərb əməkdaşlığının əhəmiyyəti (6 ç.v), icraçı - b.e.i., f.ü.f.d. M.A.Babaşlı, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Beynəlxalq terrorizmin mahiyyəti, səbəb və nəticələri, 3 ç.v.

İş: Şərq-Qərb münasibətləri kontekstində Misirdə siyasi islamın yaranması və inkişafı (3 ç.v), icraçı - k.e.i. S.S.İbrahimova, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Material toplanması

İş: Fransada islam (II dünya müharibəsindən sonra) (3 ç.v), icraçı - k.e.i., N.Ə.Əlizadə, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Əlcəzair problemi və siyasəti müasir Fransada İslam amilinin başlanğıc nöqtəsi kimi (40-60-cı illər) (1,5 ç.v.)

İş: Aida İmanquliyevanın əsərlərində müasir ərəb novellasının banisi Mixail Nuaymənin novellistikasının tədqiqi (3 ç.v), icraçı - e.i. X.A.Əliyeva, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Prof.A. İmanquliyeva tərəfindən "Qələmlər birliyi"nin tədqiq edilməsi

İş: Ərəb Şərqinin siyasi həyatı Nizar Qəbbaninin yaradıcılığında (3 ç.v.), icraçı - e.i. K.M.Şərifov, icra müddəti 2014-2015-ci illər

İş: Türkiyə-Avropa Birliyi arasında iqtisadi münasibətlərə aid elmi ədəbiyyat və sənədlərin biblioqrafiyası (3 ç.v), icraçı - k.e.i., E.A.Səmədov, icra müddəti 2014-2015-ci illər

Mərhələ: Türkiyə-Avropa Birliyi arasında iqtisadi münasibətlərə aid elmi ədəbiyyat və sənədlərin biblioqrafiyası (1,5 ç.v.)

İş: Azərbaycan şərqşünaslığı: tarixi və inkişaf istiqamətləri (16 ç.v.), icraçılar - aparıcı.e.i., f.ü.f.d. C.Ə.Sadıqova, b.e.i., f.ü.f.d. V.İ.Məmmədov, icra müddəti 2014-2016-ci illər

Mərhələ: Material toplanması

2014-cü ilin mühüm nəticələri:

Mövzu: Türkiyənin tarixi, iqtisadiyyatı, ictimai-siyasi vəziyyəti və Azərbaycanla əlaqələri

İş. "Osmanlı sənədlərində Qarabağ" adlı sənədlər toplusunun çapa hazırlanması (5 ç, v), icraçı - e.i., tü.f.d. - Z.Q.Vəliyeva

İş. 1727-ci il Osmanlı müfəssəl dəftərinə görə Urmiya və Xalxal livaları (1,5 ç.v.), icraçı -e.i. Y.B.Nəsirova.

Mövzu: Cənubi Azərbaycanın tarixi, iqtisadiyyatı və ictimai-siyasi vəziyyəti

İş. İran İslam İnqilabı ərəfəsində Cənubi Azərbaycanda siyasi-iqtisadi və mədəni durum, icraçı - şöbə müdiri, i.ü.f.d - Ə.R.Bije, 150 səh.

İş. "Seyid Cəfər Pişəvəri. Zindan xatirələri". (Tərtib və fars dilindən tərcümə edən Ə.R.Bije) Bakı, "Bakı çap evi", 2014, 232 s.

İş. "Güney Azərbaycan: tarix və müasirlik". (Məqalələr toplusu) (Elmi redaktorlar: Ə.R.Bije, S.Z.Bayramzadə) Bakı,"Bakı çap evi", 2014, 216 s.

Mövzu: Orta əsrlər sufi ədəbiyyatının tədqiqi, tərcüməsi və nəsri

İş. M.Kazımov. Nəcməddin Razinin "Mirsadül-İbad" əsəri (tərcümə və şərhlər), "Nafta Press", Bakı-2014, 469 səh.

İş. A.Əlizadə. Fəridəddin Əttann "Təzkirətül-övliyə əsəri farsdilli sufi ədəbiyyatının mənbəyi kimi", Bakı-2014, (14,25 ç.v)

Mövzu: Şərq-Qərb dialoqunun müasir durumu və inkişaf prespektivləri

İş. Qloballaşma prosesləri və Şərq, (6 ç.v), icraçı - şöbə müdiri, i.e.d., D.Ə.Vəliyev.

2014-cü ildə tətbiq olunmuş elmi nəticələr

AMEA ak. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda aparılmış elmi tədqiqatların nəticələri ali təhsil müəssisələrinin (BDU, Xəzər, Qafqaz, İslam, Asiya Universitetləri və s.) şərqşünaslıq, tarix, ölkəşünaslıq və ilahiyyat fakültələrində tədris olunmuş, müxtəlif dissertasiya işlərinin və elmi araşdırmaların hazırlanmasında istifadə olunmuşdur.

Elmi-tədqiqat proqramlarının müsabiqəsində iştirak

B.e.i, t.ü.f.d. Ələddin Məlikov AMEA Rəyasət Heyətinin qrant müsabiqəsində iştirak edərək 2-ci kateqoriya üzrə qalib seçilmiş və 1500 manat məbləğində pulla mükafatlandırılmışdır.

İnstitutun 8 nəfər əməkdaşı AMEA-da keçirilən "Elmi Tədqiqat Proqramlarının Müsabiqəsi"nə "İran İslam Respublikasının kitabxana və muzeylərində saxlanılan xalqımıza məxsus nadir əlyazmaların, tarixi xəritə və fotoların, məktub və səfərnamələrin tədqiqi və Azərbaycan gətirilməsi" layihəsini təqdim etmişlər.

Fundamental elmlə təhsilin qarşiliqli əlaqəsi

2014-cü ildə AMEA ak. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda BDU-nun şərqşünaslıq fakültəsinin 40-dan çox tələbəsi hər gün 6 saat olmaqla 2 ay ərzində kurs keçmişlər. Onlara İnstitutun əməkdaşları tərəfindən Şərqşünaslıq elminin müxtəlif sahələrinə aid mühazirələr oxunmuşdur. Bundan əlavə İnstitutda mütəmadi olaraq BDU-nun müəllim heyəti staj keçir. Hal-hazırda BDU-nun şərqşünaslıq fakültəsinin İran filologiyası kafedrasının 3 müəllimi İnstitutda 2 aylıq staj keçir. Bütün bunları nəzərə alaraq, İnstitutun rəhbərliyi BDU-nun rektoru akademik Abel Məhərrəmovla Şərqşünaslıq İnstitutunda BDU-nun baza kafedrasının yaradılması haqqında danışıqlar aparmış, ilkin razılaşma əldə olunmuşdur. Hazırda tərəflər arasında bağlanılacaq müqavilə üzərində iş gedir.

İNSTİTUTUN ÇAP İŞLƏRİ

Hesabat ilində İnstitutda **18 kitab**, **monoqrafiya və məqalələr toplusu** çap olunmuşdur.

1. M.Kazımov. Nəcməddin Razinin "Mirsadül-İbad" əsəri (tərcümə və şərhlər), «Nafta Press», Bakı, 2014, 468 s.

Nəcməddin Razinin "Mirsadül-ibad" əsəri ən məşhur və ciddi sufi əsərlərindən biridir. 1223-cü ildə yazılmış bu əsər sufi mühitinin savadlı dairələrində tez bir zamanda məşhurluq qazandı. Beş fəsil və qırx hissədən ibarət olan əsər sufizmin nəzəri və praktik məsələlərinə həsr olunmuşdur. Əsərdə müəllifin dünyanın yaranışı haqqında baxışları verilir, insanın dünyada yeri və təyinatı müəyyənləşdirilir.

Kitab sufizm və islamla, orta əsr fəlsəfəsi, ədəbiyyatı və mədəniyyəti ilə məşğul olan mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

2. A.Əlizadə. "Fəridəddin Əttarın "Təzkirətül-övliya" əsəri farsdilli sufi ədəbiyyatının mənbəyi kimi" , Bakı-2014, 228 s.

Kitab dörd fəsildən ibarətdir. Birinci fəsildə erkən farsdilli sufi nəsrinin formalaşması haqqında məlumat verilmişdir. Burada sufi nəsrinin yaranması, «Təzkirətül-övliya»nın mənbələri və Əttar yaradıcılığında «Təzkirətül-övliya»nın yeri müəyyənləşdirilmişdir. İkinci fəsildə «Təzkirətül-övliya» sufi ədəbiyyatı kontekstində araşdırılır. Bu fəsildə agioqrafik əsərlərin janr xüsusiyyətləri, «Təzkirətül-övliya»nın bəzi konseptual məqamları, əsərin personajlar sistemi və janr xüsusiyyətləri tədqiq edilmişdir. Əsərin bədii xüsusiyyətləri adlanan üçüncü fəsildə bədii ifadə vasitələrinin işlədilməsi, bədii zaman və məkan məsələləri araşdırılmışdır. Dördüncü fəsildə isə «Təzkirətül-övliya»nın sonrakı sufi nəsrinin inkişafına təsiri araşdırılmışdır.

3. İ.Qasımlı. Əlaəddin Çələbinin "Taci-Ədəb" əsəri (transliterasiya və şərhlər), Bakı. 2014, 292 s.

Əlaəddin Çələbi XV əsr türk ədəbiyyatının tanınmış si-

malarındandır. Onun "Taci-Ədəb" əsəri AMEA M.Fizuli adına Əlyazmalar İnstitutunda saxlanılan üç əlyazma nüsxələri əsasında çapa hazırlanmışdır. Kitab 27 bölümdən ibarətdir. Hər bölüm ayrıca bir mövzunu əhatə edir.

4. F.Məcidova. "Əmin ər-Reyhani yaradıcılığında Ərəb Şərqi", "Zərdabi" nəşriyyatı, Bakı, 2014, 192 s.

Monoqrafiya ərəb məhcər ədəbiyyatının korifeylərindən biri olan, Amerikada böyüyüb təhsil almış, lakin Şərq ruhuna daim sadiq qalaraq bütün yaradıcılığı boyu Şərq dəyərlərini tərənnüm etmiş Əmin ibn Faris ər-Reyhaninin (1876-1940) Ərəb Şərqi ilə bağlı ədəbi düşüncələrinin tədqiqinə həsr olunmuşdur. Əsərdə ədibin ərəb ölkələrinə səyahəti zamanı qələmə aldığı poeziya nümunələri, esse, hekayə və oçerkləri, habelə publisist məqalələri şərqşünaslıq baxımından araşdırılıb tədqiq olunmuşdur. Əsər "Şərq-Qərb ədəbi əlaqələri və təsvir dairələrinin öyrənilməsi" kontekstində mühüm əhəmiyyət daşıyır.

5. "Güney və Quzey Azərbaycan: ensiklopedik təqvim". (Tərtib edənlər: Ə.R.Bije, S.Bayramzadə) "Apastroff" nəşriyyatı, Bakı, 2014, 340 s.

Ensiklopedik təqvim Azərbaycan tarixinin qədim dövründən başlayıb günümüzə qədər tarixi olaylar, siyasi, ədəbi və mədəniyyət xadimləri barədə yığcam məlumatları oxuculara təqdim edir. Təqvim geniş oxucu kütləsi, ali və orta məktəb tələbələri, müəllimlər, informasiya vasitələrində çalışanlar üçün hazırlanmışdır.

6. "Seyid Cəfər Pişəvəri. Zindan xatirələri". Tərtib edən Ə.R.Bije. Bakı, "Bakı çap evi", 2014 - 232 səh.

Cənubi Azərbaycanın görkəmli siyasi xadimi Seyid Cəfər Pişəvəri 1930-1941-ci illərdə Rza şah zindanının siyasi məhbuslarından olmuşdur. O, "Qəsr-Qacar" zindanında məhbus həyatı sürərkən zindan həyatının ağlagəlməz faciələrinin şahidi kimi qeydlər aparmış, sonra onları "Zindan xatirələri" kimi farsca çap etdirmişdir. Adı çəkilən kitab dilimizə tərcümə edilmiş və ön sözlə birlikdə çap olunmuşdur.

7. Ə.R.Bije. "Güney Azərbaycan: tarix və müasirlik", Bakı, "Zərdabi" nəşriyyatı, 2014, 216 s.

Topluda Cənubi Azərbaycanın sosial-siyasi, iqtisadi həyatına və mədəniyyətinə aid 14 müəllifin məqaləsi yer almışdır. Topludakı məqalələrdə 1918-ci il soyqırımı, Urmiya gölünün indiki durumu, İran türkləri, farslaşdırılmış türk toponimləri, Türkmənçay müqaviləsində təhrif edilmiş coğrafi yer adları, İranda millətçilik, Azərbaycan məsələsi və s. mövzular əks olunmuşdur.

8. Əbdülhəmid Əbu Süleyman. İslama görə beynəlxalq münasibətlərin nəzəri əsasları: müsəlman fikri və metodologiyasının yeni istiqamətləri. (Ərəb dilindən tərcümə edən - E.Məmmədov) Bakı: "CBS - Polygraphic Production", 2014, 299 s.

Kitabda beynəlxalq münasibətlərə dair islam nöqteyi-nəzəri təqdim olunur, orta əsr islam fikrinin indiki dövrdə fəal və səmərəli rol oynaya bilməməyinin gizli səbəblərinə toxunulur. Bununla yanaşı, belə bir suala cavab tapmağa cəhd göstərilir ki, beynəlxalq münasibətlər sahəsində, sülh, əmin-amanlıq, əməkdaşlıq kimi aktual problemlərə baxışda Qərb fikrinin müvəffəqiyyətsizliyə uğramasından irəli gələn çatışmazlıqları aradan qaldırmada islam fikri nə üçün yeni alternativlər təqdim edə bilməyib. Kitabda islama görə yeni beynəlxalq münasibətlər modelləri müəyyənləşdirilmişdir.

9. Salim əl-Bəhnəsavi. Dialoq və fikir ayrılığı ədəb-ərkanı.(Ərəb dilindən tərcümə edən - E.Məmmədov) Bakı: "CBS - Polygraphic Production", 2014, 178 s.

Kitabda dialoq və fikir ayrılığı probleminin metodoloji həllinə cəhd göstərilmişdir. Müəllif müsəlman dünyasında fikir plüralizminin doğurduğu müsbət nəticələr, çoxfikirliliyin tərəqqiyə rəvac verməsi, həyatın dəyişkən təbiəti ilə səsləşməsi, sosial-mədəni, siyasi-iqtisadi, həm də məişət sahələrində yüngülləşdirici faktor olması məsələlərinə toxunmuşdur. İslam coğrafiyasında "kafirlikdə, bidətdə, fasihlikdə günahlandırma" problemindən çıxış yolu göstərilmiş, islamın dialoq üslubu (qeyri-müsəlmanlarla), fikir plüralizminin səbəbləri və digər mövzular işlənmişdir. Kitab tarixi-müqayisəli metodologiya əsasında yazılmışdır.

10. Əbdülhəmid Əbu Süleyman. Əqidə və hüquqi baxımdan islamda dönüklüyün cəzası. Ərəb dilindən tərcümə edən - E.Məmmədov, Bakı: "CBS - Polygraphic Production", 2014, 55 s.

Kitabda islamın etiqad azadlığına verdiyi əhəmiyyətdən, fərdin şəxsi seçiminə ehtiramından danışılır. Müəllif etiqad azadlığı fonunda dönüklərin cəzalandırılması faktının doğurduğu bir sıra ziddiyyətlərdən söz açır, problemə müxtəlif aspektlərdə toxunur.

11. Əbdülhəlim Əbu Şəqqə. Peyğəmbər dövründə qadın azadlığı. (Ərəb dilindən tərcümə edən - E.Məmmədov), Bakı: "CBS - Polygraphic Production", 2014, 511 s. Misirli müəllif Əbdülhəlim əbu Şəqqənin (1924-1995) qələmə aldığı bu kitabda Peyğəmbərin yaşadığı dövrdə qadınların hüquq və vəzifələrindən bəhs edilir.

Kitabdakı müddəalar mötəbər hədislərlə əsaslandırılır. Kitabın əsas məzmunu həmin dövrdə qadınların sosial fəaliyyətin əsas fiqurlarından olduqlarını təsdiqləyir. Onlar yeni yaranmış müsəlman icması və cəmiyyətinin işində yaxından iştirak etmiş, qurub-yaratma, təlim-təhsil, tərbiyə işinə töhfələr vermişlər.

12. Əbdülhəmid Əbu Süleyman. Quranda evlilik münasibətlərinin həlli. Ərəb dilindən tərcümə edən - E.Məmmədov, Bakı: "CBS - Polygraphic Production", 2014, 39 s.

Kitabda ailədaxili münaqişələrə Quranın baxışı göstərilmiş, qadın-kişi münasibətlərinin, qadına islamda verilmiş əhəmiyyətin psixoloji-sosial tərəflərinə toxunulmuşdur.

13. "Azərbaycan şərqşünaslığı" elmi-kütləvi jurnalı. N 1 (11) 2014

Jurnalın bu sayında "Din və ictimai fikir" bölməsində Türkiyə ictimai fikrində qadın məsələsinə, Quran qiraətlərinin yaranması tarixinə dair, eləcə də "İslam

və elm” mövzusunda, “Ədəbiyyat” bölməsində Füzuli və Kaninin “Leyli və Məcnun»larının müqayisəsinə həsr olunmuş, “Dilçilik” bölməsində XX əsrin əvvəllərində Azərbaycan mətbuatında ortaq ədəbi türk dili məsələsi ilə bağlı, “Mədəniyyət” bölməsində Məhəmməd Naxçıvaninin yadigarı olan Təbriz milli kitabxanası haqqında məqalələr dərc olunub. Jurnalın müxtəlif rubrikalarında milli bayramımız Novruza, son dövr Misir hadisələrinə, tanınmış Azərbaycan şərqşünaslarına aid məqalələr, Şərqşünaslıq İnstitutunun 2013-cü il üçün hesabatı, dərc olunan yeni kitablar barədə rəylər və məlumatlar, keçirilən tədbirlər, görüşlər, konfranslar haqqında məlumatlar və s. yazılar təqdim edilir.

14. AMEA akad. Z. Bünyadov adına Şərqşünaslıq İnstitutunun “Elmi araşdırmalar”ı (IX buraxılış), “Zərdabi” nəşriyyat Bakı, 2014, 200 s.

Topluda altı rubrika (“Ədəbiyyatşünaslıq”, “Dilçilik”, “Tarix”, “Fəlsəfə”, “İlahiyyat”, “İqtisadiyyat”) üzrə elmi məqalələr yer alır. Topluda Azərbaycan alimləri ilə yanaşı Türkiyə alimlərinin də məqalələri çap edilmişdir. Məqalə seçimində elmi yeniliyi olan tədqiqat işlərinə üstünlük verilmişdir.

15. “Şərq filologiyası məsələləri” toplusu (VIII buraxılış), “Zərdabi” nəşriyyatı, Bakı, 2014, 420 s.

Şərq filologiyası məsələləri toplusu müasir şərqşünas alimlərin və tədqiqatçıların bu sahədə olan araşdırmalarını təqdim edir. Topluda ərəb, fars, türk və çin filologiyasına dair məqalələr toplanıb.

16. Süleyman Dərgahın “Səfərnamə” əsəri (fars dilindən tərcümə edən Ş.Əhmədov). “Zərdabi” nəşriyyatı, Bakı, 2014, 136 s.

Əsər əlyazmadır. Onun əsli İran Milli Şura Məclisinin Kitabxanasında 2311 saylı şifrə ilə saxlanılır. Süleyman xanın “Səfərnamə”si 1881-ci ildə qələmə alınmışdır. Adından da göründüyü kimi, bu əsər səfərnamə janrında yazılmışdır. Müəllif dövrün ziyalılarından biri və həm də qələm əhli olmuşdur. O, Təbrizdə açılan mədrəsəyə müəllim təyin edilmiş və bunun üçün Tehrandan Təbrizə getmiş, bir müddət orada yaşamış, mədrəsədə dərs demiş və sonra yenidən Tehrana geri qayıtmışdır.

Yazıçı həyatının bu dövrünü və başına gələnləri, gördüklərini və təəssüratlarını əsərində təsvir etmişdir. Əsər o dövrün həyatı, məişəti haqqında maraqlı məlumatlar verir və mükəmməl təsəvvür yaradır.

17. R.İ. Abbasov. “Çin dili”. Bakı, “Neostar”, 110 s.

Bu kitab regionşünaslıq (çinşünaslıq) ixtisası üzrə təhsil alan birinci kurs tələbələrinin ilkin hazırlığı üçün nəzərdə tutulmuşdur. 20 dərsdən ibarət olan bu dərs vəsaiti tələbələr üçün çin dilinin qrammatika və fonetikasının, xüsusilə də ritm və düzgün tələffüzün əsaslarının ardıcıllığı gözlənilməklə izah edir. Dərs vəsaitində əsas diqqət heroqliflərin yazılış qaydasına yönəlib. Kitab müasir çin leksikonuna əsaslanan ünsiyyət üçün vacib olan müxtəlif məzmunlu dialoqlardan ibarətdir.

18. Məhəmməd Sadiq Naibi «Fars dilində min türk sözü». Fars dilindən tərcümə edən A. Həsənova. Bakı, 2014, 96 səh.

«Fars dilində min türk sözü» adlı bu əsər qonşu xalqın ədəbiyyatında rast gəlinən türk sözləri haqqında geniş bir tədqiqat işidir. Bu tədqiqatda fars dilinə daxil olmuş türk mənşəli min sözün etimologiyası verilmiş, qədim türk mənbələri əsasında onların mənaları aşkarlanmışdır. Türk dilində sözlərin çoxu fars dilindən fərqli olaraq fel kökünə malikdir. Fellər bu dildə qrammatik qayda-qanuna tabedir. Məhz bu meyara əsasən sözün türk mənşəli olmasını sübut etmək olar.

Hesabat ilində institut əməkdaşlarının 200-dən artıq məqalə, məruzə və tezisi çap olunmuşdur. Bunlardan aşağıdakı 20 elmi məqalə xaricdə (Norveç, Böyük Britaniya, Qazaxıstan, Hollandiya, Almaniya, Rusiya, Türkiyə, Özbəkistan, İran, Türkmənistan və s.) nəşr edilib:

1. T.ü.f.d. F.Əsədov. What do Arab sources say about Scandinavians in the Caspian before mid-9th century CE? (Ərəb mənbələri Skandinaviyalıların Xəzər dənizində gəmiçiliyi haqda nə xəbər verir?), Tor Heyerdal’s search for Odin. Oslo 2014, 171-181s.

2. T.ü.f.d. F.Əsədov. Religion, Nation and Democracy in the South Caucasus (Routledge Contemporary Russia and Eastern Europe Series. Routledge (Cənubi Qafqazda Din, Millət və Demokratiya) London, 2014,115-120 s.

3. İ.ü.e.d. D.Ə.Vəliyev: Küresel ortamda yeni bölgesel güc.(Hemmüellif Sulduz Məhərrəmov AMEA Şarkiyat Enstitüsünün doktorantı). Uluslararası ekonomi, finans və enerji Konqresi. 12-14 Haziran 2014. Almaatı/Kazahstan. Dünya Enerji Piyasaları və Orta Asya və Kafkas Ülkeleri

4. T.ü.e.d. S.Rüstəmova-Tohidi. “Kollektiv yaddaşın yaradılması. Sovet Azərbaycanında arxiv siyasəti” (Turac Atabəki ilə birlikdə) - “The Making of Collective Memory. The Politics of Archive in Soviet Azerbaijan”. İn book: A usable collection. Eassy in Honour of Jaap Kloosterman on Collecting Social History. - Amsterdam University Press, 2014, - 473p.-pp.320-332.

5. T.ü.e.d. S.Rüstəmova-Tohidi. “1918-ci ilin faciəli hadisələri…Bunu unutmaq olmaz!” - Die trangischen Ereignisse des Jahres 1918… Dies kann man nicht vergessen! - Irs -Erbe.Entdecke Aserbaidschan.- Frühjahr 2014, №1 (16),pp.58-63;

6. F.ü.f.d. S.M.Şıxıyeva. Klasik Türk Edebiyatında Müzikal Terimler (Nesimi Şiiri Temelinde) \\ Musikal Terms in Classical Turkic Literature (Based on poetry of Nessimi) \\ Музыкальные термины в классической литературе (на основе поэзии Несими), Uluslararası Türk Dünyası Müzik Kültürü Konfransı (Bildiri Özetleri), 21-23 April \ Nisan 2014, Türkistan - Kazakhistan, s. 24-29;

7. F.ü.f.d. S.M.Şıxıyeva. Мухаммас-алифнаме Мах-

тумкули: границы канонической рамки \\ Истоки и эволюция литератур и музыки тюркских народов (материалы международной конференции 23-24 сентября 2014 года, город Казань), Казань , 2014, с. 241-244;

8. F.ü.f.d. S.M.Şıxıyeva. Tasavvuf Şiirine Kültürel Hayatın Yansımaları: Nesimi Örneği, I. Uluslararası Türk Kültürü Kongresi. Türk Tasavvuf Kültürü ve Gelenekleri, 13-14 Ekim 2014, Bildiri Kitabı, İstanbul, 2014, s. 1257-1279;

9. F.ü.f.d. S.M.Şıxıyeva. "Seyyid Yahya Bakuvi'nin "elif-name"si ve "seyr fillah" kavramı, "Kafkasya'dan Anadolu'ya kültür köprülerimiz" Uluslararası Seyyid Yahya Şirvani ve Halvetilik Sempozyumu, Eskişehir, 21-23 Kasım - 2013 Bakü, 24-25 Kasım 2013, Eskişehir, 2014, s. 341-368;

10. F.ü.f.d. S.M.Şıxıyeva. Об относительных прототипах в классической поэзии (на основе назире Навои на газели Несими) - Озбек адабийотсщуносливида талгин ва тащлил муаммолари, ОзМУ, 2014 йил 24-25 октйабр, Тошкент, с. 104-110)

11. F.ü.f.d. A.Əlizadə. "Mötəbər irfani mənbələrdə Əbu Səid Əbülxeyr". Böyük sufi Əbu Səid Əbülxüyrə həsr olunmuş konfrans materialları. Fars dilində, Məşhəd, 2014, 6-16 s.

12. F.ü.f.d. A.Əlizadə. Meybodinin "Kəşfül-əsrar" əsərində teatr ünsürləri, Fars ədəbiyyatında teatr ünsürlərinin araşdırılmasının ilk beynəlxalq konfransı, Azad İslam Universitetinin Buşəhr filialı - 2014, 77-87 s.

13. F.ü.f.d. A.Əlizadə. Sülh və dostluq carçısı Mövləvi" beynəlxalq konfransına "Mövləvinin aşiqanə" qəzəlləri adlı məqalə, Urmiya 2014, 529-539 s.

14. F.ü.f.d. A.Əlizadə. "Təzkirətül-övliya" əsərinin türk ədəbiyyatına təsiri, Beynəlxalq Seyid Yəhya Şirvani və Xəlvətilik simpoziumu, Məşhəd, 2014, 113-123 s.

15. T.ü.f.d. C.Ə.Qasımov. Türkmənistanın İstanbul konsulluğu və İstanbul Universiteti, "Məhdimqulunun əsərlərində dövlət adamlarına verilən öyüdlər" adlı məqalə, aprel, 2014, s.

16. T.ü.f.d. C.Ə.Qasımov. Kocaeli Bələdiyyəsi və Sakarya Universiteti, tezis, may, 2014, s.

17. T.ü.f.d. S.Ə.Talıblı. Professor Doktor Zehtabinin Eserlerinde Azerbaycan ve Türk meselelerine ilmi Bir Bakış// Deyerlerimize Avrupadan Bakış. Aylıq Kültür Dergisi, Yıl1, Sayı7, Haziran 2014, 27-29.

18. Ş.Əhmədov. "Влияние классического и фольклорного наследия на творчество М.М. Гудси" - «Актуальные проблемы гуманитарных и естественных наук», Москва, Н 06 (65), ч.2, 2014, стр.13-17)

19. H.Ə.Səfəri. «Роль Исмаил аги Симитго в геноциде, осуществленном армянами и айсорами в Урмии и Салмасе в 1918 году». ("Науковий висник Тилея" jurnalında Випуск 85 -№ 6, Киев, 2014, 141-145 с.)

20. Ü.Səmədova: Uluslararası Malazgirtden Osmanlıya Selçuklu Sempozyumu. Azerbaycanda Selçuklularla ilgili yapılan araşdırmalar. 22-23 may 2014. Kastamonu. 120-132 s.

İNSTİTUTUN BEYNƏLXALQ ƏLAQƏLƏRİ

İnstitutun beynəlxalq əlaqələri xarici ölkələrə elmi ezamiyyətlər, beynəlxalq elmi konfranslarda iştirak, elmi jurnallarda məqalələrin nəşr etdirilməsi, xarici ölkələrin elm, mədəniyyət adamları, dövlət nümayəndələri ilə görüşlərin keçirilməsi və s. formada həyata keçirilmişdir.

Hesabat ili ərzində İnstitut əməkdaşları 40 dəfə xaricdə və 70 dəfə Azərbaycanda keçirilən cəmi 110 beynəlxalq elmi konfranslarda məruzə etmişlər. Bunlardan xarici ölkələrdə (Türkiyə, Rumıniya, İran, Böyük Britaniya, İsveçrə, Rusiya Federasiyası, Qazaxıstan, Gürcüstan, Misir və s.) keçirilən konfranslarda İnstitutun aşağıdakı əməkdaşları iştirak etmişlər:

1. Müxbir üzv, t.ü.e.d. Ş.Mustafayev: IRCİCA və Babeş-Bolyai Universitetinin birgə təşkil etdiyi "Qara dəniz hövzəsində müsəlman xalqlarının tarixi və mədəniyyəti" mövzusunda beynəlxalq konfrans, Rumıniya, 4-5 noyabr, 2014.

2. Müxbir üzv, t.ü.e.d Ş.Mustafayev: "İnternational conference on İran and Silk Road. Studies of the Silk Road in the İnternational İnstitute for Central Asian Studies" Tehran, Oktyabr, 2014

3. T.ü.f.d. F.M.Əsədov. International Conference on Religions in the Caucasus: Evidence of Khazar Judaism: what does it say about early history of world religions in the Caucasus, London, mart 2-4, 2014

4. T.ü.f.d. F.M.Əsədov. International conference on Iran and Silk Road: Khorasani province Jurjan in Trans-caspian trade in 9th century. Tehran, Oktyabr 22, 2014.

5. T.ü.f.d. F.M.Əsədov. Freiburg, International conference and book presentation on Religion, Nation and Democracy in the Caucasus. - Education and Nation in Transcaucasia countries, İsveçrə, noyabr 14, 2014

6. T.ü.e.d. S.Rüstəmova-Tohidi. "Birinci dünya savaşında ermənilər" beynəlxalq elmi simpoziumda - Birinci dünya müharibəsi illərində ermənilər tərəfindən İrəvan quberniyası, Zəngəzur və Qarabağın müsəlman əhalisinin soyqırımı. (Fövqəladə təhqiqat Komissiyasının sənədləri əsasında) elmi məruzə. Türkiyə, Van şəhəri, 24-25 aprel 2014.

7. T.ü.e.d. S.Rüstəmova-Tohidi. Moskvada Azərbaycanın Rusiyadakı Səfirliyində keçirilən "Fövqəladə təhqiqat Komissiyasının sənədləri" silsiləsindən olan kitabların təqdimatında "1918-ci il Şamaxı qırğınları" elmi məruzə. Moskva, 31 mart 2014.

8. T.ü.e.d. S.Rüstəmova-Tohidi. "Geriyə və gələcəyə baxış: İranın Qafqazda təsirinə dair" mövzusunda beynəlxalq elmi konfrans. "Azərbaycanda İranlı icması: tarixi keçmiş və icmanın formalaşmasında yeni mərhələ" mövzusunda elmi məruzə. Gürcüstan, Tbilisi, 1-2 oktyabr, 2014.

9. F.ü.f.d. S.M.Şıxıyeva. (Uluslararası Türk Dünyası Müzik Kültürü Konfransı // «An International Conference on the Music Culture of the Turkic World», 21-23 April \ Nisan 2014, Türkistan - Kazakhistan;

10. F.ü.f.d. S.M.Şıxıyeva. Məxtumqulu Firaqi və ümumbəşəri mədəni dəyərlər // "Magtymguly Pyragy we Umumadamzat Madeni Gymmatlyklary" // «Махтумкули Фараги и общечеловеческие культурные ценности», 14-16 may 2014, Aşgabat;

11. F.ü.f.d. S.M.Şıxıyeva. Истоки и эволюция литератур и музыки тюркских народов, 23-24 сентября 2014 года, Казань;

12. F.ü.f.d. S.M.Şıxıyeva. I Uluslararası Türk Kültürü Kongresi. Türk Tasavvuf Kültürü ve Gelenekleri, 13-14 Ekim 2014, İstanbul;

13. F.ü.f.d. S.M.Şıxıyeva. II Həmzə Nigari simpoziumu, 20-21 oktyabr 2014;

14. İ.ü.e.d. D.Ə.Vəliyev (Hemmüellif S.Məhərrəmov AMEA Şarkiyat Enstitüsünün doktorantı). "Küresel ortamda yeni bölgesel güc" Uluslararası ekonomi, finans və enerji Konqresi. Almaatı/Kazahstan. Dünya Enerji Piyasaları və Orta Asya və Kafkas Ülkeler, 12-14 Haziran 2014.

15. T.ü.f.d. C.Ə.Qasımov. Türkiyədə İstanbul Universiteti və Türkmənistan konsulluğu tərəfindən təşkul edilən "Məhtimqulu və Dünya mədəniyyəti" Beynəlxalq simpoziumunda "Məhtimqulu Fəraqinin dövlət adamlarına nəsihətləri" mövzusunda məruzə; 07-09 aprel 2014

16. T.ü.f.d. C.Ə.Qasımov. Kocaeli Universiteti tərəfindən keçirilən "Beynəlxalq Akçakoca" simpoziumunda "Hacı Zeynalabidin Şirvaninin Səyahətnaməsində Kocaeli və onu ətraf vilayətləri ilə bağlı məlumatlar" mövzusunda məruzə; 02-04 may 2014

17. T.ü.f.d. C.Ə.Qasımov. İstanbul Universiteti tərəfindən təşkil edilən "Lozan və dünya mətbuatı" simpoziumunda "Azərbaycan mətbuatında Lozan" mövzusunda məruzə; 08-10 may 2014

18. T.ü.f.d. C.Ə.Qasımov. Türkiyənin Osmanqazı Universiteti tərəfindən təşkil edilən "Bilgələr Zirvəsi" Beynəlxalq simpoziumunda "Yusif Has Hacibin dövlət adamlarına verdiyi nəsihətlər" mövzusunda məruzə; 24-26 may 2014

19. T.ü.f.d. C.Ə.Qasımov. Türkiyənin Hacettepe Universiteti tərəfindən təşkil edilən "Osmanlı Araşdırmaları" layihəsinin iştirakçısı olaraq seminarlarda iştirak; 28 may-15 iyun

20. T.ü.f.d. C.Ə.Qasımov. Türkiyənin Süleyman Demirel Universiteti tərəfindən təşkil edilən "Beynəlxalq Miryekefalon döyüşü" simpoziumunda "Miryekefalon döyüşü rus qaynaqlarında" adlı məruzə; 19-20 iyun 2014

21. T.ü.f.d. C.Ə.Qasımov. Türkiyənin Qafqaz Universiteti tərəfindən təşkil edilən "I Beynəlxalq Ani-Qars" simpoziumunda iştirak edərək " Nadir şah Əfşarın Qars yürüşləri" mövzusunda məruzə; 14-16 avqust 2014

22. T.ü.f.d. C.Ə.Qasımov. Şeyx Edebalı Universiteti tərəfindən təşkil edilən "Beynəlxalq Mervden-Söyüdə" simpoziumunda iştirak edərək "Azərbaycanda Səlcuqlu araşdırmaları" mövzusunda məruzə; 12-15 sentyabr 2014

23. T.ü.f.d. C.Ə.Qasımov. Türkiyənin Atatürk Universiteti tərəfindən təşkil edilən "Beynəlxalq I Dünya Müharibəsi və Şərq cəbhəsi" simpoziumunda iştirak edərək "Nargin adasında saxlanılan əsir türklər" mövzusunda məruzə; 24-28 Sentyabr 2014

24. T.ü.f.d. C.Ə.Qasımov. Türkiyənin Qafqaz Universiteti tərəfindən təşkil edilən "Beynəlxalq II Harakani" simpoziumunda iştirak; 16-18 Oktyabr 2014

25. F.ü.f.d. A.Əlizadə. Meybodinin "Kəşfül-əsrar" əsərində teatr ünsürləri, Fars ədəbiyyatında teatr ünsürlərinin araşdırılmasının ilk beynəlxalq konfransı, Azad İslam Universitetinin Buşəhr filialı - 2014

26. F.ü.f.d. A.Əlizadə. VII Beynəlxalq türk mədəniyyəti, sənətini qoruma konfransı. "Sinan Paşanın "Təzkirətül-övliya" əsəri mövzusunda məqalə ilə çıxış, Konya şəhəri. 15-17 may, 2014

27. F.ü.f.d. A.Əlizadə. "Təzkirətül-övliya" əsərinin türk ədəbiyyatına təsiri, Beynəlxalq Seyid Yəhya Şirvani və Xəlvətilik simpoziumu, 2014

28. F.ü.f.d. A.Əlizadə. XIX Fəridəddin Əttarın yaradıcılığında "Təzkirətül-övliya"nın yeri, Beynəlxalq fars dili və ədəbiyyatı konfransı. Məşhəd şəhəri, 2014.

29. F.ü.f.d. A.Əlizadə. II Beynəlxalq müqayisəli fars-ərəb ədəbiyyatı konfransı. "Təbəqatus-sufiyyə". Məşhəd Universiteti. 30 sentyabr - 2 oktyabr-2014 (İran)

30. F.ü.f.d. S.Gündoğdu."Türk Dünyasını aydınladanlar. - M.Akif Ersoy ve A.Tukay" - adlı Beynəlxalq simpoziumda "Tarihle Bugün ve Gelecek Arasında Mükemmel İlişki Kuran Büyük Mütefekkir - M.Akif Ersoy" adlı məruzə ilə çıxış, Kazan Federal Universiteti/Tatarıstan, may, 2014.

31. F.ü.f.d. S.Gündoğdu." "Üç ölkə üç düşünür" Beynəlxalq Elmi Konfrans. "Səbilür-rəsad məcmuəsi və H.Cavidin bir şeiri" adlı məruzə ilə çıxış, Burdur, 15-16 oktyabr, 2014.

32. F.ü.f.d. K.Ələkbərova. Türkiyə Gazi Universitetinin və Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu Atatürk Araşdırma Mərkəzi Başqanlığının bərabər təşkil etdiyi "Cümhuriyetin Kuruluşundan Günümüze Eğitimde Kademeler Arası Geçiş ve Yeni Modeller Uluslararası Konqresi"ndə "Azerbaycan Eğitim Sistemi, Kademeler, Kademeler Arası Geçiş" adlı məruzə ilə çıxış, Türkiyə, Antalya şəhəri, 16-18 yanvar 2014.

33. Fəl.ü.f.d. L.Məlikova. Böyük Britaniyanın paytaxtı London şəhərində "Azərbaycan Avropa» cəmiyyətinin və «Oksford Universiteti nəzdində Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi"nin birgə təşkil etdiyi "Qafqazda dinlər" mövzusunda keçirilən konfransda "Islam Azərbaycanda" adlı məruzə ilə çıxış. 3-4 mart, 2014.

34. T.ü.f.d. Z.Vəliyeva: Türkiyənin Biləcik şəhərində Biləcik Şeyx Edebali Universitetinin təşkil etdiyi "Tarixdə və günümüzdə Orta Şərqdə Türkmənlər" adlı beynəlxalq simpoziumda "Səfəvilər dövrində türkmənlər və yayıldıqları bölgələr" adlı məqalə ilə məruzə, 8-10 May 2014.

35. T.ü.f.d. Z.Vəliyeva. Xəzər Universitetinin təşkil etdiyi "21-ci əsr pəncərəsindən mədəniyyət və kimlik" adlı beynəlxalq simpoziumda "İki Millət tək dövlət: Səfəvi və Azərbaycan kimliyi" adlı məqalə ilə məruzə, 26-28 may, 2014.

36. Y.Nəsirova. Türkiyənin Biləcik şəhərində Biləcik Şeyx Edebali Universitetinin təşkil etdiyi "Tarixdə və günümüzdə Ortadoğuda Türkmənlər" adlı beynəlxalq simpoziumda "XVIII əsrin əvvəllərində Urmiyada Türkmənlər" adlı məqalə ilə məruzə, 8-10 may, 2014.

37. P.Əfəndiyeva. Misir Mədəniyyət Nazirliyi tərəfindən Qahirədə təşkil olunmuş beynəlxalq "Ənənəvi musiqi" festivalında iştrak, 18-27 aprel 2014

38. P.Əfəndiyeva. Misir Mədəniyyət Nazirliyi tərəfindən Qahirədə təşkil olunmuş beynəlxalq "Səma" festivalında iştirak, 19-27 sentyabr 2014.

39. A.Həbibov. Türkiyənin Erciyes Universiteti İlahiyat Fakültəsi tərəfindən təşkil olunan "Tefsir Tarihi Yazımı (Dünü, Bugünü, Yarmı) Simpoziuım"unda "Çağdaş Şii Tefsir Tarihi Yazıcılığı»" adlı məruzə ilə çıxış. 23-24 oktyabr 2014.

40. D.Cəfərli. Türkiyə Yayıncılar Birliyinin təşkilatçılığı ilə "33. Uluslararası İstanbul Kitap Fuarı" (33. International İstanbul Book Fair). "Zamanı və bu günü quran qadınlar" mövzusunda məruzə ilə çıxış. İstanbul, 8-16 noyabr 2014.

Cari ildə İnstitut əməkdaşlarından aşağıdakılar Azərbaycanda keçirilən beynəlxalq və respublika səviyyəli konfrans və simpoziumlarda (70 dəfə) iştirak etmişlər:

1. Müxbir üzv, f.ü.e.d. G.Baxşəliyeva. Modernləşmə prosesində Şərq-Qərb sivilizasiyalararası dialoqun rolu. Məruzə. IV Bakı Beynəlxalq Humanitar Forumu, 2-3 oktyabr 2014.

2. Müxbir üzv, t.ü.e.d. Ş.Mustafayev. Tarixi arxetiplər və kimlik arayışları. Məruzə. IV Bakı Beynəlxalq Humanitar Forumu, 2-3 oktyabr 2014.

3. F.ü.e.d. M.Kazımov. Müasir mərhələdə nizamişünaslıq problemləri. Məruzə. IV Bakı Beynəlxalq Humanitar Forumu. 2-3 oktyabr 2014.

4. F.ü.e.d. M.Kazımov. Camalinin "Töhfətül-əbrar" və Caminin "Töhfətül-əhrar"ı, Əbdürrəhman Camiyə həsr olunmuş beynəlxalq konfrans. Bakı, 25 sentyabr 2014.

5. İ.e.d. Ə.Bije. "1918-ci ildə Güney Azərbaycanda soyqırım". Məruzə. "Qondarma "Erməni soyqırımı" və tarixi həqiqətlər" mövzusunda elmi sessiya. Təşkilatçı-AMEA Şərqşünaslıq İnstitutu. 23 aprel 2014.

6. T.ü.f.d. F.Əsədov. "Xuanxedən Firata qədər: Çin Mədəniyyətinin Yaxın Şərqə yolu" mövzusunda açıq mühazirə. Azərbaycan Dillər Universiteti. 15 aprel 2014.

7. T.ü.f.d. F.Əsədov. "Xəzərlərin mənşəyi və onların Qafqaza gəlməsi". Seminarda məruzə. Xəzər Universiteti, 20 may 2014.

8. T.ü.e.d. S.Rüstəmova-Tohidi. Azərbaycan Prezidenti yanında İdarəçilik Akademiyası və Qarabağ Araşdırmaları Mərkəzinin Azərbaycan Ali məktəb tələbələri üçün birgə təşkil etdikləri "XX əsr Azərbaycan tarixinə dair Məruzələr" - layihəsində 1918-ci il hadisələrinə dair silsilə məruzələr. Fevral-may, sentyabr-oktyabr-dekabrb 2014.

9. T.ü.e.d. S.Rüstəmova-Tohidi. "Humanitar Araşdırmalar Mərkəzi"nin Azərbaycan ali məktəb tələbələri, müəllim və ictimai xadimlər üçün təşkil etdiyi "Azərbaycan tarixinin mühüm səhifələri" layihəsində 1918-ci il azərbaycanlıların soyqırımı tarixinə dair silsilə məruzələr. Mart, aprel 2014.

10. T.ü.e.d. S.Rüstəmova-Tohidi. Azərbaycan Xalq Cümhurriyyətinin 96-cı ildönümünə həsr edilmiş elmi konfransda "Azərbaycan Xalq Cümhurriyyətinin yaranması tarixindən" mövzusunda məruzə. Hacıqabul, 21 may 2014.

11. F.ü.f.d. M.Məhəmmədi. "Əbdürrəhman Cami və müasirlik", Bakı, 25 sentyabr 2014.

12. F.ü.f.d. A.Əlizadə. "Təzkirətül-övliya" əsərinin türk ədəbiyyatına təsiri. Məqalə. Beynəlxalq Seyid Yəhya Şirvani və Xəlvətilik simpoziumu, 2014.

13. C.ü.f.d. R.İ. Abbasov. Сопоставление китайского и тюркских языков в преподавании китайского языка азербайджанским студентам. "Xarici dillərin tədrisinin aktual problemləri" Beynəlxalq elmi-praktik konfrans, 2014

14. F.ü.f.d. C.Sadıqova. "Leksikoqrafiya sahəsində Fəxrəddin Hinduşah Naxçıvani və Məhəmməd bin Hinduşah Naxçıvaninin xidmətləri". Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş, AMEA Şərqşünaslıq İnstitutu tərəfindən təşkil edilmiş elmi sessiya. Məruzə, 11 iyun 2014.

15. F.ü.f.d. L.Əliyeva. "Heydər Əliyev və Azərbaycan dili". Məruzə. Bakı Slavyan Universitetinin təşkil etdiyi Ümummilli lider Heydər Əliyevin 91 illiyinə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda beynəlxalq elmi konfrans, may 2014.

16. Fəl.ü.f.d. E.Məmmədov. M.FAxundzadə adına Milli Kitabxanada "Aydınlığa doğru" Milli-mənəvi Dəyərlərin Qorunması İctimai Birliyinin «Ziyalı ünsiyyəti» layihəsi çərçivəsində «Dialoq: elm və dinin vəhdəti» mövzusunda təşkil etdiyi elmi seminarda «İslam və elm» mövzusunda çıxış, 1 fevral 2014

17. Fəl.ü.f.d. E.Məmmədov. «İdrak» İctimai Birliyində «İslamda ağıl: mahiyyəti və funksiyaları» «İslamda ailə problemlərinin həlli» mövzularında məruzə, 22-29 iyun 2014.

18. F.ü.f.d. Ə.Məmmədova. "Yaponiya Azərbaycanlıların gözü ilə". Respublika Elmi seminarı. Yaponiyanın ölkəmizdəki rəsmi nümayəndəliyinin dəstəyi ilə. 1 mart 2014.

19. F.ü.f.d. Ə.Məmmədova. I Milli Vikipediya Forumu. Vikipediya Virtual Ensiklopediyası Azərbaycanda (Problemlər və perspektivlər). Regional konfrans. Bakı,10 mart 2014.

20. F.ü.f.d. Ə.Məmmədova. "Görkəmli dövlət xadimi Heydər Əliyev: müstəqil dövlətçilik təlimi və müasirlik" mövzusunda konfrans. 01 may 2014.

21. F.ü.f.d. Ə.Məmmədova. "Azərbaycan və Fransa elm və mənəviyyat işığında" Respublika elmi seminarı. Fransanın ölkəmizdəki rəsmi nümayəndəliyi və "Elm çırağı" İB-nin birgə təşəbbüsü ilə. 3 may 2014.

22. F.ü.f.d. Ə.Məmmədova. Dünya gənc alimlərinin Beynəlxalq Bakı Forumu. Bakı, 29 may 2014.

23. F.ü.f.d. Ə.Məmmədova. İtaliyanın ölkəmizdəki rəsmi nümayəndəliyinin dəstəyi ilə "Azərbaycan və İtaliya elm və mədəniyyət müstəvisində" mövzusunda Respublika elmi seminarı. 7 iyun 2014.

24. T.ü.f.d. S.Talıblı. Turkish-İranian Relations during the Goverment of Ataturk// Baku World Forum of Young Scientises "New Challenges in the world sciense: joinf approaches of young seientises: Baku, Azerbaijan, konfrans, 26-31 may 2014

25. T.ü.f.d. S.Talıblı. AMEA gənc alimlərinin tərkibində Qubada soyqırım abidəsini ziyarət etdikdən sonra, Qubada Heydər Əliyev Mərkəzində keçirilən konfransda soyqırımla bağlı məruzə. 30 mart 2014.

26. H.Səfəri. Akademiyanın Gənc Alimlər heyəti tərkibində Quba şəhərində soyqırımla bağlı konfransda. Məruzə, 30 mart 2014

27. K.Şərifov. "XIX əsrin sonu XX əsrin əvvəllərində Suriyada ədəbiyyatın inkişafında "Nahda" hərəkatının rolu". Tezis "Elmin müasir nailiyyətləri" mövzusunda beynəlxalq elmi konfrans. Bakı, 2014.

28. L.Məmmədzadə. "Xətib Təbrizinin təsirləndiyi və təsir etdiyi alimlər". "Çağımızdan görünən orta əsrlər" mövzusunda Beynəlxalq Elmi konfrans. Bakı, 15-16 dekabr 2014.

İnstitutun aşağıdakı əməkdaş, doktorant və dissertantları Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların II beynəlxalq Elmi Konfransında iştirak etmişlər:

1. E. Novruzov. Teymurilər dövründə sufi firqələri

2. Ə.İsmayılova. Cürci Zeydan Cahiliyyə ərəblərinin " وأد " adəti haqqında

3. L.Bayramova. Ərəb və Azərbaycan ədəbiyyatında sirə janrının oxşar xüsusiyyətləri

4. L.Məmmədzadə. Zur-Rummə divanının şərhində Xətib Təbrizi tərəfindən gətirilən şəvahidlər

5. P.Ağayev. Əl-Məərri yaradıcılığının ərəb ədəbiyyatında yeri

6. G.Həmidli. Некоторые сведения о деятельности Хатиба Табризи в Багдадской Низамиййе

7. L.Əliyeva. Герои и жертвы Палестины

8. A.Əlizadə. Təzkirətül-övliya və Əlişir Nəvainin Nəsaimül-məhəbbət əsəri

9. A.Xasıyeva. Avesta mətnlərinin toplanması və tədqiqi

10. İ.Qasımlı. Əli ibn Hüseyn Əl-Amasi Əlaəddin Çələbinin dövrü və həyatı

İnstitutun əməkdaş, dissertant və doktorantlarından aşağıdakılar görkəmli şərqşünas alim, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın anadan olmasının 75 illiyinə həsr olunmuş "Şərq xalqları ədəbiyyatı: ənənə və müasirlik" mövzusunda beynəlxalq elmi konfransda (Bakı, 10-11 oktyabr 2014) məruzə ilə çıxış etmişlər:

1. Müxbir üzv, f.ü.e.d. G.Baxşəliyeva. Görkəmli şərqşünas-alim, professor Aida İmanquliyevanın şərqşünaslıq elminin inkişafında rolu.

2. F.ü.e.d. V.Cəfər. Professor Aida İmanquliyevanın tərcüməçilik fəaliyyəti haqqında.

3. F.ü.f.d. L. Bayramova Professor Aida İmanquliyeva "Ərəb filologiyası" şöbəsinin ilk rəhbəri kimi.

4. F.ü.f.d. S.Qasımlı. Sevgi Soysalın hekayələrində qadın problemi.

5. F.ü.f.d. Ə.Məmmədova. Əmin ər-Reyhani sosial, siyasi və dini məsələlər haqqında.

6. F.ü.f.d. X.Ələkbərova. 2011-ci il Misir inqilabının şüarları Alya Əl Asuani romanlarında.

7. F.ü.f.d. Ə.Qasımlı. Liviya ədəbiyyatında milli düşüncə konsepsiyası Rəcəb Müftəh Bu Dəbbussun yaradıcılığında.

8. F.ü.f.d. S.Səlimova. Circi Zeydanın tarixi roman janrının inkişafında rolu.

9. F.ü.f.d. R. Cümşüdlü. Füzulinin ərəbcə qəsidələrinin poetik leksikası.

10. F.ü.f.d. L.Əliyeva. Представители современной палестинской литературы.

11. F.ü.f.d. Z.Rəhimova. Məsturənin həyatı və şəxsiyyəti.

12. F.ü.f.d. Z.Şıxəlibəyli. Рол прессы и публицистики в становлении новой литературной критики в Египте.

13. F.ü.f.d. S.Gündoğdu. "Sıratı-müstəqim" və "səbilür-rəşad" məcmuələri və Hüseyn Cavidin bir şeiri.

14. F.ü.e.d. M.Kazımov. Поэтические отрывки в персоязычной суфийской прозе XI-XIII вв.

15. F.ü.f.d. F.Məcidova. Əmin Ər-Reyhani Cubran Xəlil Cubran haqqında.

16. F.ü.f.d. G.Verdiyeva. Термины в персидском языке и особенности их перевода (на материале русского и английского языков).

17. F.ü.f.d. S.Şıxıyeva. Hürufilikdə "tərcümə" anlayışı: tətbiq sahəsinin hüdudları.

18. F.ü.f.d. L.Orucova. Служебные слова и их раз-

новидности в арабском языке (на материале работ средневековых азербайджанских ученых).

19. F.ü.f.d. A.Əlizadə. Əbu Nəsr Sərrac və "Əl-lümə fit-təsəvvüf" əsəri.

20. F.ü.f.d. X.Kərimova. Əbu Əli əl-Muhassin ət-Tənuxinin "Maraqlı mühazirələr və yaddaqalan rəvayətlər" toplusu "ədəb" janrının parlaq nümunəsi kimi.

21. K.Şərifov. Müasir Suriya poeziyasında sərbəst şeir və modernizm.

22. İ.Qasımlı. Aşıq Paşanın "Qəribnamə" əsərinə ümumi bir baxış.

23. L.Hüseynova. Əbu Mənsur əs-Səalibinin "Yətimətud-dəhr" antologiyasında ərəbdilli Azərbaycan şairləri.

24. G.Həmidli. Поетическое наследие Хатиба Табризи в средневековых источниках .

25. L.Məmmədzadə. Zur-Rummənin "bə"iyyəsinə ümumi nəzər.

26. A.Xasiyeva. Firidun Moşirinin ictimai-siyasi şeirləri.

27. X.Əliyeva. Aida İmanquliyevanın tədqiqatları haqqında Rusiya alimlərinin rəyləri.

İnstitutun əməkdaş, doktorant və dissertantlarından aşağıdakılar AMEA müxbir üzvü Azadə Rüstəmovanın elmi yaradıcılığına həsr olunmuş "Əsrlərdən gələn kamillik" mövzusunda beynəlxalq elmi konfransda iştirak etmişlər:

1. F.ü.f.d. L.Əliyeva. Произведение Имад ад-Дина аль-Исфахани как образец классической литературы XII века

2. F.ü.f.d. A.Əlizadə. Xacə Abdullah Ənsari yaradıcılığında "Kəşfül-əsrar" əsəri

3. F.ü.f.d. Z.Rəhimova. Füzuli və Kaninin "Leyli və Məcnun"ları

4. P.Ağayev. "İsak Əfəndinin Bisətnamə məsnəvisi"

5. A.Xasıyeva. "Hafiz qəzəllərində mifologiya"

Hesabat ilində İnstitut əməkdaşları opponentlik etmiş, KİV-ə müsahibələr vermiş və KİV-də məqalələr çap etdirmiş, dissertasiya işlərinə və monoqrafiyalara rəylər vermişlər.

HESABAT İLİNDƏ İNSTİTUTDA XARİCİ ÖLKƏLƏRDƏN GƏLMİŞ ELM VƏ DÖVLƏT NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞLƏR KEÇİRİLMİŞDİR:

1. İran Səfirliyi Mədəniyyət Mərkəzinin yeni sədri ilə Şərqşünaslıq İnstitutunda görüş (18 mart 2014-cü il)

İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin yeni təyin olunmuş sədri İbrahim İbrahimi ölkəmizdə iranşünaslıq sahəsində aparılan tədqiqatlarla yaxından tanış olmaq və qarşılıqlı elmi əlaqələrin genişlənməsi perspektivlərini müzakirə etmək məqsədilə martın 18-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşdur. İnstitutun direktoru və direktor müavini ilə görüşən İbrahim İbrahimi rəhbərlik etdiyi təşkilatla Şərqşünaslıq İnstitutu arasındakı əlaqələrin genişlənməsi istiqamətində fikirlərini paylaşmışdır. Qonağa Şərqşünaslıq İnstitutunda iranşünaslıq sahəsində aparılan tədqiqatlar barədə məlumat verilmiş və iki təşkilat arasında əvvəlki elmi əlaqələrdən danışılmışdır. Görüşdə Azərbaycanda və İranda birgə elmi tədbirlərin təşkili, alimlərin təcrübə mübadiləsi, müştərək elmi nəşrlərin hazırlanması və s. istiqamətdə əməkdaşlığın aparılması perspektivləri müzakirə olunmuşdur.

Görüşdən sonra İbrahim İbrahimi Şərqşünaslıq İnstitutunun kitabxanası ilə tanış olmuşdur.

2.Türkiyəli tarixçi-alimin Şərqşünaslıq İnstitutunun elmi seminarında məruzəsi (4 iyun 2014-cü il)

İyunun 4-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda şərqşünaslığın aktual problemləri ilə əlaqədar «Orientalistika» elmi-nəzəri seminarının növbəti məşğələsi keçirilib. Seminarda Türkiyənin Biləcik Şeyx Edəbali Universitetinin dosenti, dr. Vədat Turğut "Orta əsrlər Şərq cəmiyyətində vəqflərin yeri və mahiyyəti" mövzusunda məruzə edib. Sonra məruzə ətrafında fikir mübadiləsi aparılıb, Vədat Turğut seminar iştirakçılarının suallarını cavablandırıb.

3.Səudiyyə Ərəbistanı Krallığının deputatları ilə Şərqşünaslıq İnstitutunda görüş (9 iyun 2014-cü il)

Səudiyyə Ərəbistanının Şura Məclisinin üzvləri, başda Məclisin Azərbaycanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Abdullah ən-Nasir olmaqla, iyunun 9-da AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşlar. Səudiyyəli parlamentariləri Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri Müsaid bin İbrahim əs-Süleym müşayiət etmişdir. Qonaqlar ilk olaraq Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva ilə görüşmüşlər. G.Baxşəliyeva İnstitutda ərəbşünaslıq və islamşünaslıq sahələrində aparılan tədqiqatlardan danışaraq qonaqları son zamanlar bu sahədə nəşr olunmuş ən mühüm əsərlərlə tanış etmişdir. Şərqşünaslıq İnstitutunda olmalarından məmnun olduqlarını dilə gətirən Abdullah ən-Nasir ölkələrimiz arasında mehriban dostluq münasibətləri fonunda elmi əlaqələrin də genişlənəcəyinə ümidini bildirmişdir.

Səudiyyəli deputatlar daha sonra Şərqşünaslıq İnstitutunun kollektivi ilə görüşdülər. Qonaqları İnstitutun kollektivinə təqdim edən G.Baxşəliyeva bu cür görüşlərin iki ölkə arasında elmi əlaqələrin genişlənməsinə təkan verəcəyini bildirmişdir. Abdullah ən-Nasir ölkələrimiz arasında münasibətlərdən söz açaraq, tarix boyu ərəblərin və azərbaycanlıların müxtəlif sahələrdə əlaqələrinə də toxunmuşdur. Görüşün sonunda Gövhər Baxşəliyeva səudiyyəli deputatların, Abdullah ən-Nasir ilə şərqşünas alimlərin suallarını cavablandırmışdır.

4.AMEA-nın Şərqşünaslıq İnstitutu ilə Niderlandın Beynəlxalq Sosial Tarix İnstitutu arasında sazişin imzalanması (11 iyun 2014-cü il)

İyunun 11-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə Niderlandın Amsterdam şəhərində yerləşən Beynəlxalq Sosial Tarix İnstitutu arasında əməkdaşlığa dair saziş imzalanmışdır. Şərqşünaslıq İnstitutunda keçirilən imzalanma mərasimində Niderlandın Beynəlxalq Sosial Tarix İnstitutunu həmin elmi müəssisənin Orta Şərq və Mərkəzi Asiya şöbəsinin rəhbəri, prof. dr. Turac Atabəki təmsil etmişdir. Tədbirdə çıxış edən Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva elmimizin inteqrasiyası istiqamətində görülən işlərdən söz açaraq, Niderlandın Beynəlxalq Sosial Tarix İnstitutu ilə bağlanan sazişin əhəmiyyətindən danışmışdır. Prof. dr. Turac Atabəki çıxış edərək, təmsil etdiyi institutun tarixindən danışmış, orada həm zəngin arxivin olduğunu, həm də dəyərli tədqiqatların aparıldığını qeyd etmişdir. T.Atabəki imzalanan sazişin hər iki elmi müəssisə üçün böyük fayda verəcəyinə əminliyini bildirmişdir. AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə Niderlandın Beynəlxalq Sosial Tarix İnstitutu arasında saziş imzalanmışdır.

Saziş iki elm müəssisəsi arasında faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin, layihələrin yerinə yetirilməsini; alimlərin araşdırma işlərini yerinə yetirmələrinə kömək məqsədilə ədəbiyyat və kitabxana materialları ilə təmin edilməsini; kitab və jurnalların qarşılıqlı mübadiləsi və çapını; beynəlxalq səviyyəli simpozium, konfrans və sərgilərin birgə təşkilini; elmi mübadiləni və qarşılıqlı maraq doğuran digər fəaliyyətlərin həyata keçirilməsini nəzərdə tutulmuşdur.

5.AMEA-nın Şərqşünaslıq İnstitutu ilə Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu arasında sazişin imzalanması (17 yanvar 2014-cü il)

2014-cü ilin yanvar ayının 17-də AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu ilə Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu arasında qarşılıqlı əməkdaşlıq haqqında saziş imzalanmışdır.

6.Türkiyəli alimlərin iştirakı ilə Şərqşünaslıq İnstitutunda məşğələlər (13 iyun2014-cü il)

AMEA akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunda Türkiyənin Biləcik Şeyx Edebali Universitetinin müəllimləri doktor Mustafa Serin ve dosent Vedat Turğut "Osmanlı arxiv sənədlərinin araşdırılma metodologiyası" mövzusunda 20 may-12 iyun tarixlərində treninq kursları aparıblar. Kurslar Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə elmlər doktoru Şahin Mustafayevin rəhbərliyi ilə keçirilib. İnstitutun gənc əməkdaşları XVI-XIX əsrlərə aid Osmanlı arxiv sənədlərinin növləri, təsnifatı, onların yazılma xəttlərinin çeşidləri və oxunma qaydaları ilə əlaqədar öz biliklərini artırıb, tarixi qaynaqların xüsusiyyətləri ilə tanış olub, onların sirlərinə yiyələniblər. Kursun sonunda iştirakçılara sertifikat təqdim edilib. Bunu da əlavə etmək lazımdır ki, Şərqşünaslıq İnstitutunda Azərbaycan və Cənubi Qafqaz tarixinə dair Osmanlı mənbələrinin, xüsusilə arxiv sənədlərinin tədqiqinə hələ keçən əsrin 80-ci illərindən akademik Ziya Bünyadovun rəhbərliyi altında başlanılıb, keçən müddət ərzində mərhum akademik Z.Bünyadov, eləcə də H.Məmmədov, Ş.Mustafayev, E.Arıklı tərəfindən İrəvan, Naxçıvan, Tiflis, Lori və Ərdəbilə aid Osmanlı təhrir dəftərləri tərcümə, tədqiq və nəşr edilib.

7. Təbriz Universitetinin müəllimləri ilə Şərqşünaslıq İnstitutunda görüş (27 avqust 2014)

Təbriz Universitetinin bir qrup müəllimi avqustun 27-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olmuşlar. Onları İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri İbrahim İbrahimi müşayiət etmişdir. Təbrizli müəllimlər İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva ilə görüşmüşlər. O, qonaqlara Şərqşünaslıq İnstitutun tarixindən bəhs etmiş, İnstitutda iranşünaslıq sahəsində aparılan tədqiqatlar barədə məlumat vermişdir..

İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri İbrahim İbrahimi rəhbərlik etdiyi Mərkəzin Şərqşünaslıq İnstitutu ilə əməkdaşlığından məmnunluğunu bildirərək, bu sahədə gələcək perspektivlərdən danışmışdır. Təbriz Universitetinin müəllimlərindən tanınmış ədib dr. Fərşbafian, iqtisadçı dr. Ağacani, coğrafiyaşünas dr. Nikcuh, Təbriz Universiteti Muzeyinin müdiri, tarixçi dr. Əbdullahi təmsil etdikləri ali məktəbin Şərqşünaslıq İnstitutu ilə əməkdaşlıq etmək arzusunda olduğunu bildirmişlər. Təbriz Universitetində Azərbaycanşünaslıq Mərkəzinin fəaliyyət göstərdiyini bildirən qonaqlar, Şərqşünaslıq İnstitutu ilə birgə elmi tədbirlərin keçirilməsi, tələbələrə elmi dəstək göstərilməsi, kadr mübadiləsi, kitab nəşri və s. ilə bağlı əməkdaşlıq imkanlarından söz açmışlar. Görüşdə Təbriz Universiteti ilə Şərqşünaslıq İnstitutunun müştərək keçirə biləcəyi bir neçə elmi tədbir müzakirə olunmuşdur.

8. Misir Mədəniyyət Mərkəzinin sədri ilə Şərqşünaslıq İnstitutunda görüş (26 noyabr 2014-cü il)

Misir Ərəb Respublikasının Azərbaycandakı Səfirliyinin Misir Mədəniyyət Mərkəzinin yeni təyin olunmuş sədri Əhməd Sami Elaydi noyabrın 26-da AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda oldu. Misirli diplomat ilk olaraq İnstitutun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva ilə

görüşdü. G.Baxşəliyeva qonağa Şərqşünaslıq İnstitutunda ərəbşünaslıq sahəsində, xüsusən də Misirlə bağlı aparılan tədqiqatlar barədə məlumat verdi və son zamanlar İnstitutda bu sahədə nəşr olunmuş bir sıra kitabları ona təqdim etdi.

Görüşdə Şərqşünaslıq İnstitutu ilə Misir Mədəniyyət Mərkəzi, həmçinin Misirin elm və təhsil müəssisələri ilə əməkdaşlığının perspektivləri müzakirə edildi, birgə elmi tədbirlərin, elmi layihələrin həyata keçirilməsi, qarşılıqlı elmi kadr mübadiləsinin imkanlarından söz açıldı.

Əhməd Sami Elaydi daha sonra Şərqşünaslıq İnstitutunda çalışan ərəbşünas alimlərlə görüşdü. İnstitutun alimləri qonağa öz tədqiqatları barədə məlumat verdilər. Əhməd Sami Elaydi Azərbaycanda ərəbşünaslıq sahəsində aparılan tədqiqatları yüksək dəyərləndirdiyini bildirdi. O, özü ilə gətirdiyi ərəb dilində olan 5 mindən artıq kitabın elektron variantını Şərqşünaslıq İnstitutunun əməkdaşlarına hədiyyə etdi. Faydalı müzakirələr şəklində keçən görüşdə qarşılıqlı əməkdaşlıq perspektivlərindən söz açıldı.

9. Gövhər Baxşəliyeva İtaliyada səfərdə olub (11-18 noyabr 2014-cü il)

Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva 11-18 noyabr tarixlərində İtaliyaya səfər edib. Səfər çərçivəsində G.Baxşəliyeva İtaliyanın aparıcı şərqşünaslıq mərkəzində - Neapol Şərqşünaslıq Universitetində olub. Ötən ilin fevralında Azərbaycanın İtaliyadakı səfirliyinin təşəbbüsü ilə AMEA-nın Şərqşünaslıq İnstitutu və Neapol Şərqşünaslıq Universiteti arasında Bakıda imzalanmış qarşılıqlı anlaşma haqqında sazişdən irəli gələn tədbirlər çərçivəsində Neapol Şərqşünaslıq Universitetin rektoru Elda Morlikkio və həmin təhsil ocağının professoru Mikele Bernardini ilə görüş keçirilib.

Görüşdə qurumlar arasındakı əlaqələrin inkişafı, gələcəkdə birgə layihələrin həyata keçirilməsi istiqamətində fikir mübadiləsi aparılıb. Söhbət zamanı hər iki qurumun alimlərinin şərqşünaslıq sahəsində birgə tədqiqatlar aparmasının, tələbələrin qısamüddətli staj keçməsi üçün qarşılıqlı səfərlərin təşkilinin vacibliyi diqqətə çatdırılıb.

Azərbaycanda şərqşünaslıq elminin dərin tarixi köklərə malik olduğunu deyən G.Baxşəliyeva bildirib ki, xalqımızın böyük mütəfəkkir və alimləri öz qiymətli əsərləri ilə Şərq xalqlarının inkişafına, dünya elminə əvəzsiz töhfələr veriblər. Rəhbərlik etdiyi institutun yaranma tarixi və fəaliyyəti barədə məlumat verən G.Baxşəliyeva qurumun şərqşünaslığın müxtəlif istiqamətləri üzrə tədqiqat işlərinin aparıldığı şöbələrindən danışıb. Bildirib ki, institutda təkcə Azərbaycan üçün deyil, MDB-nin digər ölkələri, Türkiyə, İraq, Misir, Birləşmiş Ərəb Əmirlikləri və İran üçün də mütəxəssislər hazırlanır.

E.Morlikkio bildirib ki, Avropanın şərqşünaslıq elmi üzrə ən qədim təhsil ocağı sayılan Neapol Şərqşünaslıq Universiteti əvvəlcə çinşünaslıq sahəsində bir kollec kimi yaradılıb. Bu kollec Avropada çinşünaslıq sahəsində ilk təhsil müəssisəsi olub. Hazırda isə universitetdə şərqşünaslıq elminin bütün sahələri üzrə tədris və tədqiqatlar aparılır.

Ölkələrimizin elm müəssisələri arasında əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayan E.Morlikkio Azərbaycan dilinin Neapol Şərqşünaslıq Universitetində tədris olunması təklifini irəli sürüb. Ötən il Bakıda qurumlar arasında qarşılıqlı anlaşma haqqında sazişin imzalandığını xatırladan professor bildirib ki, sənəd hər iki ölkədə elmin inkişafına töhfə verməkdədir.

Universitetin muzeyi və kitabxanası ilə tanışlıqdan sonra ali təhsil müəssisəsinin türkologiya fakültəsinin tələbələri ilə keçirilən görüşdə Gövhər Baxşəliyeva Azərbaycanın tarixi, ölkəmizdə müşahidə olunan sürətli inkişaf, dövlətimiz tərəfindən elm və təhsilə göstərilən diqqət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib, tələbələrin çoxsaylı suallarını cavablandırıb.

Səfər çərçivəsində G.Baxşəliyeva Vatikan Apostol kitabxanasında və İtaliyanın Milli kitabxanasında axtarışlar aparıb. Vatikan kitabxanasında bir çox xəritələrə baxış keçirərək, Azərbaycan və regionun tarixi coğrafiyasına aidiyyəti olan 18 xəritənin surətləri sifariş edilib. Surətlər bir ay ərzində sifarişçiyə göndəriləcək. Eyni zamanda alim tərəfindən Vatikanda saxlanılan ərəb, fars və türk əlyazmalarının (bütövlükdə 4 cild) kataloqları alınaraq, ölkəmizə gətirilib. Hazırda onların üzərində ətraflı araşdırma aparılır. Milli kitabxanada axtarış aparan alimimiz burada bir sıra azərbaycanlı müəlliflərin əsərlərinin saxlanıldığını müəyyən edilib. Əslən Təbrizdən, Şirvandan, Bakıdan, Bərdədən və digər tarixi Azərbaycan ərazilərindən olan müəlliflərin əsərləri bizim üçün böyük maraq doğurur. 35 qalın cilddən ibarət şərq kataloqlarından zaman məhdudluğundan yalnız 9-u ilə tanış olmaq mümkün olub. Amma elə bu qısa tanışlıq da onu deməyə əsas verir ki, burada biz xalqımızın tarixi və mədəniyyəti ilə bağlı yeni materiallar tapa biləcəyik.

Elektron elmin vəziyyəti

İnstitut əməkdaşlarının beynəlxalq elektron resurslara çıxışı genişləndirilmiş, Azərbaycan şərqşünaslığı web-portalı yaradılmış, İnstitut arxivində saxlanılan elmi ədəbiyyatın rəqəmsallaşdırılması və onlayn məkanda yerləşdirilməsi ilə bağlı hazırlıq gedir.

Keçirilmiş konfranslar, sessiyalar, seminarlar və yubileylər haqqında məlumat

1. AMEA Rəyasət Heyəti və Şərqşünaslıq İnstitutu tərəfindən hazırlanmış görkəmli şərqşünas alim Aida İmanquliyevanın 75 illiyinə həsr edilmiş "Şərq xalqları ədəbiyyatı: ənənə və müasirlik" mövzusunda beynəlxalq elmi konfrans, 10-11 oktyabr 2014.

Konfransda Azərbaycan alimləri ilə yanaşı, Türkiyə, Rusiya, Misir, Özbəkistan, Gürcüstan və digər ölkələrdən nümayəndələr iştirak ediblər.

Konfransın birinci plenar iclasında AMEA-nın prezidenti, akademik Akif Əlizadə görkəmli alimin keçdiyi həyat yolundan və bu illərdə onun şərqşünaslıq elminə verdiyi böyük töhfələrdən söz açıb. Bildirilib ki, Aida İmanquliyeva XX əsr Azərbaycan şərqşünaslıq elminin ən görkəmli nümayəndələrindən biri olub, bütün ömrünü bu sahəyə həsr edib və çox böyük uğurlar qazanıb. O, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın elmlər doktoru professor olmuşdur. Görkəmli alim həm keçmiş sovet, həm də dünya məkanında ilk dəfə məhcər ərəb ədəbiyyatını sistemli şəkildə tədqiq edərək fundamental əsərlər yazıb.

Konfransda Rusiya Elmlər Akademiyası rəyasət heyətinin üzvü, M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun direktoru akademik Aleksandr Kudelin "Professor Aida İmanquliyevanın tədqiqatlarının problematikası (alimin anadan olmasının 75 illiyinə)" mövzusunda məruzə ilə çıxış edib. Rusiyalı akademik bildirib ki, Aida İmanquliyeva Şərq ruhuna və Qərb zəkasına dərindən yiyələnmiş bir şəxsiyyət idi.

Misirin Ayn əş-Şəms Universitetinin ərəb dili və ədəbiyyatı kafedrasının müdiri, professor Tarik Çələbi "Şərqşünas Aida İmanquliyevanın mədəniyyətlərarası əlaqələrin yaranması və ədəbi tənqid sahəsindəki xidmətləri" mövzusunda məruzəsində görkəmli alimin ərəb mədəniyyəti və ədəbiyyatını Azərbaycan şərqşünaslıq məktəbinə tanıtmaq sahəsində müstəsna xidmətlərindən danışıb, onun məhcər ədəbiyyatına həsr olunan "Yeni ərəb ədəbiyyatının korifeyləri" əsərinin əhəmiyyətini xüsusi qeyd edib. Misirli professor bildirib ki, məruzəsinin mövzusu da məhz bu əsərdə bir tərəfdən ərəb ədibi ilə yaşadığı Qərb mühiti arasında mədəni əlaqələrin qurulması, digər tərəfdən isə ərəb ədəbiyyatı ilə tanışlıq və kitabda verilən olduqca mühüm məlumatların azərbaycanlı mütəxəssislərə çatdırılmasına həsr edilib.

Konfransda Bakı Dövlət Universitetinin (BDU) ilahiyyat fakültəsinin dekanı, akademik Vasim Məmmədəliyevin "Aida İmanquliyeva Azərbaycan şərqşünaslığının ən görkəmli nümayəndələrindən biri kimi" mövzusunda məruzəsi dinlənilib. Bildirilib ki, zəngin ənənələrə malik Azərbaycan şərqşünaslığının ən görkəmli nümayəndələrindən olan professor Aida İmanquliyeva özündən sonra zəngin elmi irs qoyub, fundamental tədqiqatları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, eyni zamanda, dünya şərqşünaslığını zənginləşdirib və inkişaf etdirib.

Konfransın ikinci plenar iclasında AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli "Görkəmli şərqşünas alim Aida İmanquliyeva haqqında söz" mövzusunda məruzə ilə çıxış edib. Akademik bildirib ki, professor Aida İmanquliyeva Azərbaycanda şərqşünaslıq tədqiqatlarının istiqamətini ilk dəfə ardıcıl və sistemli şəkildə ədəbiyyatşünaslıq səmtinə yönəldib, bu istiqamətdə tədqiqatlar aparıb. Onun ərəb ədəbiyyatına həsr edilən fundamental və dərin ümumiləşdirməyə malik elmi əsərləri Azərbaycan şərqşünaslıq elmini zənginləşdirən və yeni istiqamətlər açan tədqiqatlar kimi böyük əhəmiyyətə malikdir.

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva "Görkəmli şərqşünas alim, professor Aida İmanquliyevanın şərqşünaslıq elminin inkişafında rolu" mövzusunda məruzəsində alimin Azərbaycan şərqşünaslıq elminin inkişafındakı xidmətlərindən söz açıb.

İclasda Misirin Ayn əş-Şəms Universitetinin professoru İslam əl-Şərqavi, Rusiyalı alim Vyaçeslav Axmadulin, Özbəkistan Elmlər Akademiyasının əməkdaşı Burobiyə Rəcəbova, Türkiyənin Kastamonu Universitetinin nümayəndələri Gültən Küçükbasmacı, Şərifə Uzun, Fatma Zəhra Pattabanoğlu və digərlərinin mövzu ilə bağlı məruzələri dinlənilib.

Konfrans işini oktyabrın 11-də yeddi bölmədə - "Professor Aida İmanquliyevanın elmi irsi və şərqşünaslıq elminin inkişaf yolları", "Şərq ədəbiyyatında ənənə və novatorluq", "Ədəbi əlaqələr", "Mühacirət ədəbiyyatı", "Tərcümə nəzəriyyəsi", "Ədəbi mənbəşünaslıq", "Şərq dilçiliyi" - davam etdirib.

2. İran Mədəniyyət Mərkəzi, Şərqşünaslıq İnstitutu və AMEA Nizami adına Ədəbiyyat İnstitutu ilə birgə "Söz mülkünün Şəhriyarı" adlı beynəlxalq tədbir, 17 sentyabr 2014.

Ölməz şairin xatirə gününə həsr olunmuş tədbiri AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva açdı. Məhəmmədhüseyn Şəhriyarın Azərbaycan və İran poeziyasının ən nəhəng simalarından biri, fəxri, qüdrətli söz ustadı olduğunu söyləyən G.Baxşəliyeva onun ölməz irsinin nəinki Şərq, dünya mədəniyyəti və ədəbiyyatı xəzinəsinin nadir incisi olduğunu söyləmişdir.

G.Baxşəliyeva Şəhriyar poeziyasını bu qədər insanlara sevdirən, onu populyarlaşdıran, dillərdə əzbər edən səbəbin ilk növbədə onun şerinin fikir zənginliyi, bədii saflığı və səmimiyyəti olduğunu söylədi. Çıxışda Şəhriyarın yaradıcılığının həmişə tədqiqatçıların diqqət mərkəzində olduğu qeyd edilərək, ayrı-ayrı vaxtlarda Ə.Atəş, Q.Beqdeli, H.Billuri, Böyük Nikəndiş, B.Budaqov, Əliməmməd Əbülfəzl, Cəmşid Əlizadə, İsa Həbibbəyli, Həsənəli Məhəmmədi, Əhməd Kaviyanpur, H.Qasımov, E.Quliyev, Barfiruş, Məhəmmədbağır Nəcəfzadə, Mübəyyin Məhəmmədhüseyn, Zilli Məniçöhr, Hüseyn Münzəvi, B.Nəbiyev, Fəthi Nüsrətullah, N.Rizvanov, Y.Şeyda, E.Şükürova, E.Quliyev və digərlərinin Şəhriyarın həyat və yaradıcılığı haqda dəyərli əsərlər yazdığı nəzərə çatdırılmışdır.

AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli çıxı-

şında Şəhriyarı dünya ədəbiyyatının görkəmli sənətkarlarından biri kimi dəyərləndirmişdir: «Məhəmmədhüseyn Şəhriyar türk-müsəlman dünyası ədəbiyyatının zəngin xəzinəsinə qiymətli əsərlər vermiş sənətkarların sırasında dayanır. İ.Həbibbəyli ümummilli lider Heydər Əliyevin Şəhriyar irsinə böyük rəğbət göstərdiyini qeyd edərək, böyük rəhbərin şairin 90 illiyində imzaladığı sərəncamın ona dövlət səviyyəsində ehtiramının canlı göstəricisi olduğunu bildirmişdir.

Daha sonra bir sıra iranlı və azərbaycanlı alimlər çıxış etmişlər.

3. "Qondarma "Erməni Soyqırımı" və tarixi həqiqətlər" mövzusunda elmi sessiya, 23 aprel 2014. Sessiyada Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı səfirinin mədəniyyət və turizm üzrə müşaviri Seyid Ahmet Arslan iştirak etmişdir**.** Sessiyanı giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru, professor Gövhər Baxşəliyeva «erməni soyqırımı»nın uydurma olduğunu, əsl həqiqətin ermənilərin ötən əsrin müxtəlif dövrlərində azərbaycanlılara qarşı soyqırımı, talanları həyata keçirməsi barədə dünya ictimaiyyətinə çatdırmağın mühüm olduğunu bildirmişdir. G.Baxşəliyeva bütün bu həqiqətləri üzə çıxaran faktları aşkarlayaraq geniş ictimaiyyətə çatdırmaq sahəsində Şərqşünaslıq İnstitutunda aparılan işlərdən danışmışdır.

Daha sonra Şərqşünaslıq İnstitutu «Türkiyə tarixi və iqtisadiyyatı» şöbəsinin baş elmi işçisi, iqtisadiyyat üzrə elmlər doktoru İnqilab Əlibəyov, «Cənubi Azərbaycan tarixi» şöbəsinin müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Əkrəm Bije, "Şərq-Qərb" şöbəsinin müdiri, iqtisadiyyat üzrə elmlər doktoru Dünyamalı Vəliyev, «Türkiyə tarixi və iqtisadiyyatı» şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Bəşarət Bəşirova, «Din və ictimai fikir tarixi» şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Esmeralda Həsənova məruzələr etmişlər.

Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı səfirinin mədəniyyət və turizm üzrə müşaviri Seyid Ahmet Arslan çıxış etmiş, ermənilərin qondarma soyqırımını dünya ictimaiyyətinə tanıtdırmaq cəhdlərindən danışmış, Türkiyə və Azərbaycan dövlətlərinin bu təbliğata qarşı apardığı fəaliyyətdən, atılan addımlardan söz açmışdır. Sessiyadakı elmi məruzə və çıxışları çox yüksək dəyərləndirən diplomat, tədbiri təşkil etdiyinə görə Şərqşünaslıq İnstitutuna təşəkkürünü bildirmişdir.

4."Heydər Əliyev və türkdilli xalqların inteqrasiyası" mövzusunda elmi konfrans, 7 may 2014.

Konfransı giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru, Gövhər Baxşəliyeva qloballaşan dünyamızda inteqrasiya proseslərinin getdikcə daha böyük vüsət aldığını qeyd edərək, xalqlar və ölkələrin sürətlə bir-birinə yaxınlaşdığını, hətta lokal və regional problemlərin belə əksər halda beynəlxalq ictimaiyyətin müzakirəsinə çıxarıldığını bildirmişdir. Türkdilli xalqların əməkdaşlığının uğurlarından danışan G.Baxşəliyeva ulu öndər Heydər Əliyevin türk dünyasının problemlərinə daim diqqət ayırdığını xüsusi vurğulamışdır. Məhz Heydər Əliyevin türk xalqlarının inteqrasiyasına yönəlmiş böyük siyasətinin nəticəsi kimi türkdilli xalqları birləşdirən bir sıra layihələr TÜRKSOY, TürkPA, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası və s. bu qəbildən olan təşkilatların adını vurğulamışdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TRASEKA, İpək Yolu, TANAP, TAP və s. layihələrin bu gün həyata keçirilməsi Heydər Əliyev tərəfindən vaxtında aparılan böyük, uzaqgörən siyasətin məntiqi nəticəsi olduğunu bildirmişdir.

Daha sonra Şərqşünaslıq İnstitutunun «Şərq-Qərb» şöbəsinin müdiri, iqtisadiyyat üzrə elmlər doktoru Dünyamalı Vəliyevin «Heydər Əliyev və türk dünyasının qlobal iqtisadiyyata inteqrasiyası», İnstitutun «Mərkəzi Asiya və Uzaq Şərq ölkələri» şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Tərənə Həşimovanın «Türk xalqlarının müasir mədən-ədəbi əlaqələri və Heydər Əliyev» mövzusunda və s. məruzələr dinlənilmiş, sonda məruzələr ətrafında müzakirələr aparılmışdır.

5.M.Ə.Rəsulzadənin 130 illik yubileyinə həsr olunmuş "Azərbaycan Xalq Cümhuriyyəti və M.Ə.Rəsulzadə" mövzusunda elmi konfrans, 21 may 2014.

Konfransı giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru professor Gövhər Baxşəliyeva Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının ildönümü ərəfəsində bu respublikanın banilərindən biri olan Məhəmməd Əmin Rəsulzadəyə həsr olunmuş elmi konfransın təşkilini Prezident İlham Əliyevin M.Ə.Rəsulzadənin 130 illik yubileyi haqqında Sərəncamı ilə əlaqələndirmişdir.

Xalqımızın müstəqillik ideyalarının gerçəkləşməsində, milli dövlət qurulmasında, milli istiqlal ideyalarının geniş yayılmasında böyük xidmətlər göstərmiş və siyasi publisistika ilə ədəbi-ictimai fikir tariximizə layiqli töhfələr vermiş görkəmli ictimai-siyasi xadim M.Ə.Rəsulzadənin XX əsrin əvvəllərində Azərbaycanın müstəqilliyi tarixində şərəfli iz qoyduğunu, 100 ildən artıq sürən rus işğalına son qoyaraq, müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri olduğunu və 23 ay ərzində ona uğurla rəhbərlik etdiyini söyləyən Gövhər Baxşəliyeva məhz həmin dövrdə dövlətçiliyimizin atributlarının yaradılmasını, əsas demokratik normaların bərqərar olunmasını, xalq hakimiyyətinin qurulmasını, insan hüquqlarının, millətindən, dilindən, dinindən asılı olmayaraq insanların bərabərliyinin, söz və yığıncaq azadlığının dövlətçiliyin önəmli prinsipləri kimi irəli sürülməsini vurğulamışdır.

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Tarix» kafedrasının müdiri Firdovsiyə Əhmədova «Azərbaycan dövlətçiliyi ta-

rixində M.Ə.Rəsulzadənin yeri və rolu», Şərqşünaslıq İnstitutunun «İran tarixi və iqtisadiyyatı» şöbəsinin baş elmi işçisi, tarix üzrə elmlər doktoru Solmaz Rüstəmova-Tohidi - «M.Ə.Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından biri kimi» mövzusunda, Şərqşünaslıq İnstitutunun «İran tarixi və iqtisadiyyatı» şöbəsinin elmi işçisi Əfşan Şəfiyeva M.Ə.Rəsulzadənin görkəmli cənubi azərbaycanlı ictimai-siyasi xadim Seyid Həsən Tağızadə ilə dostluğuna və birgə fəaliyyətinə həsr olunmuş məruzələr etmişlər. Sonda məruzələr ətrafında müzakirə aparılmışdır.

20. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş elmi sessiya, 11 iyun 2014.

Sessiyanı giriş sözü ilə açan Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, professor Gövhər Baxşəliyeva Naxçıvan torpağının yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynadığını söyləyərək, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncamını xatırlatmışdır. Bu Sərəncama əsasən dövlət səviyyəsində qeyd olunan tədbirlər sırasında Azərbaycan Milli Elmlər Akademiyasının da üzərinə düşən vəzifələri xatırladan G.Baxşəliyeva şərqşünas alimlərin də Naxçıvanın tarixi, bu torpağın yetirdiyi görkəmli elm və mədəniyyət nümayəndələrinin əsərləri ilə bağlı apardıqları tədqiqatları elmi ictimaiyyətlə paylaşmaq istəyində olduqlarını və bu məqsədlə də Şərqşünaslıq İnstitutunun Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirdiyini bildirmişdir.

Sonra G.Baxşəliyeva çıxış üçün sözü AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə verib. Naxçıvanın Azərbaycanın ictimai həyatında mühüm rol oynadığını söyləyən İ.Həbibbəyli ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə AMEA-nın Naxçıvan bölməsinin yaradılmasını xatırladaraq, bu addımın elmimizdə yeni-yeni möhtəşəm əsərlərin ərsəyə gəlməsinə təkan verdiyini bildirmişdir. Naxçıvanın tarixi, qədim abidələri, burada aparılan arxeoloji qazıntılar barədə söz açan İ.Həbibbəyli bu sahədə maraqlı faktları tədbir iştirakçılarının diqqətinə çatdırmışdır. Sessiyada ilk məruzəni "Orta əsrlər ərəb mənbələrində Naxçıvan haqqında məlumatlar" mövzusunda Şərqşünaslıq İnstitutunun direktoru, filologiya üzrə elmlər doktoru, professor Gövhər Baxşəliyeva etmişdir.

Daha sonra Şərqşünaslıq İnstitutunun direktor müavini, tarix üzrə elmlər doktoru Şahin Mustafayev "XVI yüzilliyin sonunda Osmanlı sənədlərinə görə Naxçıvan" mövzusunda məruzəsində ilk olaraq tarixi mənbələrə əsasən Naxçıvanın ümumi tarixindən danışmışdır.

Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Cəmilə Sadıqova və böyük elmi işçi, filologiya üzrə fəlsəfə doktoru Vüqar Məmmədovun "Leksikoqrafiya sahəsində Fəxrəddin Hinduşah Naxçıvani və Məhəmməd bin Hünduşah Naxçıvaninin xidmətləri" mövzusunda məruzəsini dinləyicilərə V.Məmmədov çatdırmışdır.

Elmi sessiyada məruzələr ətrafında müzakirələr aparılmış, suallar cavablandırılmışdır.

İl ərzində İnstitutun elmi seminarlarında aşağıdakı məruzələr dinlənilmiş və müzakirə edilmişdir:

1. "Ərəb aləmində son hadisələr", 5 may 2014.

2. " İslam fundamentalizmi", 19 may 2014.

3. "Müstəqillik illərində Azərbaycanda dövlət-din münasibətləri", 20 iyun 2014.

4. "Fars körfəzi regionunda mədəni siyasət", 19 noyabr 2014. Məruzəçi - Paris Siyasi Tədqiqatlar İnstitutunun elmi əməkdaşı Aleksandr Kazeroni.

Hesabat ilində İnstitutda 20 Yanvar hadisələri, 31 Mart - Azərbaycanlıların soyqırımı günü, Xocalı şəhidlərinin anma mərasimi keçirilmişdir.

2 aprel 2014-cü il tarixində gənc alim və mütəxəssislər şurasının Şərqşünaslıq İnstitutunda monitorinqi keçirilmişdir.

KADR HAZIRLIĞI

Hal-hazırda İnstitutun 135 əməkdaşı var. Bunlardan 2 nəfəri AMEA-nın müxbir üzvü, 8 nəfəri elmlər doktoru, 55 nəfəri isə fəlsəfə doktorudur. İnstitut əməkdaşlarından 113 nəfəri elmi işçidir. İnstitutda kadr hazırlığı əsasən doktorantura və dissertantura, əməkdaşların staj keçmə və ezamiyyəyə göndərilməsi yolu ilə həyata keçirilir.

İnstitutun fəlsəfə doktorluğu üzrə 17 doktorantı və 26 dissertantı, elmlər doktorluğu üzrə 10 doktorantı və 8 dissertantı var. Doktorant və dissetantların əksəriyyəti İnstitutun öz əməkdaşlarıdır. Onlar "Ümumu tarix", "Dünya ədəbiyyatı", "Türk xalqları ədəbiyyatı", "Dinin tarixi və fəlsəfəsi", "Dünya iqtisadiyyatı", "Din tarixi və fəlsəfəsi", "Dinşünaslıq" və "Beynəlxalq münasibətlər", "Sami dilləri", "Dünya ədəbiyyatı" (ərəb ədəbiyyatı), "İran dilləri", "Dünya ədəbiyyatı" (fars ədəbiyyatı) ixtisasları üzrə təhsil alırlar.

Kadr hazırlığı sahəsində il ərzində institutun işləri qənaətbəxş olmuşdur. Bu il 10 dissertant fəlsəfə doktorluğu dissertasiya işi müdafiə etmişdir (5 nəfər "dünya ədəbiyyatı" (ərəb/ fars), 1 nəfər "İran dilləri", 2 nəfər "Türk xalqları ədəbiyyatı", 1 nəfər "Türk xalqları ədəbiyyatı" və "Dünya ədəbiyyatı" (ingilis ədəbiyyatı) ixtisasları üzrə).

AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu Elmi Şurasının 2 may 2014-cü il tarixli 6 saylı protokoluna əsasən 12 fevral 23 aprel 2014-cü il tarixində keçirilmiş attestasiyanın nəticələri təsdiq olunmuşdur.

Attestasiya iclaslarının nəticəsi əsasında Komissiya

üzvlərinin irəli sürdüyü tövsiyələri nəzərə alaraq Elmi Şura qərar qəbul edərək 9 əməkdaşın son beş ildə əldə etdikləri elmi nəticələri və şöbə müdirlərinin təqdimatlarını nəzərə alaraq vəzifələri bir pillə qaldırılmışdır.

Attestasiyadan keçmiş digər əməkdaşlar tutduqları vəzifələrində saxlanılmışlar.

İnstitutun Elmi Şurasının elmi-təşkilati fəaliyyəti

Hesabat ilində İnstitut Elmi Şurasının 16 iclası keçirilmişdir. Elmi Şuranın fəaliyyətinin əsas istiqamətləri elmi-tədqiqat işlərinin vaxtında yerinə yetirilməsinə, müdiriyyətlə əməkdaşlar arasında bağlanan yeni müqavilə işləri mövzularının müzakirəsinə yönəlmişdir. Elmi Şuranın iclaslarında il ərzində aşağıdakı məsələlər də müzakirə olunmuşdur:

- İnstitutun direktoru vəzifəsinə namizədin irəli sürülməsi;
- Fəlsəfə və elmlər doktorluğu üzrə doktoranturaya qəbul;
- Doktorantların fərdi planlarının təsdiqi;
- Fəlsəfə və elmlər doktorluğu üzrə dissertantların qəbulu;
- F.ü.f.d S.Şıxıyevanın «Seyid İmadəddin Nəsimi» monoqrafiyasının çap olunmaq üçün müzakirəsi;
- T.ü.f.d. F.M.Əsədovun doktorluq dissertasiyası mövzusunun dəyişdirilməsi;
- İnstitutun dissertantı A.Liravinin elmi rəhbərinin dəyişdirilməsi;
- Ülkər Qüdrət qızı Səmədovanın fəlsəfə doktorluğu dissertasiya mövzusunun dəyişdirilməsi;
- İnstitutun əməkdaşı Səməd Zülfəli oğlu Bayramzadənin elmlər doktorluğu mövzusunun müzakirəsi;
- AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru f.ü.e.d., prof. Gövhər Baxşəli qızı Baxşəliyevanın AMEA-nın müxbir üzvlüyünə namizədliyinin irəli sürülməsi;
- İnstitutun dissertantı Əliyeva Elmira Əzim qızının fəlsəfə doktorluğu mövzusunun dəyişdirilməsi;
- AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun «İran tarixi və iqtisadiyyatı» şöbəsinin baş elmi işçisi, t.ü.e.d. Solmaz Əli qızı Rüstəmova Tohidinin «Tarix» ixtisası üzrə AMEA-nın müxbir üzvlüyünə namizədliyinin irəli sürülməsi;
- İnstitutun «Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri» şöbəsinin dissertantı Lamiyə Mirsabir qızı Hüseynovanın dissertasiyasının müzakirəsi;
- İnstitutda keçirilmiş attestasiyanın nəticələrinin müzakirəsi;
- İnstitutun əməkdaşı Rüstəmova Afət Sabit qızının "Azərbaycan mədəniyyəti və ədəbiyyatında məşhur qadınlar" (fars dilindən tərcümə) kitabının çap olunmaq üçün müzakirəsi;
- İnstitutun dissertantı Həsən Möhsün oğlu Deldar Gövhərdaninin dissertasiya işinin müzakirəsi;
- İnstitutun əməkdaşı t.ü.f.d. Əfşan Heydər qızı Şəfiyevanın «İranın modernləşməsində Seyid Həsən Tağızadənin rolu» adlı monoqrafiyasının çap olunmaq üçün müzakirəsi;
- İnstitutun əməkdaşı Xuraman Əliağa qızı Əliyevanın dissertasiya işinin müzakirəsi;
- AMEA-nın 18 aprel 2014-cü il tarixli Ümumi Yığıncağının «AMEA Rəyasət Heyətinin 2013-cü ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında» qərarının müzakirəsi;
- İnstitutun dissertantı Kamil Şamil oğlu Miriyevin fəlsəfə doktorluğu dissertasiya mövzusunun dəyişdirilməsi;
- Şərq-Qərb şöbəsinin müdiri, i.ü.e.d. Dünyamalı Vəliyevin "Türk dünyası qlobal iqtisadi inkişaf yollarında" (məqalələr toplusu) kitabının çap olunmaq üçün müzakirəsi;
- İnstitutun elmi katibi, f.ü.f.d. Səbinə Arif qızı Səlimovanın «Ərəb bədii nəsrində ilkin Abbasilər dövrünün təsviri» adlı monoqrafiyasının çap olunmaq üçün müzakirəsi;
- İnstitutun əməkdaşı Fatma Arif qızı Məcidovanın «Əmin ər-Reyhani yaradıcılığında ərəb Şərqi» adlı monoqrafiyasının çap olunmaq üçün müzakirəsi;
- İnstitutun dissertantları Adil Hacı Ağarzalu və Mirkərim Hüseyninin dissertasiya işlərinin müzakirəsi;
- Qadir Bilmən oğlu Səfərovun elmlər doktorluğu üzrə İnstitutun dissertantı təsdiq edilməsi;
- İnstitutun "İran filologiyası" şöbəsinin dissertantı Nəcəfova Familə Famil qızının dissertasiya işinin müzakirəsi;
- "Din və ictimai fikir" şöbəsinin böyük elmi işçisi Ceyhun Valeh oğlu Məmmədovun elmlər doktorluğu üzrə institutun dissertantı təsdiq edilməsi;
- İnstitutun elmi katibi f.ü.f.d. Səbinə Arif qızı Səlimovanın elmlər doktorluğu üzrə institutun dissertantı təsdiq edilməsi ;
- Şöbələrin yarımillik və illik hesabatları;
- Çap üçün məqalələrin müzakirəsi;
- İnstitutun illik plan və hesabatlarının müzakirəsi və s.

Sosial sferada fəaliyyət

Hesabat ilində AMEA Birləşmiş Veteranlar Şurası tərəfindən tərtib olunan siyahı üzrə AMEA Şərqşünaslıq İnstitutunun 3 əməkdaşına birdəfəlik müavinət verilib, 4 əməkdaşı yeməkxanada nahar yeməyindən güzəştli istifadə edib, 2 əməkdaşı isə sanatoriyada güzəştli müalicə olunub.

AMEA akad. Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutunun direktoru,
AMEA-nın müxbir üzvü:
G.B.Baxşəliyeva

İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqının tədbirlərində

Yanvar ayının 21-22-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqının X sessiyası keçirilib. Sessiyada Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinə deputatlardan AMEA akad. Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva, həmçinin Mirkazım Kazımov, Sabir Rüstəmxanlı, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxil idi.

X sessiyadan öncəki günlər Təşkilatın digər tədbirləri keçirildi. Yanvar ayının 17-də İƏT Pİ İcraiyyə Komitəsinin və Fələstin məsələsinə dair daimi komitənin iclasları oldu. Yanvarın 18 və 19-da deputatlarımız 4 daimi komitənin - Siyasi məsələlər və xarici əlaqələr üzrə, insan haqları üzrə qadın və ailə məsələləri üzrə, mədəni və hüquqi məsələlər və Sivilizasiyalar arası dialoq üzrə, iqtisadi məsələlər və ətraf mühit üzrə daimi komitələrin iclaslarında iştirak etdilər, fikir və təkliflərini bildirdilər.

Milli Məclisin İƏT Pİ Azərbaycan nümayəndə heyətinin rəhbəri Gövhər Baxşəliyeva Mədəni və Hüquqi məsələlər və Sivilizasiyalar arası dialoq üzrə daimi komitənin iclasında məruzəçi seçildi. İclasa sədrlik edən deputatımız gündəlikdəki aşağıdakı məsələləri müzakirəyə çıxardı:

Komitə tərəfindən qəbul edilmiş qətnamə və tövsiyə xarakterli sənədlərin yerinə yetirilməsi; Qeyri-müsəlman dövlətlərində İslam mədəni irsinin, dini və ianə institutlarının müdafiəsi; Qeyri-ərəb İslam dövlətlərindən olan tələbələrin ərəb dili öyrənməsinin təşviq olunması; Fələstində yerləşən Əl-Aqsa Məscidi, İslam və Xristian antik məbədləri və məkanlarının İsrail hədələrindən müdafiəsi; Müsəlman dövlətlərində müqəddəs yerlərin qorunması, İƏT Pİ-nin BMT-də müşahidəçi statusunun qorunması uğrunda Baş Katibliyin göstərdiyi səylərin nəzərdən keçirilməsi; Miqrant işçilər, onların ailələri, xüsusilə də qadınların hüquqlarının müdafiəsi məqsədilə hüquqi çərçivənin təsis edilməsi; Qonşu ölkələrdən qaçqın sığınacaqları olan üzv dövlətlərə humanitar yardımın genişləndirilməsi; Qərbin islam dəyərlərinə yönəlmiş kampaniyalarına qarşı mübarizəyə xüsusi diqqət yönəldərək Sivilizasiyalar arasında dialoqun təşviq olunması, Sivilizasiyalar Alyansı təşəbbüsünün təşviqi; İƏT-in təşəbbüsü ilə qəbul edilmiş din və inanc əsasında insanlara qarşı təcavüz, diskriminasiya, neqativ stereotiplər, qeyri-tolerantlıq hallarına qarşı mübarizəyə dair BMT qətnaməsinin təmin edilməsi uğrunda İslam parlamentləri və hökumətləri tərəfindən göstərilən səylərin dəstəklənməsi; İslam və Qərb parlamentləri arasında dayanıqlı dialoqun yaradılması üçün göstərilən səylərin dəstəklənməsi.

Daha sonra G. Baxşəliyeva komitəyə təqdim edilmiş 8 qətnamə layihələrinin müzakirəsini başladı.

İKT Parlament İttifaqının Siyasi məsələlər və xarici əlaqələr üzrə Daimi İxtisaslaşmış Komitəsində aşağıdakı məsələlər müzakirə olundu: Komitə tərəfindən qəbul olunmuş qətnamə və məsləhətlərin yerinə yetirilməsinə dair fikir mübadiləsi; Əl-Qüds Əl-Şərif, Fələstinə dair məsələlər və Suriya və Livanın işğal olunmuş digər əraziləri; BMT bayrağı altında terrorizmə qarşı mübarizə və işğala qarşı mübarizə hüququnun tanınması; Hər hansı bir islam dövlətinə qoyulmuş sanksiyanın rədd edilməsi; Sülh məqsədləri üçün müasir texnologiyadan azad istifadəyə dair insanların ayrılmaz bərabər və balanslaşdırılmış hüququnun tanınması; Yaxın Şərq regionunun kütləvi qırğın silahlarından, xüsusilə də nüvə silahından azad zonaya çevrilməsi; Sudanda baş verən pozitiv inkişafın və sülhün bərqərar olunması üçün göstərilən səylərin izlənilməsi; Somalidə vəziyyət; Malidə və qonşu dövlətlərdə vəziyyətin müzakirəsi; Kiprdə vəziyyət; Qərbi Trakiyada türk müsəlman milli azlığı; Dünyadakı müsəlman azlıqları ilə həmrəylik (Cammu və Kəşmir, Myanma, Cənubi Filippin); Azərbaycanın Dağlıq Qarabağ ərazisinin Ermənistan tərəfindən işğalı; İslam dövlətləri arasında viza məsələlərinin sadələşdirilməsi.

Sonra komitəyə təqdim edilmiş qətnamə layihələri, o cümlədən Azərbaycan nümayəndə heyətinin təqdim etdiyi qətnamə layihəsi müzakirəyə çıxarıldı, layihələr yekdilliklə qəbul edildi və onların X sessiyaya çıxarılması tövsiyə edildi.

İqtisadi məsələlər və ətraf mühit məsələləri üzrə daimi ixtisaslaşmış Komitədə bu məsələlərə baxıldı: Komitə tərəfindən qəbul olunmuş qətnamə və tövsiyələrin yerinə yetirilməsi; İƏT üzv dövlətləri arasında

ticarət dövriyyəsinin artırılması və gömrük şərtlərinin sadələşdirilməsi; Birtərəfli və çoxtərəfli sanksiyalara qarşı mübarizə; Təbii fəlakətlərin qarşısının alınması məqsədilə Beynəlxalq parlament əməkdaşlığı; İslam dünyasında inkişafın təmin olunması məqsədilə iqtisadi institutların dəstəklənməsi və aktivləşdirilməsi; Ətraf mühit məsələləri və dayanıqlı inkişaf; Afrika sahil dövlətlərində səhralaşmaya qarşı mübarizə; Üzv dövlətlərdə su resurslarının qorunması sahəsində əməkdaşlıq; Ətraf mühitin müdafiəsi və iqlim dəyişikliyinə qarşı mübarizə; Çad gölünün quruması; İslam dövlətlərinin xarici borcları məsələsinin həlli; Elm və Texnologiya sahəsində İƏT Pİ üzv dövlətləri arasında əməkdaşlıq.

İnsan haqları, qadın və ailə məsələləri üzrə daimi ixtisaslaşmış komitədə komitə tərəfindən qəbul olunmuş qətnamə və məsləhətlərin yerinə yetirilməsinin izlənilməsi, insan hüquqları sahəsində regional və beynəlxalq arenada üzv dövlətlər arasında əməkdaşlıq, İƏT Pİ üzv dövlətlərində inkişafın bütün aspektlərində qadınların rolunun genişləndirilməsi, əmtəə məhsulları reklamlarında qadınların istismarının qarşısının alınması, İƏT Pİ Konfranslarında qadınların iştirakı, İslam dünyasında gənclərin rolunun genişləndirilməsi, İslam dünyasında uşaqlara qayğı və onların müdafiəsi, İƏT Pİ üzv dövlətlərində Təməl Sağlamlıq prinsiplərinin təşviqatında İslam parlamentlərinin rolu, Avropada Müsəlman miqrantlarının problemi və sairə bu kimi məsələlər müzakirə olundu.

Yanvar ayının 19-da İstanbulda İƏT Pİ çərçivəsində Müsəlman Qadın Parlamentarilərinin IV Forumu keçirilib. Forumda İƏT Pİ-da təmsil olan 57 ölkənin əksəriyyətindən qadın-parlamentarilər iştirak edib. Tədbirdə ölkəmizi MM deputatı, İƏT Pİ-da AR MM-nin nümayəndə heyətinin rəhbəri, AMEA Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva təmsil edib. Forumu giriş sözü ilə açan İƏT Pİ baş katibi Mahmud Erol Kılıc müsəlman aləmində baş verən proseslər və bu proseslərdə qadınların rolu, qadınların hüquqlarının qorunması, ailə və uşaq, qadına qarşı zorakılıqla mübarizə və sairə müasir dünya üçün böyük aktuallıq kəsb edən məsələlərdən danışıb. Sonra çıxışlar olub. Öz çıxışında Gövhər Baxşəliyeva Azərbaycanda dövlət səviyyəsində ailə, qadın və uşaq siyasətindən, qadın hüquqlarından, ölkəmizdə qadınların inkişafı üçün yaradılmış hərtərəfli şəraitdən bəhs edib. Bununla belə, G.Baxşəliyeva Azərbaycan qadınlarının böyük bir qismi-nin iyirmi ildən artıqdır ki, erməni işğalından əziyyət çəkdiyini, ata-baba torpaqlarını tərk etdiyini, qaçqın-köçkün vəziyyətində yaşadığını, müharibənin gətirdiyi bütün fəlakətləri üzərində yaşadığını forum iştirakçılarının nəzərinə çatdırıb və Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinin bütövlükdə xalqımıza gətirdiyi bəlalardan danışıb. O bügünəcən BMT-nin məlum 4 qətnaməsinin və digər beynəlxalq təşkilatların Azərbaycan torpaqlarının işğalı ilə bağlı qərarların icra olunmadığını təəssüflə qeyd edib.

O deyib: "Ermənistan sadəcə olaraq danışıqlar prosesində imitasiya taktikasını seçmişdir. O sülh istəmir. İşğal edilmiş torpaqlardan çıxmaq istəmir. İşğalçı dövlətə təzyiq göstərilməlidir. O məcbur edilməlidir ki, işğal olunmuş torpaqlardan çıxsın. Nə üçün başqa yerlərdə qəbul edilmiş qətnamələr dərhal icra edilir, bizə gəldikdə icra edilmir?! Bu, ədalətsizlikdir, ikili standartlardır. Artıq Azərbaycan xalqı bunu yaxşı bilir, dərk edir ki, bu problemin həll olunmaması təkcə Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə izah edilə bilməz. Görünür, dünyada elə qüvvələr var ki, bu münaqişənin həll olunmasında maraqlı deyillər. Görünür, elə qüvvələr var ki, maraqlıdır bu münaqişə doldurulmuş vəziyyətdə qalsın və bundan Azərbaycana bir təzyiq vasitəsi kimi istifadə etsinlər. Son illərdə müxtəlif bölgələrdə - Avropada, Yaxın və Orta Şərqdə gördüyümüz mənzərə bu yanaşmanı daha da gücləndirir.Həqiqət bundan ibarətdir ki, bizim torpaqlarımızın işğal altında qalması sadəcə olaraq Ermənistanın işi deyil. Ermənistan aciz durumda olan bir ölkədir. Əlbəttə, əgər onun böyük havadarları olmasaydı, Dağlıq Qarabağ münaqişəsi çoxdan ədalətli şəkildə öz həllini tapardı. Xarici dəstək olmadan Ermənistan işğal edilmiş ərazilərı bir gün də işğal altında saxlaya bilməzdi."

Azərbaycanın demokratiyanın inkişafına, insan haqlarının qorunmasına, ədalətin bərqərar olmasına çox böyük və dəyərli töhfələr verməsini diqqətə çatdıran G.Baxşəliyeva, xüsusilə ölkəmizin multikulturalizmlə bağlı təcrübəsini vurğulayıb. Beynəlxalq münasibətlərdə ikili standartların mövcudluğunu qeyd edən millət vəkili bunun heç kimə xeyir gətirmədiyini deyib. "Ölkələrin daxili işlərinə qarışma onları qarışdırır, sabitliyi pozur, ölkələrdə qanlı toqquşmalara gətirib çıxarır və bu qanlı toqquşmaların arxasında dayanan qüvvələrə də nəticə etibarilə mənfi təsir göstərir. Çünki bu gün dünyada bütün ölkələr, demək olar ki, biri-biri ilə bağlıdır və istənilən yerdə baş verən hadisə nə vaxtsa başqa yerdə də öz əks-sədasını verir."

Forumun yekunu olaraq aşağıdakı qətnamə qəbul edilib:

1 - Qadınların müharibə və qarşıdurmaların faciəvi nəticələrindən ən çox zərər çəkənlər olmasını nəzərə alaraq, lokal və regional xarakterli münaqişə və qarşıdurmaların həllində qadınların iştirakına və bacarıqlarından istifadəyə çağırış;

2 - İşğal və qarşıdurma bölgələrində, xüsusilə də Fələstin, Suriya, İraq, Nigeriya, Kamerun, Mərkəzi Afrika və İslam dünyasının başqa münaqişə bölgələrində müsəlman qadınların və uşaqların himayəsi, onların yaşadıqları cəmiyyətlərdə çəkdikləri əzab-əziyyətləri yüngülləşdirmək üçün onlara maddi və mənəvi kömək göstərilməsi və onları qaçqın düşərgələrində ziyarət etmə;

3 - Qadın və uşaqlara qarşı zorakılıq hallarının qarşısının alınması və qadın və uşaqların onların şərəfini alçaldacaq cinsi və digər növ istismar olunmaması və xüsusilə İsrail işğalçılarının, İŞİD və Boko Haram kimi terror təşkilatlarının onlara yönəlmiş təcavüzkarlıqlarının pislənilməsi;

4 - Qadının rolunu gücləndirən milli qanunvericiliklərin uğurlu təcrübə mübadiləsi və yaxınlaşmanı nəzərdə tutan qanuni strukturların, qadınla əlaqəli olan şəxsi səylərin birləşdirilməsinə çalışma;

5 - Keçən forumda Qadın müsəl-

man parlamentarilərinin tərtib etdiyi Müsəlman Qadını Aktının tətbiqinə həvəsləndirmə;

6 - Qadın Mərkəzlərinin açılmasında müsəlman qadın parlamentarilərinin əməkdaşlığına və əlaqəsinə çalışma;

7- Təcrübə mübadiləsi mədsədilə müsəlman qadın parlamentariləri və regional birliklər arasında əməkdaşlığa təşviq;

8-Səmavi dinləri və Məhəmməd peyğəmbəri təhqir etməyi pisləyən qanunların qəbulu.

Forumun sonunda baş katibliyin müdiri Sadiq Yusif Əbu Aqilə TBMM-in spikeri cənab Cəmil Çiçəyə qonaqpərvərliyinə və gözəl təşkilatçılığa görə təşəkkürünü bildirib.

Yanvarın 20-də İƏT Pİ Ümumi Komitəsinin 17 sessiyası baş tutdu. Sessiyada bir sıra məsələlərə, o cümlədən Yekun Kommunikenin hazırlanması üçün məruzəçinin təyin edilməsinə baxıldı. Elə həmin gün komitələrin məruzəçilərinin iştirakı ilə açıq iclas keçirildi. İclasda daimi komitələrin üzvləri və İƏT Pİ İcraiyyə komitəsinə üzvlər seçildi. Azərbaycandan Gövhər Baxşəliyeva İƏT Pİ İcraiyyə komitəsinə Asiya qrupundan üzv seçildi.

Yanvar ayının 21-də İƏT Pİ 10-cu sessiyası işinə başladı. Ölkəmizi sessiyada Milli Məclisin Sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti təmsil edirdi. Sessiyada İran tərəfi İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı Konfransına sədrliyi Türkiyəyə təhvil verdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov, Türkiyə Böyük Millət Məclisinin sədri Cəmil Çiçək, İran İslam Şurası Məclisinin sədri Seyid Əli Laricani və başqalarının çıxışları dinlənildi. Çıxışlarda təşkilatın ötən dövrdə gördüyü işlərdən, qarşıda duran vəzifələrdən bəhs edildi.

Milli Məclisin Sədri Oqtay Əsədov Azərbaycanın mədəniyyətlər, sivilizasiyalar və dinlərarası dialoq siyasətinin müsbət nəticələri barədə məlumat verdi. Prezident İlham Əliyevin islamın sülh, dostluq və həmrəylik dini olması barədə fikirlərini sessiya iştirakçılarının diqqətinə çatdıran Oqtay Əsədov Bakının 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı olmasını və 2018-ci ildə isə Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsini Azərbaycanda İslama münasibətin göstəricisi kimi dəyərləndirdi.

Milli Məclisin Sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, işğal altındakı Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad olunması, o cümlədən Xocalı soyqırımı barədə qəbul etdiyi qətnamələrə, bu məsələlərdə dəyişməz, ədalətli mövqe nümayiş etdirdiyinə görə, İslam Əməkdaşlıq Təşkilatının bütün üzvlərinə təşəkkürünü bildirdi. Azərbaycan parlamentinin rəhbəri əminliklə qeyd etdi ki, bəşəriyyətin qarşısında duran ağır sınaqları keçə bilməsi üçün müxtəlif sivilizasiyalara mənsub cəmiyyətlər, xalqlar və millətlər arasında qarşılıqlı hörmətə, etimada və hüquq bərabərliyinə əsaslanan işbirliyinin və uzlaşmanın təmin edilməsi həyati əhəmiyyətə malikdir.

Oqtay Əsədov Azərbaycanın sürətli inkişafı, humanitar sahədə əldə olunan nailiyyətlər, 2017-ci ildə ölkəmizdə keçiriləcək IV İslam Həmrəyliyi Oyunları ilə bağlı hazırlıq işlərinin yüksək səviyyədə aparılması və digər uğurlar barədə sessiya iştirakçılarını məlumatlandırdı.

Son illər bir sıra islam ölkələrində hökm sürən ictimai-siyasi gərginliyin və silahlı münaqişələrin bütün dünya üçün ciddi təhlükə mənbəyinə çevrildiyini diqqətə çatdıran Türkiyə Böyük Millət Məclisinin sədri, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı Konfransının yeni sədri Cəmil Çiçək çıxışında Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini kəskin şəkildə pislədi. İşğal nəticəsində yurd-yuvasından didərgin düşən bir milyondan çox azərbaycanlının hüquqlarının pozulduğunu bildirən Türkiyə parlamentinin sədri vurğuladı ki, ölkəsi hər zaman Azərbaycanın ərazi bütövlüyünü müdafiə edəcək.

Sessiya işini yanvarın 22-də daimi komitələrin məruzəçilərini dinləməklə davam etdi. Mədəni və hüquqi məsələlər və sivilizasiyalararası dialoq üzrə daimi ixtisaslaşmış komitənin məruzəsini deputat Gövhər Baxşəliyeva təqdim etdi. Məruzədə ötən dövr ərzində komitədə görülmüş işlər və müzakirəyə təqdim edilən 8 qətnamə layihələrinin mahiyyəti barədə məlumat verildi.

Son olaraq sessiyada bir sıra qətnamə, Yekun Kommunike (Bəyannamə)

və İstanbul Deklorasiyası ətraflı müzakirə edilərək yekdilliklə qəbul edildi.

Azərbaycan nümayəndə heyətinin təqdim etdiyi "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair" Qətnamədə deyilir: İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttiffaqı Konfransının 21-22 yanvar 2015-ci ildə Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş Onuncu Sessiyası İslam Əməkdaşlığı Təşkilatının Nizamnaməsinin prinsipləri və məqsədlərindən çıxış edərək; Azərbaycanın ərazisinin 20 faizindən artıq bir hissəsinin işğalı ilə nəticələnən Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzündən dərin narahatlıq hissi keçirdiyini ifadə edərək; Erməni təcavüzü nəticəsində yurd-yuvalarından didərgin düşmüş bir milyondan çox Azərbaycanlı qaçqın və məcburi köçkünün durumu və bu humanitar problemlərin miqyası və ciddilik dərəcəsindən olduqca mütəəssir olaraq; Ermənistan Silahlı qüvvələri tərəfindən atəşkəs rejiminin pozulmasının nəticəsi olaraq Azərbaycanın Cəbhə Xəttində məskunlaşmış mülki əhalisi arasında uşaq və qadınlar da daxil olmaqla insan itkiləri və yaralanma hallarından narahatlığını bildirərək; Müvafiq keçmiş qətnamələri bir daha təsdiq edərək; BMT Nizamnaməsinə ciddi şəkildə riayət olunması və Təhlükəsizlik Şurasının bütün müvafiq qətnamələrinin bütünlüklə yerinə yetirilməsində israrlı olaraq; Ermənistan və Azərbaycan arasındakı münaqişənin həllinə yönələn bütün diplomatik və digər səyləri alqışlayaraq; Bütün üzv dövlətlərin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə hörmət etmək öhdəliyini bir daha təsdiqləyərək; Həmçinin Ermənistan Respublikasının təcavüz siyasətinin ATƏT çərçivəsindəki sülh proseslərinə dağıdıcı təsirini qeyd edərək:

1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü qəti pisləyir;

2. İşğal olunmuş Azərbaycan ərazilərində Azərbaycanın mülki əhalisinə qarşı törədilmiş əməlləri insanlıq əleyhinə cinayət kimi dəyərləndirir:

3. İşğal olunmuş Azərbaycan ərazilərində arxeoloji, mədəni və dini abidələrin talanını və dağıdılmasını qəti pisləyir;

4. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin icra edilməsini və Dağlıq Qarabağ ərazisi də daxil olmaqla Azərbaycan ərazilərindən Erməni qüvvələrinin dərhal, qeyd şərtsiz və tamamilə çıxarılmasını tələb edir və Ermənistanın Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət etməsində israr edir;

5. Yuxarıda qeyd edilmiş BMT Təhlükəsizlik Şurasının qətnamələrində nəzərdə tutulan tələblərin Ermənistan tərəfindən hələ də icra olunmamasından narahat olduğunu bildirir:

6. Təcavüzkarı münaqişənin gələcək eskalasiyası imkanından və Azərbaycan ərazilərini işğal altında saxlamağa davam etməkdən məhrum etmək üçün bütün dövlətləri Ermənistanı hər hansı silah və hərbi sursatla təmin etməkdən çəkinməyə çağırır, Üzv dövlətlərin ərazisi bu cür təchizatın tranziti üçün istifadə edilməməlidir;

7. Üzv dövlətləri, həmçinin beynəlxalq ictimaiyyətin digər üzvlərini erməni təcavüzünə və Azərbaycan ərazilərinin işğalına son qoymaq məqsədilə tələb olunan belə effektiv siyasi və iqtisadi vasitələrdən istifadə etməyə, bununla əlaqədar olaraq Ermənistan Respublikası ərazisində iqtisadi fəaliyyətdən, Ermənistan Respublikasında iqtisadi, sənaye, maliyyə və digər sahələrə investisiya qoyuluşundan çəkinməyə və Ermənistan Respublikası ilə ümumi əməkdaşlığı məhdudlaşdırmağa çağırır;

8. İƏT-ə üzv dövlətlərdən öz milli və hüquqi qurumlarından Dağlıq Qarabağ və Azərbaycanın digər işğal olunmuş ərazilərində iqtisadi, turistik və digər fəaliyyətlərə cəlb olunmamağı xahiş edir;

9. Fait accompli - baş vermiş faktın münaqişənin həlli üçün əsas ola bilməyəcəyini və nə Azərbaycan Respublikasının işğal olunmuş əraziləri çərçivəsində cari vəziyyətin, nə də səsvermə prosesinin təşkili daxil olmaqla status kvonun möhkəmləndirilməsinə yönəlmiş təşəbbüslərin hüquqi qüvvəyə malik olmadığını vurğulayır;

10. Ermənistan və Azərbaycan arasında mövcud olan silahlı münaqişənin dövlətlərin ərazi toxunulmazlığı və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsipləri əsasında ədalətli və sülh yolu ilə həll olunmasına çağırır;

11. Ermənistan və Azərbaycan mövcud olan silahlı münaqişənin həllinə dair 1996-cı il ATƏT-in Lissabon Sammitində ATƏT sədrinin verdiyi bəyanatda əks olunmuş 5 prinsipə - Ermənistan Respublikası və Azərbaycan Respublikasının ərazi toxunulmazlığı, Dağlıq Qarabağ regionunun Azərbaycan daxilində ən yüksək statuslu muxtariyyəti və bu regionun və onun əhalisinin təhlükəsizliyinin təminatı prinsiplərinə tam dəstəyini ifadə edir:

12. Ermənistan və ATƏT-in Minsk Qrupunun bütün üzv dövlətlərini BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in müvafiq qərar və sənədlər əsasında ATƏT-in yürütdüyü sülh proseslərinə konstruktiv şəkildə qatılmağa çağırır;

13. Erməni millətindən olan əhalinin Azərbaycanın işğal olunmuş ərazilərinə köçürülmələrinin qarşısını almağı və dayandırmağı tələb edir, belə ki, bu köçürmələr beynəlxalq humanitar hüququn ciddi pozuntusu kimi qəbul edilir və bu münaqişənin sülh yolu ilə həll olunması prosesinə zərər vura biləcək təsirə malikdir və üzv dövlətləri Azərbaycan tərəfindən bu məqsədlə həyata keçirilən səyləri, habelə BMT-nin Baş Assambleyasında və o cümlədən BMT-nin Nyu Yorkdakı daimi nümayəndəliyi vasitəsilə həyata keçirilən fəaliyyəti dəstəkləməyə çağırır;

14. Azərbaycan ilə tam həmrəy olduğunu və Azərbaycan hökuməti və xalqının ölkəni müdafiə etmək məqsədilə həyata keçirdiyi səyləri dəstəklədiyini bildirir və Azərbaycanlı qaçqın və məcburi köçkünlərin evlərinə təhlükəsiz, şərəf və ləyaqətlə qayıtmalarına imkan yaratmağa çağırır.

Yekun Bəyannaməyə və İstanbul Deklarasiyasına da Azərbaycan nümayəndə heyətinin təklifi ilə Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair müfəssəl maddələr salındı.

Cənubi Koreya Respublikasının iqtisadi inkişafında insan faktoru

Günay Tağıyeva
AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşı

Hər bir inkişaf prosesinin, baş verən kiçik ya böyük hadisənin yaranma səbəbləri, şərtləndirən amilləri vardır. Koreya Respublikasının iqtisadiyyatının sürətli inkişafından bəhs edərkən bu respublikanın yaxın əsrdəki tarixinə nəzər yetirmək vacib və zəruridir. Çünki bu tarixi proseslər ölkənin müasir vəziyyətinin təməlidir.

XX əsrdə baş verən müharibələr dünyanın hegemon dövlətlərindən yan keçməmişdir. Dünya müharibəsi dünya xəritəsində dəyişikliyə gətirib çıxardı. Buna baxmayaraq "Dünya müharibəsi" müstəmləkə həyatı yaşayan dövlətlərin öz müstəqilliklərinə qovuşması ilə nəticələndi. 1945-ci ildə müstəqilliyini elan edən dövlətlərdən biri də Koreya dövləti oldu. Müharibədən sonrakı vəziyyətin ağırlığı vətəndaş müharibəsinə gətirib çıxardı. Koreya iki hissəyə bölündü: Cənubi Koreya və Şimali Koreya. Daha sonra bir xalq iki dövlət arasındakı münaqişə soyuq müharibəyə çevrildi. Cənubi Koreya və Şimali Koreya dövlətləri inkişafında müxtəlif istiqamətləri seçdi. Cənubi Koreya inkişaf etmək üçün Avropaya açıldı. Cənubi Koreya Respublikasının dünya siyasətində yeri və mövqeyinin təyini beynəlxalq təşkilatlarda təmsilçiliyi, XX əsrdə müxtəlif tarixi proseslər iqtisadi islahatlarla bağlıdır.

Cənubi Koreya Respublikasının uğurlu iqtisadi islahatlar, proqramlarla müasir dünyada öz yerini tutmuş senaye, iqtisadi və hərbi cəhətdən inkişaf etmiş ölkələr sırasına daxil olmuşdur. Müstəqilliyi elan edəndən sonra dünya ölkələrindən yardım alan Cənubi Koreya, indi digər ölkələrə qrant ayırır.

Ümumiyyətlə, XX əsrin 80-ci illərindən etibarən liberalizm ideologiyası dünya iqtisadiyyatının inkişafına səbəb oldu. Bu tərəqqi, irəliləyiş, bir çox ölkələrin, Cənubi-Şərqi Asiya ölkələrinin xüsusilə, Honkonq, Tayvan, Sinqapur və Cənubi Koreyanın iqtisadiyyatına güclü təsir etdi və iqtisadi islahatlar nəticəsində dünya iqtisadiyyatı içərisində Cənubi Koreya xüsusi yer aldı. Cənubi Koreyanin sahəsi 99,6 min km^2 , əhalisi 50 milyon nəfərdir. Paytaxtı Seul şəhəridir. ÜDM-nin (ümumi daxili məhsul) artım tempi 7%-dir.[7] "ÜDM 1,554 trilyon ABŞ dollarıdır. İdxal əmtəələri: maşın, elektronika və elektron avadanlıq, neft, polad, nəqliyyat avadanlığı, üzvi kimya, plastik məhsullar. Partnyorları: Çin - 16,5%, Yaponiya - 13%, ABŞ - 8,5%, Səudiyyə Ərəbistan - 7,1 % , Avstraliya - 5%. İxrac həcmi 552,8 milyard ABŞ dollarıdır. İxrac əmtəələri: yarımkeçiricilər, simsiz rabitə vasitələri, avtomobil, kompüter, polad, gəmi, neft kimya. İxrac partnyorları Çin - 24,4%, ABŞ - 10,1%, [8].

Cənubi Koreya 1991-ci ilin sentyabrından BMT-nin üzvüdür. Dünya iqtisadçıları son 3 əsrin müxtəlif dövrlərində inkişaf edən ölkələrin iqtisadi inkişaf sürəti ilə sərf olunan illəri müqayisə edərək nəticəyə gəlirlər ki, XVII əsrin 80-cı illərində Yaponiyada 34 ilə iqtisadi inkişafın yüksək mərhələsinə nail olmuşsa, Cənubi Koreyada sərf olunan vaxt 11 ildir.

İqtisadi inkişafın tarixi mərhələləri texnoloji istehsal üsullarının əvəzlənməsi ilə sıx bağlıdır. Müasir şəraitdə texnologiyaların inkişafına əsaslanan texnoloji istehsal üsulu formalaşır ki, burada da inkişafın əsas hərəkətverici qüvvələri informasiya və bilikdir. İnformasiya və bilik daim bəşər cəmiyyətinin inkişafında mühüm rol oynamışdır. Lakin informasıya cəmiyyətində informasiya və biliyin rolu o qədər artmışdır ki, onlar istehsal prosesində həlledici yer tutmuşlar. İnformasiya və bilik resursları maddi resurslara olan tələbatı nisbətən aşağı salaraq, ənənəvi istehsal amillərini müəyyən qədər əvəz etmək imkanına malikdir. Hələ 1988-ci ildə Amerikanın keçmiş maliyyə naziri U.Blyumental müasir iqtisadi fəaliyyətlə informasiyanın əsas resurs kimi, yəni

keçmişdə əməyin kapitalın və işçi qüvvəsinin malik olduğu mənada şərh olunduğunu qeyd edirdi. [3,5]

Cənubi Koreya iqtisadiyyatının yüksək səviyyədə inkişafının əsasında təhsil durur. Koreyada təhsilin ilkin təşəkkül tarixi IV əsrin ikinci yarısına təsadüf edir. XIX əsrdən etibarən xristian missionerləri tərəfindən dövlət və özəl təhsil müəssisələrindən ibarət olan müasir məktəblər yaradılmağa başlayıb. 1945-ci ildə Yaponiyanın 35 illik əsarətindən azad olduqdan sonra Koreyada demokratik təhsil forması təşəkkül tapıb.

Cənubi Koreyada uşaqlar 3 yaşından məktəbəqədər təhsilə cəlb olunur. 6 yaşı (istisna hallarda 5 yaşı) tamam olmuş uşaqlar pulsuz və icbari təhsil məktəblərinə qəbul ola bilərlər. İbtidai təhsil 6 il davam edir . Əsas təhsil pilləsini bitirənlər orta təhsil almaq hüququna malikdirlər. Koreyada təlim və fiziki qüsuru olan uşaqlara məktəbəqədər təhsil müəssisələrində, ibtidai, əsas və orta məktəblərdə xüsusi təhsil verilir. Ölkədə 141 xüsusi məktəb fəaliyyət göstərir ki, bu məktəblərdə təxminən 24 minə yaxın kəskin fiziki qüsurlu təhsil alır. 28 mindən artıq uşaq isə müntəzəm məktəblərdə xüsusi ehtiyaclı şagirdlər üçün təşkil olunmuş siniflərə cəlb olunur. [4]

Tədris proqramına görə kollec təhsili 2-3, ali təhsil 4-6 il arasında dəyişir. Kolleclər əsasən, istehsal müəssisələrinin müvafiq mütəxəssislərə olan ehtiyacının ödənilməsinə xidmət edir. Ali təhsil müəssisələrində isə nəzəri biliklərin tətbiqi məsələsinə xüsusi önəm verilir. Koreyada ibtidai təhsil üzrə 11, orta təhsil üzrə 67, təhsilin idarə olunması üzrə 1, tam orta təhsil üzrə 18 və distant üzrə 55 ixtisas artırma institutu fəaliyyət göstərir. Koreyada məktəbəqədər təhsil pulsuzdur. Ölkədə 1976-cı ilə qədər özəl məktəbəqədər təhsil müəssisələri uşaqların inkişafında mühüm rol oynayıb. Daha sonra ibtidai məktəblərin nəzdində yaradılmış bağçalar fəaliyyətə başlayıb. Bununla da dövlət uşaq bağçaları ön plana çıxıb. Hazırda ölkədəki 4460 dövlət və 3830 özəl məktəbəqədər təhsil müəssisəsində təxminən 546 min 3-6 yaşlı uşaqlar təhsil alır . Ölkə üzrə uşaqların 99,9 %-i ibtidai məktəbdə oxuyur. İbtidai təhsil pilləsində belə yüksək göstərici təhsilə olan böyük ictimai maraqdan və hökumətin təhsil siyasətindən irəli gəlir. [4]

Koreyanın ali və orta ixtisas təhsil müəssisələri sırasına kolleclər və universitetlər, sənaye universitetləri, yeniyetmə kollecləri, media və qiyabi universitetlər, texniki kolleclər daxildir. Ölkədə 400-dən artıq universitetlər və ali məktəblər fəaliyyət göstərir. Ali təhsilin əsas məqsədi dərin nəzəri təhsil vermək, nəzəri tətbiqini təmin etmək, tələbələri məsuliyyəti və məhsuldar mütəxəssis kimi yetişdirməkdən ibarətdir. Ölkədə ali təhsil müddəti 4-6 il davam edir . Dövlət universitetlərin müstəqilliyinin artırılması, dövlət təhsil sisteminin tənzimləməsi, özəl tədris xərclərinin azaldılması məsələlərinə nəzarət edir, tələbələrin seçim proseduru ilə bağlı əsas minimum tələbləri müəyyənləşdirir. Universitetlər təlim nəticələrini, qabiliyyət imtahanlarında toplanmış balları, sertifikatları tövsiyə məktublarını əsas götürərək tələbə qəbulu aparır. Ali məktəbə qəbul üçün qabiliyyət testləri 5 sahə üzrə təyin olunur. Bu sıraya dil (koreya dili), riyaziyyat, xarici dil (ingilis dili), ictimai-təbiət elmləri (peşə təlimi) və ikinci xarici dil (çin dili) daxildir. Görmə qüsuru olan tələbələrə səsli qiymətləndirmə vasitələrindən istifadə edərək imtahan vermək imkanı yaradılır. [4]

Koreyada elmi-texniki siyasətin inkişaf dövrünü ənənəvi olaraq onilliklərə bölürlər. 1960-cı və 1970-ci illər - imitasiya mərhələsi qabaqcıl xarici texnologiyaların öyrənilməsi və onların Koreya şəraitində təkrarlanması; 1980-ci illər - daxili inkişaf mərhələsi qabaqcıl xarici texnologiyaların geniş tətbiqi; 1990-cı illər - innovasıya mərhələsi yerli elmi texnoloji işlərin artması; 2000-ci illər yetkin innovasiya mərhələsi - dünya səviyyəli elmi texnoloji işlərin həyata keçirilməsi.

1960-cı illərin başlanğıcından dövlət texnologiyaların xaricdən alınması və onların əsasında texnologiyalı məhsulların ixracı kursunu götürmüşdür. Elm siyasəti "ixracyönümlü sənayeləşmə " siyasətinin tərkib hissəsi idi. 1960-cı ildə yalnız tədqiqat institutu (ETİ) fəaliyyət göstərirdi. Koreya müharibəsindən dərhal sonra 1953-cü ildə yaradılmış Milli Müdafiə ETİ və 1959-cu ildə yaradılmış Koreya Atom Enerjisi üzrə tədqiqat institutunda 1963-cü ildə elmi tədqiqatlara çəkilən xərclər 9,5 milyon dollar həcmində idi (ümumi daxili məhsulun (ÜDM-ın 0,2 %-i). 1966-cı ildə Koreya Elm və Texnologiya İnstitutu yaradıldı. Ölkədə elmi texniki siyasətin formalaşdırılması və həyata keçirilməsi mərkəzi orqan - Elm və Texnologiya Nazirliyi (ETN) yaradıldı. Dyuk Universitetinin (Karolina ştatı, ABŞ) professoru Han Mu-Yonq "Koreya elm və texnologiyasının izahlı xronologiyası: Düyü tarlalarında müstəvi ekranlı displeylərə" adlı məqaləsilə 1960-cı il Koreyada elm və texnologiya dövrünün əsasını qoydu. [6]

İnkişaf edən və qloballaşan dünyamızın əsas problemlərinin biri də senayeləşmədir. Sənaye sahəsi maddi istehsalın əsas sahələrindən biridir. Sənayeləşmə iqtisadiyyatda əsas sahəni tutduğu kimi, ictimai həyatın bütün digər tərəflərinə də təsir göstərir.

Koreya sənayesinin yüksəlişində ən nəzərə çarpan mərhələ 1970-ci illər hesab edilir. Mühəndis və elmi kadrların kəskin çatışmazlığını aradan qaldırmaq və elm sahəsində təhsili gücləndirmək məqsədi ilə hökumət 1971-ci ilin

fevralında Koreya Prespektiv Elm İnstitutunu yaratdı. Artmaqda olan tələbatını ödəmək üçün bir sıra ixtisaslaşmış dövlət elmi-tədqiqat institutlarını da (kimya, maşınqayırma, elektronika, okeonologiya, standartlaşma, nüvə enerjisi, biotexnologiya, sistematexnika, kosmik tədqiqatlar) yaratmalı oldu. Xaricdə təhsil almış alim və mühəndisləri cəlb edəcək elm parkının yaradılması qərarlaşdırıldı. 1974-cü ildə Seuldan 140 km cənubda ölkənin mərkəzi hissəsində - regionlardan eyni məsafədə yerləşən Dekon şəhəri yaxınlığında bir kənd ərazisi olan Dedok elm parkında 5 ETİ (kimya, maşınqayırma, standartlaşdırma, nüvə və energetika üzrə) fəaliyyətə başladı. Son illərə nəzər salsaq görərik ki, Asiya ölkələri, özəlliklə Cənubi Koreya iqtisadiyyatda mühüm irəliləyişlər əldə etmişdir. XX əsrin 60-80 illəri dövründə dünya iqtisadiyyatında və həmçinin ayrı-ayrı ölkələrin milli iqtisadiyyatında qlobal dəyişikliklər baş vermişdir. Bu cür dəyişikliklər də son nəticə olaraq bir sıra ölkələrin həddindən böyük sürətlə inkişaf etmələrinə səbəb oldu. Mahiyyət etibarilə əslində inkişaf etməkdə olan YSÖ-lər öz iqtisadi inkişaf göstəricilərinə görə bəzi mənbələrdə hətta inkişaf etmiş ölkələr qrupuna aid edilir. Lakin, bu tip ölkələrin yeni sənaye, qrupuna aid edilməsi fikri BMT-nin xüsusi olaraq təklif etdiyi və qərara aldığı müəyyənləşmiş kriteryalardan sonra reallaşdı. [5, 15-25]

Beləliklə, YSÖ-lərin ümumi xarakteristikası ilə tanış olaq. Lakin, YSÖ-lərin ümumi xarakteristikasına nəzər yetirməzdən əvvəl artıq dünyanın bir çox iqtisadçıları tərəfindən qəbul edilmiş, dünyada mövcud olan yeni sənaye ölkələrini aşağıdakı şəkildə 4 qrupa ayırmaq olar:

I qrup: Bu qrupa Asiyanın "Kiçik əjdahaları" kimi adlandırılan ölkələri Cənubi Koreya, Tayvan, Sinqapur, Honq Konq və həmçinin Latın Amerikasının YSÖ-ləri - Argentina, Brazilya və Meksika aiddir.

II qrup: Bu qrupa Malayziya, Hindistan, Çili və Tailand aiddir.

III qrup: Bu qrupa Kipr, Tunis, Türkiyə və İndoneziya aiddir.

IV qrup: Bu qrupa isə Filippin və s. ölkələr aiddir.

Cənubi Koreyada müxtəlif dövrlərdə ÜDM-nin artan xətlə inkişafı müşahidə edilmişdi. Lakin 90-cı illərdə baş verən iqtisadi böhran nəticəsində göstəricilər aşağı düşmüşdür. ÜDM-nin yüksələn xətlə artım tempi adambaşına düşən real gəliri hər 10-12 ildən bir 2 dəfəyə artırır. Aydındır ki, iqtisadiyyatın bu cür sürətlə inkişaf etməsi infilyasiyadan da yan keçə bilməzdi. Bu, hökümətin bir sıra anti-infiyasiya tədbirlərinə əl atmasına səbəb oldu. Belə bir halda, ölkədə köklü struktur dəyişikliklərinə gətirib çıxardı. Həyata keçirilən bu tədbirlər nəticəsində 1960-2000-ci illərdə ÜDM-də kənd təsərrüfatının payı 40% -dən 7% -ə endirilərkən, sənayenin payı 30%-dən 43%-ə qaldırıldı. İnfilyasıyanın aradan qaldırılması üçün xarici kapitaldan və eyni zamanda beynəlxalq bankların köməyindən istifadə edildi. Yüksək iqtisadi inkişafa səbəb olan əsas amillərdən biri də xarici texnologiyaların alınmasıdır. Cənubi Koreyanın iqtisadi inkişafının ümumi xarakteristikasını verərkən onu da qeyd etmək lazımdır ki, müasir dövrdə ölkədə keçirilən iqtisadi siyasətin xüsusiyyətlərinə, həmçinin orta və kiçik sahibkarlığın inkişafına yardım göstərmək, kredit sahəsində xüsusi kapitalın rolunu artırmaq, uçot stavkalarının idarə olunmasında dövlətin rolunu azaltmaq və s. daxildir. Dünyanın bir çox ölkələrində ABŞ, Yaponiya, Fillandiya, və eyni zamanda Cənubi Koreyadada insan kapitalına xüsusi "Koreya təşəbbüsü" adlanan yeni modeli tətbiq etməyi təklif edir. Bu model aşağıdakı faktorlarla xarakterizə olunur: hökumət tərəfindən yürüdülən ictimai-siyasi İqtisadi Planlaşdırma Şurasına önəm verilir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələr maddi ehtiyatlardan daha çox təhsilin yetişdirdiyi insan kapitalından yararlanmışlar, böyük gəlirlər əldə etməyə başlamış və həmin gəlirlər bu gündə sürətlə artır. [10]

"Cənubi Koreya 1996-cı ildə İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatına daxil olmağa müvəffəq oldu. Son zamanlar ölkə beynəlxalq əməkdaşlığın inkişafına dəstək vermək məqsədi ilə inkişaf etməkdə olan ölkələr kimi pilot agentliklərin effektiv rolu, ehtiyatların strateji bölüşdürülməsi, insan resurslarının inkişafı, mərkəzləşmiş tədqiqat və inkişaf sərmayesi, güclü liderlik, xalqın modernizasiya və industralizasiyaya güclü meyli, zəngin millətin və güclü ordunun yaradılması ideyası, soyuq müharibə strukturu və s. modelini seçdi. Bu modelin ən üstün cəhəti isə onun ölkədə yoxsulluğu azaldılmasına və qısa müddət ərzində yüksək iqtisadi inkişafa töhfə verməsindədir. [9]

Cənubi Koreyanın ötən əsrin ikinci yarısında reallaşan inkişaf proqramının məhsulu hesab edilən "Pasco" şirkəti dünyanın 30 nəhəng ağır sənaye şirkətindən biridir. 2011-ci il statistik məlumatlarına görə, dünya iqtisadiyyatının indiki inkişaf mərhələsində ağır sənayenin qara metallurgiya sahəsi üzrə 1,49 milyard ton polad istehsal olunmuşdur ki, əsas hissəsi Asiyanın payına düşür, bu da 954,1 milyon tondur, bunun böyük hissəsi isə "Pasco" şirkətinin payına düşür. 1968-ci ildə qurulan "Pasco" polad şirkəti Toe Jon Park tərəfindən sərmaye, texnologiya və təcrübənin demək olar ki, olmadığı bir dövrdə yalnız 34 işçi ilə qurulan "Pasco", bugün dünyanın polad nəhəngləri arasındadır. "Pasco" şirkətinin hal-hazırda 37 milyard dollarlıq var-dövləti var. Hazırda "Pasco"da 17 min 600 adam çalışır. Şirkətin 22 ölkədə

ümumilikdə 42 polad xidməti mərkəzi fəaliyyət göstərir. [10]

Dünyada inkişaf edən bütün ölkələrin "elektron hökumət" sistemləri üç əsas indeks üzrə müəyyənləşdirilir. Bunlar aşağıdakılardır:

1. Onlayn xidmət göstərilməsi
2. Müasir tələblərə uyğun telekommunikasiya infrastrukturu
3. İnsan kapitalı.

Təcrübə göstərir ki, "elektron hökumət " texnologiyalarına yüksək iqtisadi inkişafa malik olan ölkələr daha fəal keçirlər. "Elektron hökumət" texnologiyalardan istifadəsinə görə Cənubi Koreya, Sinqapur, ABŞ, Böyük Britaniya və Avropanın aparıcı iqtisadiyyatına malik olan ölkələr - Niderland, Böyük Britaniya, Danimarka lider ölkələr siyahısındadırlar. Ölkələr üzrə yaradılmış və istifadə olunan "elektron hökumət" sistemləri tərəfindən təqdim olunan onlayn xidmətlərin inkişafının əsas meyarı "bir pəncərə" prinsipi üzərində qurulmuş "elektron xidmət" portalıdır. Cənubi Koreyanın lider olmasının əsas səbəblərindən biri də mobil telefonların imkanlarından yararlanması, İphone və Android sistemləri üçün mobil əlaqələrdən (proqramların) geniş istifadə olunması, bütün ölkə ərazisində 3G şəbəkəsi vasitəsi ilə əlyetərliliyinin təmin edilməsidir. Koreyada "elektron hökumət" portalı istifadəçilərə təqdim olunan bütün elektron xidmətlərin 87%-ni bir nöqtədə (portalda) cəmləşdirir. Cənubi Koreyanın hər bir vətəndaşı öz maraqlarına uyğun "elektron hökumət" portalından çox rahat istifadə edir və istənilən vaxt mobil telefonunda olan mobil əlavələr (proqramlar) vasitəsilə istənilən sorğuya çox tez bir zamanda cavab ala bilər. Maraqlıdır ki, Cənubi Koreya hökuməti "elektron hökumət" sistemi vasitəsilə vətəndaşlara tam dolğun elektron təlim (təhsili) əmək onlayn birjasını təqdim edir. [13]

1991-ci ildən müstəqilliyini elan edən Azərbaycan Respublikası 1992-ci ildən bir sıra dövlətlərlə, eyni zamanda Cənubi Koreya ilə siyasi, iqtisadi, mədəni əlaqələr yaratmışdır. İnkişafda olan ölkələrin sırasına daxil olan Azərbaycan Respublikası inkişafın əsasını insan kapitalında görür. Bu səbəbdən təhsilə, elmə külli miqdarda vəsait ayrılır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin uzaq görən siyasəti nəticəsində müstəqilliyimizin ilk illərində güclü əlaqələr qurulmuşdur. Daha sonra İlham Əliyevin təşəbbüsu ilə bu siyasət davam etdirilmişdir. Koreya Respublikasının Azərbaycan Respublikasında 4 mart 2006-cı ildə səfirliyi açılmışdır. Daha sonra Azərbaycan Respublikasının 14 mart 2007-ci ildə Koreya Respublikasında səfirliyi fəaliyyətə başlamışdır. Bundan sonra 2007-ci il 23-25 aprel tarixində Prezident İlham Əliyevin Koreya Respublikasına ilk rəsmi səfəri olmuşdur. Koreya Respublikası ilə mühüm müqavilələr imzalanmışdır. [11]

Bugün Azərbaycan və Koreya Respublikası təkcə neft sektorunda deyil, eyni zamanda, qeyri neft sektorundada əməkdaşlıq edir və bu səbəbdən də, son dövrlərdə təhsil, mədəniyyət, sənaye sahəsində də əlaqələr qurulmuşdur. Dövlətimiz gənclərə hər zaman qayğı ilə yanaşmış və bunun nəticəsidir ki, son illər gənc mütəxəssislərin yetişməsi üçün Azərbaycandan kənarda təhsil alanların sayı günü-gündən artır. Bu isə dövlətin yürütdüyü siyasətlə üst-üstə düşür. Çünki dövlətin əsas məqsədi neft kapitalını insan kapitalı ilə əvəz etməkdir. Bu siyasəti inkişaf etmiş dövlətlərin demək olar ki, əksəriyyətində müşahidə etmək olar.

XX əsrin ortalarında öz müstəqilliyinə qovuşan Koreya Respublikası kasıb aqrar ölkədən sənaye və post senaye ölkəsinə qədər inkişaf yolu keçmişdir. Cənubi Koreyanın sürətli iqtisadiyyatının əsasını insan kapitalı təşkil edir. Bu səbəbdən elmə, təhsilə xüsusi diqqət və qayğı ilə yanaşılır. Cənubi Koreya Respublikasının bugün əsas məqsədi öz universitetlərinə yüksək səviyyəli tələbə və alim, professor heyətini cəlb etmək, təhsildə yeni-yeni nailiyyətlər əldə etməkdir.

İstifadə edilmiş ədəbiyyat:

1.Abbasbəyli A.N "Dünya siyasəti (XX əsrin ikinci yarısı –XXI əsrin əvvəlləri"Bakı 2011, 425s
2..Abbasbəyli A.N. "Beynəlxalq münasibətlərin proqnazlaşdırılmasının nəzəri problemləri", Bakı 2006
3. Qasımov F.H. "Azərbaycan Milli Elmlər Akademiyası xəbərlər Elm və İnnovasiya, Azərbaycanda İnnovasiyanın vəziyyəti və onun inkişaf perspektivləri
4. Mənmədov B., Hüseynov R. "Azərbaycan müəllimi" jurnalı. Koreya Respublikasında təhsil sistemi – www.muallim.edu.az/arxiv2011/24/16.htm 09.11.2014
5. İnformasiya cəmiyyəti problemləri 2012 15-25 s. AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan.
6. Han M.Annotated Chronology of Korean's Science and Texnology From Rise Paddies to Flat Panel Displays
URL:http://www.duke.edu/myhon/kaf0401.html23.012015
7. www.huba.ru 20.12.2014
8. www.azproma.az 19.12.2014
9. http://e-qanun.az/filis/frame work/data/iz/f-12414html 06.01.2015
10. Səfalətdən Zirvəyə http:(sia.az)news/interesting/67895 23.11.2014
11. mfa.gov.az/files/file/Azərbaycan-Koreya münasibətləri 15.01.2015
12. http://www ikisahil com/index php/analitik/item 9813 "Azərbaycan-Koreya dostluq körpüsünə töhvə". 20.12.2014
13. https://reg.e-gov.az/Upload/ 20.12.2014

Şövkət Tağıyeva

Azərbaycan elminə ağır itki üz verib. Görkəmli şərqşünas, tarixçi alim, tarix elmləri doktoru, professor Şövkət xanım Tağıyeva ömrünün 89-cu ilində vəfat edib.

Ş.Tağıyeva 1926-cı ildə Bakıda anadan olub. O, ADU-nun (indiki BDU) Şərqşünaslıq fakültəsinin ilk məzunlarındandır. Şərq tarixi üzrə elmlər namizədi və doktoru adını almış ilk azərbaycanlı qadındır. Onun gərgin elmi axtarışlarının bəhrəsi olan «İran Azərbaycanında milli-azadlıq hərəkatı (1917-20-ci illər)» adlı ilk monoqrafiyası 50-ci illərdə çapdan çıxıb. Daha sonra onun «XIX əsrin sonu- XX əsrin əvvəllərində İranda torpaq mülkiyyətinin formaları və torpaqdan istifadə qaydaları», 60-cı illərin sonlarında «XIX əsrin sonu XX əsrin əvvəllərində İran kəndlilərinin vəziyyəti», az sonra «Təbriz üsyanı» adlı monoqrafiyaları çap olunub. Çağdaş İranın və Güney Azərbaycanın sosial-siyasi durumuna, bu bölgədə gedən siyasi, sosial-mədəni və iqtisadi proseslərə dair onun 40-dan çox dəyərli məqaləsi var. Onlarca elmi-publisistik yazıları Moskva, Özbəkistan, Türkiyə, İran, Almaniya və Kanadada çap edilib.

Güney Azərbaycanın tarixi, siyasi və sosial məsələlərinin elmi prizmadan işıqlandırılması sahəsində yorulmadan çalışan bu cəfakeş alim İran tarixşünaslığı ilə bağlı bir sıra məsələlərin obyektiv tədqiqində əvəzsiz xidmətlər göstərib.

Güney Azərbaycanın ən yeni tarixinə aid hər hansı məsələnin qoyuluşu və elmi şərhi Ş.Tağıyevanın əsərlərinə istinadsız keçinə bilmir. Ş.Tağıyeva 1976-cı ildə Azərbaycan EA Şərqşünaslıq İnstitutunun elmi strukturunda «Cənubi Azərbaycan tarixi şöbəsi»nin yaradılmasına nail olub, az müddətdə gənc və istedadlı araşdırıcıları ətrafına toplayıb, onlara elmi istiqamət verib.

Şövkət xanımın başçılığıyla aparılan elmi axtarışların nəticəsi olaraq «Cənubi Azərbaycan tarixi oçerkləri» adlı dəyərli kitabın 1-ci cildi işıq üzü görüb. Şərqşünas mütəxəssislər stolüstü kitabı olan bu qiymətli əsər tarixşünaslığımızın Güney qolu üzrə ilk sanballı əsərdir. «Güney Azərbaycan» kitabı da onun adı və zəhməti ilə bağlıdır.

Hazırda orta məktəblərdə tədris olunan «Azərbaycan tarixi» kitablarının Güney Azərbaycana aid bölmələri Şövkət xanımın əməyinin məhsuludur. Onun yazılarında Vətənin zorla parçalanması, başına gətirilən müsibətlər və bütöv Azərbaycan ideyası çox geniş diapazonda və aparıcı xətlə verilir.

Azərbaycanın mütəfəkkir oğlu və siyasi xadimi Ş.M.Xiyabanini o taylı-bu taylı elmi ictimaiyyətə tanıtdıranlardan biri məhz Ş.Tağıyevadır. Haqlı olaraq onu Xiyabaninin ən yaxşı təbliğatçısı və mənəvi varislərindən biri hesab edirlər.

Şövkət Tağıyeva Azərbaycan şərqşünaslığında özünəməxsus cığır açıb, sağlığında ikən öz məktəbini – Güney Azərbaycanşünaslıq məktəbini yarada bilib.

Görkəmli şərqşünas alim Şövkət Tağıyevanın əziz xatirəsi həmkarlarının, onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

Cəmilə Sadıqova

Azərbaycan elminə ağır itki üz verib. Görkəmli şərqşünas alim, filologiya elmləri namizədi, AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri" şöbəsinin aparıcı elmi işçisi Cəmilə Əli qızı Sadıqova 2015-ci il martın 17-də ömrünün 80-ci ilində vəfat edib.

Cəmilə Sadıqova Azərbaycanda fars dilinin, dilçilik tarixinin və leksikoqrafiyasının tədqiqində böyük xidmətləri olan alimlərdəndir. O, həyatının 56 ilini AMEA Şərqşünaslıq İnstitutunda elmi fəaliyyətə sərf edib.

Cəmilə Sadıqova 1935-ci il dekabrın 12-də Azərbaycan Respublikası Şəmkir rayonunun Naxırçılar qəsəbəsində anadan olub. O, 1953-cü ildə həmin rayonda orta məktəbi bitirib, 1954-cü ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin fars dili şöbəsinə daxil olub.

C.Sadıqova 1959-cu ildə Universiteti bitirib, təyinatla Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna göndərilib. İki il kiçik elmi işçi vəzifəsində çalışdıqdan sonra 1961-64-cü illərdə həmin institutun nəzdində fars dili üzrə aspiranturada təhsil alıb.

1965-ci ildə «Fars dilində şəxs əvəzlikləri (tarixi aspektdə)» mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib və filologiya elmləri namizədi adını alıb.

Filologiya elmləri namizədi C.Sadıqova həmin dövrdən ömrünün sonuna qədər Şərqşünaslıq institutunda elmi fəaliyyətini davam etdirib və fars dilçiliyi üzrə 100-ə yaxın məqalə və monoqrafiya yazıb. Onun «Fars dilində şəxs əvəzliyi (tarixi aspektdə)» adlı monoqrafiyası 1975-ci ildə «Elm» nəşriyyatında nəşr olunub.

C.Sadıqova sonralar həmkarı Təyyibə Ələsgərova ilə birgə fars dilçiliyinin müxtəlif sahələrinə dair tədqiqatlar aparıb, fars dilçilik tarixi və leksikoqrafiyası sahəsində bir sıra məqalə və kitablar nəşr etdirib.

Azərbaycanda fars dilinin tədqiqinin zəngin tarixini araşdırmış C.Sadıqovanın T.Ələsgərova ilə birgə 1990-cı ildə «Fars dilini tədqiq edən Azərbaycan alimləri» adlı kitabı çapdan çıxıb. Əsərin uğuru və böyük əhəmiyyəti İran naşirlərinin də diqqətini cəlb edib və bu kitab fars dilinə tərcümə edilərək 1999-cu ildə Tehranda «Təhqiqate daneşməndane Azərbaycan dər bareye zəbane farsi» adı altında çapdan çıxıb.

C.Sadıqova T.Ələsgərova ilə birgə elmi araşdırmalarını fars-türk leksikoqrafiyasının təşəkkül dövrünün tədqiqi ilə davam etdirib. Bu tədqiqatların nəticəsində 1993-cü ildə 13-cü əsrin görkəmli Azərbaycan alimi Hinduşah Naxçıvaninin «əs-Sihah əl-əcəmiyyə» lüğətinin elmi-tənqidi mətnini, 1996-cı ildə isə həmin dövrün daha bir görkəmli Azərbaycan alimi Hüsaməddin Xoyinin leksikoqrafiyamız tarixində ilk mənzum lüğət olan «Töhfeyi Hüsam» əsərinin elmi-tənqidi mətnini, transkripsiyasını, türkcə sözlüyün əlifba sırası ilə düzümünü və dil xüsusiyyətlərini əhatə edən kitabları çapdan çıxıb.

«Əs-sihah əl-əcəmiyyə» kitabı H.Z.Tağıyev adına mükafata layiq görülərək yüksək qiymətləndirilib.

C.Sadıqovanın İran və Türkiyədə də fars dilçiliyinə dair elmi məqalələri çap edilib.

Görkəmli şərqşünas alim Cəmilə Əli qızı Sadıqovanın əziz xatirəsi həmkarlarının, onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

Dünyamalı Vəliyev. «Türk dünyası qlobal iqtisadi inkişaf yollarında»



AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda türk dünyasının iqtisadiyyatına həsr olunmuş yeni kitab işıq üzü görüb. «Türk dünyası qlobal iqtisadi inkişaf yollarında» adlı topluya Şərqşünaslıq İnstitutunun «Şərq-Qərb» şöbəsinin müdiri, iqtisadiyyat üzrə elmlər doktoru Dünyamalı Vəliyevin uzun illər türk dünyasının iqtisadi inkişaf problemləri haqqında yazdığı məqalələr daxil edilib.

Kitabda ilk öncə Milli Məclisin deputatı, Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyevanın ön sözü təqdim edilir. Toplu 3 bölmədən ibarətdir. Azərbaycan və Türkiyənin iqtisadi inkişaf problemlərinə həsr edilmiş yazılar iki ayrı bölmədə verilir. Türk dünyasının ortaq problemləri «Türk dünyası qlobal iqtisadi inkişaf yollarında» adlı bölmədə oxucuların nəzərinə çatdırılır. Bu bölmənin son fəsli müəllifin dünya iqtisadiyyatı və qloballaşma haqqında mühazirələrinə həsr edilib.

«Средневековый восток. Проблемы историографии и источниковедения»

AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Sovet İttifaqı Qəhrəmanı, Şərqşünaslıq İnstitutunun direktoru olmuş dünya şöhrətli alim, akademik Ziya Bünyadovun xatirəsinə həsr edilmiş «Средневековый восток. Проблемы историографии и источниковедения» adlı toplu işıq üzü görüb. Rus dilində məqalələrin toplandığı toplu Orta əsrlər Şərqinin tarixşünaslıq və mənbəşünaslığının aktual problemlərini əhatə edir. AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Şahin Mustafayevin redaktəsi altında işıq üzü görmüş topluda Azərbaycan, Rusiya, Gürcüstan,



Tacikistan, Kanada və ABŞ-dan olan alimlərin məqalələri yer alır.

Topluda Azərbaycan alimlərindən Ş.Mustafayevin XVI əsrin birinci yarısı və ortalarında Səfəvi tarixi salnamələrində Osmanlı surətlərinə, F.Əsədovun XX əsrin ikinci yarısında aparılmış tədqiqatlarda Xəzərlərin hökmranlığının müddətinə dair mübahisələrə, N.Axundovanın ərəb-türk münasibətlərinin ilkin dövründə türk hərb sənətinin müsəlman ərəblərə təsirinə dair məqalələri yer alır. Digər ölkələri təmsil edən alimlərdən Kanadadan H.Məmmədovun XV-XVI əsrlər Osmanlı tarixi ədəbiyyatında əcnəbi surətə - Əmir Teymura; Gürcüstandan E.Maçitidzenin Osmanlı imperiyasında yəhudi millətinin tarixinə, ABŞ-dan M.Tolmaçovanın coğrafi biliklər sahəsində Əhməd ibn Məcid və Ptolomey timsalında elmdə sələflərin nüfuzuna; Rusiyadan A.Şıxsəidovun Avropa tarixşünaslığında "Dərbəndnamə" tarixi xronikasına həsr olunmuş və s. məqalələri qeyd etmək olar.

Şərqşünaslıq İnstitutunun "Elmi araşdırmalar"ı. X buraxılış

AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutun "Elmi araşdırmalar"ının X buraxılışı işıq üzü görüb. Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyevanın ümumi redaktəsi, institutun direktor müavini, AMEA-nın müxbir üzvü Şahin Mustafayevin və "İran filologiyası" şöbəsinin aparıcı elmi işçisi f.ü.f.d. Səadət Şıxıyevanın elmi redaktəsi ilə nəşr olunmuş elmi-nəzəri məqalələr toplusunun bu sayında 50-yə yaxın məqalə 6 bölmədə təqdim olunub. "Ədəbiyyatşünaslıq" bölməsində Səbinə Səlimovanın "Harun ər-Rəşid obrazı ərəb folklor nümunəsində", Səadət Şıxıyevanın "Azərbaycan təsəvvüf ədəbiyyatı tarixinə bir beyti ilə daxil olan şair - Şah



Xəndan", Paşa Kərimovun "Sürüri dövrü Vatikan nüsxəsi" və s. kimi maraqlı məqalələri dərc olu-

nub. Dilçiliklə bağlı bölmədə Laura Orucovanın "Əl-Bərdəinin "Hədəiqüd-dəqiq" adlı əsəri əsasında ərəb dilində köməkçi sözlərin rolu", Zenfira Rüstəmovanın "İraq-türkman dialektinin tədqiq tarixi haqqında bəzi mülahizələr" kimi məqalələrini qeyd etmək olar. "Tarix, arxeologiya, etnoqrafiya" bölməsində Şahin Mustafayevin "Çağdaş Azərbaycan tarixşünaslığının bəzi nəzəri məsələləri", Fərda Əsədovun "Xəzərlərin ərəblərlə İpək yolu ticarətində tərəfdaşlığı", Vidadi Mustafayevin "Cənubi azərbaycanlıların etnonim məsələsi" və s. məqalələr yer alıb. Topluda həmçinin Qadir Səfərovun "İbn Ərəbinin "Əyani-sabitə"si islam metafizik fikrində yeni mərhələ kimi" ("Fəlsəfə" bölməsində), "Esmeralda Həsənovanın "Türkiyə ictimai-siyasi fikrində nurçuluq" ("İlahiyyat" bölməsində), Dünyamalı Vəliyev və Zahediavval Masudun "Qlobal maliyyə böhranının (2008-2010-cu illər) Yaxın Şərq ölkələrində təzahürü xüsusiyyətləri" ("İqtisadiyyat" bölməsi) kimi maraqlı məqalələr dərc olunub.

Teymur Sadıqov. Ərəb və ibri dillərində müəyyənlik və qeyri-müəyyənlik kateqoriyalarının qarşılıqlı əlaqələri

AMEA Şərqşünaslıq İnstitutunun elmi işçisi Teymur Sadıqovun



Ərəb və ibri dillərində müəyyənlik və qeyri-müəyyənlik kateqoriyalarının qarşılıqlı əlaqələri kitabı işıq üzü görüb.

Əsər üç fəsildən ibarətdir. Birinci fəsildə əsasən ənənəvi ərəb qrammatika nəzəriyyəsinin, eləcə də ibrişünas qrammatiklərin müəyyən və qeyri-müəyyən sözlərin semantik və formal xüsusiyyətlərinin öyrənilməsinə yer ayrılıb. Bu fəsildə araşdırılan dillərdə qeyri-müəyyənliklə bağlı onun bəlağət gözəlliyi, bəlağət hədəfləri və tənvinlə əlaqədar söz açılır.

Əsərin «Müəyyənlik və qeyri-müəyyənlik bir kateqoriyanın iki komponenti kimi» başlığı altında ikinci fəslində ənənəvi ərəb qrammatiklərinin, yəhudi alimlərinin, eləcə də Avropa ərəbşünaslarının fikirləri nəzərdən keçirilərək, müəyyənlik və qeyri-müəyyənlik barəsində ümumi fikir əldə edilməsinin mümkünlüyü barədə söylənilir. Bu fəsildə konkret misallar vasitəsilə bu kateqoriyanın bir-biri ilə bağlı olan iki komponentinin mahiyyətinin ayrı-ayrılıqda açılmasına cəhd göstərilir.

«Ərəb və ibri dillərində müəyyənliyin ifadə üsulları» başlıqlı üçüncü fəsil ərəb və ibri dillərində müəyyənlik artikli, bitişən əvəzliklərin müvafiq qaydalara uyğun olaraq isim və ön qoşmalarla işlənməsi, isimlərin tərkibində işlənməsi və s. göstərilir.

Əsərin sonunda qısa nəticələr, istifadə edilmiş ədəbiyyat siyahısı verilir.

Xanımzər Kərimova. «Ədəb» janrı və ət-Tənuxinin «Nişvar əl-muhadara və əxbər əl-muzəkəra» əsəri

AMEA Şərqşünaslıq İnstitutunun «Ərəb filologiyası» şöbəsinin böyük elmi işçisi, f.ü.f.d. Xanımzər Kərimovanın monoqrafiyasında ilk dəfə olaraq ərəb nəsrinin görkəmli nümayəndələrindən



olan Əbu Əli əl-Muhasssin ət-Tənuxinin «Nişvar əl-muhadara və əxbər əl-muzəkəra» əsəri əsasında «ədəb» janrı tədqiq olunur. Ət-Tənuxinin bu əsəri tədqiqata cəlb edilməklə yanaşı, ədibin həyat və yaradıcılığı ilk dəfə olaraq, geniş şəkildə araşdırılır. Xüsusilə əsərin Azərbaycan tarixi ilə bağlılığı, həmçinin Xrrəmilər hərəkatının başçısı Babək obrazı işıqlandırılır.

Əsər giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. «VIII-X əsrlərdə ərəb ədəbiyyatının inkişaf xüsusiyyətləri» başlıqlı birinci fəsildə ərəb xilafətində baş verən ictimai-siyasi şərait, ərəb-müsəlman mədəniyyətinin başlıca xüsusiyyətləri, X əsr ərəb ədəbiyyatının əsas istiqamətləri araşdırılır.

«Ədəb» janrı və ət-Tənuxinin yaradıcılığı» başlıqlı ikinci fəsildə bu janrın meydana çıxdığı ədəbi-mədəni mühit və onun ideya estetik qaynaqları, ət-Tənuxinin əsərlərinin əsas ideya-məzmun və forma-janr xüsusiyyətləri nəzərdən keçirilir.

«Nişvar əl-muhadara və əxbər əl-muzəkəra» əsəri «ədəb» janrının parlaq nümunəsi kimi» adlanan üçüncü fəsildə əsərin quruluşu, mövzu dairəsi və bədii xüsusiyyətləri təhlil edilir.

Şərqşünaslıq İnstitutunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş ümumi yığıncaq keçirilib

Mayın 6-da AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda Azərbaycan xalqının ümummilli lideri, ulu öndər, müasir Azərbaycanın banisi və qurucusu Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş ümumi yığıncaq keçirilib. Millət vəkili, İnstitutun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva çıxışında Heydər Əliyevin Azərbaycan xalqının tarixi inkişafında müstəsna xidmətlərindən danışıb: «Heydər Əliyev Azərbaycan tarixində müstəsna rolu olan şəxsiyyətdir. Azərbaycanın tarixinin 40 ili ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər xalqımızın tarixinə gördüyü misilsiz işlərlə böyük qurucu şəxsiyyət və xilaskar kimi düşüb. Onun həm sovetlər dövründə, həm də müstəqillik illərində Azərbaycan xalqına xidmətləri əvəzsizdir. Mən onu ən böyük azərbaycanlı, ən böyük vətənpərvər hesab edirəm».

Müstəqil Azərbaycanın rəhbərliyinə xalqın tələbi ilə respublikanın ən çətin vaxtında gələn Heydər Əliyevin qısa müddətdə ictimai asayişin bərpasına nail olduğunu deyən Gövhər Baxşəliyeva, ulu öndərin xalqda gələcəyə böyük inam yaratdığını, qısa bir zamanda ölkəmizin yüksək iqtisadi inkişafının əsasını qoyduğunu, regionda lider dövlətə çevirdiyini qeyd edib.

G.Baxşəliyeva Heydər Əliyevin ölkənin həyatının bütün sahələrinə, o cümlədən elmə böyük diqqət yetirdiyini söyləyib. Ulu öndərin ikinci dəfə hakimiyyətə qayıdanda, 1993-cü ildə məhz birinci görüşünü Elmlər Akademiyasında Azərbaycan ziyalıları ilə keçirdiyini xatırladan Gövhər xanım, onun həmin görüşdə söylədiyi sözləri xatırladıb: "Elmlər Akademiyası Azərbaycan xalqının bir neçə nəsli tərəfindən yaradılmış milli sərvətidir, biz onu qoruyub yaşatmalıyıq".

G.Baxşəliyeva bu gün də ulu öndərin yolunun Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini qeyd edib və ölkədə gedən nəhəng quruculuq işlərinin, gündən-günə güclənən iqtisadiyyatımızın, sürətlə abadlaşan və inkişaf edən şəhər və rayonlarımızın, mədəniyyətə, elmə, səhiyyəyə göstərilən əvəzsiz qayğının bunun əyani təsdiqi olduğunu bildirib.

Sonra Şərqşünaslıq İnstitutunun "Şərq-Qərb" şöbəsinin müdiri, iqtisadiyyat üzrə elmlər doktoru Dünyamalı Vəliyev çıxış edərək Heydər Əliyevin həm sovetlər dövründə respublikamızın inkişafı yolunda göstərdiyi xidmətlərdən, həm də müstəqillik illərində ölkə iqtisadiyyatını ən çətin vəziyyətlərdən çıxardaraq yüksək inkişaf istiqamətinə yönəltməsindən və bu sahədə görülən işlərdən danışıb.

Daha sonra institutun "Ərəb filologiyası" şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru Vilayət Cəfər, "Cənubi Azərbaycan" şöbəsinin müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Əkrəm Bije, institutun həmkarlar təşkilatının sədri, hüquq üzrə fəlsəfə doktoru Soltanəli Mirzəzadə çıxış edərək, ulu öndərin Azərbaycan xalqının həyatında və elmimizin inkişafında müstəsna xidmətlərindən söz açıblar.

20 Yanvar faciəsinin 25-ci ildönümü qeyd edilib

Yanvarın 16-da AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda 1990-cı il yanvarın 20-də sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı faciədə şəhidlik zirvəsinə ucalan mərd Vətən övladlarının xatirəsi yad edilib. 20 Yanvar faciəsinin 25-ci ildönümünə həsr edilmiş tədbirdə çıxış edən millət vəkili, Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş faciəli hadisələrin xalqımızın qəhrəmanlıq tarixi olduğunu qeyd edib: "Həmin gecə Azərbaycan xalqı öz müstəqilliyi, azadlığı uğrunda mübarizəyə qalxdı. Böyük imperiyanın hərbi maşını Azərbaycana təcavüz etmişdi. Ağır hərbi texnikanın və təpədən-dırnağadək silahlanmış amansız hərbçilərin qarşısına əliyalın çıxmaq fədailik idi. Şəhidlərimiz öz qanları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə növbəti səhifə yazdılar. Bu qanlı hadisələrdə xalqımız 132 şəhid verdi, 700-ə yaxın insan yaralandı".

G.Baxşəliyeva həmin günlərdə, Azərbaycanın hərtərəfli blokadaya alındığı bir zamanda ümummilli lider Heydər Əliyevin Moskvada, başda Mixail Qorbaçov olmaqla Sovet rəhbərliyini tənqid edən bəyanat verməsini və Azərbaycan xalqının səsini bütün dünyaya çatdırmasını vurğulayıb. Gövhər xanım şəhidlərin xatirəsinin anılması ilə bağlı fərman və sərəncamları da qeyd edib.

Tədbirdə Şərqşünaslıq İnstitutunun "Ərəb filologiyası" şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru Vilayət Cəfərov, "Şərq-Qərb" şöbəsinin müdiri, iqtisadiyyat üzrə elmlər doktoru Dünyamalı Vəliyev, "İran tarixi və iqtisadiyyatı" şöbəsinin baş elmi işçisi, tarix üzrə elmlər doktoru Solmaz Rüstəmova-Tohidi, "Cənubi Azərbaycan" şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Sübhan Talıblı və başqaları çıxış edərək bu qanlı hadisələrdən illər keçməsinə baxmayaraq, xalqımızın o müdhiş gecəni daim xatırladığını və bu faciəni törədənlərə öz dərin nifrətini bildirdiyini söylədilər.

Xocalı şəhidləri Şərqşünaslıq İnstitutunda anıldılar

XX əsrin ən dəhşətli faciələrindən biri kimi tarixə düşən Xocalı soyqırımının qurbanları AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda anılıblar. Fevralın 23-də Şərqşünaslıq İnstitutunda keçirilən Xocalı şəhidlərinin anım tədbirində çıxış edən millət vəkili, Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva fevralın 26-sının Azərbaycan xalqı üçün çox ağrılı bir gün olduğunu qeyd edib. Millət vəkili Xocalı faciəsinə qədər xalqımıza qarşı törədilən qətliamlar, onların səbəblərindən də danışıb, Xocalıda əhaliyə qarşı törədilən vəhşilikləri pisləyib. Gövhər xanım soyqırımla bağlı statistikanı da nəzərə çatdırıb.

Xocalı faciəsinin ağır nəticələri barədə danışan G.Baxşəliyeva, xalqımızın bu günü böyük hüzn və kədərlə qeyd etdiyini söyləyib və xocalıların erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşduqlarını, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazdıqlarını bildirib.

Gövhər Baxşəliyeva Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası çərçivəsində görülən işlərdən, bu çərçivədə Xocalı soyqırımının Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınması üçün həyata keçirilən məqsədyönlü fəa-

liyyətdən, bu istiqamətdə İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumlar səviyyəsində görülən tədbirlərdən danışıb.

Xocalı faciəsinin iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsi olduğunu qeyd edən Gövhər xanım, Xocalının səsini bütün dünyaya bəyan etməyin hər bir azərbaycanlının borcu olduğunu söyləyib. G.Baxşəliyeva erməni millətçilərinin tarix boyu xalqımıza qarşı istər Şimali, istərsə də Cənubi Azərbaycanda həyata keçirdikləri soyqırımları barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində Şərqşünaslıq İnstitutun əməkdaşlarının gördükləri işlərdən danışıb.

Tədbirdə institut əməkdaşlarından "Din və ictimai fikir tarixi" şöbəsinin müdiri Esmeralda Həsənova, "Cənubi Azərbaycan" şöbəsinin müdiri Səməd Bayramzadə və başqaları çıxış edərək, Xocalı faciəsinin Azərbaycan xalqını sarsıtdığını, Xocalı sakinlərinə sağalmaz yaralar, mənəvi zərbələr vurduğunu söyləməklə yanaşı, xocalıların amansız soyqırım günündə də özlərini əsl qəhrəman kimi apardıqlarını qeyd ediblər.

Görkəmli şərqşünas Aida İmanquliyevanın xatirəsi anıldı

Sentyabrın 19-da və noyabrın 10-da AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin kollektivləri, eləcə də Respublika qadın ictimaiyyətinin nümayəndələri II Fəxri Xiyabanda görkəmli şərqşünas alim Aida İmanquliyevanın məzarını ziyarət edib, xatirəsini dərin ehtiramla anıb, məzarı üzərinə əkliller qoyub, gül dəstələri düzüblər.

Sentyabrın 19-da Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü, professor Gövhər Baxşəliyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış edərək 23 il öncə dünyasını dəyişmiş böyük alimin keçdiyi 53-illik həyat yolundan, zəngin və dəyərli elmi fəaliyyətindən danışıblar. G.Baxşəliyeva Aida xanımın həm bir alim kimi dünya şərqşünaslıq elminə böyük töhfələr verdiyini, həm də bir qadın, ana, həyat yoldaşı kimi Azərbaycan qadınına örnək bir ömür yaşadığını qeyd edib. Aida xanımın elmi fəaliyyətinin hər bir dövrünü xatırladan Gövhər xanım, onun müasir ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə açdığını, yeni bir məktəbin əsasını qoyduğunu söyləyib. Böyük alimin qoyduğu zəngin elmi irslə yanaşı, elmi kadrların hazırlanmasında göstərdiyi xidmətlərdən söz açan G.Baxşəliyeva, onun Şərqşünaslıq İnstitutuna rəhbərlik etdiyi dövrdə bacarıqlı bir təşkilatçı kimi özünü göstərdiyini vurğulayıb. G.Baxşəliyeva Aida İmanquliyevanın itkisinin tək şərqşünaslığın deyil, bütövlükdə Azərbaycan elminin böyük itkisi olduğunu qeyd edib.

Oktyabrın 10-da Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova və YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, YAP Nəsimi rayon Qadınlar Şurası sədrinin müavini Zərifə Quliyeva çıxış edərək, oktyabrın 10-da anadan olmasının 76 illiyi qeyd edilən görkəmli alimin keçdiyi mənalı həyat yolundan, dünya şərqşünaslığı üçün qoyduğu zəngin elmi irsdən söz açıblar.



Ziya Bünyadovun ingilis dilində çap olunmuş "Xarəzmşahlar-Anuştəqinilər dövləti. 1097-1231" kitabının təqdimat mərasimi keçirilib

AMEA Milli Azərbaycan Tarixi Muzeyində 2015-ci il mayın 14-də görkəmli şərqşünas alim, Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadovun ingilis dilində çap olunmuş "Xarəzmşahlar- Anuştəqinilər dövləti. 1097-1231" kitabının təqdimat mərasimi keçirilib. Tədbir Milli Azərbaycan Tarixi Muzeyi, Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu və Özbəkistan Respublikasının Azərbaycan respublikasındakı səfirliyi ilə birlikdə təşkil olunmuşdur. Akademik Ziya Bünyadovun fundamental tədqiqat əsərlərindən biri olan bu kitab YUNESCO-nun Beynəlxalq Mərkəzi Asiya Tədqiqatlar İnstitutu tərəfindən ingilis dilinə tərcümə olunub və çapa hazırlanmışdır. Kitab 2015-ci ildə AMEA Şərqşünaslıq İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Şahin Mustafayev və İngiltərə şərqşünası Tomos Velsfordun elmi redaktəsi ilə nəşr edilmişdir.

Təqdimat mərasiminə tanınmış şərqşünas alimlər, tarixçilər, Azərbaycan Respublikasında akkreditə olunmuş səfirliklərin nümayəndələri və s. iştirak etdilər.

Tədbir zalında qonaqlar Z.M.Bünyadovun həyat və fəaliyyətini əks etdirən şəxsi sənədləri və elmi əsərlərindən ibarət stendlərlə tanış oldular.

Mərasimi giriş sözü ilə, muzeyin direktoru akademik Nailə Vəlixanlı açaraq, qonaqları salamlayıb. O, Ziya

Bünyadovun görkəmli şəxsiyyət və şərqşünas alim kimi fəaliyyəti, şəxsi keyfiyyətləri barəsində ətraflı danışıb. Sonra natiq təqdimatı keçirilən kitabın strukturu və mahiyyəti barəsində məlumat verib.

Daha sonra şərqşünas alimə həsr olunmuş "Akademik Ziya Bünyadovun missiyası" sənədli filmi nümayiş olunub.

AMEA vise-prezidenti, akademik İsa Həbibbəyli öz çıxışında Şərq və türk-müsəlman xalqlarının tarixinin

öyrənilməsində Azərbaycan elminin qazandığı nailiyyətləri qeyd edib, bu işdə akademik Ziya Bünyadovun zəhmətini xüsusi vurğulayıb. O, müstəqil Azərbaycanda tarix və şərqşünaslıq elminin inkişafına göstərilən dövlət qayğısına toxunaraq alimlərimizin bundan sonra da fundamental əsərlər yaradacaqlarına əmin olmasını qeyd edib.

AMEA-nın müxbir üzvü Şahin Mustafayev öz çıxışında kitabın tərcüməsi və çapını təşkil etmiş Beynəl-

xalq Mərkəzi Asiya Tədqiqatlar İnstitutunun fəaliyyəti, türk xalqlarının tədqiqinə İnstitutun töhfəsi barəsində danışıb və müvafiq prezentasiyanı təqdim edib. Akademik Ziya Bünyadovun "Xarəzmşahlar- Anuştəqinilər dövləti. 1097-1231" adlı kitabın ingilis dilində çap olunmasının Azərbaycan elminin dünya ictimaiyyətinə tanıdılmasında mühüm əhəmiyyətə malik olması xüsusilə vurğulanıb.

Tədbirdə çıxış edən AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva Ziya Bünyadovun şəqrşünaslıq el-

mində yeri və rolundan danışıb. Azərbaycan tarixini saxtalaşdıranlara qarşı inadlı mübarizə aparmış Z.Bünyadovun elmi əsərləri tariximizin neçə-neçə qaranlıq səhifəsinin açılmasında mühüm rol oynamışdır.

Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri Şerzod Fayziyev Urgənc şəhərinin fəxri vətəndaşı olmuş Ziya Bünyadovun Azərbaycan-Özbəkistan dostluq münasibətlərində yeri və rolu barəsində çıxış edib.

Tanınmış şərqşünas alimi tanıyanlar onunla bağlı xatirələrini bölüşüblər.

Kuba səfiri Şərqşünaslıq İnstitutunda oldu

Kuba Respublikasının Azərbaycandakı səfiri Omar Medina Kintero aprelin 8-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olub. Səfir ilk olaraq institutun direktoru, AMEA-nın müxbir üzvü, millət vəkili Gövhər Baxşəliyeva ilə görüşüb. Görüşdə ölkələrimiz arasında əlaqələrdən söz açılıb, səfirə Şərqşünaslıq İnstitutunun fəaliyyət istiqamətləri barədə məlumat verilib.

Səfir daha sonra Şərqşünaslıq İnstitutunun kollektivi ilə görüşüb. Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva Omar Medina Kinteronu institut əməkdaşlarına təqdim edib. Omar Medina Kintero ölkəsinin tarixindən və hazırkı durumundan bəhs edib, ölkələrimiz arasında əlaqələrdən danışıb. Kubanın müsəlman əhalisindən də danışan səfir, ölkəsində Səudiyyə Ərəbistanı və Türkiyənin təşəbbüsü ilə iki məscidin inşa olunacağını bildirib. Sonda Omar Medina Kintero şərqşünas alimləri maraqlandıran suallara cavab verib.

Azad İslam Universiteti ilə əməkdaşlıq perspektivləri müzakirə edilib

İran İslam Respublikasının Azad İslam Universitetinin rektoru, mədəniyyət və islami irşad nazirinin müşaviri Pərvin Dadəndiş aprelin 10-da AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olub. P.Dadəndiş millət vəkili, Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir Gövhər Baxşəliyeva ilə görüşüb. Görüşdə ölkələrimiz arasında elmi, mədəni əlaqələrdən söz açılıb, Şərqşünaslıq İnstitutu ilə Azad İslam Universitetinin əməkdaşlıq perspektivləri müzakirə edilib. Tərəflər arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandumun bağlanması qərara alınıb və yaxın vaxtlarda bu memorandumun hazırlanaraq imzalanması planlaşdırılır.

AMEA Şərqşünaslıq İnstitutunun və Ərciyəz Universitetinin alimləri Cənubi Azərbaycanda soyqırım aktını birgə araşdıracaqlar

Beynəlxalq elmi əlaqələrini ildən-ilə artıran AMEA akademik Zİya Bünyadov adına Şərqşünaslıq İnstitutu xarici elm və təhsil müəssisələri ilə birgə elmi layihələrin həyata keçirilməsi istiqamətində də fəaliyyətini genişləndirməkdədir. Buna bir nümunə də Şərqşünaslıq İnstitutunun Türkiyənin Ərciyəz Universiteti Ədəbiyyat fakültəsi Şərq dilləri bölümü ilə yeni bağladığı müqavilədir. Bu müqaviləyə əsasən tərəflər çox mühüm bir mövzunu - 1918-1919-cu illərdə Cənubi Azərbaycanda soyqırım aktını birgə araşdıracaqlar. Müqaviləni Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, prof. Gövhər Baxşəliyeva və Ərciyəz Universitetinin Ədəbiyyat fakültəsinin Şərq dilləri bölümünün rəhbəri prof. dr. Göksel Türközü imzalayıblar.

"Cənubi Azərbaycanda soyqırım aktı (1918-1919)" adlı layihənin məqsədi Türkiyə və İranın arxiv sənədlərində Cənubi Azərbaycanda xalqımıza qarşı ermənilərin törətdikləri cinayətlərin aşkarlanması, araşdırılması və ictimaiyyətə çatdırılmasıdır.

İki ölkənin bu elm və təhsil müəssisələrinin rəhbərləri Qərbin Osmanlı dövləti qonşuluğunda xristian dövləti yaratmaq planının 1918-1920-ci illərdə ermənilərin Güney Azərbaycanda qanlı faciələr törətmələrinə yol açmasını; Türkiyədən gəlmiş və Güney Azərbaycanın Xoy, Salmas, Urmiya və qonşu ərazilərdə məskunlaşmış erməni-aysor birləşmələri ilə kürdlərin əməkdaşlığı; göstərilən dövrdə burada yaşanan faciə haqqında Azərbaycan tarixşünaslığında indiyədək əsaslı araşdırmaların aparılmamasını; açılmamış arxiv materialları vasitəsilə 1918-1919-cu illərdə Cənubi Azərbaycanın qərb hissəsində ermənilər tərəfindən yerli əhaliyə qarşı törədilmiş və tarixə dəhşətli "Cilovluq faciəsi" kimi düşən soyqırıma aydınlıq gətirməyin zəruriliyini; törədilmiş bu soyqırım aktında Böyük Britaniya, Fransa və Rusiyanın ermənilərə dəstəyini və Urmiya gölü ətrafında «Kiçik Ermənistan dövləti» yaratmaq məqsədinə aydınlıq gətirməyin vacibliyini; bu tarixi cinayətlərin törədilməsində Türkiyənin Cilov adlanan ərazisindən buraya köçürülmüş 40 min nəfər xristian əhalinin, o cümlədən 30 min ermənin fəal iştirakını, birləşmiş koalisiya qüvvələrinin tərkibində rus və fransız zabitlərinin xidməti barədə məlumatların, 1918-ci ilin fevral-mart aylarından 1919-cu ilin fevral ayına kimi Urmiya, Xoy, Salmas və bu məntəqələrə aid ayrı-ayrı kəndlərdə azərbaycanlılara qarşı törədilmiş soyqırım və qarətlərdə 200 min nəfərə yaxın dinc əhalinin qətlə yetirilməsi barədə məlumatların ilk dəfə olaraq ictimaiyyətin diqqətinə təqdim edilməsinin mümkünlüyünü nəzərə alaraq layihənin həyata keçirilməsinə qərar veriblər.

Şərqşünas alimlər ermənilərin İranda, o cümlədən Cənubi Azərbaycanda məskunlaşması tarixinin, onların yerli iqtisadi-ticarət sahələrində fəaliyyəti və sosial vəziyyətlərinin, təşkilatlanmasının və bu işdə missioner təşkilatların rolunun, ermənilərin azərbaycanlılara qarşı soyqırım aktlarının araşdırılması istiqamətində iş aparacaqlar.

Layihə çərçivəsində yaradılan işçi qrupunun müvafiq kitabxana və arxivlərdə çalışması üçün qarşılıqlı, eləcə də İrana ezamiyyətləri təşkil ediləcək, həmçinin soyqırım aktı barədə əldə edilmiş nəticələr KİV-də və elmi nəşrlərdə işıqlandırılacaq; orta və ali məktəblərdə məruzələr oxunacaq; tarixi şəkillər əsasında fotoalbomlar tərtib ediləcək.

Layihəni həyata keçirəcək işçi qrupuna Şərqşünaslıq İnstitutundan «Cənubi Azərbaycan» şöbəsinin müdiri, t.ü.f.d. Səməd Bayramzadə, həmçinin şöbənin əməkdaşları Həsən Səfəri, Şahnisə Rüstəmova, Cəmalə Mirzəyeva, Ərciyəz Universitetinin Ədəbiyyat fakültəsinin Şərq dilləri bölümündən Qafar Çaxmaqlı, Unal Yoldaş, Əhməd Fərman Çələbi daxil ediliblər.

Şərqşünaslıq İnstitutunun direktor müavini Moskvada görüşlər keçirib

AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Şahin Mustafayev Moskvada səfərdə olub. Ş.Mustafayev dekabrın 17-də Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda olub və institutun direktor müavini professor V.Belokrenitski ilə görüşüb. Görüşdə institutlar arasında elmi əməkdaşlığı möhkəmləndirmək, müştərək elmi-tədqiqat layihələri həyata keçirmək, konfranslar təşkil etmək və s. məsələlər ətrafında fikir mübadiləsi aparılıb. V.Belokrenitski əməkdaşlığın müsbət nəticələri haqqında danışıb, ötən il Bakıda keçirilmiş Gənc şərqşünasların beynəlxalq konfransı haqqında yüksək fikir-

də olduqlarını, konfransın gözəl təşkil edildiyini və yüksək səviyyədə keçdiyini qeyd edib. O, rusiyalı gənc alimlərin Bakıdan gözəl təəssüratlarla geri döndüklərini söyləyib. V.Belokrenitski institutlar arasında xüsusilə türkologiya, iranşünaslıq və ərəbşünaslıq sahəsində geniş əməkdaşlıq imkanlarının olduğunu açıqlayıb.

Ş.Mustafayev Rusiya EA Şərqşünaslıq İnstitutunda Türkiyə sektorunun əməkdaşları ilə də görüşüb, həmçinin institutun nəşrləri ilə tanış olub.

Şərqşünaslıq İnstitutunun Gənc alim və mütəxəssislər şurasının yeni sədri seçildi

İyunun 8-də AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Gənc alim və mütəxəssislər şurasının yığıncağı keçirildi. Yığıncağın sədri, Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva çıxış edərək, ölkədə dövlət gənclər siyasətinə xüsusi önəm verildiyini qeyd etdi, Azərbaycan Respublikasının Prezidentinin gənclərə xüsusi diqqət və qayğı göstərdiyini, gənclərin irəli çəkildiyini, gənclərin xaricdə təhsil almaları üçün Dövlət proqramının həyata keçirildiyini, dövlət tərəfindən Gənclər və İdman Nazirliyi və Gənclər Fondunun gənclərin elmi və ictimai-siyasi fəaliyyətlərini dəyərləndirdiyini bildirdi. G.Baxşəliyeva AMEA-nın prezidenti akademik Akif Əlizadənin də gənclərə böyük önəm verdiyini, gənc alimlərinin səmərəli elmi fəaliyyəti üçün Akademiyada hər cür şərait yaradıldığını vurğuladı.

Daha sonra AMEA-nın Gənc alim və mütəxəssislər şurasının sədri, fizika üzrə fəlsəfə doktoru Famin Salmanov, Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü Şahin Mustafayev çıxış edərək, Şərqşünaslıq İnstitutun gənc alimlərinin fəaliyyətini yüksək dəyərləndirdilər.

Sonra Şərqşünaslıq İnstitutunun Gənc alim və mütəxəssislər şurasının sədri, t.ü.f.d. Sübhan Talıblı AMEA-nın Dünya Siyasəti İnstitutuna işə keçdiyindən, şuranın yeni sədrinin seçkisi keçirildi. İnstitutunun Gənc alim və mütəxəssislər şurasının sədri, Şərqşünaslıq İnstitutunun elmi işçisi Pərviz Ağayevin sədrliyə namizədliyi irəli sürüldü. İnstitutun gənc alimlərindən Lamiyə Hüseynova, İlkin Almuradov və başqaları çıxış edərək. P.Ağayevin namizədliyini dəstəklədilər. Səsvermə nəticəsində P.Ağayev yekdilliklə Şərqşünaslıq İnstitutunun Gənc alim və mütəxəssislər şurasının sədri seçildi.

Sonda Şərqşünaslıq İnstitutunun Gənc alim və mütəxəssislər şurasının sədri seçilən Pərviz Ağayev tədbir iştirakçılarına seçimlərinə görə təşəkkürünü bildirdi və onu da qeyd etdi ki, İnstitutun gənc alimləri ölkəmizin ictimai-siyasi və elmi həyatında daha da yaxından iştirak edəcək, ölkəmizin elmi səviyyəsini beynəlxalq aləmdə daha çox təbliğ edəcəklər.

Mixail Nuaymənin şeirləri Azərbaycan oxucusuna təqdim olundu

Azərbaycanda ərəb məhcər ədəbiyyatına, xüsusən də bu ədəbiyyatın görkəmli nümayəndəsi Mixail Nuaymənin ədəbi irsinə maraq getdikcə artmaqdadır. Ərəb məhcər ədəbiyyatının Azərbaycanda ilk tədqiqatçısı olan görkəmli ərəbşünas alim, professor Aida İmanquliyevanın başladığı iş bu gün də mütəxəssislər tərəfindən uğurla davam etdirilməkdədir.

Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Mahir Həmidovun fəaliyyəti bu çalışmalar arasında diqqət çəkir. Mahir Həmidovun tərcüməsində "Elm və təhsil" nəşriyyatında çapdan çıxmış "Kiprikləri pıçıltısı" adlı şeirlər kitabı Mixail Nuaymə ədəbi irsinin Azərbaycanda təbliği sahəsində uğurlu addım kimi dəyərləndirilir. Kitabın redaktoru millət vəkili, AMEA Şərqşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Gövhər Baxşəliyevadır.

236 səhifəlik kitabın tərcüməsi ilə yanaşı orijinalının da verilməsi mütəxəssislər tərəfindən təqdirlə qarşılanıb. Kitabda Mixail Nuaymənin qardaşı nəvəsi Nəcib Nuaymənin tərcümə ilə bağlı Mahir Həmidova ünvanladığı məktub da yer almaqdadır.

Mart ayının 2-də Azərbaycan Yazıçılar Birliyində "Kiprikləri pıçıltısı" kitabının geniş təqdimat mərasimi keçirilib.

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi Mixail Nuaymənin "Kiprikləri pıçıltısı" adlı kitabının Azərbaycan dilinə tərcüməsini yüksək qiymətləndirib. "Poeziyanı tərcümə etmək, şairin dünya görüşünü, fəlsəfi düşüncələrini, ruhunu Azərbaycan dilində düzgün ifadə etmək tərcüməçidən yüksək peşəkarlıq tələb edir. Bu mənada M.Həmidov böyük nailiyyət qazanıb", - deyən İ.Fəhmi M.Həmidovun ərəb ədəbiyyatının Azərbaycanda təbliği istiqamətində böyük işlər görəcəyinə inandığı qeyd edib.

Azərbaycan Respublikasının Suriyadakı fövqəladə və səlahiyyətli səfiri Mahir Əliyev tədbirdə çıxış edərək M.Həmidovun illər öncə Mixail Nuaymə irsini Livanda, Nuaymənin doğma kəndi Biskintada necə tədqiq etdiyinin şahidi olduğunu bildirib. Belə ki, M.Həmidovun Mixail Nuaymənin Biskintadakı evini, mütəfəkkir şairin Sinnin dağının ətəklərindəki məzarını ziyarət etdiyini, şairin ailə üzvlərindən, xüsusilə də onun qardaşı nəvəsi Nəcibdən şair haqqında çox şeylər öyrəndiyini qeyd edib.

Tədbirdə çıxış edənlər - elmlər doktorları Vilayət Cəfərov, İmamverdi Həmidov, fəlsəfə doktorları Laura Orucova, Məmmədəli Babaşlı və başqaları M.Nuaymənin əsərlərinin ölkəmizdə kitab halında ilk dəfə çap olunmasını ədəbi nailiyyət kimi dəyərləndiriblər, bu istiqamətdə Mahir Həmidova uğurlar arzulayıblar.